KAMILLIK ZIRVƏSINDƏ

Hacı Əhliman Rüstəmov

Hacı Əhliman Rüstəmov

Kamillik zirvəsində

Bakı-2004

Müqəddimə

Hər bir mövcudun vücuda gəlməsi səbəbsiz deyil. Bu səbəb həmin mövcudun qiymətinə və onun varlıq aləminə verəcəyi mənfəətə bağlıdır. Əgər varlıq aləmində bu mövcudun tutacağı yer, istifadə olunacağı hədəf alidirsə, onda onun özü də ali bir mövcud olacaqdır. Yox əgər əksinə olsa, onda o mövcud yaranış funksiyasına uyğun rutbəli bir varlıq olasıdır. Adi insanlar yaranışa qiymət verməyi o qədər də yaxşı bacarmırlar. Bu ya insanın elminin məhdudluğundan irəli gəlir, ya da insan nəyəsə xatir qarşısında olan o vücudun qiymətinin yüksəkliyini e'tiraf etməkdən çəkinir. Bu çəkinmə də istər qorxudan, istər ədalətsizlikdən olsun, fərqi yoxdur, bütün səbəblər ədalətsizlik bayrağının altında toplaşır. Təkcə elmin məhdudiyyətini istisna etsək, qalanları ədalətsizliyin nəticəsidir. Odur ki, elmimiz çatmadığı halda, hər hansı bir mövcudun yaranma səbəbini Allahın hikmətinə yönəltməli, Allahın hikmət sahibi olub heç bir işi əbəs yerə vücuda gətirməməsini qəbul etməli və bu sayaq mürəkkəb məsələləri dərk etməkdə Allahdan köməklik istəməliyik. Allah-təalanın hikməti çox maraqlıdır. Həzrət Musa Allahdan: «Ilahi, bu ilanı nə üçün yaratmısan» sual edəndə Allah-taala cavabında buyurdu: «Ey Musa, ömründə bu sualı mənə neçə dəfə vermisən?» Musa «birinci dəfə», deyə cavab verdi. Allah, «Ey Musa, ilan isə gündə on dəfə məndən səni nə üçün yaratdığımı soruşur və bilmək istəyir ki, görəsən, Musanın bu dünyaya bir xeyri varmı?». Həzrət Musa Allahın bu böyük hikmətinin

qarşısında səcdəyə düşdü və şükr etdi. Biz Allahın yaratdığı məxluqatin qiymətini yaxşı bilmirik. Buna görə də məxluqata «onun sahibi Allahdır» deyə qiymət verməliyik. Əvvəldə qeyd etdiyimiz kimi, məxluqatın qiymətində dərəcələr vardır. Bu dərəcələr nə üçün yaranıb? Bu məxluq hansı hədəfə xidmət etməlidir? Ikinci və başlıcası, bu məxluq hansı forma və dərəcədə öz hədəfinə çatmaq üçün çalışacaq? Başqa sözlə, özünü öz hədəfinə qurban verəcək, yoxsa yox? Mən elə düşünürəm ki, hər bir şeyin qiymətini iki hissəyə bölmək olar: onun əsil qiyməti və sonradan kəsb etdiyi qiymət. Məsələn, hər bir daşın qiyməti var. Bu daş qədim zamandan qalmış bir daşdırsa, bir o qədər də onun qiymətinə əlavə olunur. Məxluqun bir qiyməti vücuduna görədir. Sonradan ona əlavə oluna biləcək qiymət isə onun öz hədəfinə özünü nə dərəcədə qurban verə biləcəyindən asılıdır.

Allahın yaratdığı bütün məxluqat qiymətlidir. Çünki onları Allah yaradıb. Amma aradakı qiymət fərqi onların yaranma hədəfindən asılıdır. Bu baxımdan məxluqatın içində ən qiymətlisi insandır. Çünki onun yaranış hədəfi bütün məxluqatın yaranış hədəfindən üstündür. Bəlkə də, qalan məxluqat insana xidmət etmək üçün yaranmışdır. Sözümüzə dəlil olaraq Allahın kəlamından istifadə edək. Allah insanı yaratdığı vaxt dərhal onu (insanı) yaradana, yə'ni özünə «Əhsən səni yaradan Xaliq»ə söylədi. Amma başqa məxluqları yaradanda bunu deməmişdi. Hətta müqərrəb, yə'ni ən yaxın mələkləri yaradanda da!

Deməli, dünyada bütün yaranmışların ən şərəflisi insandır. Insan çox mürəkkəb bir məxluqdur. Əlbəttə, bu mürəkkəbliyin hər cəhətini qeyd etmək çətindir. Amma bir qədər vaxt sərf edərək insanı nəzərdən keçirək və onu öyrənək. Kimdən öyrənək, kimə müraciət edək? Məncə, dünyanın birinci problemi kimdən öyrənmək lazım olduğunu bilməməyimizdir. Insan barəsində öyrənmək üçün Allahın qapısına getməliyik.

Yaradan öz məxluqunu hamıdan yaxşı tanıyır. Ikinci qapı isə elmi Allah tərəfindən verilənlərin qapısıdır. Insanlardan fərqli olaraq Xaliqə bağlı bir elmə sahib olanların qapısı!

Allah-təala Qurani Kərimdə insan barəsində danışarkən, onu müxtəlif formalarda təqdim edir. Bir yerdə buyurur: «Biz insanı çox gözəl bir formada yaratdıq» və ya «Biz insanı pisdən də pis vəziyyətə salarıq». Başqa bir yerdə isə buyurur: «Biz cəhənnəmi çoxlu insan və cinlərlə dolduracağıq, çünki onların qəlbləri var, düşünmür, gözləri var, görmür, qulaqları var, eşitmirlər, onlar heyvan kimi, bəlkə də, heyvandan da pisdirlər» Bir başqa yerdə isə buyurur: «Ey mütməinnə (arxayın) nəfsin sahibi, daxil ol Allahın rəhmətinə, sən ondan razı, o da səndən razı halda».

Baxın, bu sözlərin hamısını Allah buyurur. Indi görək insanı yaxşı və ya pis edən Allahdır, yoxsa insan özü? Onu bu qədər qiymətli edən Allahdır, yoxsa insan özü? Birinci ayədə buyurmuşdu ki, «insanı çox gözəl yaratmışıq». Bu dəlalət edir ki, Allah insanı naqis etməz. Deməli, insan özü özünü qiymətdən salır. Bu qiymətdən

düşmənin səbəbi, yəqin ki, insanın yaranış səbəbinə və hədəfinə uyğun yaşamamasıdır. Bütün övladlar valideyn üçün əvvəllər əziz olur. Amma sonradan valideyn bir övladına dua etdiyi halda o biri övladına ya nifrət edir, ya da ən azı dua etmir. Bu nədən irəli gəlir? Övladın valideyn qarşısında və cəmiyyətdə öz vəzifəsinə əməl etməməsindən! Insanların da böyük valideyni və Rəbbi Allahdır. Allahda əvvəlcədə insana düzgün və əyri yolları göstəribdir. Necə ki, buyurur: «Insana yaxşı və pis işləri əvvəlcə ilham etdik».

Belə nəticəyə gəlmək olar ki, Allah insanı buyurduğu kimi çox gözəl yaradıb və ona gözəlliyə uyğun yaşamağın qanununu göndərib. Kim o qanuna əsasən əməl edibsə o, gözəl və qiymətli insan olaraq qalır və hər əməlinə görə qiymətini artırır. Əks halda hər bir günahına görə qiymətindən düşərək pisliyə doğru süqut edir. Bu süqut edənlərə misal olaraq, Fironu, Nəmrudu, Şəddadı, Əbu Cəhli, Əbu Ləhəbi, Müaviyəni, Yezidi və başqalarını göstərmək olar.

Kamilliyə doğru ucalıb və qiymətlərini ucaltmış insanlar da çoxdular. Allah-Taala onları mələkdən qiymətli hesab edir. Bu iki qism insanlara misal olaraq və insanları iki hissəyə bölməsinin səbəbini müəyyən etmək üçün Həzrəti peyğəmbərdən bir hədisi nəzərinizə çatdırırıq. Belə ki, Həzrət buyurubdur: «Allah-Taala heyvanı yaradıb, ona ancaq şəhvət verib, mələyi yaradıb ona ancaq ağıl verib, insanı yaradanda isə ona həm ağıl, həm də şəhvət veribdir. Əgər insanın ağlı şəhvətinə üstün olsa o, mələkdən də artıqdır, yox əgər şəhvəti ağlından üstün olsa, onda heyvandan da pisdir».

Bəli kamil insanlar böyük cihad ilə şəhvətlərinə qələbə edib. Kiçik cihad meydanlarında da, öz vəzifələrinə əməl edərək Allahın onun vücudunda yaratdığı bütün istedadları ilahi məqsəd üçün sərf edirlər. Buna görə də Peyğəmbər(s) buyurur: «Möminin ehtiramı Kəbənin ehtiramından çoxdur» və ya «mömin dəmirdəndə möhkəmdir»

Əlinizdə olan bu yazının da ərsəyə gəlməsinə səbəb elə həmin insanların ən üstünləri, dünya və axirətin rəhbərləri olan imamların barəsində Quranda və sünnəti peyğəmbərdə varid olmuş ayə və hədisləri sizin nəzərinizə çatdırmaq və bunun vasitəsi ilə boynumuza düşən əmr və nəhylərdən (vəzifələrimizdən) bir qədərinə əməl etmiş olmağımızdır. Gələcəkdə oxuyacağımız bu kitab kamil insan olub digərlərini də kamilliyə çatdıran əsl imamlar barəsində bəhs edir. Əsl imam da gərək özü hidayət edə. Bəşəriyyəti düz yola yönəldən, Quran ayələrinin və mötəbər hədislərin təsdiqlədiyinə əsasən dünya və axirətdə insanları səadətə çatdıra biləcək qabaqcıllar ancaq söz açacağımız şəxsiyyətlərdir. Insanın öhdəsində olan vəzifələrdən əsası onları tanımaq və tanıtdırmaqdır. Biz də bu vəzifəyə azcada olsa əməl etmək məqsədi ilə bu yazını yazmaq fikrinə düşdük. Nə dərəcədə vəzifəmizə əməl etməyimiz isə Allah yanındadır. Yazıda çalışmışıq ki, ümumi oxucularımız üçün faydalı olsun. Ümüdümüz var ki, inşəallah bütün oxucular bu kitabdan faydalansınlar və bizi də dua etsinlər. Bu işə görə də Allah-Taala tərəfindən nəsib olan əcr və savabi əzizim və qardaşım Məşhədi Zakirin ruhuna

hədiyyə edirəm. Çünki o, bu kitabda söhbət açılmış şəxsiyyətləri tanımış, onlara məhəbbət edib və onları təbliğ etmişdir. Ümüdvaram ki, Allah-Taala onu və bizi axirətdə Imamlarla məhşur edib, onları sevənlərin sırasına daxil etsin.

Imamət nədir?

Vilayət və imamət məsələsi Islam tarixində mühüm olan bir məsələdir ki, illər boyu onun haqqında bir çox müzakirələr olubdur. Bu müzakirələr bəzən müzakirə meydanından çıxaraq, mübarizə və münaqişə meydanına çevrilibdir. Buna görə əqaidin bu bəhsi bütün bəhslərdən çox inkişaf edibdir. Hərçənd o bəhslərin içərisində məntiqsiz, təfriqə salan və təəssübkeşlik üzündən olanları da vardır. Ona görə də bu məsələdə gərək aşağıdakı şərtlərə riayət edək.

1.Məntiqi və üsuli bəhsləri qeyri-məntiqi bəhslərdən, dəlilli bəhsləri təəssüblü bəhslərdən ayırmaq və Qur'ana və peyğəmbər sünnəsinə istinad etmək.

2.«Imamət» məsələlərini «dünya və axirət» rəhbərliyinə tətbiq etmək.

3.Bizim bu bəhsdən əsl məqsədimiz, «imamət» məsələsini Qur'an vasitəsilə aydınlaşdırmaqdır. Ona görə də ayələrin təfsirini dəqiqləşdirib çatdırmaq.

Imamət məsələsindən danışanda xüsusilə diqqətli olmaq lazımdır. Ona görə ki, bu sadə bir iş deyildir. Bu, nübuvvətin yaşaması, Islamın müqəddəratıdır.

«Imamət» nədir?

Imamətin tərifində ixtilaflı nəzərlər çoxdur. Məsələn, bir sünnü alimi Fazil Quşçi «Şərhi təcridi Quşçi»də belə yazır: «Imamət-ümumə, dünya və din işlərində rəhbərlik etməkdir, peyğəmbərin canişini ünvani ilə». Ibni Xəldun da bu mənaya mötəqid olub. Bundan əlavə bəziləri imaməti peyğəmbərin canişini kimi qəbul edərək dini qorumağı imam üçün vəzifə hesab edib və imama itaət etməyi vacib sayıblar. Amma imamətə verilən bu cür təriflər qətiyyən düzgün deyildir. Bu təriflərin ən səhv nöqtəsi odur ki, belə tərif olunan imamı xalq da seçə bilər. Halbuki bizim dəlillərimiz vardır, inşaallah yeri gəldikcə istifadə edəcəyik, imamı xalq seçə bilməz.

Şeyx Mufid imaməti belə tərif edir: «Imamlar, məsum peyğəmbərlərin yerində qaimdirlər. Əhkamı icra edib, həddiləri qaim edib, şəriəti qoruyub, xalqı tərbiyələndirirlər. Onlar da ənbiyalar kimi məsumdurlar».

Bu düzgün tərifə uyğun olaraq peyğəmbərlərə sabit olan vəzifələrin hamısı imamlara da sabitdir, vəhydən başqa. Çünki Allah-taala vəhy qapısını sonuncu peyğəmbərinə bağladı. Buna baxmayaraq məsum peyğəmbərlər kimi imamlar da məsumdurlar.

Bu tərifə əsasən, imam, Allah tərəfindən peyğəmbərin vasitəsi ilə seçilir və peyğəmbərin fəzilət və imtiyazlarına malik olur. Ona görə də «imamət» məsələsi üsuliddinin bölmələrindəndir. Imam Əli ibni Musadan bu barədə olan bir hədisi nəzərinizə çatdırırıq: «Həqiqətən imamət, dinin başçısı, müsəlmanların nizamı, dünyanın silahı və möminlərin izzətidir. Imamət həqiqi islamın əsası və onun uca olan budağıdır. Imamın vasitəsi ilə namaz, oruc, zəkat, həcc və cihad kamilləşir. Imamın vasitəsi ilə əmval və ehtiyaclılara nəfəqə etmək bollaşır. Imamın vasitəsi ilə əhkam və hüdud icra olunur. Ölkənin sərhədləri imamın vasitəsilə qorunur. Imamın vasitəsi ilə Allahın halal və haramı bərpa olur. Imam Allahın dinini müdafiə edir və ilahi dəlil ilə xalqı Allaha tərəf aparır».

«Imamət» bəhsi nə vaxtdan başlanıb?

Peyğəmbərdən (s) sonra o həzrətin canşinliyi barədə mübahisələr yarandı. Bir dəstə dedi ki, peyğəmbər (s) canişin seçmədi, bu işi camaatın öhdəsinə qoydu ki, camaat yığışıb öz aralarından bir nəfəri seçsin o da camaata rəhbərlik etsin. Hərçənd ki, bu iş baş tutmadı. Birinci dəfə kiçik bir dəstə yığışıb bir nəfəri seçdilər. Ikinci dəfə o bir nəfər, ikinci xəlifəni seçdi. Üçüncü mərhələdə isə altı nəfərlik bir şura ikinci xəlifə tərəfindən təyin edildi. Onların da vəzifəsi öz aralarından bir nəfəri canişin seçmək idi.

Diqqət edirsiniz ki, bu üç seçim bir-biri ilə uyğun gəlmir. Ümumiyyətlə bu dəstə ki, adına «Əhli sünnət» deyirlər, mötəqiddirlər ki, peyğəmbərdən sonra canişini camaat seçməlidir. Bu məsələ də üç seçimlə düzgün gəlmir. Hər halda bu dəstənin adına «Əhli sünnət» deyirlər.

Ikinci dəstə müsəlmanlar bu əqidədirlər ki, imamı (canişini) Allahın əmri ilə peyğəmbər (s) təyin edir. Bu barədə bir çox ayə və hədislər vardır ki, inşaallah gələcəkdə nəzərinizə çatdıracağıq. Onlar mötəqiddirlər, imam ki, peyğəmbərin davamçısıdır, gərək peyğəmbər kimi bütün günah və xətadan məsum olub ilahi elmə malik olsun, xalqı günahdan uzaqlaşdırıb, kamilliyə çatdırıb, dünya və axirətinin səadətini təmin etsin. Bu dəstənin də adına «Imamiyyə» və ya «şiə» deyirlər. Bu söz həzrəti peyğəmbərin hədislərindən götürülübdür. Bu hədislərin çoxu Qur'an ayələrinin təfsirində söylənmiş hədislərdir. Bu ayə və hədislərə başlamamışdan əvvəl bir məsələyə işarə etmək istərdik. Sual oluna bilər, nə üçün peyğəmbər (s) özü öz əli ilə bu məsələnin həllini dəqiq yazıb camaat üçün qoymadı?

Cavab: Əvvəla Qur'anda və sünnədə bu məsələ aydın şəkildə həll olunmuşdu (onlara işarə olunacaq). Bununla belə həzrəti peyğəmbər (s) bilirdi ki, ondan sonra camaat ixtilafa düşəcək. Ona görə də ömrünün axır saatlarında buyururdu: «Mənə yazmaq üçün bir şey verin sizə lazım olan bəzi məsələləri yazım ki, məndən sonra dəstələrə bölünməyəsiz». Bu vaxt oturanlardan biri dedi: Bu kişi sayıqlayır. Quran bizə kifayət edər.

Beləliklə peyğəmbər (s)-in bu işinin qarşısı alındı. Halbuki dəlillər isbat edir ki, peyğəmbərlər axır nəfəsinə qədər nə sayıqlaya bilməz və nə də səhv edə bilməzlər.

Qayıdaq bəhsimizə. Qeyd etdik ki, «şiə» kəlməsi peyğəmbər (s)-in hədislərindən götürülüb. Bu hədislərə gələcəkdə işarə olunacaq, inşaallah.

«Dürrül Mənsur» təfsirində (6-cı cild, səh.379) «xeyrül bəriyyə» ayəsinin təfsirində Cabir ibni Əbdullah Ənsaridən belə nəql olunubdur: Biz peyğəmbər (s)-in yanında idik. Əli (ə) gəldi. Həzrəti peyğəmbər (s) buyurdu: And olsun Allaha «xeyrülbəriyyə» sənsən və sənin şiələrindir. Onlar qiyamət günü nicat tapacaqlar.

Hakim Nişaburi məşhur sünnü alimlərindəndir. O da bu məzmunda özünün «Şəvahid əttənzil» kitabında müxtəlif yollarla peyğəmbər (s)-dən nəql edibdir. Onun qeyd etdiyi rəvayətlərin sayı iyirmidən çoxdur. O cümlədən Ibni Abbasdan nəql edir ki, peyğəmbər (s) buyurdu: Bu ayənin məfhumu, ya Əli, sən və sənin şiələrindən ibarətdir.

Başqa bir hədisdə Əbu Bərzədən eyni ilə bu məzmunu nəql edir. Bundan əlavə bir çox sünnü alimləri öz kitablarında bu hədisi nəql ediblər. O cümlədən Ibni Hücr «Səvaiq» kitabında, Mühəmməd Şəblənçi «Nurul Əbsar» kitabında. Bu hədislərə diqqət yetirəndə «şiə» kəlməsinin peyğəmbər (s)-in öz zamanında və onun öz tərəfindən meydana çıxdığı məlum olur. Odur ki, bu sözdən (şiə) narahat olmağa dəyməz. Əksinə, gərək bu sözün barəsində bir qədər ehtiyatlı olasan. Çünki bu adı (şiə) peyğəmbər (s) seçib. Qur'ani-Kərimdə ayə varımızdır. («Nəcm» surəsi ayə 2-3);

«Peyğəmbər həvayi nəfsdən danışmaz, onun danışdığı vəhydir ki, ona nazil olur». Onlar ki, peyğəmbər (s)-i Allahın rəsulu tanıyırlar, gərək bu adın barəsində ehtiyatlı olsunlar və təkrar edirəm, bilsinlər ki, bu ad (şiə) peyğəmbər (s)-in öz zamanında və öz dili ilə Əli (ə)-ın tərəfdarlarına verilmiş addır.

«Qur'anda və lüğətdə «imam» kəlməsi»

Lüğət sahiblərinin dediklərinə görə «Imam» ismi məsdərdir. Hər bir şeyə ki, insan diqqət edir və o da baş verir, ona itlaq olunur. Bu kəlmə yerlərin müxtəlifliyinə görə və cürbəcür cəhətləri mülahizə etməklə, başqa-başqa mənalar verir. Məsələn; Imam Cümə, imam camaat, imami hidayət və bəzən də imami zəlalət.

Bu kəlmə əslində «Əmm (اَمَ) maddəsindən, «qəsd» etmək mənasındadır. «Ümm» (اُمّ) əsl, mərcə, cəmaət və din mənasınadır. Imam da o adama deyilir ki, ona iqtida olunur və işlərdə qabaqcıllıq edir. «Imam»-«qarşı» mənasın da işlənibdir.

«Lisanül ərəbdə» «imam» kəlməsi üçün çoxlu mənalar verilibdir. O cümlədən qabaqcıl, müəllim, bina tikiləndə divarı düzəltmək üçün istifadə olunan ip və yol mənaları və bu kimi başqaları. «Əttəhqiq» kitabının yazdığına görə bu mənaların hamısının kökü «xüsusi bir diqqətlə qəsd etmək» mənasınadır. Hətta anaya ki «Ümm» deyirlər, o da buna xatirdir ki, insanın məqsədi və xüsusi diqqəti ona qarşı vardır. «Imam» da ona görə deyilir ki, insan xüsusi bir məqsəd və diqqətlə onun sorağına gedir. Buna da diqqət etmək lazımdır ki, bu kəlmə Qur'anda yeddi dəfə tək, beş dəfə isə cəm şəkildə (əimmə) gəlibdir. Bir yerdə «lövhi məhfuz» mənasına

gəlibdir: «Bütün şeyləri imami mubində (lövhi məhfuz) hesablamışıq». (Yasin surəsi 12-ci ayə).

Başqa bir yerdə yol mənasınadır (hücr surəsi, ayə 78): «O iki dənə, yəni Lut və Şüeyb qövminin viran olmuş şəhərləri yol üstündə aşikardır».

Iki dəfə kitab mənasına gəlibdir: («Əhğaf» surəsi 12-ci ayə, «Hud» surəsi 17-ci ayə): «Bundan qabaq Musanın kitabı onlara qabaqcıl və rəhbər idi».

Beş yerdə ilahi rəhbərlərə itlaq olunub. Məsələn: Allah-taala Ibrahim peyğəmbərə buyururdu: «Mən səni camaata imam qərar verdim». («Bəqərə» surəsi ayə.24).

Bir yerdə də küfr və zəlalət qabaqcıllarına itlaq olunub: «Küfr başçıları ilə müharibə edin». («Tövbə» surəsi ayə.12).

Bir yerdə isə hidayət və zəlalət başçılarına ümumi şəkildə işarə edib buyurur: «(Qiyamət) O gün ki, hər dəstəni öz qabaqcılı ilə çağıracağıq». («Isra» surəsi ayə.71).

Qur’anda imamət məqamının əzəməti

Imamət və rəhbərlik məsələsi təkcə dini və şəriət məsələsi deyil, bütün yaranışın şəri və təkvini qanunlarını öz qanadı altına almış bir məhfumdur, onun da zirvəsində Allah-taala durur ki, bütün yaranışın imamıdır və onların hamısını hidayət edib rəhbərlik edir.

Qur’an «imamət»ə xüsusi bir əhəmiyyət verərək onu insan təkamülünün sonuncu pilləsi hesab edibdir. Maraqlısı da budur ki, bəşər aləmində bu məqama (imamətə) ancaq «ululuəzm» (şəriət sahibi olan) peyğəmbərlər yetişiblər. Və bir də axırıncı peyğəmbər olan Mühəmməd (s)-in on iki nəfər canişini ki, on iki imam adıyla bəşər aləmində məşhurdurlar.

Qur’anın «Bəqərə» surəsinin imamət məqamının bütün məqamlardan üstün olduğuna dəlalət edən 124-cü ayəsində Allah-taala buyurur:

وَإِذِ ابْتَلَى إِبْرَاهِيمَ رَبُّهُ بِكَلِمَاتٍ فَأَتَمَّهُنَّ قَالَ إِنِّي جَاعِلُكَ لِلنَّاسِ إِمَامًا قَالَ وَمِن ذُرِّيَّتِي قَالَ لاَ يَنَالُ عَهْدِي الظَّالِمِينَ

«O, zaman ki, Allah-taala Ibrahim (ə)-ı müxtəlif vasitələr və kəlmələrlə imtahan etdi, o da bu imtahanların öhdəsindən gəldi. Allah-taala Ibrahimə buyurdu: «Indi səni camaata imam təyin etdim». Ibrahim dedi: Ilahi, övladlarından da? Allah buyurdu: Imamət zalımlara qismət olmaz. (Yəni sənin nəslindən olan ancaq onlar ki, məsumdurlar, onlara qismət olacaq).

O kəlmələr ki, Allah onların vasitəsilə həzrəti Ibrahimi imtahan etdi, hansı kəlmələrdir? Bu haqda bir çox söhbətlər vardır. «Ruhul məani» kitabında 13 nəfərdən bu haqda yazıbdır. Bu nəzərlərin içərisində ən səhehi bu kəlmələrin Allah tərəfindən gələn «əmrlər» və «nəhylər» olduğu vurğulanır. Bu əmr və nəhylərin vasitəsi ilə Allah-taala həzrəti Ibrahimin üzərinə ağır vəzifələr qoyurdu. O da bu imtahanların öhdəsindən yaxşıca gəlirdi. Həmən imtahanlar bunlar idi: Bütpərəstlərə qarşı çıxmaq, bütləri sındırmaq, oda atılmaq, oğlunu qurban kəsmək, bundan əvvəl oğlunu və

arvadını səhrada tənha qoymaq və risalətini yerinə yetirmək üçün vətənindən hicrət etmək. Bəzi təfsirçilər həzrəti Ibrahimin imtahanlarını otuza qədər sadalayıblar. Necəliyindən asılı olmayaraq həzrəti Ibrahim bu imtahanların hamısının öhdəsindən çox ali bir surətdə gəldi və bu zaman Allah-taala onu bu böyük vəzifə ilə daha artıq şərafətləndirərək buyurdu: «Indi səni insanlara imam təyin edirəm».

Bu ayədə diqqət yetirməli məqamlar vardır. Özü də çox diqqət tələb edir.

Biri budur ki, «Imamət» məqamı çox yüksək bir məqamdır, Allah onu Ibrahimə «nübuvvət və risalətdən» sonra verdi. Başqa sözlə desək həzrəti Ibrahim sadaladığımız o imtahanların hamısını peyğəmbər olan halda verdi. Belə olan halda bizə yəqin olur ki, Imamət məqamı peyğəmbərlik məqamından da üstündür. Çünki insan imtahan verdikcə yüksək zirvəyə ucalır. Ola bilməz ki, bir tələbə, ikinci kursun imtahanından yaxşı çıxsın, amma bu imtahandan sonra onu birinci kursa keçirsinlər. Bir halda ki, peyğəmbər imtahan verir və o imtahandan çıxandan sonra Allah onu imamətə seçirsə, deməli bu məqam əvvəlki məqamdan üstündür.

Bəziləri deyirlər ki, Allah-taala imam deyəndə elə peyğəmbərliyi nəzərdə tutur. Bu söz mənasız sözdür. Çünki ayədə deyir Allah Ibrahimi kəlmələrlə imtahan etdi. Deməli həzrəti Ibrahimə vəhy gəlirdi. Vəhy də ancaq peyğəmbərə gələ bilər. Allah-taala da peyğəmbərə deməz səni peyğəmbər qərar verdim. Bundan əlavə, o imtahanlar ki, həzrəti Ibrahim verib, onlardan da bilinir ki, bu adi insan imtahanı deyil. Bu cürə imtahının öhdəsindən ancaq peyğəmbər gələ bilər. Bu kimi dəlillərimiz

çoxdur. Hamısı da bu ayədəki «imam» kəlməsinin «imamətə» dəlalət etməsini sübut edir.

Belə bir sual verilə bilər: «Imamət» və «nübuvvətin» fərqi nədir? Bu sualın cavabını çox sadə və qısa bir şəkildə izah etmək istərdik: «Peyğəmbərlik» vəzifəsi xalqa yol göstərməkdən ibarətdir. Onlar qanunu Allah tərəfindən alıb xalqa çatdırırlar. «Imamət» vəzifəsi ilə bu qanunları şərait olan halda ya insanları bu qanunla tərbiyə edib kamilliyə çatdırmaq, ya da ki, hökumət qurub bu qanunları ictimai şəkildə icra etməkdir. Ona görə də «Imamət» vəzifəsi «Nübuvvət» vəzifəsindən ağır bir vəzifədir. Kəlam elmində bunlara «Iraeyi təriq» (yol göstərmək) və «isal be mətlub» (məqsədə çatdırmaq) deyirlər ki, birincisi peyğəmbərlərə, ikincisi isə imamlara aiddir. Yuxarıda deyilənlərdən o da aydın olur ki, imamət vəzifəsi ilə nübuvvət vəzifəsi eyni bir adamda ola bilər. Necə ki, Həzrəti Ibrahimdə o cürə idi və ya həzrəti Mühəmməd (s) də imamət və risalət vəzifələri cəm olmuşdu. Bundan əlavə məlum olan məsələlərdən biri də budur ki, «imamət» vəzifəsi «nübuvvət və risalət»dən ayrı da ola bilər. Məlum olan on iki imamlar kimi.

Çünki qanunu həzrəti peyğəmbər (s) Allah-taaladan almışdı. Maidə surəsinin 3-cü ayəsində deyildiyi kimi: Əli (ə)-ı Qədir Xum çölündə rəhbər elan edəndən sonra həmən ayə dinin kamilləşdiyini bildirdi və elan etdi ki, bu şəxsin seçilməyi ilə din kamil oldu. Amma vəhyin gəlməyinə daha ehtiyac yox idi. Çünki Allah-taalanın yer üzərinə göndərəcəyi bütün qanunlar peyğəmbər (s)-ə çatdırılmışdı. Xülasəyə əməl olunaraq

deyə bilərik ki, bu ayənin («Bəqərə» surəsi. Ayə.124) əvvəlindən məlum olur ki, imamət məqamı nübuvvət məqamından üstün bir məqamdır.

Bu məqamın yüksəkliyinə dəlalət edən bir hissə də var. O da həzrəti Ibrahimin «bu vəzifəyə övladlarımdan da qərar verəcəksən» deməyidir. Bu da sübut edir ki, həzrəti Ibrahim övladlarının məhz imam olmasını Allahdan istəyir. Bu vaxt Allah-taala Ibrahimə xitab edər: «Bu vəzifə zalimlərə qismət olmaz» yəni sənin övladlarından, onlar ki, özlərini hər cürə zülmdən pak saxlayıblar, daha doğrusu özlərini günaha salmayıblar, məsumdurlar. Ancaq onlara bu vəzifə qismət olar. Burada zülm etməkdən məqsəd təkcə başqasına zülm etmək deyil. Bəlkə tamam ədalətin müqabilində olan zülmdən söhbət gedir. Kamil ədalət, yəni hər şeyi öz yerində qərar vermək. Zülm də hər şeyi öz yerində qərar verməmək. Deməli zalım deyəndə, hər bir adam ki, özünə zülm edər, ona da aid olur. Məsələn, əgər bir nəfər bütpərəst olubsa ona da zalım deyilər. Çünki onun vəzifəsi bütə yox, Allaha sitayiş etmək idi. Ilahi itaətdən çıxıb rəzil və ucuz bir şeyə itaət etmək insanı heyvandan da qiymətsiz edir. Buna da insanın haqqı yoxdur. Bu vücud sənindir deyə onu hər cür çirkinliyə sövq etməyə ixtiyarı yoxdur, heç bir kimsənin. Bu, bəşəriyyət aləminə nöqsan, yaradanın xaliqliyinə qiymət verməməkdir. Bundan əlavə bizim çoxlu fərdi işlərimiz vardır, amma onun ictimaiyyətdə təsiri böyükdür.

Odur ki, kiminsə bütpərəstliyi cəmiyyətdə başqasına təsir edibsə, onda bu adam onunla bu günahda şərikdir. Qur’an buyurur: «Allaha şərik qərar vermə ki, o böyük

zülmdür». Bu haqda danışmağa söz çoxdur, amma gəlin məqsəddən uzaq düşməyək.

Allah-taala Ibrahimə dedi: «Zalimlərə imamət vəzifəsi qismət olmaz».

Burada bir məsələ var. Imam o vəzifəni icra edəndə məsum olmalıdır, yoxsa ömrünün əvvəlindən axırına qədər? Bu sualın cavabında bəzilərinin nəzəri birincidir. Yəni o vəzifəni öhdəsinə alanda məsum olmalıdır. Amma bu nəzər iki cəhətdən nöqsanlıdır. Birincisi məsum olduğu halda, qeyri məsumun imam olması heç bir qanuna sığışmır. Əlbəttə, imamların məsumluğuna əqli dəlillərimiz də varımızdır. O da ibarətdir bundan ki, Allah-taala öz hədəfini, məqsədini yer üzərində həyata keçirmək üçün məsumlardan istifadə etməlidir. Çünki, Allah kimi varlığın yer üzərində olan elçisi gərəkdir eybsiz olsun. Bundan əlavə, günahkar adam ilahi vəzifəni həyata keçirərkən səhv edərsə, onda bəhanə axtaranlar üçün əsas olar ki, elçilər özləri də səhv edirlər. Onda həqiqət axtaranlar da məyus olarlar. Əlbəttə bu söhbətimizə gələcəkdə yenə də qayıdacağıq. Yenə də sözümüzün əvvəlinə qayıdırıq. Əgər birinci nəzəri də qəbul etsək, yenə də bir adam ömrü boyu günah etməyib, ikincisi isə ancaq imam olanda günah etmir, bunları bərabər tutmaq hansı məntiqə uyğun gəlir? Özünüz nəticə çıxarın.

Bu nəzərin ikinci nöqsanı budur: Bir çox hədislər vardır ki, imamın bütün ömrü boyu günahsız olmağına dəlalət edir. Əbdullah ibni Məsud peyğəmbər (s)-dən nəql edir ki, həzrət buyururdu: «Allah-taala Ibrahimə dedi:

لا أعطيكَ عَهْداً لِلظّالِمِ مِنْ ذُرِّيَّتِكَ

«Mən imamət vəzifəsini sənin övladlarının zülm edənlərinə verməyəcəyəm».

Ibrahim ərz etdi:

قالَ يا رَبِّ وَ مَنِ الظّالِمُ مِن وُلْدى الّذي لا يَنالُ عَهْدِكَ

«Ilahi, sənin imamət vəzifən yetişməyəcək zalımlar ki, mənim nəslimdə olacaqlar, onlar kimlərdirlər?».

Allah-taala buyurdu:

قالَ مَنْ سجَدَ لِصَنَمٍ مِنْ دُونى لا اَجْعَلُهُ اِماماً اَبَداً وَ لا يَصْلَحُ اَنْ يَكُونَ اَماماً

«Onlar ki, bütə səcdə ediblər, əbədi olaraq onları imam qərar verməyəcəyəm. Heç onlar imam olmağa layiq də deyillər».

Bu hədisi məşhur sünnü alimi Ibni Məcazəli «Mənaqib» kitabında nəql edir və ardıyca belə yazır: Həzrəti peyğəmbər (s) bu sözün davamında buyurur: «Axır ki, həzrəti Ibrahimin duası qəbul olundu. Mən və Əli ömrümüzdə heç vaxt bütə sitayiş etməyərək özümüzü zülmlə aludə etmədik. Allah da bizi imam qərar verdi».

Gördüyünüz kimi bu hədislər dəlalət edir ki, Imam gərək ömrü boyu günahsız olsun. Istər o vəzifəni icra edəndən əvvəl, istərsə də icra edən vaxt.

Fəxri Razi də öz «Təfsirin» də peyğəmbərin imamətindən danışarkən bu ayəni onların məsum olmağına dəlil gətirərək təkid edir ki, imam məsum olmalıdır. Eyni zamanda bu ayədən imamın Allah tərəfindən seçilməsini də sübut edəcəyik. Bütün

bu deyilənlərin hamısından imamət məqamının böyüklüyü, əzəməti məlum olur. Ümidvarıq ki, hörmətli oxucular bu mətləbi də diqqətlə oxuyub nəticə çıxaracaqlar.

Imamətin vücudunun fəlsəfəsi

Ibrahim peyğəmbərin imaməti barədə olan ayədən imamın vücudunun fəlsəfəsi icmali surətdə məlum oldu. Amma bu bəhs çox mühüm bir sahə olduğu üçün bu haqda yenidən söhbət açmağa ehtiyac vardır.

Peyğəmbərlərin besətini lazım edən məsələlər imamətə də aid olur. Çünki hədəf eynidir, bir fərq ilə ki, birində vəhy var, o birində isə vəhy yoxdur.

Xacə Nəsirəddin Tusi «Təcridül etiqad» kitabının nübuvvət fəslində peyğəmbərlərin məbus olmağının fəlsəfəsinin bəyan edibdir. Əllamə Hilli onun şərhində doqquz fəlsəfəyə işarə edibdir, biz onlardan burada istifadə edərək görəcəyik ki, onlardan çoxu imamətə də aiddir.

1.Əqli, mərifəti, nəqli bəyanla qüvvətləndirmək. Belə ki, biz əqlin vasitəsi ilə bir çox üsuliddin və firuiddin məsələlərinin həqiqətlərini dərk edə bilirik. Amma bəzən ürəyimizdə vəsvəsələr olur. Bu vəsvəsələr də bizim əməl etməyimizə mane olur. Amma bu əqli hökmlər məsumların dili ilə bəyan olunanda bu cürə vəsvəsələr qəlbimizdən çıxır və biz arxayın o əməlin ardınca gedirik

2.Bəzən insan bir işi görməkdə qorxur. Qorxur ki, birdən bu əməl Allah razılığının əksinə ola bilər. Ancaq ilahi rəhbərlərin bəyanı insandan bu qorxunu götürür.

3.Insanın əməllərinin hamısı əqil çərçivəsinə sığışmır. Çünki bəzi əməllər vardır ki, zahirdə əql ilə düz gəlmir və insan əqli onun yaxşılığını və pisliyini dərk edə bilmir. Belə bir yerdə dərin ilahi rəhbərlər insanın köməyinə yetişir.

4.Bəzi şeylərin ziyan və xeyrini insan öz fikri ilə ayıra bilmir. Ilahi bir nöqtədən ilham alan rəhbərlər onun ziyan və xeyrini ilahi göstərişlə xalqa çatdırırlar.

5.Insanlar cəmiyyət formasında yaşayır. Əməkdaşlıq etmədən, bir-birinə köməklik göstərmədən öz problemlərini həll edə bilmirlər. Əlbəttə bu halda yəqindir ki, cəmiyyətin qanunu olmasa insanlar bir-biri ilə əməkdaşlıq edə bilməz. Deməli bir qanun mövcud olmalıdır ki, bu cəmiyyəti təkamül yoluna yönəldib kamilliyə aparsın. Bu qanunun da hansının, bu cəmiyyəti kamilliyə aparmağa qadir olmasını və bu qanunun bu cəmiyyətdə icrasını ancaq ilahi rəhbərlər bacararlar.

6.Insanlar kamalatı dərk etməkdə, elm və təhsil kəsb etməkdə müxtəlif istedadlara malikdirlər. Bəziləri bu işə qadir, bəziləri isə acizdir. Məsum rəhbərlər birinci dəstəni qüvvətləndirir, ikinci dəstəyə isə kömək edib kamala çatdırırlar.

7.Insanların əxlaqları bir-birindən fərqlidir. Bu fəzilətləri inkişaf etdirmək üçün ilahi rəhbərlərə ehtiyacımız vardır.

8.Ilahi rəhbərlər əməllərin nəticəsindən, ilahi əzabdan və ilahi savabdan xəbərdardırlar. Insanlara dəqiq məlumatı ancaq onlar verə bilərlər.

Imamət, nübüvvət xəttinin davamı və onun yaşamasına xidmət edən, bir vəzifə olduğu üçün bu fəlsəfələr onda sabitdir. Qur'ani Kərimdə bunların hamısı və

bunlardan da artığı üç ünvanla xülasə olunubdur: «Tə'lim», «Tərbiyə» və «Ədaləti bərpa etmək». Bunların hər üçünə ayrı-ayrı ayələrdə işarə olunubdur. Məsələn: «Cümə» surəsinin ikinci ayəsində buyurulur: «Allah bir varlıqdır məktəb görməyənlərin arasından peyğəmbərlər seçib ki, Allahın ayələrini onlara oxusun, onları pakizə etsin, kitabı və hikməti onlara öyrətsin. Hərçənd bundan qabaq onlar aşkar zəlalətdə idilər». Bu ayədə peyğəmbərlərin və imamların əhəmiyyətli olan məqsədlərinə, «Təlim» və «Tərbiyəyə» ünvanı ilə işarə edibdir.

«Hədid» surəsinin 25-ci ayəsində buyurulur: «Biz peyğəmbərlərimizi dəlillər ilə, kitab və mizan ilə göndərdik ki, xalqın arasında ədaləti bərpa etsinlər». Burada da «Ədalət» məsələsinə işarə edilibdir.

Bəli, adi dünya rəhbərləri öz şəxsi mənafelərini qorumaq fikrində olduğu halda, ictimai mənafeyini də qoruyurlar. Fərz edək ki, qeyri ilahi olan rəhbərlər istəyirlər ədaləti bərpa etsinlər və bəşər cəmiyyətini kamilliyə doğru aparsınlar. Lakin onlar bu ədalətli ilahi rəhbərlər kimi tanıya bilmirlər və tanıya da bilməzlər. Çünki bu işi əmələ gətirmək, ancaq ilahi rəhbərlər ki, Allah elmindən qidalanıblar, onlar üçün mümkün olar. Insanın yaradıcısı Allah olduğu üçün fəqət o özü bu insanı hansı formada yaşatmağın düzgün olduğunu bilir. Ilahi rəhbərlər də bu bilikdən bəhrələndiyindən insan cəmiyyətini düzgün idarə edə bilərlər. Təkrar edirik; Bəşəri, insan növünü Allah xəlq edibdir, bu xilqət də səadətə yetişmək üçün yaranıbdır, Allah-taala da bu bəşəri həmən səadətə çatdırmaq üçün peyğəmbərlər göndəribdir, bu işinin davamı üçün,

yəni peyğəmbərlərin işini davam etdirmək üçün məsum imamlar lazımdır ki, bu cəmiyyəti axıra qədər düz yola hidayət etsin, yoxsa Allahın bu məqsədi natamam qalar. Çünki adi insanların bu yolu getməyi üçün öz elmləri kifayət etmir. Bundan əlavə, peyğəmbərdən sonra din cahillərin və həvapərəslərin əli ilə təhrif oluna bilər. Məhz məsum imam bu işlərin qarşısını alıb, dini qoruyub saxlamağa layiq bir insandır. Imam Sadiq (ə)-dan olan hədisin mənası elə buna dəlalət edir: «Biz əhli-beyt, islamda həddin aşanların əlini kəsirik. Bidət qoyan və özündən din düzəldənləri aşkar edirik. Cahillərin nadürüst olan təfsirlərini Qur'andan ayırırıq». (Üsuli kafi, I cild, səh.32).

Başqa bir yerdə Əli (ə) buyurur: «Bəli, yer üzü heç vaxt ilahi rəhbərdən boş olmaz. Onlar həmişə var, ilahi dəlil ilə ya aşkar, ya da gizlin surətdə Allah dinini qoruyub saxlayırlar». (Nəhcül bəlağə. Kəlmə.147).

Nəticə bu olur ki, imamın vücudunun əsas fəlsəfəsi ibarətdir: «Ədaləti bərpa etmək», «Peyğəmbərlərin gətirdiyini qoruyub saxlamaq» və «xalqı bu dinə hidayət etmək». Burada 8-ci imam olan Əli ibni Musa (ə)-ın Mərv məscidində imamətə aid olan bir söhbətinə işarə etmək istərdik. Imam buyurur: «Imamət ənbiya məqamı, ovsiya irsidir. Imamət, Allah və peyğəmbər canişinliyidir. Imam işıqlı aydır. Imam aşkar çıraqdır. Imam nur və zülmətdə hidayət edən bir ulduzdur. Imam ölümdən və süqütdan xilas edəndir. Imam bərəkət yağışıdır, işıqlı günəşdir. Imam Allahın xalq arasında olan əminidir. Imam Allahın höccətidir. Imam Allahın yer üzərində xəlifəsi və

onun tərəfinə hidayət edəndir. Imam Allahın qanunlarını müdafiə edəndir. Imam dinin nizamı, müsəlmanların izzətidir. Imam münafiqləri qəzəbləndirən və kafirləri həlak edəndir». («Üsuli Kafi» I cild, səh.200).

Bu bəhsi də Əli (ə)-ın mübarək kəlamı ilə tamamlayırıq. Imam Əli (ə) imamət barəsində buyurur: «Imam xalqın içərisində həlqələri bir birinə bağlayan bir ipə bənzəyir. Əgər o ip qırılsa həlqələr dağılar və heç vaxt nizamlanmaz. Əgər imam xalqın arasında olmasa cəmiyyətin bəndləri dağılar və heç vaxt düzəlməz». («Nəhcül-bəlağə», xütbə.46).

Qur'anda imamət

Qur'ani Kərimdə ayələr vardır ki, peyğəmbərdən sonra imamət vəzifəsinin olmağına və xüsusən də Əli (ə)-ın və onun övladlarının imamətinə dəlalət edir. «Rəd» surəsinin yeddinci ayəsində buyurulur: إِنَّمَا أَنتَ مُنذِرٌ وَلِكُلِّ قَوْمٍ هَادٍ

«(Ya peyğəmbər) Sən öyüd verənsən və hər bir qövmin hidayət edəni vardır». Bu ayəyə «Inzar və hidayət» ayəsi deyilir.

Fəxri Razi öz «Təfsirin»də yazır: Inzar edən peybərdir (s), hidayət edən isə Əli (ə)-dır. Çünki ibni Əbbas deyir: Peyğəmbər (s) əlini öz sinəsinə qoyub buyurdu: Mən münzirəm. Sonra əlini Əli (ə)-ın sinəsinə qoyub buyurdu: Sən də, ey Əli, hidayət edənsən. Məndən sonra hidayət olanlar sənin vasitənlə hidayət olacaqlar.

Ayədən belə məlum olur. Peyğəmbər (s) dinin bünövrəsini qoyandır, öyüd, nəsihət və qorxu yolu ilə. Imam isə onun yolunu davam etdirəndir, hidayət etməklə.

Cəlaləddin Suyuti «Dürrül Mənsur» təfsirində bu ayənin barəsində peyğəmbər (s)-dən çoxlu rəvayətlər nəql edibdir.

1.Ibni Cüreyrədən, Ibni Mərdəviyyədən, Əbu Nəimdən, Deyləmidən, Ibni Əsakirdən və Ibni Nəccardan nəql edir: «Bu ayə nazil olanda həzrəti peyğəmbər (s) əlini öz sinəsinə qoyub buyurdu: mən inzar edənəm, sonra əlini Əli (ə)-ın sinəsinə qoyub dedi: Sən isə, ya Əli, hidayət edənsən, sənin vasitənlə hidayət olanlar nicat tapacaqlar.

2.Əbu Bərəzə Əsləmi deyir; «Mən özüm peyğəmbəri (s) əlini sinəsinə, sonra da Əlinin çiyninə qoyub, mən münzirəm, sən də ya Əli, hidayət edənsən, deyəndə gözümlə gördüm və qulağımla eşitdim».

3.Yenə həmin kitabda Əbdullah ibni Əhməd, Ibni Əbi Hatəm, Təbərani, Hakim, Ibni Mərdəviyyə, Ibni Əsakir deyirlər: Biz bu ayənin təfsirini Əli (ə)-dan bu cürə eşitdik: «Peyğəmbər (s) inzar edəndir, mən isə hidayət edənəm».

4.Ibni Əbbasdan da bu barədə eyni məzmunda hədis nəql olunubdur.

5.Mir Qiyasüddin «Həbibsseyr» kitabında belə yazır: «Həqiqətən müxtəlif yollarla sübuta yetib ki, bu ayə nazil olanda peyğəmbər (s) Əliyə (ə) buyurdu: Mən öyüd və nəsihət verənəm, sən isə, ya Əli, hidayət edənsən. Sənin vasitənlə insanlar hidayət olacaqlar».

6.Bu hədisi Həmvini Əbu Hüreyrədən nəql edibdir.

7.Hakim «Müstədrək» kitabında bu məzmunda olan bir hədisi Əbu Büreydə Əsləmidən geniş surətdə nəql edibdir: «Həzrəti peyğəmbər (s) su istədi və o su ilə dəstəmaz aldı. Sonra Əli (ə)-ın əlindən tutub dedi: ya Əli, mən inzar edənəm, sən isə hidayət edənsən. Ya Əli, sən işıqlı çıraq və hidayətin ən yüksək həddisən. Sən Qur'an oxuyanların əmirisən, mən buna şahidlik verirəm. Sən həqiqətən beləsən».

Bu hədisi Əhli sünnə alimlərindən çoxu öz kitablarında qeyd ediblər. O cümlədən Hakim «Müstədrək»də, Zəhəbi «Təlxis»də, Fəxri Razi və Ibni Kəsir öz «təfsir»lərində, Ibni Subağ Maliki «Füsulul Mühümmə»də, Gənci Şafei «Kifayətüttalib»də, Əllamə Təbəri öz «təfsir»ində, Ibni Həyyan Əndəlisi «Bəhrül mühit»də, Nişaburi öz «Təfsir»ində, Həmvini «Fəraid əssəmteyn»də və başqaları öz kitablarında bu hədisi qeyd ediblər.

Şiə mənbələrində də bu ayənin təfsirində çoxlu rəvayətlər vardır. Biz onlardan birinə işarə edirik: Imam Baqir (ə) və Imam Sadiq (ə)-dan nəql olunub ki, buyururlar: «Hər bir zamanda imam var və o imam öz zamanının insanlarını hidayət edir».

«Imama məxsus olan şəraitlər və xüsusiyyətlər»

Öhdələrində olan ağır məsuliyyətlərə görə imamların ağır şərtləri də olmaları lazımdır Çünki imamlar peyğəmbərlərin davamçıları və canişinləridirlər.

Peyğəmbərlərin məsuliyyətinə görə gərək onlar çox geniş və əhatəli bir elmə malik olsunlar və bu elmin vasitəsilə insanları zəlalət təhlükəsindən qurtarsınlar. Onların xeyir və səadətini ictimai, əqidəvi, əxlaqi və əhkam məsələlərini təmin etsinlər. Peyğəmbərlər gərək insanların cismindən, ruhundan, psixoloji və ictimai məsələlərindən çox geniş bir məlumata malik olsunlar ki, onlardan ötəri dəqiq proqramlar hazırlasınlar.

Sadalanan bu məsələlər peyğəmbərlərin doğrucul canişini olan imamların da haqqında sadiqdir. Çünki, qeyd etdiyimiz kimi, imamlar ənbiya xəttinin davamçılarıdırlar. O işi ki, peyğəmbərlər başlayır, imamlar onu davam etdirirlər, o məsələlərin ki, bünövrəsini peyğəmbərlər qoyurlar, imamlar onu qoruyub təkmilləşdirirlər.

Başqa bir tərəfdən imamlar da peyğəmbərlər kimi lazım bildiklərini doğru və düzgün xalqa çatdırsınlar. Belə olmayan halda onların hədəfləri həyata keçməz. Peyğəmbərlər dünya və din rəhbərləri olduğu üçün gərək insanların xoşu gəlməyən bütün batini və zahiri xüsusiyyətlərdən pak olsunlar ki, onların peyğəmbərlik hədəfi sonda boşa çıxmasın.

Eyni ilə bu mətləb, dəqiqliyi ilə imamlara da aiddir. Imamlar da təkcə nifrətə səbəb olan işlərdən uzaq omlaqla deyil, bilavasitə insanların qəlblərini və fikirlərini cəzb etməkdən ötəri gözəl əxlaqa malik olsunlar. Odur ki, gəlin, imamların elmi və bu elmlərin mənbələri haqqında mövzu açaq.

«Imamın elmi»

Qur'ani-Kərimin «Nisa» surəsinin 83-cü ayəsində bu məsələyə işarələr olubdur:

وَإِذَا جَاءهُمْ أَمْرٌ مِّنَ الأَمْنِ أَوِ الْخَوْفِ أَذَاعُواْ بِهِ وَلَوْ رَدُّوهُ إِلَى الرَّسُولِ وَإِلَى أُوْلِي الأَمْرِ مِنْهُمْ لَعَلِمَهُ الَّذِينَ يَسْتَنبِطُونَهُ مِنْهُمْ وَلَوْلاَ فَضْلُ اللهِ عَلَيْكُمْ وَرَحْمَتُهُ لاَتَّبَعْتُمُ الشَّيْطَانَ إِلاَّ قَلِيلاً

«O vaxt ki, qələbə və ya məğlubiyyət xəbəri onlara çatdı, onu (axtarış etmədən) şayə edərlər. Amma onu, peyğəmbər və Ulul əmrdən ki, müsəlmanların arasındadırlar və seçməyə malikdirlər, soruşsalar, məsələnin həqiqətini bilmək istəyənlər ondan xəbər alar. Əgər Allahın fəzli və rəhməti olmasa sizin hamınız, bir az hissə istisna olmaqla, şeytanın ardınca gedərsiniz».

Başqa bir ayədə («Nəhl» surəsi-ayə 43, «Ənbiya» surəsi ayə-7) buyurulur: فَاسْأَلُواْ أَهْلَ الذِّكْرِ إِن كُنتُمْ لاَ تَعْلَمُونَ

«Bilmədiyinizi elm əhlindən soruşun».

Birinci ayə bildirir ki, müsəlmanlardan bir dəstəsi bilmədən münafiqlərin və düşmənlərin vasitəsi ilə düzəldilmiş şayələri yaymaqda iştirakları olubdur.Bu iş də müsəlmanların ruhiyyələrinin zəifləməsinə səbəb olubdur. Ona görə də mühüm işlərdə peyğəmbərə və ya ulul-əmrə müraciət etsinlər.»

Amma burada da qeyd etmək istəyirəm ki, «ulul-əmr»-məsum imamlar mənasındadır. Bu ayədə Allah-təala peyğəmbər və «Ulul-əmr»-ə müraciət etməyi əmr edir. Həqiqətən də «ulul-əmr» gərək məsum imam ola, yoxsa Allah-təala hər

nöqsanlı adamdan öyrənməyi insana əmr etməz. «Ulul-əmr» elə bir adam olsun ki, xüsusən əsaslı məsələlərdə səhv etməsin. Bu ancaq məsumlarda ola bilər ki,heç nədə səhv etməsinlər.Bu mətləb («ulul-əmr»-in məsum olması) yuxarıda qeyd etdiyimiz ayədə də («Nisa»-83) istifadə olunur. Həmən ayənin axırında qeyd olunur ki, məsumlar Allah tərəfindən bizə verilmiş bir rəhmət və fəzli –ilahidir. Çünki, ayənin sonunda buyurulur: «Əgər Allahın sizə fəzli və rəhməti olmasaydı, əlbəttə şeytana tabe olardınız, məgər az bir dəstə».

Aydındır ki,məhz məsumların ardınca getmək, insanı şeytana itaət etməkdən saxlamağın təminatını dəqiq surətdə verə bilər. Çünki, məsum olmayanlar özləri də səhv edib, günaha düşüb şeytanın əlinə keçə bilərlər.Buna görə və bir çox rəvayətlərin qeyd etdiyinə əsasən də bu ayədəki («Nisa»-83) «ulul-əmr» məhz məsum imamlardan ibarətdir.

Elə bu zəmində bir hədis Əyyaşinin təfsirində imam Əli ibni Musa(ə)-dan nəql olunubdur:

يَعنى آلُ مُحَمَّدٍ، وَهُمْ الَّذينَ يَسْتَنْبِطُونَ مِنَ القُرْاَنِ وَ يَعْرِفُونَ الحَلالَ وَ الحَرامَ وَهُمُ الحُجَّةُاللهِ على خَلْقِهِ

«Ulul-əmr»dən məqsəd ali Mühəmməddir.Onlar bir şəxsiyyətlərdir ki, Qurandan istinbat edirlər(hökmləri bəyan edirlər, halal və haramı tanıyırlar. Onlar Allahın məxluqa olan höccətləridir».

Başqa bir hədisdə Imam Sadiq(ə)-dan oxuyuruq:

وَ مَنْ وَضَعَ وِلايَةَ اللهِ وَاَهلَ اِسْتِنباطِ عِلْمَ اللهِ فى غَيْرِ اَهْلِ الصَفْوَةِ مِنْ بُيُوتاتِ الأنْبِياءِ فَقَدْ خالَفَ اَمْرَ اللهِ

«Hər kəs Allahın vəlilərini və ilahi elmi istinbat edənləri peybəmbərin əhli-beytindən başqasını fikirləşə, ilahi bir əmr ilə müxalifət edibdir».

Ikinci ayə («zikr əhlindən soruşun, bilmədiklərinizi») Quranda iki yerdə nazil olubdur: «Nəhl» surəsinin 43-cü ayəsi və «Ənbiya» surəsinin 7-ci ayəsində.Bu ayədəki «əhli-zikr»in agah və xəbərdarlara şamil olmasında heç bir şəkk yoxdur.Bu ayəni təqlid etmək, cahilin alimə müraciət etməyinə də dəlil gətirirlər.Amma bu ayənin tam və kamil nümunəsi o adamlardır ki,onların elm mənbəyi peyğəmbər və allahdır.Onların elmi səhvsiz və məsumluqla bərabər olan bir elmdir.Ona görə də bu ayəni məsum olan imamlara aid edirlər. Necə ki, imam Əli ibni Musa(ə) buyurub:

نَحْنُ اَهلَ الذِّكْرِ وَ نَحْنُ المَسْئُولونَ

«Zikr əhli bizik və gərək bizdən sual oluna».

Cəlbedici məqam budur ki, bu mətləb (əhli-zikr və əhli-sual məsum imamlardır) əhli sünnənin 12 təfsirində qeyd olunubdur. Onlar ibarətdir; Əbu Əyyubun təfsiri, Ibni Həcər, Məqatin ibni Süleyman, Vəki ibni Cərah, Yusif ibni Musa Əlqətan, Qətadə. Hərbəttan, Səddi, Mucahid, Məqatil ibni Həyyan, Əbi Saleh, Mühəmməd ibni Abbasdan.

Bu ayədəki («Nəhl-43 və «Ənbiya –7») əhli-zikr, ali peyğəmbər, Imam Əli(ə), Fatimə(s.ə.), Həsən və Hüseyn əleyhmusəllama aiddir. Hədis belədir:

هُمْ مُحَمَّدُ وَ عَلِيُّ وَ فاطِمَةُ وَ الحَسَنُ وَ الحُسينَ عليهم السَّلامُ هُمْ اَهْلُ الذِّكْرِ وَ العِلْمِ وَ العَقْلِ وَ البَيانِ، وَهُمْ اَهْلُ بَيْتِ النُّبُوَّةِ

«Onlar Muhəmməd(s), Əli(ə), Fatimə(s.ə.), Həsən(ə) və Hüseyn(ə)-dır.Onlar zikr, elm, əql və bəyan əhlidir».

Qeyd edək ki, bu ayənin məhfumu çox genişdir.Amma onun əsl kamil nümunəsi məsum imamlardır ki, bütün günah və xətadan pakdırlar.

Dediyimiz kimi Allah-Təala bütün zamanlarda öz höccətini yer üzündə qərarlandırıb və ona lazım olan bütün vasitələri o höccətin ixtiyarında qoyubdur.

Qurani –Kərim çox uzaq keçmişləri yad edərək buyurur: «Allah-təala onu (talutu) sizin üçün (Bəni Israil) seçdi və onun elmini və cisminin qüvvəsini lazımı qədər ona verdi.»(Bəqərə «surəsi 247-\ə ayə).

(Talut , Həzrəti Davud peyğəmbərin zamanında onun bütün hərbi işlərinə rəhbərlik eyləyən bir şəxs idi ki, Allah tərəfindən seçilmişdi.Ola bilər ki , başqa işlər də görürdü , amma ən çox sərkərdəlikdə məşhur idi).

Qurani-Kərim başqa bir yerdə Həzrəti Yusifdən söz açaraq buyurur: قَالَ اجْعَلْنِي عَلَى خَزَآئِنِ الأَرْضِ إِنِّي حَفِيظٌ عَلِيمٌ

«Məni bu yerin xəzinəsinə rəis qərar ver , çünki mən , hifz edən, saxlayan , alim və agaham.»(«Yusif» surəsi , ayə 55)

Şübhəsiz ki, Həzrəti Yusifin saydığı bu işlərin hamısı Allah tərəfindən verilən bir pay idi. Deməli Allah-Təala, qeyd etdiyimiz kimi, öz höccətlərini hər bir vasitə ilə təmin edir.

Imam Sadiq(ə) bir hədisdə belə buyurur:

مَنْ زَعَمَ اَنَّ اللهَ یَحْتَجُ بِعَبْدٍ فی بِلادِهِ ثُمَّ یَسْتُرَ عَنْهُ جَمیعَ ما یَحْتاجُ اِلَیْهِ فَقَدْ اَفْتَری عَلَی اللهِ

«Bir kəs güman edə ki , Allah-təala bir bəndəsini yer üzündə höccət qərar verib, amma ona lazım olan vasitələri ona verməyib, o adam Allaha böyük iftira etmiş olar».

«Imamların elm mənbələri»

Mühüm olan məsələlərdən biri də imamların elm mənbəyidir. Onlar ki, dini və dünyanı idarə etməlidirlər , onun üçün də insana çox geniş sahəli elm lazımdır. Bəs görəsən bu elmi onlar hansı mənbədən əxz etmişlər.

Yəqin ki, peyğəmbərin (s) dünyadan getməsilə vəhy qapısı birdəfəlik bağlandı. Belə olan halda imamlar müsəlmanların, ümumiyyətlə bəşəriyyətin təkliflərini və məsləhətlərini haradan ələ gətirirlər? Əgər desək ki, Quranın ayələrini dediyi kimi- «Allah-təala hər şeyin proqramını Quranda nazil etmişdir», yenə də Quranın batini mənalarını əldə etmək üçün dərin elm lazımdır. Quranın ayələrindən və islami rəvayətlərdən imamların elminin mənbəyindən xəbərdar olmaq mümkündür.

1.Imamlar Quranın mənasından, təfsir və təvilindən, zahir və batinindən, möhkəm və mütəşabehindən kamil surətdə xəbərdar idilər. Bu barədə Qurani-Kərim buyurur:

وَيَقُولُ الَّذِينَ كَفَرُواْ لَسْتَ مُرْسَلاً قُلْ كَفَى بِاللهِ شَهِيدًا بَيْنِي وَبَيْنَكُمْ وَمَنْ عِندَهُ عِلْمُ الْكِتَابِ

«Kafirlər deyərlər sən peyğəmbər deyilsən , onlara de; mənim peyğəmbərliyimə şahid Allahdır və o adamdır ki , Quran elmi onun yanındadır».(«Rə'd» surəsi-43-cü ayə)

Bu ayədən çox aydın surətdə məlum olur ki , o adamın Quran elmindən kamil surətdə xəbəri vardır.

Diqqət etmək lazımdır ki, bu ayə ilə «Nəml» surəsinin 40-cı ayəsində fərq vardır. Orada deyilir: «Həzrəti Süleymanın yanında olan, bir nəfər ki , elmi-kitabın birini bilirdi, dedi: mən onu gətirərəm kipriklərini bir-birnin üstünə qoyana qədər»

قَالَ الَّذِي عِندَهُ عِلْمٌ مِّنَ الْكِتَابِ أَنَا آتِيكَ بِهِ قَبْلَ أَن يَرْتَدَّ إِلَيْكَ طَرْفُكَ

Amma bu ayə («rə'd»-43) buyurur «o adam ki . kitabın elminin hamısı onun yanında idi , yəni bilirdi».

Şeyx Süleyman Qunduzi Hənəfi «Yənabəul Məvəddə» kitabında Ətiyyei Ofi və Əbu səid Xudridən nəql edir ki . peyğəmbər(s)-dən bu ayənin barəsində («Nəml»-40) sual etdim , Həzrət buyurdu: «O ayədə deyilən. bir şəxs ki, kitabın bir elmi onun yanında idi, o şəxs Süleyman peyğəmbərin vəziri idi». Sonra o biri ayənin(«Rə'd»-43) təfsirini soruşdum, Həzrət buyurdu: «Bu ayədə («Rə'd»-43) deyilən, o şəxs ki, elmi-kitabın hamısı onun yanındadır, qardaşım Əli ibni Əbutalibdir.»

Ibni Abbasdan olan bir hədisdə oxuyuruq: «Bu ayədəki, o şəxs ki , elmi-kitabın hamısı onun yanında idi o, Əli(ə)-dır. Həqiqətən Əli(ə) Quranın təfsir və tə'vilinə, nasex və mənsuxunə alim idi».

Bəli, Quranın sirrlərini, zahir və batinin bilmək imamların elmi mənbəyindən biri idi .Bu sözümüzə şahid Quranın «Ali-Imran» surəsini 7-ci ayəsidir:

وَمَا يَعْلَمُ تَأْوِيلَهُ إِلاَّ اللهُ وَالرَّاسِخُونَ فِي الْعِلْمِ

«Quranın tə'vilini Allah və elmdə rasix(elmdə möhkəm) olan adamlar bilərlər».

Imam Sadiqdən olan bir rəvayətdə oxuyuruq:

فَرَسُولَ اللهِ اَفْضَلُ الرّاسِخينَ فِى العِلْمِ قَدْ عَلَّمَهُ اللهُ عَزَّوَجَلَّ جَميعَ ما اَنْزَلَ عَلَيْهِ مِنَ التَّنْزيلِ وَ التَّأويلِ

«Elmdə rasix olan, birinci Həzrəti peyğəmbər(s) idi. Allah–Təala ona nazil etdiyinin hamısının təfsir və tə'vinihdən onu xəbərdar etmişdi. Mümkün deyil ki, Allah-təala bir şeyi nazil edə, amma onun tə'vil və təfsirini öyrətməyə. Peyğəmbər(s)-dan sonra onun vəsiləri o elmin hamısını bilirlər».

Əli(ə) «Nəhcülbəlağə»də 91-ci xütbədə belə buyurubdur:

وَ اعْلَمْ اَنَّ الرَّاسِخينَ فِى العِلْمِ هُمُ الّذينَ اَغْناهُمُ اللهُ عَنِ اقْتِحامِ السُّدَدِ المَضْرُوبَةِ دُونَ الغُيُوبِ لِاِقْرارِ بِجُمْلَةِ ما جَهِلُوا مِنَ الغَيْبِ المَحْجُوبِ

«Bilin, elmdə rasix (möhkəm) olanlar onlardır ki, Allah-təala ayələrin təfsirini və gizli olan bütün şeyləri onlara öyrədibdir».

2-«Imamların 2-ci elm mənbələri»-Peyğəmbərlərdən varislik -.

Imamların 2-ci elm mənbələri peyğəmbər(s)-dan irs aparmaq olub.Həzrət bütün elmi Əli(ə)-a öyrətdi , ondan da o biri imamlara yetişdi.

«Kafi» kitabında Əbubəsir Imam Sadiq(ə)-dan soruşduğu bir rəvayətdə yazır:

عَلَّمَ رَسُولُ اللهِ عَلِيّاً اَلْفَ بابٍ، يُفْتَحُ مِنْ كُلِّ بابٍ اَلْفَ بابٍ

«Həzrəti peyğəmbər(s) Əli(ə)-a elmdən min qapı öyrətdi ki, hər qapıdan min qapı açılırdı». Sonra Imam buyurdu: Ey Əbu Bəsir:

اَنَّ عِنْدَنا الجامِعَةُ – قُلْتُ وَمَا الجامِعَةُ؟ قال: صَحيفَةُ طُولُها سَبْعُونَ ذِراعًا بِذِراعِ رَسولِ اللهِ وَ اِمْلائه وَ خَطِّ عَلِيٍّ بِيَمينه فيها كُلُّ حلالٍ وَ حَرامٍ وَ كُلُّ شَيْئٍ يَحْتاجُ النّاسُ اِلَيْهِ حَتّى الْعَرْشِى فِى الخَرشِ

«Camiə bizim yanımızdadır. Soruşdum Camiə nədir?» Buyurdu: O,bir səhifədir, uzunluğu 70 ziradır (Zira insanın biləngindən dirsəyinə qədər oan yerə deyərlər ki, bəzi şeyləri də onunla ölçərlər), onu Həzrəti peyğəmbər (s) öz dili ilə imla edibdir və Əli (ə) öz əli ilə yazıbdır . Onda qiyamət gününə qədər olacaq bütün şeylər yazılıbdır , halallar və haramlar və başqa şeylər ki, xalqın ona ehtiyacı vardır.Hətta bədəni qaşımağın diyəsi də».

«Mədinətül elm» hədisinin (o hədisi, həzrəti peyğəmbər(s) buyurub: «Mən elmin şəhəriyəm , Əli onun qapısıdır) haqqında sünnü və şiə mənbələrində bir çox hədislər varid olubdur. Bu hədislərin ravilərindən (nəql edənlərdən) bəziləri ibarətdir; Ibni Abas, Cabir ibni Əbdullah Ənsari , Əbdullah ibni Ömər və Əli(ə)-dan.

Bu hədisi öz kitablarında yazanların bəzilərinin adlarını qeyd edirik: Hakim Nişaburi «Müstədrək» kitabında, Əbu Bəkr Nişaburi «Tarixi Bağdad» kitabında, Ibni Məğazəli «Mənaqibi Əmirəlmöminin» kitabında, Gənci «Kifayətütalib» kitabında, Həmvini «Fəraid əssəmteyn» kitabında, Zəhəbi «Mizanül etidal» kitabında, Şeyx

Süleyman Qunduzi «Yənabeün Məvəddə» kitabında, Nəbhani «Əlfəthul Kəbir» kitabında və başqaları.

Bir nəfər Imam Sadiq (ə)-dan soruşdu: Biz bir hədisi sizdən eşidirik, sonra şəkk edirik. sizdən eşitmişik, ya atanızdan. Bu halda hədisi kimə nisbət verək?

Həzrət cavabında buyurdu : o hədisi mənə də , atama da və hətta həzrəti peyğəmbər(s) –a da nisbət verə bilərsiniz. Çünki, bizim cavab verdiyimizin hamısı bizə həzrəti peyğəmbər (s)-dan çatıb.

3.-«Mələklərlə rabitə».

Imamların elmi mənbələrindən biri də mələklərlə əlaqədə olmaqdır. Düzdür peyğəmbər(s) –ın dünyadan köçməyi ilə vəhy dayandı , amma Quranın bəzi ayələrinin dediyinə görə Həzrəti Xızr, Zülqərneyn və Həzrəti Məryəmin mələklərlə əlaqəsi var idi.Imamlar da bu formada mələklərlə əlaqədə olarlar və aləmi-qeybin həqiqətləri onlara ilham olar. Imam Baqir (ə) buyurub: «Həqiqətən Əli(ə) ilə mələklər söhbət edirdi».Həzrətin bu sözündən sonra ondan sual edirlər ki, məgər Əli(ə) peyğəmbər idi? Həzrət xeyir, deyə cavab verdi və əlavə etdi: «Əli(ə) –ın mələklərlə danışması Həzrəti Süleymanın dostu Asif ibni Bərxiya, Həzrəti Musanın dostu Yuşl (və ya Xızr) və ya Zülqərneynin mələklərlə əlaqədə olmaqları kimidir». Bu haqda bir çox hədislər də vardır.

4. Ruhul Qüdsün köməkliyi

Imamların dördüncü elm mənbəyi müqəddəs ruh vasitəsi ilədir.

Burada Ruhul –Qüdsün köməkliyindən söhbət açılıbdır.Onu da qeyd edək ki, sözü gedən mövzu (Ruhul-Qüds) haqqında üç dəfə Həzrəti Isanın, bir dəfə də islam peyğəmbər(s)-nın barəsində danışılıbdır.

«Ruhul-qüds»ün kim və ya nə olması barədə təfsirçilər arasında fikir müxtəlifliyi vardır.Bəziləri onun «Cəbrayıl» olduğunu, bəziləri həzrəti Isada lan müqəddəs ruh və paklıq, yaxud ona göndərilmiş «Incil» olduğunu güman edirlər. Bəziləri də deyirlər ki , o ismi Əzəm idi Həzrəti Isa onun vasitəsilə ölüləri dirildirdi.

Amma Qur'anın ibarələrindən və müxtəlif hədis və rəvayətlərdən aydın olur ki, «Ruhul-qüds» müxtəlif mənalarında işlənilib və mümkündür, hər yerdə başqa-başqa mənalarda işlənilsin. Məsələn «Nəhl»surəsinin 102-ci ayəsində buyurulur: «de, Ruhul-qüds haqq olan Allahın tərəfindən onu sənə gətiribdir».

Burada Ruhul-Qüds dedikdə zahirən Cəbrayıl nəzərdə tutulur ki, Qur'anı Allah tərəfindən peyğəmbər (s)–a çatdırıbdır. Amma Qur'anın özündə üç yerdə Həzrəti Isanın barəsində («biz onu müqəddəs ruhla qüvvətləndiririk») nazil olubdur. Bunlar onu göstərir ki, bu bir ruhdur ki , həmişə Isa ilə olub və ona köməklik edibdir.

Əhli-beyt(ə)-ın vasitəsilə varid olan rəvayətlərdən aydın olur ki, «Müqəddəs ruh» bütün peyğəmbərlər və məsumlarla olub, həmişə də onlara kömək edibdir.

Müxtəlif rəvayətlərdə əhli-sünnədən də nəql olunubdur ki, bəzən bir nəfərdən bir söz eşidiləndə, deyirdilər; bu müqəddəs ruhun köməkliyi ilədir. Məsələn, bir hədis ki,

«Dürrün Mənsur»da peyğəmbər(s)-dən qeyd olunubdur, oxuyuruq: Həzrət məşhur islam şairi Həssan ibni Sabitə dua etdi: «Ilahi, Həssanı müqəddəs ruhla qüvvətləndir, çunki , o öz peyğəmbərini müdafiə etdi».

Məşhur Əhli-beyt şairi Kumeyt ibni Zeyd Əsədinin haqqında Imam Baqir(ə) buyurdu: «Ruhul-Qüds» onunla olacaq, o vaxta qədər ki , Kumeyt bizi müdafiə edir.»

Başqa bir hədisdə oxuyuruq ki , Imam Əli ibni Musa (ə) Də'bəl Xəzainin yazdığı şerə qulaq asaraq ağladı və buyurdu: «Bu iki beyti sənin dilinə «Ruhul-Qüds» cari edibdir».

Bütün bu deyilənlərdən aydın olur ki, Ruhul-Qüds bir köməkçi ruhdur ki, insanlara çox böyük və mühüm olan ilahi işləri əmələ gətirməkdə kömək edir.Amma şəxslərə nisbət müxtəlif dərəcədədir. Adi insanlarda öz ölçülərində, peyğəmbər və imamlarda isə fövqaladə dərəcədə yüksək.

Imam Sadiq(ə) «Əssabiqun» ayəsinin təfsirində buyurur:

فَالسّابِقُونَ هُمُ رُسُلُ اللهِ (ع) وَ خاصَّةِ اللهِ مِنْ خَلْقِهِ جَعَلَ فيهِمْ خَمْسَةَ اَرْواحٍ اَيَّدَهُمْ بِرُوحِ الْقُدْسِ فَبِهِ عَرَفُوا الأشْياءَ

«Qabaqcıllar Allahın rəsullarıdır, Allahın xass olan bəndələridir.Onlarda beş ruh var. Onlara Allah –təala müqəddəs ruhun vasitəsilə kömək edib.Onlar bu ruhun vasitəsilə əşyaları tanıyarlar».

Başqa bir hədisdə imam Baqir(ə) beş ruhu sayandan sonra buyurur: «Məsumlarda «Ruhul-Qüds» də vardır.Onlar onun vasitəsilə ərşin altından yerin altına qədər olanları bilərlər.»

Bəli bütün bu deyilənlər «Ruhul-Qüds»ün imamların elm mənbəyindən biri olduğunu göstərir.

5. Ilahi Nur

Imamların elm mənbələrindən biri də Ilahi Nurdur.Həsən ibni Raşid deyir: Imam Sadiq(ə)-dan eşitdim ki , buyurdu: «Bir imam dünyadan gedəndən sonra o biri imam üçün Allah-təala nur verir ki, onun vasitəsilə camaatın əməllərini görür. Allah-təala bu yolla insanlara höccəti tamam edir.»

Mərhum Əllamə Məclisi bu barədə «Bəharül Ənvar» kitabının 6-cı cildinin 132-ci səhifəsində 16 hədis qeyd etmişdir.Bundan əlavə «Ərzül ə'mal» kitabında (23-cü cild , 333-cü səhifə) bu barədə çoxlu rəvayətlər vardır.

Deyilənlərin hamısından çox aydın bir şəkildə məlum olur ki, məsum imamların elm mənbələri çox saylıdır.Birinci dərəcədə onların Quranın bütün mənalarından kamil surətdə xəbərdar olmaqları, ikincisi həzrəti peyğəmbərdən(s) onlara yetişən elmlər, sonrakı dərəcələrdə isə ilhamlar və ilahi köməkliklər, mələklərlə qəlbi əlaqələrin olması və qeybi –aləmdən xəbərdar olmaqlıq. Bunların hamısı ilahi məmuriyyətləri əmələ gətirməkdə, xalqı Allaha tərəf hidayət etməkdə , insanları tərbiyə etməkdə və işlərin tədbirində məsum imamlara köməklik edir.

Çox maraqlı bir məsələ hədislərdən istifadə olunur. Hər cümə axşamı Imamların yeni məsələlərdən ötəri Allah tərəfindən yeni elmlər əxz etməyidir.Bunun vasitəsi ilə insanların ehtiyaclarını ödəyirlər.

Imam Sadiq(ə) buyurur: «Hər cümə axşamı bizim üçün təzə bir sevinc vardır».bir nəfər soruşdu ki , bu sevinc nədən ibarətdir? Imam buyurdu: «Hər cümə axşamı peyğəmbər(s)-ın müqəddəs ruhu və imamların müqəddəs ruhu ərşdə görünürlər. Mənim ruhum da onlara qovuşur.Sonra bizim ruhumuz təzə elmlərlə bədənimizə qayıdır. Əgər belə olmasa bizim elmimiz tükənər.»

Bu haqda da çox rəvayətlər var, xülasəyə görə onları qeyd etmirik.

Bütün bu söylədiklərimiz göstərdi ki , imamların elm mənbələri sadə bir mənbə deyil.

Indi belə olan bir halda özünüz fikirləşin, bu dərəcədə elmləri olan insanlar qala bir tərəfdə, peyğəmbər (s) canişini adi adamlar ola. O adamlar ki, özləri elmlərinin olmamağına etiraf ediblər və dəfələrlə deyiblər: Əgər Əli (ə) olmasaydı biz həlak olardıq.

Maraqlısı da bundadır ki, bu sözü məhz elmi məsələ barəsində, ya ehkami-şərini icra edən zaman iqrar ediblər. Yəni, bəzən olub ki , sadə bir dini məsələdə aciz qalıblar. Amma Əli(ə) buyurur: Əgər mənə şərait yaradılsaydı, mən böyük bir məkanda bütün millətlərə öz qanunları ilə məhkəmə qurardım.

Allah bizi həqiqəti tanıyanlardan etsin!

Imamların məsumluğu

Günahdan, xətadan və unutmaqdan uzaq olmaq imamların ümumi əlamətlərindən biridir. Həqiqətdə peyğəmbərlərin məsumluğunu sübut edən dəlillər,

imamların da məsumluğunu sübut edir. Çünki, onların üzərinə düşən məsuliyyət, vəhy istisna edilməklə, demək olar ki, eynidir. Insanları hidayət etməkdə, Ilahi hökmləri və qanunları qorumaqda, asimani ayələri kamil surətdə yaymaqda imamlar peyğəmbərlərin davamçılarıdırlar. Ona görə də peyğəmbərlər və imamlar bir çox sifətlərdə müştərəkdirlər. Və dediyimiz kimi, peyğəmbərlərin ismətinə dəlalət edən bütün dəlillər, imamlara da aiddir.

Bu haqda olan Quran ayələrinə nəzər salaq. Allah-taala Qur'ani-Kərimin «Əhzab» surəsinin 33-cü ayəsində buyurur:

يُرِيدُ اللَّهُ لِيُذْهِبَ عَنكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيرًا

«Allah-Taala iradə edibdir siz əhli-beyti (peyğəmbərin əhli-beytini) bütün çirkinlik və pislikdən uzaq etsin və sizi hər cəhətdən paklandırsın».

Keçmiş bəhslərimizdə imamət məqamını əzəməti barəsində olan «Bəqərə» surəsinin 124-cü ayəsini dəlil gətirmişdik. Ayədə buyurulur: «Allah taala həzrəti Ibrahimi imtahan edəndən sonra ona buyurdu:

«Səni camaata imam təyin edirəm».

Həzrəti Ibrahim bu məqamı övladları üçün Allahdan istəyəndə, Allah-Taalanın bu cavabı ilə qarşılaşdı: لا يَنالُ عَهْدى الظّالِمينَ

«Bu məqam (imamət), zalımlara qismət olmaz». Yəni bu məqama pak və məsum övladların layiqdirlər.

Bəli, bu ayə (Bəqərə-124) imamların məsum olmağına dəlalət edir. O kəslər ki, ömürləri boyunca əqidələrinə şirki və küfrü qarışdırıblar, özlərinə və başqalarına əməli surətdə zülm ediblər, onlar bu məqama (imamətə) layiq deyillər. Zülm etmək, yəni əqidə cəhətdən münhərif olmaq, həm də başqasının haqqına və öz haqqına təcavüz etməyə şamil olur. Allah-taala imamlarda məsumluğun şərt olmasının bünövrəsini bu ayədə qoyubdur.

Indi isə «təthir» ayəsinə (Əhzab-33) qayıdaq və «Ismət» məsələsini bu ayədə axtarış edək. Bəziləri bu ayənin peyğəmbər (s)-in xanımlarına da aid olduğunu qeyd edirlər. Amma bu ayə (Əhzab-33) peyğəmbər (s)-in xanımlarının barəsində nazil olan ayələrin arasında nazil olsa da, başqa bir ahənglə nazil olub və başqa bir hədəfi nəzərdə tutur. Bu ayənin əvvəlində Allah-taala peyğəmbər (s)-in xanımlarına müracət edib buyurur:

وَقَرْنَ فِي بُيُوتِكُنَّ وَلَا تَبَرَّجْنَ تَبَرُّجَ الْجَاهِلِيَّةِ الْأُولَى وَأَقِمْنَ الصَّلَاةَ وَآتِينَ الزَّكَاةَ وَأَطِعْنَ اللَّهَ وَرَسُولَهُ

«Evlərinizdə qalın, əvvəlki cahiliyyət dövrünün adətlərinə uyğun camaat arasına çıxmayın. Iffətli olun, namaz qılın, zəkat verin, Allaha və onun rəsuluna itaət edin».

34-cü ayədə buyurur:

وَاذْكُرْنَ مَا يُتْلَى فِي بُيُوتِكُنَّ مِنْ آيَاتِ اللَّهِ وَالْحِكْمَةِ إِنَّ اللَّهَ كَانَ لَطِيفًا خَبِيرًا

«Sizin evlərinizdə Allahın ayələrindən və hikmətlərindən zikr olunanları yada salın, həqiqətən Allah lətif və hər şeydən xəbərdardır».

Yuxarıda qeyd etdiyimiz bu iki ayənin arasında «Təthir» ayəsi nazil olubdur. Ayələrin özünün danışıq formasından məlum olur ki, bu iki ayənin «Təthir» ayəsi ilə fərqi vardır. Bundan əlavə o iki ayədəki müxatəblər cəm qadın şəkilçisi ilə yazılıbdır. Bu da onu göstərir ki, bu iki ayə peyğəmbər (s)-in xanımlarının barəsində nazil olubdur. Amma «Təthir» ayəsində iki yerdə şəkilçi işlənibdir, hər ikisi də cəm kişi formasındadır. Doğrudur ki, adətən bir ayənin əvvəli və axırı eyni məqsəd daşıyır. Amma bu o yerdədir ki, bu mətləbin (ayənin əvvəli və axırı eyni hədəfi izləyə) ziddinə dəlalət edən bir əlamət olmaya. Bu ayələrin bir hissəsində qadın zəmiri ilə (əvəzlik) bir dəstəyə öyüd-nəsihət verilir, onları pis işlərdən çəkindirir, namaza və zəkata dəvət edir və nəhayətdə onları öz evlərində nazil olan ilahi ayələrə və hikmətlərə qiymət verib, o hikmətləri, ayələri yad etməyə dəvət edir. O biri hissəsində isə bir dəstənin paklığını, pislikdən uzaq olduğlarını təkidli surətdə təsdiqləyir və bu xitabı kişi zəmiri (əvəzliyi) ilə çatdırır.

Bu dediklərimiz ayənin əvvəli və axırının başqa-başqa mətləbə dəlalət etməsinə bir sübutdur. Doğrudan da, əgər bir cümlədə bir dəstəni ilahi hökmlərə çağırırlarsa, cahillik dövrünün adətlərindən uzaq olmağa dəvət edirlərsə, o biri dəstənin paklığına təkid olunursa, onda necə demək olar ki, bu ayənin əvvəli və axırı eyni mətləbə dəvət edir?

Bundan əlavə islam mənbələrində, istər sünni, istərsə də şiə məzhəbləri tərəfindən qəbul olunmuş çoxlu rəvayətlər var ki, ayənin («təthir») bu hissəsinin

peyğəmbərin (s) xanımlarına deyil, özünə, Fatiməyə, Əliyə, Həsən və Hüseyn (ə)-lara aid olduğunu bildirir. Yeri gəldikcə həmən hədisləri qeyd edəcəyik, amma əvvəlcə gəlin ayənin özündən istifadə olunan mətləblərə nəzər salaq.

1. Ayə «innəma» (إِنَّمَا) kəlməsi ilə başlayır. Bu da azəri dilində «ancaq», «fəqət» kəlmələri ilə eyni mənadadır. Bu kəlməni ərəblər bir işi bir şəxsdə və ya bir şeydə məhdudlaşdıranda işlədərlər. Buna da ərəblər «həsr» deyərlər. Yə'ni bu iş ancaq bu şəxsə aiddir. Buna Qur'anda çox yerdə rast gəlmək olar. Onlardan biri də «Təthir» ayəsində olan «innəma» kəlməsidir. Belə ki, ayənin bu kəlmə ilə başlaması bildirir ki, bu nemətə -Allah tərəfindən paklığı olması -və pislikdən uzaq olmaq, ancaq sizə məxsusdur, ey əhli-beyt!

2. «Yuridi» (يُرِيدُ) kəlməsi (Allah iradə edib, istəyir)-Allahın təkvini iradəsinə işarədir. Yəni Allah-taala təkvini əmr ilə sizdən pisliyi uzaqlaşdırıbdır. Bir qədər də aydınlıq gətirmək üçün belə deyək, «təkvin» iradə budur ki, Allah-taala insanın özünə təklif edir ki, özünü paklandırsın. Bu təkcə əhli-beytə aid deyil, bütün insanların şər'i vəzifələridir ki, özlərini pislikdən qorusunlar. Amma «təkvini» iradə Allah tərəfindən bir insana tətbiq olunur. Daha dəqiq desək Allah-taala o insanı yaradanda elə yaradır ki, pislik ona yol tapa bilmir. Daha doğrusu, Allahın daima onların pislikdən uzaq olmaqda nəzəri vardır və onları qoruyur.

Burada bir mətləbi qeyd etməyi özümüzə lazım bilirik. Ola bilər bir nəfər təsəvvür edər ki, «təkvini» iradə bir növ məcburiyyətdir. Yəni bu xüsusiyyət Allah

tərəfindən insana məcburən verilibdir və insan özü istəsə də günah edə bilməz. Bu da həmin adam üçün fəzilət hesab olunmaz.

Bu sualın cavabını geniş surətdə bilmək istəyənlər «Təfsiri-Nümunə»nin 7-ci cildinə müraciət edə bilərlər. Amma burada xülasə surətdə buna cavab veririk.

Məsum imamlar və peyğəmbərlər iki növ fəzilətə malikdirlər. Birinci «zati», ikinci isə «iktisabi». «Zati» fəzilət onlarda əvvəlcədən olan üstünlükdür ki, bu hal hamıda vardır, amma fərqlidir. «Iktisabi»-yəni əməllərin vasitəsilə qazanılan fəzilət-ixtiyaridir və heç bir məcbüriyyət yoxdur. Birinci fəzilət doğrudur ki, zatidir, yəni yarananda belə yaranıb, amma Allah-taala ki, bütün zamanlara alimdir və əvvəldən bilirdi ki, bu şəxsiyyətlər necə həyat sürəcəklər və necə Allah yolunda xidmət edəcəklər, ona görə də əvvəlcədən onlara qiyabi köməkliklər edibdir və o vasitə ilə onları pislikdən uzaq saxlayıb. Onlar da dünyada Allahın onların öhdəsinə qoyduğu vəzifəni artıqlaması ilə yerinə yetiriblər. Buna misal olaraq Qur'anın «Taha» surəsinin 2-ci və 3-cü ayələrini göstərmək olar. Bu ayələrdə Allah-Taala öz əziz peyğəmbərinə (s) buyurur:

مَا أَنزَلْنَا عَلَيْكَ الْقُرْآنَ لِتَشْقَى - إِلَّا تَذْكِرَةً لِّمَن يَخْشَى

«Biz Qur'anı sənə göndərməmişik sən əziyyət çəkəsən. Sənin vəzifən ancaq qəbul edənləri (qorxanları) öyüd-nəsihət etməkdir».

Ayənin özündən məlum olur ki, peyğəmbər (s) öhdəsinə düşən vəzifədən artıq özünü əziyyətə salırdı. Ona görə də Allah-taala bu ayəni ona göndərir.

Bir daha təkrar edirik, məsum olmaq ilahi bir köməklikdir. Amma Allah-taala bu köməkliyi ancaq xüsusi bəndələrinə edər. O bəndələrinə ki, ilahi vəzifələrin öhdəsindən çox ali bir surətdə gəliblər. Necə ki, həzrəti Ibrahim imtahanların öhdəsindən gözəl surətdə gəldi və imam seçildi. Sadə bir misal ilə desək müəllimin öz təcrübəsi ilə bir tələbəyə ümidi olanda görürsən ki, ona başqalarından artıq zəhmət çəkərək, diqqət yetirir. Həmin tələbə də vaxt gəlir müəllimin etimadını doğruldur. Daha burada demək olmaz ki, elmdə bu səviyyəyə yüksələn tələbənin fəziləti yoxdur. Çünki, müəllim əvvəlcədən ona artıq zəhmət çəkmişdi. Əksinə, bu tələbə daha artıq zəhmət çəkmişdi. Əksinə, bu tələbə daha artıq fəzilətlərə layiqdir, ona görə ki, ona olunan etimadları doğrulubdur. Məsumlara olunan bu etimad isə Allahdandır. Allahın etimadı təcrübə üzündən deyildir, yəqini olan zati bir elm üzündən idi. Yəni Allah dəqiq bilirdi ki, ancaq bu dəstə insanlar onun etimadını doğruldacaqlar. Ona görə də onları əvvəlcədən öz köməkliyi ilə qüvvətləndirir və belə bir nəticə alır. Bəlkə də Allah-taala həzrəti Adəmi yaradanda mələklərin etirazına cavab olaraq, «mən bilənləri siz bilməzsiz» deyəndə, elə bildirmək istəyirdi ki, siz mələklərin nəzərində qan tökən, fəsad edən insanların içərisində bu cürə insanlar olacaqdır ki, öz qanları və canları vasitəsi ilə yer üzünü ədalətlə doldurub, zülmü məhv edəcəklər. Ona görə də onlara əvvəlcədən məsum olmaq şəraiti yaradır, o şəraitdən istifadə etmək özüdə ixtiyaridir. Yəni onlar istəməsəydilər o şəraitdən

istifadə etməzlər. Bir halda ki, istifadə ediblər, deməli heç bir məcburiyyətdən söhbət gedə bilməz. Bu da onlar üçün böyük fəzilətdir.

Bir mətləbi də qeyd edək ki, günahdan uzaq olmaq məsumlar üçün «adi mahaldır», «əqli mahal» deyil. Yəni onlar öz ixtiyarları ilə günahı tərk ediblər. Belə deyil ki, onların günah etməsini ağıl qəbul etmir. Xeyr! Buna sadə bir misal gətirək. Təsəvvür edin bir həkim bir zəhərin, məsələn bir qramının insanın həyatını məhv etmək qüvvəsində olduğunu yəqin bilir. Həkimin o zəhərdən bir litr içməsi əqli cəhətdən mümkündür. Yəni ağıl inkar edə bilməz ki, bu həkim o zəhərdən içməz. Amma adi cəhətdən mümkün deyil hakim o zəhərdən içsin. Çünki o zəhəri tanıyır və nə dərəcədə öldürücü olduğunu bilir. Insan həyatı da hər şeydən qiymətlidir. Bu həkim insan həyatından qiymətli nə tapacaq ki, bu zəhəri içib özünü öldürsün? Imamlar və peyğəmbərlər günahın çox dəhşətli dərəcədə məhvedici olduğunu bilirlər. Əgər zəhər insanın dünyasını əlindən alırsa, günah həm bu dünyasını, həm də axirət və əbədi dünyasını əlindən alır. Ona görə də bu məsələni bilən insan günahdan uzaq olur, onun mərifəti onu günahdan uzaq saxlayır. Bu uzaq olmaqlıq da ixtiyari bir işdir, heç bir məcburiyyət burada yoxdur. Bu səbəbdən də Allahın «əhli-beyti» paklandırmağı «əhli-beyt» üçün ən böyük fəzilətlərdən biridir. Təkrar edirik ki, onlar bu məqama öz əməllərinin sayəsində çatıblar. Necə ki, Seyyid Əbülqasim Nəbati deyib:

«Güc ilə deyil, əzizim, bu şəhabi eşqidir-eşq

Bu bərqi nəxli eymən, hər odun yığana gəlməz».

O cürə deyil ki, hər evindən çıxıb meşəyə odun yığmağa gedənə Həzrəti Musa kimi peyğəmbərlik nuru görünsün və ona peyğəmbərlik verilsin, həzrəti Musa kimi. Bundan ötəri ön illərlə zəhmət və əziyyət çəkmək, əməl etmək, hicrət etmək, zalımlarla mübarizə aparmaq, bir sözlə ilahi hökmlərə, istər asan, istərsə də çətin olsun, əməl etmək gərəkdir. Sonra Allah-taala o şəxsi seçib bəndələrinə imam və qabaqcıl təyin etsin. Əvvəldən sənə qiyabi köməkliklər göstərsin.

Qayıdaq ayədəki «rics» kəlməsinə. Bu kəlmə insan təbiəti, əql və şəri cəhətdən pis olan şeylərə dəlalət edir. Bu kəlmənin əvvəlində «əlif və lam» cins olduğuna görə ümumi məna daşıyır. Yəni yuxarıda dediyimiz kimi, hər bir nəzərdən pis olan bütün şeylərə aiddir. Deməli, Allah-taala hər bir cəhətdən pis hesab edilən işlərdən əhli-beyti uzaq edibdir.

Adətən və bir çox rəvayyətlərdən bəlli olduğu kimi «Təthirən» kəlməsi də təkiddir. Özüdə ayədə ikinci təkiddir. Bnunlada Allah-taala bu mətləbi təkidləndirir və əhli-beyti bütün pisliklərdən uzaq olduğunu sübuta yetirir.

Yəqindir ki, bu ailənin (əhli-beytin) başında həzrəti peyğəmbər (s) dayanıb. Indi görək qalan əhli-beyt kimlərdir?

Imamı kim təyin etməlidir

Ümumi bəhslərdən belə nəticəyə gəlmək olur ki, imamları Allah təyin etməlidir. Çünki, onlar peyğəmbərin canişinləridirlər. Peyğəmbərlər Allah tərəfindən seçilir

deyə, gərək imamlar da Allah tərəfindən seçilsin. Biz həzrəti Ibrahimin barəsində olan ayəyə diqqət etsək bu mətləbi oradan istifadə edə bilərik. O yerdə ki, Allah-Taala buyurur: «Həqiqətən mən səni camaata imam qərar verirəm. (Bəqərə surəsi. Ayə.124). Bəli, imamı adi insanlar, xalq və ümmətin icması seçə bilməz. Ona görə ki, imamda şərt olan bəzi xüsusiyyətlərdən Allahdan başqa heç kim xəbərdar ola bilməz. Məsələn: «Xüsusi elm» və ya «məsumluq». Dediyimiz kimi məsum gizlində, aşkarda günah etməməlidir. Hətta onun fikrindən belə günah iş haqqında fikirləşmək keçməməlidir. Axı adi insanlar necə bilər ki, bu şəxs gizlində günah edib ya yox? Və ya o işi ki, imam əmələ gətirir, onu ixlas ilə edir, ya riyakarlıqla edir. Qısa sözlə desək imamlarda şərt olan xüsusiyyətlərin həqiqətən kimdə olmasını ancaq Allah bilir. Bu seçimə də «Intisab» deyirlər. «Intisab» bir neçə yolla sübuta yetişə bilər.

1. Allah tərəfindən seçilmiş peyğəmbər və ya Allahın əmri ilə peyğəmbərin təyin etdiyi imamın vasitəsi ilə bir nəfər camaata təqdim olunur ki, bu şəxs sizlərin imamıdır və yaxud imamı olacaq.

2. Möcüzələr vasitəsilə: Necə ki, peyğəmbərlərin möcüzələri olur və onun vasitəsi ilə öz nübuvvətlərini sübut edirlər. Möcüzə də qeyri-adi bir işdir ki, bir nəfər onu əmələ gətirir və dəvət edir, kim onun kimi bir iş əmələ gətirə bilərsə, buyursun. Bu yol ilə də öz peyğəmbərliklərini və yaxud imam olduğunu sübut edirlər. Əlbəttə bu haqda möcüzə bəhsində geniş söhbətlər vardır. Maraqlanan oxucu müraciət edə bilər.

Əhli-beyt kimlərdir?

Əli, Fatimə, Həsən və Hüseyndən ibarətdir. Hətta onlar ki, bu kəlmənin peyğəmbərin (s) xanımlarına aid olduğunu deyirlər, onlar da həm onlara (peyğəmbərin həyat yoldaşlarına), həm də Əli, Fatimə, Həsən və Hüseynə aid olduğunu bildirirlər.

Bu mətləbə dəlalət edən rəvayətlər həddindər artıq çoxdur. Təkcə «Dürrül Mənsur» təfsirində (səh.196-199-5-ci cild) 17 rəvayət qeyd edilibdir. Bu rəvayətlərin hamısı əhli-beytin peyğəmbər(s), Əli, Fatimə, Həsən və Hüseyn olduğunu bildirirlər. Bu rəvayətlərin beşi Ümmüssələmdən, üçü Əbu Səid Xudridən, biri Ayişədən, biri Ənəsdən, ikisi Ibni Abbasdan, biri də Zeyd ibni Ərqəmdən nəql olunubdur.

Mərhum Əllamə Təbatəbai «Əlmizan» təfsirində bu haqda 70-dən çox rəvayət qeyd edibdir. Əhli-sünnə mənbələrində olan hədislər şiə mənbələrində olan hədislərdən çoxdur. Bəziləri bu barədə yazılan kitabların sayını 100-dən artıq hesab edirlər.

Vahidi «Əssabiqul» kitabında yazır: «Bu ayə («təthir») peyğəmbər (s), Əli, Fatimə, Həsən və Hüseyn əleyhimussəlamların barəsində nazil olubdur və onlara bu məsələdə heç kim şərik deyil».

Bu haqda qeyd olunan rəvayətləri dörd qismə bölmək olar:

1. Peyğəmbər (s)-in bəzi xanımlarından nəql olunan rəvayətlər ki, açıq surətdə deyir: Peyğəmbər (s) «təthir» ayəsindən danışanda, o həzrətdən soruşduq: Ya rəsulallah, bu ayə bizə də aiddir? Həzrət cavabında buyurdu: «Siz yaxşısız, amma bu ayə sizə aid edyil».

O cümlədən peyğəmbər (s)-in hörmətli xanımı Ümmüssələmdən Səlbi öz təfsirində nəql edir: Bir gün peyğəmbər (s) öz evində idi. Fatimə ona yemək gətirdi. Peyğəmbər (s) ona buyurdu: Əlini, Həsəni və Hüseyni çağır. Onlar gəldilər, yemək yedilər. Sonra peyğəmbər (s) onların üstünə bir əba atdı və buyurdu:

اللّهُمَّ هؤُلاءِ اَهْلَ بَيْتى و عَتْرَتى فَاذْهَبْ عَنْهُمُ الرِجْسَ و طَهِّرْهُمْ تَطْهيراً

«Ey mənim Allahım, bunlar mənim əhli-beytimdirlər, itrətimdirlər. Onlardan pisliyi uzaq et və onları hər cür pislikdən pak et». Elə həmin vaxt «Təthir» ayəsi nazil oldu. Ümmüssələmə deyir: mən dedim ya rəsulallah, mən də sizinləyəm? Peyğəmbər (s) buyurdu: «Sən xeyirli adamsan, amma bunlardan deyilsən».

Sələbi özünün «Kəbir» təfsirində Ayişədən nəql edir: Ayişədən Cəməl müharibəsi barəsində soruşdular, dedi: «Mən çox təəssüf edirəm bu müharibəyə görə». Amma Əli (ə)-ın barəsində soruşanda, belə dedi:

تَسْأَلُنِى عَن اَحَبِّ النّاسِ كانَ اَلى رَسُولِ اللهِ وَ زَوْجِ اَحَبِّ النّاسِ كانَ اِلى رَسُول اللهِ ْ رَأَيْتُ عَلِياً وَ فاطِمَةَ وَ حَسَنَاً و حُسَيْناً وَ جَمَعَ رَسُولُ اللهِ (ص) بِثَوْبٍ عَلَيْهِم، ثُمَّ قال: اللّهُمَّ هؤُلاءِ اَهلُ بَيْتى و حامَتى فاِذهَب عَنْهُمُ الرِّجْسَ وَ طَهِّرْهُمْ تَطْهيراً، قالَتْ: فَقُلْتُ يا رَسُولَ الله اَنا مِن اَهْلِك قال: فاِنّكِ إِلى خَيْرٍ وَلَسْتِ مِنهُمْ

«O, peyğəmbər (s)-in yanında ən sevimli adam idi. O, peyğəmbər (s)-in yanında, camaatın ən sevimlisi olan bir xanımın əri idi. Mən öz gözlərimlə gördüm peyğəmbər Əlini, Fatiməni, Həsən və Hüseyni bir parçanın altına toplayıb buyururdu: «Ilahi bunlar mənim əhli-beytim və mənim himayət edənlərimdir. Onlardan pisliyi uzaq et və onları paklandır». Ayişə deyir mən dedim: ya rəsulallah, mən də sənin əhlindənəm? Peyğəmbər (s) buyurdu: «Sən xeyirlisən, amma onlardan deyilsən».

2.«Hədisi Kəsa» dastanı həddindən artıq rəvayətlərdə müxtəlif ibarələrlə nəql olunubdur. Hamısı da ona dəlalət edir ki, peyğəmbər (s) Əlini, Fatiməni, Həsən və Hüseyni çağırıb üstlərinə əba və ya bir parça atıb dedi: «Ilahi, bunlar mənim əhli-beytimdirlər, pisliyi onlardan uzaq et» və bu zaman «Təthir» ayəsi («Əhzab» surəsinin 33-cü ayəsi) nazil oldu.

Bu hədisi «Səhihi Müslüm» 4-cü cild 1883-cü səhifədə Ayişədən, Hakim «Müstədrək» kitabında, Beyhəqi «Sünən»də, Ibni Cərir öz təfsirində, Suyuti «Dürrül Mənsur» kitabında nəql edibdir.

Hakim Həsəkani «Şəvahid əttənzil» kitabında (2-ci cild 33-cü səhifə, 376-cı hədis) qeyd edibdir. «Səhehi Termizi»də də bu hədis dəfələrlə Əli ibni Əbi Sələmədən, və Ümmüssələmdən nəql olunubdur.

Fəxri Razi «Mübahilə» ayəsinin (Ali Imran surəsi 61-ci ayə) təfsirində bu hədisi («Kəsa») nəql edəndən sonra yazır:

وَ اعْلَمْ اَنَّ هاذه الرِّوايَةَ الْمُتَّفَقُ على صِحَّتِها بَيْنَ اَهلِ التَّفسيرِ وَ الحَديثِ

«Bu rəvayətli hədis və təfsir alimlərinin arasında səhihliyinə ittifaq olunubdur».

Bu hədisi imam Əhməd Hənbəl «Müsnəd»inin 1-ci cildinin 330-cu səhifəsi, 4-cü cildinin 107-ci səhifəsi və 6-cı cildinin 292-ci səhifəsində müxtəlif yollarla nəql edibdir.

3.Bir çox rəvaytələrdən oxuyuruq ki, «Təthir» ayəsi nazil olandan sonra həzrəti peyğəmbər (s) neçə ay (doqquz aya qədər yazırlar) Fatiməni (s) evinin yanından sübh namazına gedərkən çağırırdı:

الصلاةُ یا اَهْلَ البَیتِ! اَنَّما یُریدُ اللهُ لِیُذهِبَ عَنْکُمُ الرِّجسَ اَهلَ البَیْتِ وَ یُطَهِّرَکُمْ تَطهیراً

«Ey əhli-beyt, namaz vaxtıdır: Allah-taala ancaq sizdən pisliкləri uzaqlaşdırmağı iradə edir və sizləri paklandırıb».

Bu hədisi Hakim-Həsəkani «Şəvahidəttənzil» kitabında Ənəs ibni Malikdən nəql edibdir: Həmən kitabda «7 ay» ünvanı ilə Əbil Həmradan bu barədə başqa bir hədis nəql edilibdir. Yenə də həmin kitabda Əbu Səid Xudridən «8 ay» ünvanı ilə bu barədə bir hədis nəql edibdir.

Bu ayənin təkcə peyğəmbər (s), Əli, Fatimə, Həsən, Hüseyn və onun nəslindən olan imamlara aid olmağında heç bir şübhə yeri qalmır. Çünki, ayə özü də buna dəlalət edir. Bundan əlavə də hədislər, xüsusən də peyğəmbərin həyat yoldaşlarının dilindən, xüsusən də Ayişənin özündən eşidilən hədislər və peyğəmbərin Fatimənin evinin qarşısında dayanıb onlara «Əhli-beyt» kəlməsi ilə müraciət etməsi, bu mətləbi çox aydın və dəqiq surətdə sübuta yetirir.

4. Əbu Səid Xudridən nəql olunan rəvayətdə oxuyuruq:

«Bu ayə («təthir») beş nəfərin-peyğəmbər (s), Əl, Fatimə, Həsən və Hüseynin barəsində nazil olubdur».

Bir sözlə, «təthir» ayəsinin və bu ayənin peyğəmbər Əli, Fatimə, Həsən və Hüseyn (ə)-a aid olması barədə islam mənbələrində olan hədislər, təvatür həddini keçmişdir. «Ihqaqul Həqq» kitabının şərhində 70-dən çox təkcə çünnü mənbəyi sayır ki, orada bu mətləbə dəlalət edən rəvaytələr vardır. Sonra əlavə edir: Əgər biz bu mənbələrin hamısını saysaq, 1000-dən çox olar. (Ihqaqul həqq»-2-ci cild səh.502-563)

«Bir neçə suala cavab»

1-ci sual: Əgər ayə o beş nəfəri nəzərdə tutursa onda qalan imamlar necə olur?

Cavab: Beş nəfər o zaman həyatda idilər, yaşayırdılar. Ona görə də onları nəzərdə tutur, qalan imamlar sonradan dünyaya gəliblər və başqa işlər kimi bu sifəti də peyğəmbər (s) və atalarından irs aparıblar.

2-ci sual: Məsumlar öz söhbətlərində və dualarında bəzən öz günahlarını etriaf etmişlər. Belə olan halda onları necə məsum hesab etmək olar?

Cavab: 1.Məsumların söhbətləri və duaları çox vaxt camaat üçün təlim mənbəyi olmuşdur. Onlar bu yolla insanları öz günahlarına etiraf edib, Allahdan bağışlanm ağın yollarını öyrətmişlər. Insanın xalq qarşısında özlərinin necə borclu olduğunu etiraf etməklərinin yolunu bildirmişlər. Hətta bəzi elmi məsələləri də dua vasitəsi ilə

insanlara çatdırıblar. Məsələn, Imam Səccad (ə) öz dualarının birində buyurur: «Ilahi, bu millətin içməli sularını vəba xəstəliyinin mikrobları ilə yoluxdurma».

Deməli biz bir vaxt peyğəmbər (s) və imamların kəlamında günaha etiraf etmək və bağışlanmaq xahiş etmək görsək, bilməliyik ki, bu onların günahkar olmağına dəlalət etmir.

Cavab: 2. Bəzi yerlərdə də məsumların günahı etraf etmələri göstərir ki, əgər Allahın lütfünə arxalanmasan heç bir nəticə əldə etmək olmaz. Həzrəti Yusif peyğəmbər o qədər çətin imtahanlardan çox əla dərəcədə çıxandan sonra buyurur: «Mən özümü paka çıxarmıram, həqiqətən nəfs insanı pisliyə əmr edəndir, məgər Allahım rəhm edə. Həqiqətən mənim Allahım bağışlayan və rəhm edəndir». («Yusif» surəsi, ayə-53).

Və yaxud Əli (ə) buyurur: Mən təkbaşına səhvlərdən uzaq ola bilmərəm, məgər Allahın mənə köməyi ola».

Bəli, bu sözlər Allahın insana olan lütfünü və mərhəmətini bəyan etmək üçündür. Bundan əlavə bu iş insanın özünün mərifəti və kamilliyindən əmələ gəlir. Nə qədər yüksəlsə də özünü Allah qarşısında borclu və ehtiyaclı bilir. Və bu yolla da bizi təkəbbürdən, özümüzü ehtiyacsız bilməkdən uzaqlaşdırırıq.

«Imamların xüsusiyyətləri»

Əvvəldə qeyd olundu ki, imamların vəzifələri çox yerdə peyğəmbərlərin vəzifələri ilə eynidir. Fəqət imamlara vəhy nazil olmur. Peyğəmbərlər dinin əsasını qoyurlar, imamlar isə onu davam etdirib, qoruyub saxlayırlar. Ona görə də peyğəmbərlərdə olan sifətlər imamlarda da olmalıdır. Peyğəmbərlərə məxsus olan sifətlər və xüsusiyyətlər eyni ilə də imamlara məxsusdur və bu sifətlər Qur'anda nazil olubdur. Biz də bu sifətlərə qısa şəkildə işarə edirik. Imamların «Ismət» və «Elm» məqamından başqa aşağıdakı xüsusiyyətləri də vardır:

1.Düz danışmaq. Əgər onlarda bu sifət olmasa camaatla onlar arasında mənəvi bağlılıq olmaz.

2.Vədələrə əməl etmək. Çünki, imamların dəvətlərinin mühüm hissəsi vədə verməkdən ibarətdir. Əgər vədələrinə vəfa etməsələr onda onlara etimad olunmaz. Nəticədə rəhbərlikləri sual altına düşər.

3.Əmanətdarlıq. Bu da mühüm olan əməllərdəndir.

4.Məhəbbət və ürəyi yanmaq, Imamın camaata həddən artıq ürəyi yanmalıdır. Onlara qarşı məhəbbətləri olsun. Insanların hidayət olmağında bütün əziyyətlərə dözsün. Insanların hidayət olunmağına hərislikləri olsun. Necə ki, imam Hüseyn (ə) Kərbəlada hər cürə əzablara və əziyyətlərə qatlaşdı. Yolunu azmışları düz yola gətirməkdən ötəri hər cür vasitələrdən istifadə etdi. Özünü peyğəmbərin (s) nəvəsi olduğunu elan edərək camaatın yadına peyğəmbəri salırdı, bəlkə onlar peyğəmbərin öz Əhli-beyti haqqında dediyi sözləri xatırlasınlar. Öz Əhli-beytinin susuz olmağını

elan edərək yolunu azmış insanlara mərhəmət göstərmək istəyirdi. Altı aylıq körpə balanı qucağına alıb düşmənin qabağına çıxanda, onlarda insana qarşı fitrətdə olan ölmüş məhəbbəti oyatmaq və bununla da onları hidayət etmək istəyirdi.

Bəli, rəhbərin bu qədər öz millətinə ürəyi yanması və bütün çətinliklərə qatlaşması lazımdır. Hətta bunu şəxsi məsələlərində də, gündəlik məişətində də icra etməlidir. Əli (ə)-dan soruşanda ki, sən nə üçün buğda çörəyi yemirsən, cavabında buyurur: «Çünki, mənim rəhbərlik etdiyim xalqın əsas hissəsi arpa çörəyi yeyirlər. Ona görə də mən arpa çörəyi yeyirəm»,

Əli (ə) bu işi (apra çörəyi yeməyi) ola bilər ki, iki səbəbə görə həyata keçirirdi. Biri bu idi ki, camaat özləri arpa çörəyini çətinliklə tapan halda öz rəhbərlərini rifahlı yaşayan görüb məyus olmasınlar. Başqa sözlə desək onlar imam tərəfindən səbrə, dözümlülüyə istiqamətləndirilən bir halda imamı belə firavan yaşayan görsələr, imama qarşı inamları azalar və onun dəvətinə məhəl qoymazlar.

Ikinci səbəb isə, əgər Imam Əli (ə) bu işi gizlin surətdə də etsəydi, yəni gizlində buğda çörəyi yesəydi, amma özünü arpa çörəyi yemiş adam kimi qələmə versəydi, onda sözünün təsiri olmazdı. Ona görə də o dünyaya üç dəfə tələq verərək, dünyanın halalından da çəkinirdi:

يَا دُنْيا تُخَادِعُنِى كَأَنِّى لَسْتُ أَعْرِفُ حَالَكَ حَزَرَ الْمَلِكُ حَرَامَهَا وَ اَنَا اجْتَنَبْتُ حَلاَلَهَا

«Ey dünya, məni aldadırsan, guya səni tanımıram. Allah-taala mənə sənin haramından çəkinməyi əmr edib, mən isə sənin halalından da çəkinmişəm».

5. «Ixlas». Əmələ gətirdikləri bütün işlər və əməllər sırf Allaha xatir olsun, dəvətinin müqabilində heç bir maddi təmənnası olmasın, yoxsa dəvəti cəzbedici olmaz.

6.Ehsan və yaxşılıq. Dosta və hətta düşmənə qarşı ehsan edib, yaxşılıq etsin və bağışlayan olsun. Necə ki, Əli (ə)-dan soruşanda ki, əgər sağ qalsan səni qılıncla vuran adamla necə rəftar edəcəksən? (Ibni Mülcəm, lənətüllahi əleyh) Həzrət Əli(ə) cavabında buyurur: «Mən onu əfv edirəm ki, Allah məni də bağışlayanlardan qərar versin».

7.Şücaət. Fövqəladə dərəcədə şücaətli olsun. Ilahi vəzifələri yerinə yetirməkdə heç kimdən qorxmasın, necə ki, Qur'an, Allahın risalətini təbliğ edənlərin başqasından qorxmayıb, yalnız Allahdan qorxmağı şərt bilir:

«Necə ki, onlar Allahın risalətini təbliğ edirlər və Allahdan qorxurlar, başqa heç kimdən qorxmazlar. Onlara Allahın hesab edib əcr verməyi kifayət edər».

8.Allaha təvəkkül etmək. Çox vaxt olur ki, ilahi bir rəhbər tək qalır. Mühitin fəsadı, batil əqidələr ətrafı ondan ayırır. Belə olan halda ilahi rəhbər Allaha təvəkkül edərək öz risalətinə əməl edir. Həzrəti Ibrahimi oda atanda hamı onun odda yanmağını istəyirdi, hamı onu düşmən bilirdi, hamı onu millətinə xəyanətkar kimi tanıyırdı. Amma, bunlara baxmayaraq Həzərəti Ibrahim özünün ilahi risalətini Allaha təvəkkül edərək əla dərəcədə yerinə yetirdi. Hətta odun içində, alovların arasında olan halda Cəbrail onun yanına gəlib soruşdu: Nədən ehtiyacın var? Ibrahim

buyurdu: Ehtiyacım var, amma sənə yox. Cəbrail dedi: Onda Allahdan istə. Ibrahim dedi: Allahımın mənim bu vəziyyətimə alim olması, mənim ona vəziyyətimi deməyimdən çox-çox üstündür.

Elə bu vaxt Allah tərəfindən oda əmr olundu:

«Ey od! Ibrahimə sərin və salamat ol». Odur ki, bir vaxt gördülər həzrəti Ibrahim gözəl bir çəmənlikdə əyləşib.

Bəli, Allaha təvəkkül etməyin aqibəti budur. Biz bir anlığa Kərbübəla səhrasına nəzər yetirsək, imam Hüseyn (ə)-ın vəziyyətinə baxsaq, orada Allaha təvəkkül etməyi görərik. On minlərlə düşmən qoşunun qarşısında, ancaq 72 nəfər. Onlar da şəhid oldu, Imam tək qaldı. Düşmən tərəfindən xəbər gəldi: Ey Hüseyn bütün köməklərin əlindən gedib, nə qədər ki, sağsan təslim ol. Amma Həzrəti Imam Hüseyn(ə) onların cavabında buyurdu:

Ey kaş yüz on dörd ola oğlum mənim Allah.

Bir-bir verəm hər sureyi-Furqan əvəzində.

9.Xoş xasiyyət və gözəl əxlaq. Qur'ani-Kərim Ilahi rəhbərlərin əxlaqından söz açanda onları böyük əxlaq sahibi kimi qələmə verir. Onların böyük qələbəsini bu xasiyyətləri ilə əlaqələndirir. Insanlara qarşı yumşaq rəftara çağırır. Bir gün Şam (Dəməşq) şəhərindən bir nəfər Mədinəyə gəlib Imam Həsən (ə)-a nalayiq sözlər dedi. O adam Müaviyə məlunun təbliği vasitəsilə ali-Əliyə qarşı belə fikrə düşmüşdü. Imam Həsən (ə) onun cavabında buyurdu: Görürəm qəribsən, uzaq yol gəlibsən,

yorğunsan, isti sənə təsir edib, gedək bizə istirahət et. Onu evinə apardı, ona xidmət etdi. Bunu görən qonaq həqiqətdən xəbərdar oldu və dedi: And olsun Allaha ki, o özü bilir kimi imam seçmək olar. Imamdan halallıq alıb evinə qayıtdı.

10.Çətin imtahanlarda qalib gəlmək. Bildiyimiz kimi Ilahi rəhbərlərin imtahanı adi insanların imtahanından çox fərqlidir. Onların imtahanı bizə nisbət çətin olur. Odur ki, bu imtahanlardan çıxmaq, onların xüsusiyyətlərindən biridir.

Qur'ani-Kərimdə imam olmağın şərtlərindən birincisi imtahandan başı uca çıxmaqdır. Necə ki, Həzrəti Ibrahim imtahanlardan qalib çıxandan sonra Allah onu xalqa imam qərar verdi.

«Imamların və peyğəmbərlərin

təkvini vilayəti»

Bildiyimiz kimi «vilayət» sözü rəhbərlik və imamət mənasınadır. Bir qədər də sadə desək, hər hansı bir işi öhdəyə götürməyə vəlilik deyilir. Peyğəmbərin və imamın vilayəti deyəndə, çünki onlar Allah tərəfindən camaata rəhbərlik edib dünya və axirət məsələlərini onlara çatdırmağı ohdələrinə alıblar, ona görə də deyilir: «Peyğəmbərin vilayəti» və ya «Imamın vilayəti».

Vilayət iki qismə bölünür:

1.Təşrii vilayət

2.Təkvini vilayət

Təşrii vilayət deyəndə ilahi rəhbərlik, qanunu rəhbərlik nəzərdə tutulur. Bu, bəzən kiçik miqyasda olur. Məsələn: atanın və ya babanın kiçik uşağın üzərində olan vilayəti kimi. Bəzən də böyük miqyasda olur. Məsələn: Imamın və ya peyğəmbərin insanların üzərində olan vilayəti kimi.

Amma «təkvini» vilayət belədir: Bir nəfər Allahın əmri və icazəsi ilə xilqət aləmində və təbiətdə təsərrüf edir. Sadə dillə desək, qeyri-adi işlər və təbii qanunların cərəyanına xilaf olan işlər əmələ gətirə bilir. Məsələn: Allahın icazəsi ilə müalicəsi mümkün olmayan xəstəliyi müalicə etmək, yaxud ölünü diriltmək və bu kimi qeyri-adi işlər.

Təkvini vilayətin qəbul olunmuş və bizim bəhsimizə uyğun olan iki qismi vardır. 1-ci «Təkvini vilayət» müəyyən miqyasda. Məsələn: Ölüləri diriltmək və ya müalicəsi mümkün olmayan xəstəlikləri müalicə etmək kimi. Bu əqli cəhətdən mümkün olan bir məsələdir. Çünki, Allahın hər şeyə qüdrəti vardır. Belə imkanatı da biz insanlara Allah-taala verir. Bundan əlavə bu haqda Quranda və hədislərdə çoxlu nümunələr vardır ki, onlar da bizə «nəqli» dəlildir. «Təkvini vilayət»-bir məqsədə nail olmaqdan ötrü duadan istifadə etmək yolu. Bu cür formalı vilayətin də heç cür əqli və nəqli müşkülü yoxdur, yəni həm əql ilə qəbul olunandır. Belə ki, Allah-taala sevdiyi insanların səsini (duasını) eşidir və onların istədiyini yerinə yetirir. Eyni zamanda nəqli cəhətdən də bir çox ayə və hədislərimiz vardır ki, oxuyarkən görürük peyğəmbərlər və ya imamlar dua edərək Allahdan bir hacət istəyiblər, Allah da verib.

Məsələn: Saleh peyğəmbər Allahdan istədi ki, bu qayadan bir dəvə çıxsın, Allah da onun istədiyini verdi və o dəvə Saleh peyğəmbərin möcüzəsi oldu. Belə misallar çoxdur. Biz də onların bəzilərini bu yazıda qeyd edirik və yuxarıda dediyimiz iki qism «vilayəti təkvini» haqda söhbət açırıq.

Əvvəlcə bu barədə olan ayələrə müraciət edək, sonradan hədislərdən istifadə edərik.

وَيُعَلِّمُهُ الْكِتَابَ وَالْحِكْمَةَ وَالتَّوْرَاةَ وَالإِنجِيلَ وَرَسُولاً إِلَى بَنِي إِسْرَائِيلَ أَنِّي قَدْ جِئْتُكُم بِآيَةٍ مِّن رَّبِّكُمْ أَنِّي أَخْلُقُ لَكُم مِّنَ الطِّينِ كَهَيْئَةِ الطَّيْرِ فَأَنفُخُ فِيهِ فَيَكُونُ طَيْرًا بِإِذْنِ اللهِ وَأُبْرِىءُ الأَكْمَهَ والأَبْرَصَ وَأُحْيِي الْمَوْتَى بِإِذْنِ اللهِ وَأُنَبِّئُكُم بِمَا تَأْكُلُونَ وَمَا تَدَّخِرُونَ فِي بُيُوتِكُمْ إِنَّ فِي ذَلِكَ لآيَةً لَّكُمْ إِن كُنتُم مُّؤْمِنِينَ

«Həqiqətən mən (Həzrəti Isa) Allahınız tərəfindən sizə hikmətlər gətirmişəm, mən palçıqdan quş heykəlləri yaradıb onlara öz nəfəsimlə ruh verirəm. Onlar da Allahın izni ilə quş olurlar. Mən anadangəlmə korlara və «bərəs» (ana xəstəliyi) xəstəliyinə mübtəla olanlara müalicə edirəm, ölüləri dirildirəm, yediyinizdən və evlərinizdə saxladığınızdan sizə xəbər verirəm, yəqinən bunlar hamısı əlamətləridir, əgər imanınız olsa» (Ali Imran surəsi, ayə 48-49)

2. فَسَخَّرْنَا لَهُ الرِّيحَ تَجْرِي بِأَمْرِهِ رُخَاء حَيْثُ أَصَابَ

«Biz küləyi onun itaətinə gətirdik (Həzrəti Süleymanı) ta onun əmri ilə aram hərəkət etsin və o, hara istəsə hərəkət etsin». (Sad surəsi, ayə-36).

3. قَالَ الَّذِي عِندَهُ عِلْمٌ مِّنَ الْكِتَابِ أَنَا آتِيكَ بِهِ قَبْلَ أَن يَرْتَدَّ إِلَيْكَ طَرْفُكَ فَلَمَّا رَآهُ مُسْتَقِرًّا عِندَهُ قَالَ هَذَا مِن فَضْلِ رَبِّي لِيَبْلُوَنِي أَأَشْكُرُ أَمْ أَكْفُرُ وَمَن شَكَرَ فَإِنَّمَا يَشْكُرُ لِنَفْسِهِ وَمَن كَفَرَ فَإِنَّ رَبِّي غَنِيٌّ كَرِيمٌ

«Amma kitab (asimani) elmindən birini bilən bir adam dedi: Mən onu (Bilqeysin taxtını), sən gözünü qırpmamış gətirirəm. O, (Süleyman) taxtı yanında görəndə dedi: Bu mənim Allahımın fəzlindəndir. Məni imtahan edir ki, mən şükr edənəm ya yox. Kim şükr etsə öz xeyrinədir. Hər kəs küfr etsə öz ziyanına və Allah-taala ehtiyacsız və kərimdir» (Nəml surəsi, ayə-40).

Birinci ayədə (Ali Imran-48-49) Allah-taalanın həzrəti Isaya olan xüsusi inayətlərindən söz açır və ona kitab, hikmət, tövrat və Incili təlim etməkdən, sonra bəni israilə peyğəmbər göndərilməyindən, quşa can verməyindən və ölüləri driltməyindən danışır. Diqqət edərkən görürük ki, quşa can verməyi, Həzrəti Isa, Allaha nisbət verir. O biri işləri isə özünə nisbət verir. «Vilayəti təkvini» elə bu özüdür. Allah-taala insana bu qüdrətləri verir, insan da onun vasitətsi ilə aləmdə və onun təbii qanunlarında təsir qoyur. Bu, təkvini vilayətin bir nümunəsidir ki, Allah həzrəti Isaya əta etmişdir və bu vilayəti başqa peyğəmbərlərə və imamlara verməyin heç bir maneəsi yoxdur.

Bir fikri diqqətə çatdırmaq istərdik: Bu işin (vilayəti təkvinin) dua vasitəsi ilə, yaxud əvvəlcədən bir adama verilməsinin elə bir fərqi yoxdur. Çünki hər ikisi əslində Allaha qayıdır və hər iki halda qüdrəti insana Allah verir.

Ikinci ayədə Həzrəti Süleymana küləyin itaətindən söhbət edir. Buyurur: «Biz küləyin ixtiyarını Süleymana verdik ki, onun əmri ilə hərəkət etsin, o istədiyi səmtə getsin». Bu və başqa ayələrdən istifadə olunur, o cürə ki, şəyatin Süleymanın əmri ilə quruda

və dəryada mühüm işləri əmələ gətirirdilər, külək də onun əmri ilə hərəkət edirdi. Bu da vilayəti təkvindən başqa bir nümunədir. Bundan əlavə Həzrəti Musanın daşa əsa ilə vurub su çıxarması (Bəqərə surəsi.60) və ya Nil çayına əsanı vurub çayı neçə yerə bölməsi (Şüəra surəsi.63) «təkvini vilayət»dir.

Bir sözlə, hər bir yerdə ki, Allah-taala öz xas bəndələrinə təbiət qanunlarını dəyişmək qüdrətini verir, o, «vilayəti təkvinin» mistaqlarındandır.

Yeri gəlmişkən deməliyik ki, Həzrəti Mühəmməd (s) bəşəriyyətin ən əşrəfi olan halda, onun möcüzələri və «təkvini vilayəti» daha artıqdır. Məsələn: Qur'anın özünün, məktəb görməyən bir adamın dilindən cari olması, qeyri-adi bir işdir ki, təbii qanun ilə ziddir (təbii qanunla gərək insan məktəb görə, sonra belə bir elmi əxz edə), yaxud ayı iki yerə bölmək ki, tarixdə «şəqqül qəmər» adı ilə məşhur olub və ya «rəddüşşəms» (Günəşi qaytarmaq). Günəşin qayıtmasının cərəyanı belə olub. Bir gün həzrəti peyğəmbər (s) başını Əli (ə)-ın dizi üstə qoyub yuxuya gedir. Bu hadisə Xeybər yaxınlığındakı Səhba adında bir yerdə baş verir. Əli (ə) iş ardınca gedərkən peyğəmbər (s) namazını qılmışdı, amma Əli (ə)-ın namazı qalırdı. Peyğəmbər (s) o zaman yuxudan ayıldı ki, gün qürub etmişdi, odur ki, dua edərək buyurdu:

اللّهُمَّ اِنَّ عَبْدُكَ عَلِيّاً اِحْتَبَسَ نَفْسَهُ عَلى نَبِيِّهِ فَرَدَّ شَرْقَها

«Ey Allahım, həqiqətən sənin bəndən Əli peyğəmbərin xidmətində idi, günəşi ona görə qaytar».

Bu vaxt günəş qayıtdı və Əli (ə) namazını qıldı. Buna oxşar bir hadisəni Əsma da nəql edibdir. Demək olar ki, bu hadisə bir neçə dəfə təkrar olunub. Bu hadisəni Əxtəb Xarəzmi, Ibni Cuzi, Mühübbüddin Təbəri, Gənci Şafei, Zəhəbi və başqa otuz nəfər bunlar kimi sünnü alimi öz kitablarında nəql ediblər. Onlardan biri olan Şəbləncı özünün «Nurul Əbsar» kitabında peyğəmbərin möcüzələri sayında bu hadisəni «rəddüşşəms» başlığı altında qeyd edibdir.

Bu hadisəni yazmaqda məqsədimiz peyğəmbər (s) və onun əhli-beytinin vilayəti-təkviniyə malik olmalarına bir işarə etmək idi.

Qayıdaq yenə mövzumuzun əvvəlinə, hansı ki, iki ayə barəsində danışmışdıq. Üçüncü ayədə həzrəti Süleymanın vəzirinin barəsində söhbət gedir. Onun adı Qur'anda çəkilmir, amma sifəti qeyd olunur: Necə ki, Qur'an buyurur: «O kəs ki, kitab elmindən biri onun (bilirdi) yanında idi».

O vaxt ki, həzrəti Süleyman öz əshabına xitab etdi; kim Səba məlәkəsinin taxtını gətirər, biri dedi, sən bu məclisdən durana qədər gətirrəm. Amma başqa bir nəfər ki, elmi-kitabın birini bilirdi, Süleymana dedi: mən onu gətirrəm sən gözünü yumana qədər. Həzrəti Süleyman o anda taxtı yanında gördü və buyurdu: «Bu mənim Allahımın fəzlindədir» (ki, mənim dostlarıma bu qüdrəti veribdir).

Məşhur olan budur ki, o şəxs ki, kitab elminin birini bilirdi, Asəf ibni Bərxaya, həzrəti Süleymanın vəziri idi. Bəzi təfsirçilərin yazdıqlarına görə o, həzrəti Süleymanın bacısı oğlu idi, nübuvvət məqamı var idi, həzrəti Süleymanın canişini idi.

Həzrəti Süleyman bu işi belə etməklə onun məqamını bildirmək istəyirdi, yoxsa Süleyman özü də həmən işi bacarardı. Hər kim idisə bu şəxs, Allahın sevdiyi şəxslərdən biri idi. Kitab elmindən birini bilməklə təbiətdə təsərrüf edirdi, yəni «təkvini-vilayəti» var idi ki, onun vasitəsi ilə qeyri-adi işlər əmələ gətirirdi.

Bəli, qeyd etdik ki, Həzrəti Süleymanın vəziri kitab elmindən birini bildiyi üçün belə məqama sahib idi. Amma Əli (ə) kitab elminin hamısını bilirdi. Necə ki, Qur'anın «Rəd» surəsinin 43-cü ayəsində buyurulur: «Kafirlər deyəcək, sən peyğəmbər deyilsən. De; Mənim peyğəmbərliyimə Allah şahiddir və o adam şahiddir ki, kitab elminin hamısını bilirdi».

Yerində hədis və rəvayətlərlə də sübut olundu ki, bu şəxs ki, elmi-kitabın hamısını bilirdi, Əli (ə) idi. O biri imamlar da ondan irs apararaq o elmə malik oldular.

Beləliklə dediklərimizdən və yuxarıda qeyd olunan ayələrdən məlum oldu ki, «təkvini-vilayət» Qur'anın nəzəri ilə də mümkün və qəbul olunan bir işdir.

«Təkvini-vilayət» islam hədislərində

Islami rəvayətlərdə möcüzələr haqqında çoxlu söhbətlər açılmışdır. Onlar da «təkvini-vilayətə» dəlalət edirlər. Yəni bu hədislərdə qeyd olunan o hadisələrin vücuda gəlməsi, təkvini-vilayət vasitəsi ilədir. Belə məqamlar çoxdur. Biz də onların bəzilərinə işarə edək.

1. «Nəhcül-bəlağədə» Əli (ə) «Qasiə» adlı bir xütbədə buyurur: «Mən peyğəmbərin (s) yanında idim. Qüreyş başçıları onun yanına gəldilər və dedilər, sən çox böyük iddiadasan. Əgər doğrudan da peyğəmbərsənsə bizə möcüzə göstər. Həzrəti peyğəmbər(s) buyurdu: Mən sizə möcüzə göstərəcəyəm, amma siz iman gətirməyəcəksiz. Sizlərdən biriniz quyuya (bədr quyusuna) atılacaqsız, biriniz isə Əhzab müharibəsini təşkil edəcəksiz. Sonra həzrəti peyğəmbər ağacı çağırdı: Ey ağac, əgər Allaha, qiyamət gününə iman gətiribsənsə və mənim peyğəmbərliyimi qəbul edibsənsə onda yerdən köklərinlə çıx, mənim yanıma gəl.

Əli (ə) buyurur: «And olsun Allaha, ağac kökqarışıq yerdən çıxdı və həzrəti peyğəmbərə (s) tərəf gəldi. Ağacın budaqları quşun qanadı kimi qanad çalırdı. Mən peyğəmbərin (s) sağ tərəfində idim. Müşriklər təkəbbürlə dedilər: Əmr elə ağac yarı bölünsün, bir hissəsi sənin yanında dayansın. Sonra dedilər: Əmr et bu hissə də getsin yerinə, o biri hissəyə yapışsın. Həzrəti peyğəmbər (s) deyilənlərin hamısını əmələ gətirdi. (Biz xütbənin demək olar ki, məzmununu yazırıq). Sonda onlar dedilər: Bu böyük bir sehrdir, sən özün də mahir bir sehrbazsan. Ey Mühəmməd sənə bunun kimilərdən (Əli (ə) buyurur: məni göstərdilər) başqa heç kim inanmaz.

Bu xütbədə müşahidə etdiyimiz işlərin hamısı həzrəti peyğəmbər (s)-də olan «təkvini-vilayətə» sübutdur.

2.Mərhum Əllamə Məclisi «Bəharül Ənvar» kitabında həzrəti Salmandan nəql edir: Peyğəmbər (s) Mədinəyə hicrət edəndə onun kimin evində qalması üstündə

söhbət düşdü. Hamı istəyirdi peyğəmbəri (s) öz evinə aparsın. Həzrəti peyğəmbər (s) buyurdu: Dəvənin cilovunu buraxın, o özü hara gedəcəyinə əmr olunmuşdur. Dəvəni buraxdılar, o gedib Əbu Əyyub Ənsarinin evinin qabağında dayandı. Əbu Əyyub qışqırdı: ay ana qapını aç, bəşərin seyyidi bizə gəlib. Anası qapını açdı. Gözlərinin kor olmasından təəssüf etdi ki, peyğəmbərin nurani cəmalını görə bilmirəm. Həzrəti peyğəmbər (s) onun gözlərinə işarə etdi, gözləri açıldı. Bu, Mədinədə həzrəti peyğəmbərin (s) birinci möcüzəsi idi.

Bu da «vilayəti-təkvini» bir nümunəsi idi.

3.Bu hədis də sünnü və şiə kitablarında çox məşhurdur: Xeybər müharibəsində neçə nəfər sərkərdələrdən getdilər, amma qalanı fəth edə bilməyib qayıtdılar. Həzrəti peyğəmbər (s) buyurdu: «Sabah bayrağı bir adama verəcəyəm ki, o, Allahı və peyğəmbəri sevir, Allah və peyğəmbər də onu sevirlər. Allah-taala onun əli ilə qələbəni bizə verəcək». Həzrəti peyğəmbər (s) Əli (ə)-ı çağırdı. Bu vaxt Əli (ə)-ın gözləri ağrayırdı. Həzrəti peyğəmbər (s) ağzının suyundan onun gözlərinə çəkdi, gözləri sağaldı və ömrünün axırına qədər bir də xəstələnmədi.

Bu hədis də göstərir ki, Həzrəti peyğəmbər (s) öz təkvini-nüfüzü ilə-Allahın icazəsi ilə – Əli (ə)-ın gözlərini sağaltdı.

4. Əmirəlmöminin Əli (ə)-ın həyatında yazılıbdır: O həzrətin (Əlinin) zamanında Fərat çayı daşardı. Camaat qorxuya düşmüşdülər. Əli (ə)-ın yanına gələrək dedilər:

ya Əli, biz qərq olmaqdan qorxuruq. Çünki o qədər Fəratın suyu qalxıb, heç vaxt belə vəziyyətdə olmayıb.

Əli (ə) atını mindi və camaatla birlikdə Fəratın sahilinə gəldilər. Doğrudan da Fərat çox qorxulu idi. Əmirəlmöminin Əli (ə) «Ibrani» dilində nə isə dedi. Birdən su bir miqdar aşağı endi. Həzrət camaata üzünü tutub soruşdu: Kifayətdirmi? Dedilər: bir az da, ya əmirəlmöminin! Həzrət əlindəki əsa ilə suya vurdu. Su çox endi. Camaat sevincək halda evlərinə qayıtdılar». Bu iş də «vilayəti-təkvin»dən başqa bir şey deyildir.

5.Yenə əmirəlmöminin Əli (ə)-ın haqqında oxuyuruq: Bir vaxt o həzrət Kufənin yaxınlığından keçirdi. Bir dəstə yəhudi ona yaxınlaşıb soruşdu: Sən imam Əli ibni Əbutalibsən. Həzrət buyurdu: Bəli, mənəm. Dedilər: biz kitablarımızda bir parça daş haqqında oxumuşuq ki, onun üsütündə altı nəfər peyğəmbərin adı yazılıb. Amma onu tapa bilmirik. Əgər imamsansa, onu bizim üçün tap. Həzrət Əli (ə) buyurdu: Mənim ardımca gəlin. Cəmiyyət o həzrətin ardınca hərəkət etdilər, səhraya yetişdilər. Burada çınqıldan bir təpə var idi. Imam buyurdu:

اَیَّتُهَا الرِیحُ اِنسِفی الرَّمْلَ عَنِ الصَّخْرَةِ بِحَقِّ اِسْمِ اللهِ الأَعْظَمِ

«Ey külək, Allahın Ə'zəm adının haqqına, çınqılları daşın üstündən kənar et». Çox keçmədi ki, külək əsdi və çınqılları daşın üstündən təmizlədi. Daş göründü.

Bundan əlavə, islam mənbələrində çoxlu belə hədislər qeyd olunubdur ki, hamısını yazmağa imkanımız yoxdur. Bu ayələr və hədislər aşkar surətdə göstərir ki, bu

insanlar Allahın izni ilə təbiət aləminə dəlalət edib, onun qanunlarının əleyhinə olan işlər əmələ gətiriblər. Bu da peyğəmbər və imamların «təkvini vilayətləri»-dir.

Bu bəhsin «şəfaət» bəhsinə bəzi cəhətlərdən, bəlkə də çox cəhətdən, oxşarlığı olduğu üçün istərdik ki, bir qədər də «Şəfaət» bəhsindən söhbət açaq.

«Şəfaət»

Şəfaət bəhsi bu günlərdə çox iradlara, mübahisələrə məruz qalmış bir məsələdir. Məsələni düzgün başa düşən və ya düşməyən, hərə bir cəhətdən bu bəhsə girişib. Amma, bu məsələ bir qədər ciddi olduğundan, gərəkdir ki, geniş surətdə araşdırılsın, sonra onun haqqında fikir yürüdülsün. Min illərlə müsəlmanların əqidəsinə çevrilmiş və həqiqətən də ayə və hədislərin təsdiq etdiyi bu bəhs bu günkü cəmiyyəti düşündürə biləcək bir məsələdir. Bu bəhsə daxil olmaqdan əvvəl həmin bəhsin «vilayəti-təkvin» bəhsinə oxşarlığına işarə etmək istərdik. Həmin oxşarlıq bundan ibarətdir. «Vilayəti-təkvini» də Allah tərəfindən verilmiş bir nemətdir, həmçinin, şəfaət etmək də Allah tərəfindən verilmiş bir qüvvədir. Insanlar Allah yanında o qədər fəzilət qazanır ki, Allah-taala ona günah əhlinə şəfaət etmək icazəsini verir. O cürə ki, vilayəti təkvini ilə bəzi təbii qanunlara dəxalət edirlər, eyni ilə həmin formada da şəfaət edən bəzi günahkarların günahının bağışlanmasına dəxalət edir, əlbəttə ki, Allahın razılığı ilə. Buna da heç bir irad varid deyil. Gəlin əvvəlcə bu bəhsi başlayaq, sonra irad və rəddləri gətirərik və məsələni qoyaq oxucunun öz

ixtiyarında, görsün, hansı dəlil onun üçün üstündür onu qəbul etsin. Odur ki, hamıdan yaxşı görək Qur'anımız bu barədə bizə hansı yolu göstərir.

Quran və şəfaət məsələsi

Şəkk yoxdur ki, ilahi cəzalar (Allah tərəfindən verilən cəza və əzab) istər bu dünyada, istərsə də qiyamət günündə, intiqam qəsdi ilə deyil. Onlar həqiqətdə qanunları icra etməyi və insanları kamilliyə aparmaq üçün bir vasitədir. Sadə sözlə desək, insanları bu cəzaların vasitəsi ilə qorxudub, günahdan çəikndirmək üçündür. Başqa tərəfdən də islah və tövbə yolunu insanların üzünə bağlamaq olmaz. Gərək günahkarlara imkan yaradılsın ki, Allaha və paklığa tərəf qayıtsınlar.

Şəfaət (düzgün mənada izah olunan şəfaət) həqiqətdə yuxarıda qeyd etdiyimiz hədəfi nizamlamaq üçündür, yəni günahkarın düzgün yola qayıtmağı üçün bir vəsilədir. O adamlar ki, şəfaətin müxtəlif cəhətlərini və səheh məhfumlarını bir-birindən ayıra bilməyiblər, onu inkar edirək bir növ rüşvətə oxşadıblar, yaxud da vəhhabilər kimi Quranın başqa ayələrinə diqqət etmədən «Bəqərə» surəsinin 47-ci ayəsini («O gündən qorxun ki, o gündə heç kimin şəfaəti qəbul olunmayacaq) əllərində əsas tutaraq şəfaəti kökündən inkar ediblər.

Səfaətə müxalif olanların iradlarını neçə mətləbdə xülaə etmək olar:

1.Şəfaətə inanmaq insanın çalışqanlığını zəiflədir.

2.Şəfaətə inanmaq geridə qalmış cəmiyyətlərin mənfi təsiridir.

3.Şəfaətə inanmaq günaha düşməyə və məsuliyyətdən qaçmağa səbəb olur.

4.Şəfaətə inanmaq bir növ müşriklik və Qur'an ilə zidd olmaqdır.

5.Şəfaətə inanmağın mənası Allah hökmlərinin, Allah əmrlərinin və Allahın iradəsinin dəyişilməsidir.

Amma gələcəkdə qeyd edəcəyik ki, bu iradların hamısı, Quran məfhumu cəhətindən olan şəfaəti avam camaat arasında yayılmış səhv şəfaətlə qarışdırmaqdan əmələ gəlir.

Şəfaət məsələsi sübut tələb edən əhəmiyyətli bir məsələ olduğu üçün gərəkdir geniş surətdə şəfaət məfhumunun fəlsəfəsi, təkvin aləmində şəfaət, Qur'an və hədisdə şəfaət, tohid, şirk və şəfaət barədə bəhs olunsun ki, yuxarıda dediyimiz ayə («Bəqərə» 48) və başqa deyəcəyimiz ayələrdəki ehtimal olunan şübhə aradan götürülsün.

1.Şəfaətin həqiqi məfhumu

Şəfaət kəlməsinin kökü (ثفع) kəlməsindən tutulub, bir şeyi başqasına yapışdırmağa deyilir. Sonradan artıq və qüvvətli fərdi zəif bir fərdə kömək etmək mənasına işlədilibdir. Bu sözün ürfdə və şəridə iki müxtəlif mənası vardır.

1-ci – ümumi dildə şəfaət edən öz nüfuzundan istifadə edərək qüdrət sahibinin əlinin altında olan cəza sahibinə qarşı fikrini dəyişdirir. Bəzən öz nüfuzundan, bəzən də ondan olan qorxudan istifadə edib bu işi görür, bəzən də cəza çəkən səhvən bu

cəza ilə ittiham olunur. Burada şəfaət edənin fikri və istəyi ilə bu iş baş tutur. Bu cürə şəfaət etmək heç bir məzhəblərdə məna tapa bilmir. Çünki Allah-taala heç kəsdən qorxmur və nə də ki, Allah-taala səhvən birinə cəza vermir ki, kiminsə təsiri ilə öz səhvini başa düşə.

2-ci məna şəfaətdə isə şəfaət olunanın məqamının dəyişməsi səbəbinə şəfaət baş verir. Yəni şəfaət edən bəzi səbəbləri vücuda gətirir və onun nəticəsində pis mövqedən yaxşı bir mövqeyə keçəsi olur. Özünü bir vəziyyətə salır ki, bağışlanmaq şansı onda vücuda gəlir. Bu vəziyyət onda şəfaət edənələ əlaqə yaratmaqdan əmələ gəlir. Islam məntiqində bu şəfaət qəbul olunmuş şəfaətdir və gələcəkdə görəcəyik ki, bütün iradlar 1-ci məna şəfaətə aiddir. Çünki, ikinci məna şəfaət məntiqi mənaya malik olan və insanı islah edən bir şəfaətdir.

2.Təkvin aləmində şəfaət

Yaradılış (təkvin) aləmində də şəfaət (ikinci mənaya olan şəfaət) çoxdur. Bu dünyanın qüvvətli varlıqları zəif varlıqlarına köməklik edərək onları inkişaf yollarına aparırlar. Günəş çıxır, yağış yağır və torpaqda olan toxumların daxili istedadlarını işə salıb ilkin həyat budaqlarını göyərdir, qara torpaqları işıqlı həyata tərəf sövq etdirirlər. Bu səhnə həyatda bir növ təkvini şəfaətdir. «Təşrii» həyatda (qanuna əməl edib inkişaf edən hyat) da bunun kimi, qüvvətlilər zəiflərə kömək edərək onları zülmətdən uzaqlışdırıb nura tərəf çəkirlər. Bu barədə geniş şəkildə tezliklə oxuyacağıq.

3.Şəfaətin sənədləri

Indi isə şəfaətin olması barədə əlimizdə olan bir nömrəli dəlil və sənədlərə diqqət edək.

Quranda şəfaət barədə təqribən otuz yerdə bəhs olunubdur. (Əlbəttə bunlardan əlavə də bəhslər və işarələr vardır ki, şəfaət məsələsinə dəlalət edir). Qur'anda bu barədə olan ayələri neçə hissəyə bölmək olar: birinci hissə o ayələrdir ki, mütləq surətdə şəfaəti nəfy (inkar) edir. Məsələn, «Bəqərə» surəsinin 254-cü ayəsində buyurulur: «Sizə ruzi olunanlardan nəfəqə edin, o gün ki, onda nə alver ilə, nə dostluq ilə, nə də ki, şəfaət ilə sizə köməklik olmayacaq, o gün gəlməmişdən qabaq».

Və yaxud, yenə «Bəqərə» surəsinin 48-ci ayəsində buyurulur:

«O gün şəfaət qəbul olunmayacaq».

Bu ayələrdə günahkarların iman və saleh əməldən başqa nicat yollarının olmadığı vurğulanaraq göstərilir ki, siz nə bir şey ödəməklə, nə dostluqla, nə də ki, şəfaət vasitəsilə nicat tapa bilməyəcəksiniz.

Bir tərəfdən şəfaətin olmaqlığını elə bu ayələrdən də bilmək olar. Belə ki, ayədə o adamlara ki, deyilir sizə şəfaət edən olmayacaq deməli belə çıxır ki, kimlərəsə şəfaət edən olacaq.

«Müdəssir» surəsinin 48-ci ayəsi də bu təriq ilədir. Orada da günahkarların bir dəstəsinə bildirilir ki, şəfaət edənlərin şəfaəti sizə fayda verməyəcək: وَ لاَ تَنْفَعُهُمْ شَفاعَةُ الشافعين

«Onlara şəfaət edənlərin şəfaəti fayda verməyəcək».

Bu ayədəki «şəfaət edənlər» kəlməsi onu göstərir ki, şəfaət edənlər vardır, amma bəzi günahkarlara şəfaət etməyəcklər.

Ikinci qism ayələr şəfaət etməyi ancaq Allahın özünə məxsus edir. Məsələn: «Səcdə» surəsinin 4-cü ayəsində

ما لَكُمْ مِن دُونِهِ وَ لِيَّ وَ لا شَفِيعٌ

«Allahdan başqa sizin şəfaət edəniniz yoxdur», yaxud «Zumər»

قُلْ للهِ الشَّفاعَةَ جميعاً

«Bütün şəfaətlər Allaha məxsusdur»-deyə şəfaətin olduğu bildirilir. Bu mənada ki, Allah özü şəfaət edəndir. Deməli şəfaət olunacaq ki, Allah da özünü bu ayələrdə şəfaətedici kimi tanıtdırır.

Üçüncü qism ayələrdə isə şəfaəti Allahın icazəsinə bağlayır. Məsələn: «Bəqərə» surəsinin 255-ci ayəsində buyurulur:

مَن ذَا الَّذِي يَشْفَعُ عِنْدَهُ إِلاَّ بِإِذْنِهِ

«Hansı adam Allahın icazəsi omladan şəfaət edə bilər» və yaxud «Səba» surəsinin 23-cü ayəsində buyurulur: وَلَا تَنفَعُ الشَّفَاعَةُ عِندَهُ إِلَّا لِمَنْ أَذِنَ لَهُ

«Allah icazə verənlərdən başqa heç kimə şəfaət mənfəət verməyəcək».

Bu ayələr də şəfaətin olmasına bir növ dəlildir. Necə ki, buyurulur: Şəfaət Allahın icazəsi ilə olmalıdır. Deməli, şəfaət var ki, Allah da kimlərəsə onun icazəsini verir.

Dörüdnücü qism yələrdə şəfaət olunanlar üçün bəzi şərtləri qeyd edir. Bu şərtlərdən birini Allahın rizayəti elan edir. Məsələn: «Ənbiya» surəsinin 28-ci ayəsində deyilir: وَلَا يَشْفَعُونَ إِلَّا لِمَنِ ارْتَضَى

«Şəfaət etməyəcəklər məgər o şəxsələrə ki, Allah onlardan razıdır». Yəni şəfaət edənlərin şəfaəti o adamlara şamil olacaq ki, onlardan Allah razıdır.

Bəzi ayələrdə bu şərti ilahi əhd və peymana (Allaha və peyğəmbərə iman gətirmək) əməl etməyi bildirir. Necə ki, «Məryəm» surəsinin 87-ci ayəsində vurğulanır:

لَا يَمْلِكُونَ الشَّفَاعَةَ إِلَّا مَنِ اتَّخَذَ عِندَ الرَّحْمَنِ عَهْدًا

«Şəfaətə malik olanlar o kəslərdir ki, Allah yanında onların əhdi və peymanı vardır». Yəni, onlar ki, Allaha və peyğəmbərə iman gətiriblər, onlar şəfaət oluna bilərlər.

Bu ayələr də şəfaətin mümkünlüyünü, daha doğrusu şəfaətin varlığını çox aydın surətdə sübut edir. Belə ki, buyurur: Əgər sizlər iman və Allahın razılığını əldə edə bilsəniz, sizə şəfaət olunacaq. Bəzi hallarda şəfaət olunmağı bir sıra günahkarlardan səlb edir. Buna «Əğafir» surəsinin 18-ci ayəsini misal gətirmək olar:

مَا لِلظَّالِمِينَ مِنْ حَمِيمٍ وَلَا شَفِيعٍ يُطَاعُ

«Zalımların nə himayə edənləri var, nədə ki, şəfaət edənləri». Yəni qiyamət günündə zalımları heç kəs nə himayə etməyəcək nə də şəfaət. Bu ayələrin göstərişilə uyğun olaraq bizə məlum olur ki, əgər insanın imanı olsa, Allahın razılığını ələ gətirə bilsə, zülm kimi günahlardan qoruna bilsə, yəqindir ki, onlara şəfaət olunacaq. Xülasə şəklində şəfaətin şərtlərinə nəzər salsaq, o cürə ki, yuxarıdakı ayələrdən məlum oldu, şəfaət islam məntiqi ilə qəbul olunmuş bir məsələdir. Amma bir sıra şərtləri vardır ki, onlardan bəzisi günahdadır. Yəni günah o günahdan olsun ki, bağışlanasıdır. Bəzi şərtlər şəfaət edəndədir ki, şəfaət edən elə bir vasitə olsun ki, onun Allah tərəfindən şəfaət etməyə qüdrəti və icazəsi olsun. Üçüncü tərəf isə şəfaət olunandır. Şəfaət olunan gərək özünü şəfaət edilə biləcək bir dərəcəyə çatdırsın. Ya tövbə vasitəsilə, yada ki, peşimançılıq vasitəsilə.

Bu məqsədə Quranın başqa ayələrində də işarə olunubdur. Burada belə bir irad da çıxa bilər, əgər günahkar tövbə və peşimançılıqla özünü bir mərhələyə çıxara bilərsə, onda şəfaət nə kimi rol oynayır? Bu iradın cavabı, ümumi iradlara cavab veriləndə deyiləcək.

«Islam hədisləri və Şəfaət»

Islam hədislərində bir çox ibarətlər vardır ki, aşkar surətdə şəfaət məsələsinə dəlalət edir. Onlardan bəzilərini qeyd edirik:

1. «Burhan» təfsirində Imam Kazim (ə)-dan, o da imam Əli (ə)-dan nəql edir. Həzrət Əli (ə) buyurur: mən peyğəmbər (s)-dən eşitdim buyurur: شَفاعَتی لِأَهْلِ الکَبائِرِ مِنْ اُمَّتی

«Mənim şəfaətim ümmətimin böyük günahları üçündür».

Bu hədisi rəvayət edən Ibni Əbu Ümeyr deyir: Mən imam Kazim (ə)-dan soruşdum böyük günah sahibinə necə şəfaət olar, bir halda ki, Allah-taala buyurub: «Böyük günahları əmələ gətirəndən Allah razı deyil». Imam cavabında buyurdu: Peyğəmbər (s) buyurub ki, hər kəs günah edə və bu günahdan peşiman ola, o peşimançılıq onun üçün tövbə mislindədir. Kim tövbə etməsə həqiqi mömin deyil. Ona şəfaət olunmayacaq. Onun əməli zülmdür. Allah-taala da zalımların barəsində buyurubdur: «Onları himayət və şəfaət edəni yoxdur».

Hədisdən istifadə olunan budur ki, hər kim etdiyi günahdan peşiman olsa, onun üçün şəfaət vardır. Peşimançılıq günahları bir mərhələyə çıxardır, o mərhələdə də ona şəfaət şamil olur.

2. «Kafi» kitabında imam Sadiq (ə)-dan əshabına yazılmış bir məktubda belə nəql olunur:

مَنْ سَرَّهُ اَنْ یَنْفَعَهُ شَفاعَةُ الشّافِعین عِندَ اللهِ فَلْیَطْلُب رِضَااللهِ

«Kim istəyir ki, şəfaət edənlərin şəfaəti ona fayda versin, gərək Allahın razılığını tələb etsin».

3.Imam Sadiq (ə)-dan olan başqa bir hədisdə oxuyuruq:

اِذا كانَ يَوْمَ القِيامَةِ بَعَثَ اللهُ العالِمَ وَ العابِدَ فاِذا وَقَفا بَيْنَ يَدَى اللهِ عَزَّ وَجَلَّ قِيلَ لِلْعابِدِ اِنْطَلِقْ اِلىَ الجَنَّةِ وَ قِيلَ لَلْعالِمِ قِفْ تَشْفَعْ لِلْناسِ بِحَسْنِ تَأْدبيكَ لَهُمْ

«Qiyamət günü Allah-taala alim və abidi qaldıracaq. Abidə deyəcək, sən behiştə tərəf get, amma alimə deyəcək, sən dayan, tərbiyə etdiyi camaata şəfaət et».

Ikinci hədisdə günaha təşviq edən şəfaəti inkar edərək camaata bildirir ki, istəyirsiz şəfaət olunasız, Allahın riyazətini əldə edin. Üçüncü hədisdə isə alimin tərbiyə etməsi ilə onun şəfaət etməsi arasında olan rabitəni göstərərək bildirir ki, şəfaət olunan və şəfaət edən gərək bu simada olsunlar; şəfaət olunan, şəfaət edənin məktəbindən öyrənib ona əməl etsin şəfaət edənin də gərək məktəbi olsun və onun sayəsində şəfaət etmək hüququ ona verilsin.

Bundan əlavə, üçüncü hədisdən istifadə olunur ki, alimə şəfaət etmək hüququnun verilməsi, abiddən bu hüququn alınması, islam məntiqində şəfaət hüqununun qazanılması müqavilə, rüşvət və qüvvətin olmağı ilə deyildir. Bu hüquq, dediyimiz kimi əməl və təklif yolunda artıq dərəcədə çəkilmiş zəhmətin müqabilindədir.

6.Şəfaətin mənəvi təsiri

Yuxarıda göstərdiyimiz hədislər şəfaət barəsində qeyd etdiyimiz hədislərdən bir neçəsi idi. Bu haqda olan hədislər «Təvatür» həddinə çatıbdır.

Nuvi Şafei (onun adı Yəhya ibni Şərəfdir. Dəməşq yaxınlığında Nuvi şəhərində doğulduğuna görə bu adla məşhur olubdur. Hicri tarixili ilə VII əsrdə yaşayıb) «Səhih Müslüm»ə yazdığı şərhdə məşhur sünnü alimi Qazi Əyyazdan nəql edir ki, şəfaət barəsində olan hədislər «mütəvatirdir». Hətta ibni Teymiyyənin davamçısı olan, vəhhabiliyin əsasını qoyan Mühəmməd ibni Əbdül Vəhhab (hər ikisi bu məsələdə xüsusi bir inadkarlıq mövqeyindədirlər) və ibni Teymiyyənin başqa davamçıları şəfaət barəsində olan hədislərin mütəvatir olduğunu etiraf ediblər.

Şeyx Əbdürrəhman ibni Həsənin yazdığı «Fəthül Məcid» kitabında (vəhhabilərin ən məşhur kitablarındandır və indi də Hicazın dini mədrəsələrinin əksəriyyətində dərslik kimi istifadə olunur) ibni Qeymidən nəql edir: Günahkarlara şəfaət olunmaq barədə peyğəmbərdən (s) olan hədislər mütəvatirdir, səhabə və əhli sünnət bu mövzuya icma ediblər. Onu (şəfaəti) inkar edəni bidət qoyan hesab ediblər və onu yolunu azmışlardan biliblər.

Əqaid alimlərinin arasında şəfaətin mənəvi təsiri barəsində müxtəlif fikirlər vardır. Onlardan bir dəstəsi belə fikirləşirlər ki, şəfaətin, mənəvi kamilliyə yetişməyə və savabın çoxalmasında təsiri vardır. Başqa bir dəstə isə belə güman edirlər ki, şəfaət, əzabın süqut etməsində təsirlidir.

Amma məşhur mühəqqiq xacə Nəsirəddin Tusi «Təcridül etiqad» kitabında hər iki fikri qəbul edir. Əllamə Hilli o kitaba yazdığı şərhdə («kəşfül murad») bu əqidəni qəbul edir və ona şahidlər gətirir.

Deyilənlərin nəticəsindən məlum olur ki, həqiqətən mühəqqiq Tusinin əqidəsi vaqeiyyətə yaxındır. Bu əqidədən, daha doğrusu yuxarıdakı iki fikirdən belə məlum olur ki, bütün insanların şəfaətə ehtiyacı vardır. Istər günahlarının aradan getməsi üçün, istərsə də kamilliyə doğru inkişaf etmək üçün. Bu məqsədə imam Sadiq (ə)-dan olan hədis də dəlalət edir:

ما مِنْ اَحَدٍ مِنَ الأَوَّلينَ وَالآخرينَ الا هُوَ مُحْتاجٌ اِلىَ شَفاعَةِ مُحَمَّدٍ (ص) يَوْمَ القِيامَةِ

«Qiyamət günündə bütün insanlar Mühəmməd (s)-ın şəfaətinə ehtiyaclı olacaqlar». Bütün insanlar deyəndə, yəni hətta günahdan tövbə edənlərə də şamil olur. Doğrudur, bəzi hədislərdə oxuyuruq ki, yaxşı adamların şəfaətə ehtiycaları yoxdur.

Bu sözdən məqsəd günahkarlara olunan şəfaət növüdür. Yaxşı adamların günahı olmasa da, kamilliklərinin artmasında şəfaətə ehtiycaları vardır.

Bundan əlavə qeyd etdik ki, şəfaət, qüvvətli mövcüdün zəif mövcuda köməyidir. Bu kömək mümkündür qüvvəli nöqtələri artırmaq üçün olsun, yaxud zəif nöqtələri qüvvətləndirmək üçün. Məsələn, bir şagird kimi ki, o, həm öz səhvlərini islah etmək üçün, həm də məlumatlarını artırmaq üçün müəllimə ehtiyaclıdır. Deməli, şəfaət hər iki cəhətdə təsirlidir, həm günahı aparmaqda, həm də kamilliyə tərəf çəkməkdə.

Bütün bu deyilənlərdən, tövbə edənlərin nə üçün şəfaətə ehtiyaclı olduqları məlum olur. Bunun da iki dəlili vardır:

1.Tövbə etməklə insanın günahı bağışlanır, amma həmən insanlar mənəvi məqamlarını artırmaq üçün şəfaətə ehtiyaclıdırlar.

2.Bəzilərinin səhvi bundadır ki, onlar elə hesab edirlər ki, iövbə insanı günah etməmişdən qabaq olduğu halətə qaytara bilir. Amma bilmək lazımdır ki, peşimançılıq və gələcəyə nisbət xoş fikirdə olmaq təkcə tövbənin ilkin mərhələsidir. Eyni ilə bir dərmana bənzəyir ki, xəstənin xəstəliyini saxlayır, hərçənd xəstə yaxşı olur, amma xəstə adi bir insan halına düşmür. Gərəkdir xəstə adam öz cismini qüvvətləndirsin, sonra xəstəlikdən əvvəlki vəziyyətə qayıtsın. Tövbə də insanın əvvəlki halətinə qayıtmağının ilkin mərhələsidir. Onun sonuncu mərhələsi tövbəkarın günahdan qabaqkı halətinə qayıtmasıdır. Bu mərhələyə qayıtmağa da şəfaət köməklik dir. Bu sözümüzə «Nisa» surəsinin 64-cü ayəsi, «Yusif» surəsinin 98 və 99-cu ayələri, «Mömin» surəsinin 7-ci ayəsi canlı şahiddir. Bu ayələrin birində həzrəti Mühəmməd (s)-in, o birində həzrəti Yəqubun, üçüncüsündə isə mələklərin o adama şəfaət etməsinin ilkin mərhələsi istiqfardır. Bu ayələrdən görürük ki, günahkarların özlərinin tövbəsindən əlavə peyğəmbərlərin və mələklərin də onların bağışlanmalarını istəmələri, onların tövbəsinin qəbul olunması üçün şərtdir. Məsələn, Həzrət Yusifin qardaşları atalarından xahiş edirlər ki, bizim bağışlanmağımızı

Allahdan istə. Onlar peşiman olmuşdular, sonra da atalarından istədilər ki, onların əvvəlki vəziyyətə qayıtmaqları üçün şəfi olsun.

7. Şəfaətin fəlsəfəsi

Şəfaətin məfhumunu və sənədini biləndən sonra onun ictimai və psixoloji fəlsəfəsini başa düşmək çətin deyildir.

Ümumi psixoloji şəkildə şəfaət məsələsi ona mötəqid olanlarda bir neçə təsir qoya bilər.

-Məyusluqla mübarizə-ağır günahlara düçar olan adamlar bir tərəfdən isə bağışlanmaqdan məyus olurlar. Yolları üzlərinə bağlı görürlər. Ona görə də günahdan çəkinmək haqqında fikirləşmirlər. Gələcəyini çox qaranlıq görüb, mümkündür ki, bir qədər də ağır cinayətlərə yönələlər. Bəzən bu cürə günahlardan vicdanı narahatçılıq başlayır və bu narahatçılıq insanın əsəbinin qarışmasına, insanda intiqam hisslərinin əmələ gəlməsinə səbəb olur. O cəmiyyət ki, onu bu hala salıb, ondan intiqam almaq, cəmiyyət üçün qorxulu və təhlükəli bir ünsürə çevrilir.

Amma şəfaətə inanmaq, insanın üzünə nur qapısı açır və insanda bağışlanmağa ümid yaradır. Bu ümid onu öz kontrolu altına alaraq keçmişini təmizləmək üçün onu təşviq edir, onun əxlaqı və əsəbi sakitləşir. Bu sakitlik ona imkan verir ki, saleh ünsürə çevrilsin, cəmiyyətin yüksək dərəcələrində yer tutsun və cəmiyyətin yüksəkliyində mühüm rol oynasın.

8. Şəfaətin yaradıcı şərtləri

Məlum oldu ki, şəfaətin bir sıra şərtləri vardır. Onlar ki, bu məsələyə mötəqiddirlər və inanırlar şəfaət olmağın şərtlərini özlərində yaratsalar, şəfaət olunarlar və yaxşı aqibət onlara qismət olar. Onlar şəfaətdən məhrum edən günahlardan çəkinərlər, Allahın razılığına çatmaqdan ötəri çalışırlar, ilahi əhdi bərqərar edirlər və günahdan tövbə edib şəfaət olunmağa hazır qalırlar.

Şəfaət olunmağın bir şərti də şəfaət edənlə rabitə yaratmaq, onlarla uyğunlaşmaqdır. Bu şərt də günahkarı vadar edir ki, şəfaət edənin sifətindən iqtibas etsin və özünü yaxşı sifətləndirsin.

Dediklərimizdən məlum olur ki, şəfaət düzgün mənada günahkarların vəziyyətinin dəyişməsində və onların islah olunmasında çox təsirli rol oynayır.

9.Iradların cavabı və təhlili

Necə ki, məlum oldu şəfaət iki qismə bölünür: biri ümumi ürfdə olan şəfaət, ikincisi isə islam məntiqində olan şəfaət. Birincisi şəfaət edənin fikrini dəyişdirmək əsasında idi. Ikincisi isə şəfaət olunanın özündə dəyişiklik etmək ilə başa gəlirdi. O da məlumdur ki, birinci növ şəfaət, edilən bütün iradların hamısını özünə cəzb edir. Həqiqətən o iradlar Birinci növ şəfaətə variddir. Birinci növ şəfaətə inanmaq insanı tənbəl edir, onun çalışqanlığını əlindən alır, günaha təşviq edir. Özü də keçmiş

cəmiyyətlərin qalığıdır, həm də tohiddən münhərif olmaq və bir növ şirkdir. Ona görə ki, əgər bizim əqidəmiz belə ola ki, Allahın elmini dəyişmək olar, yaxud Allahdan başqa bir məbud vardır ki, onun vasitəsi ilə Allahın qəzəbini söndürmək olar və ya Allahın məhəbbətini cəlb etmək olar. Yaxud belə bir əqidədə olaq ki, mümkündür Allah taalanın bəzi bəndələrin mövqeyyətinə ehtiycı olsun və bu ehtiyaca görə də bəndələrin barəsində şəfaəti qəbul edir və ya mümkündür bir vasitənin nüfuzundan qorxur və onun şəfaətini qəbul edir. Bunların hamısını biz tohid bilirik ki, bu əqidə insanı əsl təkallahçılıqdan üzaqlaşdırıb şirkin və bütpərəstliyin girdabına salar. Bu dediyimiz, düzgün izah olunmayan və ümumi ürfdə mənalanan şəfaətin nəticəsidir.

Amma düzgün formada olan şəfaət, o şərtlər, xüsusiyyətlər və keyfiyyətlər ki, onun barəsində dedik, bu eyblərin heç birinə malik deyil, əksinə o eyblərin nöqsanların əks tərəfini insanda vücuda gətirir. Bu növ şəfaət günaha təhrik etmir, bəlkə günahı tərk etmək üçün bir vasitədir. Tənbəlliyə, məyusluğa dəvət etmir, bəlkə insanda keçmiş səhvlərini düzəltmək üçün rühiyyə yaradır. Onun keçmiş cəmiyyətlərlə heç bir rabitəsi yoxdur, bəlkə günahları islah etmək üçün təsirli bir vasitədir. Şirk deyil, şirk olmamağından əlavə eyni tohiddir, Allaha yaxınlaşdırır, onun sifətindən, iznindən, əmrindən köməklik istəməyə vadar edir.

Bu bəhsi bir qədər də aydınlaşdırmaq üçün nəzərinizi aşağıdakı təhlilə yönəldirik:

10. Şəfaət və tohid

Şəfaəti düzgün dərk etməyənlər iki dəstədən ibarətdirlər. Bir dəstənin təfəkkür formaları maddidir. Onlar şəfaəti xaraba qoymaq, ruhun ölməsi, tənbəllik və bunlar kimi qələmə verirlər ki, onların cavabı yuxarıda verildi.

Ikinci dəstə isə şəfaətə mötəqid olmağı şirk və tohiddən münhərif olmaq hesab edirlər. Onlar vəhhabilər və onların həfkiirləri kimi ifrat məzhəbçilərdir. Indi biz onların iradlarını və bu iradların cavablarını verməyi lazım bilirik.

Əvvəla bu mövzuya diqqət etmək lazımdır ki, vəhhabilər son iki əsrdə Mühəmməd ibni Əbdülvəhhabın rəhbərliyi ilə meydana çıxıb və əsas sırf əqidələri tohid barəisndədir. Bu əqidə zəminində təkcə şiələrlə deyil, əhli-sünnənin də əksəriyyəti ilə müxalifdirlər. Demək olar onların bu ifrati əqidələrini heç bir şiə və sünnülərin də əksəriyyəti qəbul etmir.

Mühəmməd ibni Əbdülvəhhab öz fikrini ibni Teymiyyədən alıb. Onlar arasında 4 əsr zaman fərqi olubdur. Ibni Teymiyyə (Əhməd ibni Əbdül Həlim Dməşqi) həqiqətdə vəhhabi ideologiyasının banisi olubdur. Mühəmməd ibni Əbdülvəhhab onun fikirlərinin icraçısı olub.

Mühəmməd ibni Əbdülvəhhab hicri tarixi ilə 1160-1206-cı ilədək yerli hakimlərin köməkliyi ilə və səhrada yaşayan (Hicazda) bədəvilər arasında təəssüb atəşini qaldırmaqla, guya tohiddən müdafiə etmək və şirk ilə mübarizə aparmaq şüarı ilə öz müxaliflərini geri oturda bildi. Hökumətə və siyasi rəhbərliyə birbaşa və qeyri müstəqil

surətdə müsəllət oldu. Bu yolda da Hicaz və qeyri-Hicaz müsəlmanlarından çoxunun qanını tökdü.

Mühəmməd ibni Əbdülvəhhabın davamçılarının bu cürə keşmə-keşi təkcə Hicaz mühitində məhdud edyil. Əbdülvəhhabın ölümündən sonra (1216-h) onun davamçıları Hicaz səhralarını keçərək gizlin surətdə Kərbəla şəhərinə hücum ediblər. O gün Qədir-Xum bayramı olduğundan Kərbəla əhalisinin çoxu Nəcəf şəhərində bayram gününü qeyd etmək üçün o şəhərə getmişdilər. Vəhhabilər şəhər divarlarını aşaraq şəhərə soxulub çoxlu müqəddəs məkanları, o cümlədən imam Hüseyn (ə)-ın hərəmini xaraba qoyublar. Bütün qiymətli qapıları, tabloları və qiymətli olan hədiyyələri qarət ediblər. Əlli nəfərə yaxın adam imam Hüseynin hərəminin içində, beş yüz nəfər isə çölündə xeyli adam da şəhərdə öldürüblər. Bəzi xəbərlərdə ölənlərin sayının beş min nəfərdən çox olduğu bildirilir. Bu hadisədə çoxlu evlər viran oldu, qocalar, uşaqlar və qadınlar işgəncələrə məruz qalırlar.

1344-cü ildə Mədinə fəqihlərinin hökumət orqanlarında nüfuzları var idi. Fətva verirlər ki, islam böyüklərinin qəbirləri uçurulmalıdır. Şəvval ayının 8-də bu hökm icra olundu. Mədinədə nə qədər müqəddəs hərəmlər var idi hamı uçruldu. Təkcə peyğəmbərin (s) qəbrinə toxunmadılar. Çünki ümumi müsəlmanların qəzəbindən ehtiyat etdilər. Maraqlıdır, hansı hökm ilə bu qəbirləri uçurdular. Əgər o qəbirləri saxlamaq şəriət cəhətdən haram idisə, onda nə üçün həzrəti peyğəmbərin və onun yanında Əbubəkrin və Ömərin qəbri saxlanıldı. Əgər o qəbirləri uçurmaq haram idisə,

onda nə üçün peyğəmbərin dörd nəvəsi, dörd məsum imamın, həzrəti Həmzə kimi və sairlər kimi Bədr və Ühüd şəhidlərinin və qəhrəmanlarının qəbirləri uçuruldu?

Vəhhabi məktəbinin davamçıları Mühəmməd ibni Əbdülvəhhabın özü kimi əksər halda xəşin və mütəəssibdirlər. Məntiqə təkyiə etmək əvəzinə kobudluğa güc verərlər. Islamı bir neçə məsələdə, mübarizə etmədə, şəfaət, qəbirlərin ziyarəti və təvəssül etmək kimi məsələlərdə xülasə ediblər. Camaatı mühüm olan ictimai məsələlərdən, xüsusən də ədaləti ictimaiyə aid olan məsələlərdən istemara qarşı ilhad və madigərlik məktəbinin təsirinə qarşı məntiqi mübarizədən uzaq saxlayıblar. Bu dediyimiz məsələlərinm heç biri barəsində onların fikri anlayışlarından söhbət belə gedə bilməz. Onlar şəfaət barəsində belə deyirlər: Heç kimin haqqı yoxdur peyğəmbər (s)-dən şəfaət istəyə və məsələn, deyə: يا مُحَمَّد اِشْفَعْ لی عِنْدَ اللهِ

«Ey peyğəmbər, Allah yanında mənə şəfaətçi ol» bu istəyi peyğəmbərdən istəməyə heç kimin haqqı yoxdur, çünki Allah-taala Qurani-Kərimdə buyurub: وَأَنَّ الْمَسَاجِدَ لِلَّهِ فَلَا تَدْعُوا مَعَ اللَّهِ أَحَدًا

Həqiqətən məscidlər Allaha məxsusdur, Allaha heç kimi şərik etməyin» («Cin» surəsi, 18-ci ayə).

Mühəmməd ibni Əbdülvəhhabın yazdığı Kəşfüşşübühat» kitabında belə oxuyuruq: «Allah-taala peyğəmbərə şəfaət etmək məqamını veribdir. Bununla belə bizə nəhy edibdir ondan şəfaət istəyək. (Əbdülvəhhabın nəzərində Allah «Cin» surəsinin 18-ci ayəsi ilə bunu nəhy edibdir). Sözünün davamında o, belə deyir:

Şəfaət məqamı təkcə peyğəmbərə aid deyil, mələklər, Allah dostları da şəfaət edə bilərlər, biz onlardan şəfaət istəyə bilərikmi? Əgər bir nəfər belə desə, onda Allahın bəndələrinə pərəstiş etmiş olur».

Mühəmməd ibni Əbdülvəhhabın «Ərbəə qəvaid risaləsində belə bir sözü vardır: Şirkdən qurtarmaq dörd qanunu tanımaqla mümkündür:

1.O kafirlər ki, peyğəmbər onlarla müharibə edirdi, iqrar edirdilər ki, Allah-taala Rəzzaq, Xaliq və dünyanın müdəbbiridir. Bunu Qur'anın «Yunis» surəsinin 31-ci ayəsi təsdiq edir. Amma, Allahın bu sifətlərinə iqrar etmək onları müsəlmanların cərgəsinə salmadı.

2.Kafirlər deyirdi: bizim bütlərlə əlaqəmiz və onlara ibadət etməyimiz, onlardan şəfaət tələb etməyimizə xatirdir. «Onlar deyərlər: bütlər Allah yanında bizim şəfilərimizdir». (Yunis surəsi 18-ci ayə).

3.Peyğəmbər (s), bütün insanları ki, Allahdan başqasına ibadət etmişlər, məhkum edibdir. Istər mələklərə, istər peyğəmbər və salehlərə, istərsə də günəşə, aya, ağaca ibadət ediblər, hamısı məhkum olunublar. Bu ibadət edənlərin biri-birindən heç bir fərqi yoxdur.

4.Bizim əsrimizin müşrikləri cəhalət dövrünün müşriklərindən də pisdirlər. Çünki onlar aram və sakit vaxtlarda bütlərə pərəstiş edirdilər, çətinlikdə isə Allahı çağırırdılar. Bunu «Ənkəbut» surəsinin 65-ci ayəsi təsdiqləyir:

فَإِذَا رَكِبُوا فِي الْفُلْكِ دَعَوُا اللَّهَ مُخْلِصِينَ لَهُ الدِّينَ

«Gəmiyə minən zaman Allahı ixlas ilə çağırardılar, amma quruya çıxanda yenə də müşrik olurdular».

Amma bizim zəmanəmizin müşrikləri həm sakitlikdə, həm də çətinlikdə Allahdan başqasına sitayiş edirlər.

Təəccüblü burasıdır ki, vəhhabilər müsəlmanlara, istər şiələrə, istərsə də sünnülərə şirk nisbətini çox cəsarətlə verirlər. Məsələn, onların əqidəsi ilə düzgün əqidədə olmayan müsəlmanların mallarını və qanlarını çox asanlıqla mübah və halal bilirlər, onları öldürməyi caiz bilirlər. Necə ki, öz tarixlərində vəhhabilər bunu əməli surətdə göstəriblər.

Şeyx Süleyman Ləhman «Əlhədiyyətül sünniyyə» kitabında belə deyir: «Kitab və sünnət şahidlik verir ki, hər kəs peyğəmbərləri və mələkləri və onlar kimiləri özləri ilə Allah arasında vasitə qərar verə ki, Allah yanında onlara şəfaət etsinlər, bu cürə adamlar kafir və müşrikdirlər, onların qanı və malı mübahdır. Hətta Allahın birliyinə və peyğəmbərin risalətinə şəhadət versələr və namaz qılıb, oruc tutsalar».

Bu əqidədə olanların kobudluğu və onların sözlərindən məlum olan inadkarlıq və Qur'an məsələlərindən xəbərsiz olmaları heç kimə gizlin deyil.

Şəfaət barəsində vəhhabilərin

məntiqinin təhqiqi

Vəhhabi məzhəbinin təsisçisi Mühəmməd ibni Əbdülvəhhabin sözlərindən bu nəticəyə gəlmək olur ki, onlar şəfaət tərəfdarlarına müşriklik nisbətini verməkdə iki mətləbə söykənirlər:

1.Peyğəmbərlərin və salehlərin şəfaətinə mötəqid olan müsəlmanları cahiliyyət dövrünün müşrikləri ilə müqayisə edirlər.

2.Qur'anın aşkar surətdə Allahdan başqasına pərəstiş etməsini nəhy etməsi və «Cin» surəsinin 18-ci ayəsinin (Allaha heç kimi şərik qərar verməyin) göstərişini dəlil tutaraq guya şəfaət də bir növ müşriklikdir.

Birinci qismdə demək lazımdır ki, belə müqayisə etməkdə böyük səhv edirlər. Çünki, əvvələn Qur'an aşkar surətdə şəfaət etmək məqamını peyğəmbərlərə, salehlərə, mələklərə sübut etmişdir. Necə ki, keçmiş bəhslərdə dedik. Amma şəfaət etməyi Allahın icazəsinə bağlayıbdır. Çox gülüncdür ki, biz deyək; Allah şəfaət məqamını bir şəxsə verə, amma onlardan şəfaət istəməyi bizə nəhy edə.

Bundan əlavə, keçmiş bəhslərimizdə məlum oldu ki, Qur'an aşkar surətdə göstərdi ki, həzrəti Yusifin qardaşları atalarından, peyğəmbərin səhabələri peyğəmbərdən xahiş etdilər ki, onların barəsində istiğfar etsin. Bu şəfaətin aşkar surətdə olan misdaqlarından deyilmi? Görəsən bizim peyğəmbər (s)-dən –«Allah yanında bizə şəfaət et!- يا مُحَمَّد اِشْفَعْ لی عِنْدَ اللهِ

–deməyimiz ilə Yusifin qardaşlarının, «ey ata, bizim bağışlanmağımızı Allahdan istə», (يا أبانا استغفِرلنا) demələri arasında nə fərq vardır? Hansı haqla Qur'anın caiz bildiyi bir işi biz şirk hesab edə bilərik və ona mötəqid olan müşrik, canı və qanı mübah olan sayırıq? Əgər bu iş şirkdirsə onda nə üçün həzrəti Yəqub öz övladlarını bu işdən çəkindirmirdi?

Ikinci isə – bütpərəstlərlə şəfaətə mötəqid olan müsəlmanların arasında heç bir oxşarlıq yoxdur. Çünki, bütpərəstlər bütə sitayiş edirdilər və bütləri şəfaətçi bilirdilər. Amma şəfaətə mötəqid olan müsəlmanlar şəfaət məqamına malik olan insanlara sitayiş etmirlər. Təkcə onlardan Allah dərgahında şəfaət etmələrini istəyirlər. Buna da işarə edəcəyik ki, şəfaət istəməyin ibadət məsələsi ilə heç bir əlaqəsi yoxdur.

Bütpərəstlər vahid Allaha pərəstiş etməkdən qorxurdular və deyirdilər:

أَجَعَلَ الْآلِهَةَ إِلَهًا وَاحِدًا إِنَّ هَذَا لَشَيْءٌ عُجَابٌ

«Aya o, (peyğəmbər (s)) bu qədər Allahın yerinə tək Allahı qərar verir? Düzü bu iş çox təəccüblü bir işdir». («Sad» surəsi, ayə.5)

Bütpərəstlər bütləri ibadət cəhətindən Allah ilə bir cərgədə hesab edirdilər və deyərdilər:

تَاللَّهِ إِن كُنَّا لَفِي ضَلَالٍ مُّبِينٍ إِذْ نُسَوِّيكُم بِرَبِّ الْعَالَمِينَ

«And olsun Allaha, biz aşkar zəlalətdə idik, ona görə ki, sizi (bütləri) aləmlərin pərvərdigarı ilə (tək Allahla) bərabər tuturuq». («Şüəra» surəsi, ayə 97-98).

Tarixi faktların göstərdiyinə əsasən bütpərəstlər öz həyatlarının müqəddəratında bütlərin təsirinə etiqadları var idi. Onlar ilkin mövcudun vücuda gəlməyini bütlərin təsirindən bilirdilər. Amma şəfaətə mötəqid olan müsəlmanlar bütün təsirlərin Allah tərəfindən olduğuna mötəqiddirlər. Heç bir mövcud üçün müstəqil təsirin olduğuna qail deyillər.

Bu iki dəstəni (bütpərəstlərlə, şəfaətə mötəqid olan müsəlmanları) bir-biri ilə müqayisə etmək çox böyük cahillik və məntiqsizlikdir. Bunların nəzərində ibadət, hər cür ehtirama və təvazökarlığa aid olur. Kimdən köməklik istəsən, ona ibadət etmiş olursan. Onlar insanın insana tabe olmağını və bir-birindən göstəriş almağını ibadət hesab edirlər. Bununla da onların nəzərində bu saydıqlarımız işləri əmələ gətirənlər bütpərəst hesab olurlar.

Amma, biz, real həyatda bir-birimizə ehtiram edirik, köməklik istəyirik, idarələrimizdə, iş yerlərimizdə, məktəb və başqa sahələrimizdə bir birimizə köməklik göstəririk. Onda belə çıxır ki, bütpərəstlik bizim bütün məişətimizə qarışıb, özü də elə qarışıb ki, onu bu məişətdən ayırmaq mümkün deyil. Çünki, biz biri-birimizə hörmət etməliyik, köməklik istəməliyik və göstəriş almalıyıq. Bunlar nə əqli, nə də ki, şəri cəhətdən pis iş deyil. Bəlkə də bəziləri bizə şərən əmr edilmişdir. Bəs onda necə bu məsələni həll edək? Aya biz biri-birimizə hörmət etməyək, yoxsa bütpərəst olaq? Gərəkdir bu müşkülün cavabını tapaq və onu həll edək.

Bu müşkülün cavabı «ibadət» məhfumunu başa düşməklə həll olur, özü də çox sadə. Sadəliyi də ondadır ki, yuxarıda dediyimiz o işlərin heç biri ibadət deyil. Onlar, sadəcə olaraq qarşılıqlı etiram, qarşılıqlı ehtiyac və anlaşmadır.

Bəs onda ibadət nədir? – Ibadət –nəhayət dərəcədə xuzu və təvazökarlıqdır. Bəndənin Allaha mütləq bağlılığı, qeydisiz-şərtsiz ona təslim olmaqdır. Bir qədər də aydın desək; abidin məbud qarşısında heç bir qeyd və şərt olmadan təslim olmasına –ibadət deyidir.

«Ibadət» kəlməsi «əbd» kəlməsi ilə müştərək kökə malikdir. Bu da onu göstərir ki, ibadət edən öz ibadəti ilə məbudun qarşısında sırf təslim olur, öz müqədaratını ona tapşırır.

Fikirləşin! Şəfaət edənlərdən şəfaət tələb etmək hansı surətdə ibadətə bənzəyir?

Qur'anın ayələrində Allahdan başqasını çağırmaqlıq nəhy olunubdur. Bu o demək deyil ki, biz kimisə adı ilə çağıranda, məsələn; «ya Həsən», və ya «ya Əhməd» deyəndə müşrik oluruq. Onu da bilmək lazımdır ki, bir adamı çağırmaq və onun bacardığı işi ondan istəmək şirk deyil. Çünki, birinin başqasına kömək etməsi bizim ictimai yaşayımızın əsaslarındandır. Peyğəmbərlər və imamlar da belə işlərdən görüblər. Hətta vəhhabillər özləri də bu işi qadağan etməyiblər.

Irad olunmalı iş odur ki, ibni Teymiyyə «Ziyarətül qubur» kitabında yazıbdır. O, belə yazır: «Insanın Allahdan istədiyi iş, əgər ancaq Allahın qüdrətində olan işdirsə

və bəndə onu Allahdan qeyri birisindən istəyirsə, bu şirkdir. Mələklərə, bütlərə, daşlara ibadət etmək kimi. Yaxud həzrəti Isanı və anasını məbud bilmək kimi. Əgər o işlərdən ola ki, onu bəndələr də əmələ gətirə bilərlər, onda bu işi bəndədən istəməyin eybi yoxdup. Amma bunun şəraiti vardır. Çünki bəndənin bəndədən bir iş görməyini istəməsi, bəzən haramdır, necə ki, yuxarıda dedik. Bəzən məkruhdur, məsələn, özün o işi əmələ gətirə bilməyi bacardığın halda onu başqasından istəyəsən. Bəzən də caizdir, məsələn, insan mömin qardaşından dua etmək istəyir».

Ibni Teymiyyənin sözü burada iradlıdır. Iradı da budur ki, biz də Allahın ancaq özünə məxsus olan işi başqasından tələb etməyi müşriklik bilirik. Buna ayədəki «mə'ə» kəlməsi də dəlalət edir. Çünki, başqasını Allahla bir bərabərlikdə tutursan. Amma şəfaət məqamını Allah bəzi insanlara özü veribdir. Bizim ondan şəfaət istəməyimiz nə üçün müşriklik olur?

Bəli, bu müşriklik deyil, əksinə eyni iman və tohiddir.

Şəfaət bəhsinin üzərində təkidlə dayanmaqdan məqsəd odur ki, şəfaət məfhumunu təhrif etməklə bizim məzhəbə irad etmək istəyənlərə bəhanə verməsinlər. Bu məsələ bəhanə axtaranlara şans verməklə yanaşı, nadürüst təfsirlərə və müsəlmanların təfriqəsinə səbəb olur.

Şəfaəti düzgün təfsir edəndə cəmiyyətin əxlaqının inkişafına, fasid insanların islah olunmasına gətirib çıxarır.

Ümidvarıq ki, bütün islam alimləri bu məsələni düzgün təhlil etsinlər, bunlar da islamın ümumi düşmənlərinin üzünə bizim əleyhimizə açılan qapıları bağlayıb tohid sıralarının möhkəmlənməsinə kömək göstərsinlər.

Imamət barəsində olan ayələr

Insan həyatını tənzimləyən amillərdən ən böyüyü dindir. Dindar olmaq insanı dünya və axirətdə səadətə qovuşdurur. Insanın həyatını tənzimləyən başqa məsələlər də vardır. Ancaq bunların ən üstünü və düzgünü dindir. Buna bizim çoxlu əqli dəlilimiz vardır. Bu dəlilləri gətirməkdən biz keçirik. Çünki şükr olsun Allaha ki, cəmiyyətimizdə bu məsələ aksiomadır. Amma başqa bir cəhətdən istərdik bu məsələyə yanaşaq. Dini camaata necə çatdırmaq. Allah təala buyurur ki, yəhudilər və məsihilər yollarını ona görə azdılar ki, onların dini təhrif olundu. Ona görə də cəmiyyət gərək dini elə bir qapıdan öyrənsinlər ki, düzlüyünə yəqinləri olsun. Həzrəti Rəsuli əkrəm (ə) buyurub: Mən elmin şəhəriyəm, Əli onun qapısıdır. Gərək biz də o qapıdan istifadə edək, sonra o şəhərə daxil olub doğru dini tapaq. Dinimizin təhrif olunmağının qarşısını almaq üçün özümüzə rəhbər seçək. Sözsüz ki, bu məsələdə gərək Qurana və peyğəmbərin sünnəsinə müraciət edək.

Vilayət ayəsi

Bizlərə rəhbərimizi tanıdan Qur'an ayələrindən biri də Maidə surəsinin 55-ci ayəsidir.

Belə ki, bu ayədə buyurur: «Həqiqətən sizin rəhbəriniz Allahdır, onun rəsuludur və o adamdır ki, iman gətirib, namaz qılır və ruku halında zəkat verir».

Əbazər Qəffari (Rəsulullah (s) ona «Siddiq» ləqəbini vermişdir) *اباذر اصدق الرَّجل* deyir: peyğəmbərdən eşitdim buyurur:

علی قائد الَبرَرَة و قاتل الکَفَرَة منصور من نَصَرَهُ مخذول من خذله

«Əli(ə) yaxşıların rəhbəridir, kafirləri öldürəndir, kim ona kömək etsə Allah ona kömək edər. Kim ondan köməyini əsirgəsə Allah ondan köməyini əsirgəyər».

Yenədə sözünün davamında Əbazəri-siddiq buyurdu: Bir gün məsciddə oturmuşdum, bir dilənçi gəldi kömək istədi, heç kim ona kömək etmədi. O əlini göyə qaldırıb dedi: Allah özün şahid ol Peyğəmbərin məscidində heç kim mənə kömək etmədi. Bu vaxt Əli(ə) namaz halında ikən barmağındakı üzüyə işarə etdi, dilənçi üzüyü çıxardıb getdi. Bu cərəyanı peyğəmbər müşahidə etdi. Sonra əlini göyə qaldırıb dua etdi: «Ilahi qardaşım Musa(ə) səndən istədi ki qəlbini genişləndirəsən... və qardaşı Harunu ona canişin təyin edəsən. Allah! Mən də səndən istəyirəm ki, o qardaşım Əlini(ə) mənim canişinim qərar verəsən». Dua tamam olan kimi bu ayə nazil oldu.

Bu ayənin Əli(ə)-a aid olmasını Rəsuliəllahın (s) səhabələri olan Ibni Abbas, Əmmar Yasir, Əbdüllah ibni Səlam, Sələmət ibni Kuheyl, Ənəs ibni Malik, Ütbətibni

Həkim, Əbdullah Übey, Əbdullah ibni Qalib, Cabir ibni Əbdullah Ənsari və Əbuzər Ğəffari nəql ediblər.

Bu on nəfərin vasitəsi ilə sünni kitablarında da bu rəvayət nəql olub.

«Qayətül-məram» kitabında 24 hədis əhli sünnədən, 19 hədis isə əhli şiyədən nəql olubdur.

Bu ayənin Əli(ə) barəsində olmasını sübuta yetirən hədislər otuz kitabda nəql olunubdur. Hamısının da mənbəyi Əhli-təsənnündür. O, cümlədən, Mühibbuddin Təbəri «Zəxamirül üqab» kitabının 88-ci səhfəsində, Əllamə Qaziyi Şükani «Fəthül qədir» təfsirinin 2-ci cildinin 50-ci səhifəsində, «Cameül usul» kitabının 9-cu cildinin 478-ci səhifəsində, Vahidinin «Əsbabünüzul» kitabının 148-ci səhifəsində, Suyutinin «Ləbanun-nuqul kitabının 90-cı səhifəsinhdə, Ibni Cuzinin «Təzkirə» kitabının 18-ci səhifəsində, «Təfsiri-Təbərinin» 165-ci səhifəsində, Əsqəlaninin «Kafi» kitabının 56-cı səhifəsində, Razinin «Məfatihül ğeyb» kitabının 3-cü cildinin 431-ci səhifəsində, «Təfsiri dürrül mənsur»da, «Kənzül ümmal» kitabında, «Məsnədi ibni Mərdəviyyədə», «Məsnədi ibni şeyxdə» və sair kitiablarda nəql olunubdur.

Bu ayənin Əli(ə) barədə olması o qədər məşhur olmuşdur ki, həmin gün Həssan bu barədə şer yazaraq gedib həzrəti Rəsuli Əkrəm səlləllahu əleyhi və alihin hüzurunda oxudu. Bu şer Alusunun «Ruhul mə'ani», və Gənci Şafeinin «Kifayətüttalibin» kitabında yazılıbdır.

فَاَنتَ الذی اَعطَیتَ اِدکنت راکعا – زکاتاً فدَتْكَ النَّفسُ یا خیر راکعٍ

فانز فيك اللهُ خيرَ و لايةٍ – و بَيْنَها فى محكمات الشرايعِ

«Sən idin ruku halında zəkat verdin, can sənə qurban olsun ey zəkat verənlərin yaxşısı».

Ondan sonra Allah təala ən yaxşı rəhbərliyi sənin barəndə nazil etdi və Qurani Kərimdə onu yazdı!

Bəziləri bu haqda iradlar edirlər. Məsələn:

1.Guya bu hədisin sənədi zəifdir.

Cavab: O qədər bu ayənin barəsində hədis var ki, buna zəif deyən adamlar ən azı elmi-hədisdən xəbərsizdirlər. Əgər bu cürə sənədli hədis zəif hesab olunsa onda islam aləmində qüvvəli hədis yoxdur.

2. *"الذين"* (əlləzinə) kəlməsi cəmdir ona görədə bu bir nəfərə aid ola bilməz.

Cavab: Quranda çox yerdə cəm kəlmələr bir nəfər üçün işlənilib. Məsələn: mübahilə ayəsində nisaəna *(نسائنا)* kəlməsi cəmdir, habuki burada qadınlardan ancaq həzrəti Fatimə(s.ə) var idi və bu kimi çoxlu ayələr. Bundan əlavə bu qədər hədislər kəlmənin tək mənada işlənməyinə dəlalət edir.

3. Guya ayədəki *(ولى)* - vəli- kəlməsi dost və köməkçi mənasındadır. Rəhbər mənasına deyil.

Cavab: Bu ayədəki *"ولى"* kəlməsi dost və köməkçi mənasında ola bilməz. Çünki dost və köməkçi mənası bütün möminlərə aiddir. Amma ayədə xüsusi bir adamdan danışılır ki, namaz qılır və o namazın rükusunda zəkat verir. Ərəb qramatikasını

bilənlər çox yaxşı bilirlər ki, qrammatik izaha görə bu ayəni başqa cür tərcümə etmək mümkün deyildir. Çünki bu ayədəki – vəlləzinə amənu (o kəslər ki, iman gətiriblər) – kəlməsinə – yuqimunəssəlat (namaz qılırlar) – kəlməsi və – yötunəzzəkat (zəkat verirlər) – kəlməsi bir-birinə bağlıdır. – yötunəzzəkat – cümləsi hal sahibi – vəhum rakiun (rüku halında) – isə haldır. Hal və hal sahibi bir birindən ayrılmaz. Özüdə ümumi bir fikri xüsusiləşdirər (Əziz oxucunu yormamaq üçün bu ayənin qrammatik izahı ilə burada kifayətlənirik) bu da vəli kəlməsinin rəhbər mənasına olmağına dəlalət edir.

Əgər irad olunsa ki, vəhum rakiun cümləsindəki *(و)* -və-bağlayıcısı özündən əvvəlki sözə aiddir. Onda gərək bu cürə məna edək: onlar ki, iman gətiriblər, namaz qılırlar, zəkat verirlər və ruku edirlər. Islamda müstəqil rüku əməli yoxdur. Deməli bu ayədəki ruku namazın içərisində olandır və ayənin mənası: namaz qılıb rüku halında zəkat vermək mənasınadır.

Başqa ibarə ilə desək, dostluq və köməkçilik ümumi bir hökmdür. Ayə isə xüsusi bir hökmə dalələt edir. Buna görə də imanı qeyd edəndən sonra xüsusi bir sifəti qeyd edir. O da Əli(ə)-ın rükuda zəkat verməsinə aiddir.

4. Guya Əli(ə)-ın boynunda zəkat olmayıb, çünki dünya malından bir şeyi yox idi. Əgər məqsəd müstəhəbb sədəqədirsə ona zəkat deyilmir.

Cavab: Tarix göstərir ki, Əli(ə) öz əl zəhməti ilə mal toplamışdı və Allah yolunda vermişdi. Yazırlar Həzrət min dənə qul azad etmişdir (öz pulu ilə), Həzrətə

muharibələrdən qənimət çatırdı, xurma bağı əkirdi. Odur ki, ona zəkatın vacib olması təəccüblü deyil. Əlavə zəkat kəlməsinin «müstəhəb sədəqəyə» itlaq olması Quranda çoxdur.

Quranın ayələrindən çoxunda zəkat müstəhəbbi sədəqə mənasına gəlib, məsələn: «Nəml» surəsi ayə 3, «Rum» surəsi ayə 39, «Loqman» surəsi ayə 4, «Fussilət» surəsi ayə 7 və başqaları. Bu ayələrdəki zəkat sözünün müstəhəbb sədəqəyə dəlalət etməsi onların Məkkədə nazil olmasıdır. Zəkat isə vacib şəkildə peyğəmbərə Mədinədə nazil olub.

5. Deyirlər ki, əgər biz Əli(ə)-ın xilafətini qəbul eləsək də, bu peyğəmbərdən sonrakı zamana aiddir. Ona görədə Əli(ə) o gün *(ولی)* vəli deyildir.

Cavab: Biz gündəlik həyatımızda bu cür hallarla tez-tez rastlaşırıq. Məsələn: insan öz diriliyində bir nəfəri özünə vəli ya vəsi seçir. Hərçənd o adam vəsiyyət edənin ölümündən sonra ona tapşırılan işləri həyata keçirir. Amma təyin olunduğu gündən ona vəli, ya vəsi deyirlər. «Məryəm» surəsinin beşinci ayəsində oxuyuruq. Həzrəti Zəkəriyya Allahdan belə istədi: «*فَهَبْ لِي مِن لَّدُنكَ وَلِيًّا * يَرِثُنِي وَيَرِثُ مِنْ آلِ يَعْقُوبَ* - Ilahi, mənə bir vəli ver mənim və ali Yəqubun irsi ona yetişsin!» Burada həzrəti Zəkəriyya ölümündən sonrası üçün rəhbər istəyir. Nəinki indiki zamanda. Deməli ayənin davamlı mənaya dəlalət etməsi heç bir irada səbəb ola bilməz necə ki, bəziləri belə düşünürlər.

6. Nə üçün Əli(ə) bu barədə özü danışmayıb.

Cavab: Çoxlu rəvayətlər var ki, bunlarda Əli(ə) bu ayədəki cərəyana işarə edib. O cümələdən. «Məsnədi ibn Mərdəviyyə», «Ibni şeyx» və «Kənzül ümmalda» bunlar qeyd olunubdur. «Əlğədir» kitabında Səlim ibni Qeys Hilalidən geniş bir hədis nəql olunub ki, Siffeyn müharibəsində Əli(ə) öz həqqaniyyətin sübut etmək üçün o, ayəyə istinad edir.

7. Ruku kəlməsi müxtəlif mənalarda işlənər o cümlədən ixlas mənasına sanki bu ayədə də o mənayadır.

Cavab: Ruku kəlməsi ixlas mənasına ola bilməz, çünki rüku halında kəlməsi haldır. Yəni zəkat ikən kəlməsindəki, failin halını bildirir. Məsələn: mən gəlirdim səni gülən halda gördüm. Burada gülən hal sənin hansı vəziyyətdə olmağını bildirir.

-Rüku halında-namaz qılanın əyilmiş halda olmasını bildirir, necə ki, ərəblər, belləri bükülmüş qoca adamlara (يشخ راكع) -rüku halında olan qoca ləfzi ilə xitab edərlər. Hər yerdə bu sözün namazdakı rukuya aid olmasına Quranın başqa ayələri də sübutdur.

Bunlardan əlavə əgər Quranda hər bir yerdə mömin adı gəlirsə, siddiq adı gəlirsə, bir sözlə Allahın xoşu gələn ad gəlirsə Əli(ə) ora daxildirsə onda nə üçün bu ayədəki adamın Əli(ə) olmağına şübhə edirlər. Başqa sözlə desək narahat olurlar. Həmin ayə "انَّما" innəma kəlməsi ilə başlanır. Bu da ərəb dilində həsri (inhisar) bildirir. Yəni Sizin rəhbəriniz ancaq Allah, Onun rəsulu və o adamdır ki, iman gətirə, namaz qıla və rüku halında zəkat verə. Əli(ə) da o, şəxsdir ki, birinci iman gətirib və birinci

adamdır ki, namaz qılıb və nəhayət o şəxsiyyətdir ki, rüku halında zəkat verib. Ravi deyir Məscidül Hərama daxil oldum, gördüm bir kişi qabaqda namaz qılır, onun arxasında bir qadın və bir kişi də namaza dayanıblar. Soruşdum bunlar kimdir? Dedilər: bu Məhəmməd, arxasındakı kişi əmisi oğlu Əli(ə), qadın isə Xədicədir.

Təbliğ ayəsi

Əli (ə)-in imaməti haqqında nazil olan ayələrdən biri Maidə surəsinin 3-cü ayəsidir. Ayənin axır hissəsində belə buyurulur:

يا ايّهَا الرَّسول بَلِّغْ ما أُنْزِلَ اليكَ من رَبِّك وَ اِن لم تَفْعَلْ فَما بَلَّغْتَ رِسالَتَهُ وَ الله يَعْصَمُكَ مِنَ الناسِ إنَّ اللهَ لا يَهْدِى الْقَوْمَ الكافرين

«Ey peyğəmbər rəbbin tərəfindən sənə nazil olanı (o məsələ ki, allahının tərəfindən sənə çatıb) onu camaata çatdır. (ki) Əgər bunu etməsən Allahın (çatdırmasan) (onun) risalətini yerinə yetirməmisən (əmələ gətirməmisən). Allah-təala səni camaatdan qoruyacaq, həqiqətən Allah kafir qövmi hidayət etməyəcək».

Əvvəlcə bu ayənin nazil olmağının səbəbi barədə. Tamam şiə və çoxlu əhli təsənnün kitablarında bu ayənin Əlinin (ə) barəsində nazil olduğu qeyd olunub.

Bu ayənin Əli (ə) barəsində olmağını bir çox səhabədən nəql ediblər. O cümlədən Əbu Səid Xudri, Zeyd ibn Ərqəm, Cabir ibni Əbdüllahi Ənsari, Ibni Abbas, Bəra ibni Azib, Əbu Hüreyrə, Ibn Məsud və Amir ibni Leyli. Bunların rəvayətində gəlib ki, bu ayə Qədiri-xumda Əlinin (ə) barəsində nazil olub.

Maraqlısı budur ki, bu rəvayətlər müxtəlif mənbələrdə nəql olunubdur: Məsələn:

Əbu Səid Xudrinin hədisi 11 mənbə.

Ibn Abbasın hədisi 11 mənbə.

Bəra ibn Azibin hədisi 3 mənbə.

Bir çox alimlər bu hədisləri öz kitablarında geniş şəkildə gətiriblər. O cümlədən Əbul Həsəni Vahidi Nişaburi.

Ibn Əsakiri Şafei.

Fəxri Razi (Təfsiri-xəbir) 3-cü cild-636 səh.

Əbu Ishaq (Fəraidussəmteyn kitabında)

Ibn Sibağ Maliki (Füsulul himmə-də)

Cəlaləddin Suyuti (Dürrül mənsurda) 2-ci cild 238 səh.

Qaziyi Şukani (Fəthül-qədir 3-cü cild 57 səh).

Şəhabuddin Alusi Şafei (Rühul məani 6-cı cild, 172 səh 8-ci cild 584 səh).

Bədrüddin Hənəfi (Ümdətül qari fişərhi səhihi buxari)

Şeyx Mühəmməd Əbdöh Misri (Təfsirül mənar 6-cı cild 463 səh).

Hafiz ibn Mərdəviyə

Şeyx Süleyman Qunduzi Hənəfi (Yənabiül məvəddə 120 səh)

Bu rəvayətlərdən əlavə çoxlu rəvayətlər var ki, bu ayənin Qədirxum çölündə gəlməsini və ondan sonra həzrəti peyğəmbərin Əli (ə)-ı vəli və vəsi təyin etməsinə dəlalət edir.

Bu hadisədə həzrəti peyğəmbərin xütbə oxuyub camaata elan etməsini böyük mühəqqiq Əllamə Əmini «Əlğədir» kitabında ğədir hədisini mötəbər sənədlə 110 səhabədən və 84 nəfər tabeindən (tabein o adamlara deyirlər ki, onlar peyğəmbəri görməyiblər amma peyğəmbərin səhabələri görüblər) və 360 nəfər böyük islam alimlərindən nəql edib.

Əgər insaflı bir adam bu hədisin sənədinə baxsa heç vaxt onun yəqin və səhih hədis olmağı haqda şübhə etməz. Bu hədis mütəvatir hədislərdəndir. Əgər kimsə bu hədisin təvatür olmağında şübhə etsə onda gərək bütün hədislərə şübhə ilə yanaşsın.

Bu hadisə belə baş verib. Həzrəti peyğəməbərin ömrünün axır ili idi. Ərəbistanın hər tərəfindən həcc ziyarətinə müsəlmanlar gəlmişdirlər. Bu ilki həcc ziyarəti tarixə «Həccətül vida» adıyla düşüb. Çünki həzrəti peyğəmbər (s)-ın axırıncı həcc ziyarəti idi. Hacıların sayı 90 min nəfərdən 124 min nəfərə qədər idi.

Hava çox isti idi, yavaş-yavaş Çöhfə çölü görünür, onun ardıyca isə Qədir-Xum səhrası başlanırdı. Bura dörd yol ayrıcısı idi. Misirə, Yəmənə, Iraqa və Mədinəyə yollar buradan ayrılırdı.

Dördüncü gün, hicrətin onuncu ili idi. 8 gün qurban bayramından keçmişdi. Birdən peyğəmbər tərəfindən müsəlmanlara dayanmaq hökmü verildi. Qabaqda gedənlər geri çağrıldılar. Peyğəmbərin müəzzini azan deyərək camaatı namaza səslədi. Hava çox isti idi. Çox adam məcbur olmuşdular əbalarının bir hissəsini

başına o biri hissəsini isə ayaqlarının altına atalar. Namaz qurtarcaq müsəlmanlar istədilər dağılışalar. Həzrəti peyğəmbər göstəriş verdi ki, hamınız mühüm olan ilahi bir xəbəri eşitmək üçün yerinizdə qalın.

Dəvələrin üstündəki əşyalardan peyğəmbər üçün minbər düzəltdilər ki, hamı onu görə bilsin. Həzrət minbərə çıxdı və Allaha həmd səna edəndən sonra buyurdu: camaat, tezliklə mən Allahıma qovuşacağam. Deyin görüm mənim barəmdə necə şəhadət verirsiz? Hamı ucadan dedilər: hamımız şahidlik veririk həqiqətən sən nəsihət edibsən, təbliğ edibsən, cihad edibsən, Allah-təala sənə əcr əta eləsin, ya rəsuləllah.

Sonra Həzrət buyurdu: Siz, Allahın birliyinə, mənim risalətimə, qiyamət gününə və o gündə hamının dirilməyinə şəhadət verirsiz? Hamı dedi: Bəli, ya rəsuləllah.

Yenidən həzrət buyurdu: Camaat, mənim səsimi eşidirsiz? Dedilər: Bəli, ya rəsuləllah. O qədər sakitlik idi ki, isti küləyin incə səsindən başqa heç bir səs yox idi.

Həzrət buyurdu: Indi baxın və görün sizə tapşırdığım bu iki qiymətli əmanəti barəsində necə rəftar edəcəksiniz.

Sual verdilər hansı iki əmanət, ya rəsuləllah? Həzrət fasiləsiz cavab verdi: Birinci böyük əmanət Allahın kitabıdır, ondan əl çəkməyin, əgər ondan əl çəksəz yolunuzu azarsız.

Ikinci əmanət isə mənim Əhli-beytimdir. Allah-təala mənə xəbər verib bu iki əmanət bir-birindən ayrılmayacaq, behiştdə mənə qovuşacaqlar. Bu iki əmanətdən

qabağa keçməyin, həlak olarsız və geridə də qalmayın yenə də həlak olarsız. Bu vaxt həzrəti rəsuləllah Əlinin əlini tutub göyə qaldırdı və buyurdu: Ey camaat, sizin işlərinizi hamıdan yaxşı kim bilər? Hamı cavab verdi Allah və onun peyğəmbəri. Həzrət buyurdu: Allah mənim rəhbərimdir. Mən sizin rəhbərinizəm və mən hər şəxsin rəhbəriyəmsə bu Əli də onun rəhbəridir:

من کُنْتُ مُولاهُ فَعَلِیٌّ مُوْلاهُ

Bu sözü üç dəfə təkrar etdi sonra üzünü göyə tutub belə buyurdu:

اللّهُمَّ والی من والاهُ و عادِ مَن عاداهُ و اَحِبْ من اَحَبَّهُ وَاَبْغِضْ من اَبغَضَهُ وَ انْصُرْ من نَصَرَهُ وَ اخْذُلْ مَن خَذَلَهُ وَ اَدِرِ الحَقَّ مَعَهُ حَیْثُ دارَ:

Ey mənim Allahım, kim onu dost tutsa sən də onu dost tut, kim onu sevsə sən də, onu sev, kim onu düşmən tutsa, sən də onu düşmən tut, kimin ondan acığı gəlsə sənin də ondan acığın gəlsin, kim ona kömək etsə, sən də ona kömək et, kim ona kömək etməsə sən də ona kömək etmə, haqqı onunla yoldaş et və onu haqdan ayırma!

Sonra buyurdu: Bilin ki, sizin vəzifəniz bu hadisəni burda olmayanlara çatdırmaqdır.

Peyğəmbərin xütbəsi sona çatdı. Istidən camaat tər içində idilər. Hələ camaatın cərgələri dağılmamışdı ki, Cəbrail Əmin nazil oldu və bu ayəni peyğəmbərə çatdırdı: Maidə surəsi 3-cü ayəsindən bir hissə nazil oldu:

الْيَوْمَ أَكْمَلْتُ لَكُمْ دِينَكُمْ وَأَتْمَمْتُ عَلَيْكُمْ نِعْمَتِي وَرَضِيتُ لَكُمُ الإِسْلاَمَ دِينًا

«Bu gün dini sizin üçün kamil etdim, neməti sizin üçün tamamladım və Islamın sizin üçün din olmasına bu formada razı oldum». Burada bir neçə məsələyə işarə etməyi lazım bilirəm. Düzdür bunlardan bəzilərinə sonralar işarə olunacaq. Allah-təala buyurur: Dini sizə kamil etdim, nemətimi tamamladım, sizin üçün Islam dinini razı bildim. Axı Allahın hər vaxt göndərdiyi din və peyğəmbərimiz gətirdiyi din də Islam dini idi. Bəs bu ayədə deyilən Islam hansı dindir? Belə qənaətə gəlmək olur ki, Islam dinindən Allah din kimi ona görə razıdır ki, onun deyilən proqramlardan əlavə əsas bir cəhəti də olsun. O da imamətdən ibarətdir. Biz Qur'an oxuyanda görürük ki, hər hansı bir ayə nazil olanda, vacib hökm gələndə Allah peyğəmbərə belə xitab etməyib. Ancaq söhbət imamət məsələsinə gəldikdə Allah-təala buyurur: Bu gün dini kamil etdim, neməti sizə tamamladım və Islamın bu formasından razı qaldım. Yəni o Islam ki, onun müqəddaratı peyğəmbərdən sonra adil bir imama tapşırılsın. Qayıdaq sözümüzün əvvəlki hissəsinə. Elə ki, bu ayə nazil oldu. Həzrəti peyğəmbər (s) uca səslə təkbir (Allahu əkbər) deyib belə davam etdi:

الله اکبر الله اکبر علی الکمالِ الدِّین و اِتْمام النعمت و رِضَالرَّبِّ بِرسالتی و الوِلایَةِ لِعَلِیٍّ مِن بَعدی

«Allah böyükdür. O Allah ki, öz dinini kamil etdi və öz nemətini tamamladı və mənim risalətimdən və məndən sonra Əlinin (ə) rəhbərliyindən razı qaldı». Diqqət etsək görərik ki, nemətin tamamlanması, dinin kamil olması, Allahın bu dindən razı qalması, peyğəmbərin öz yerinə canişin seçməsi ilə vücuda gəlir. Deməli

peyğəmbərin ən mühüm vəzifələrindən biri də imamət məqamını və bu vəzifəyə layiq olan adamı camaata tanıtdırıb təyin etmək imiş.

Bu vaxt camaat sevinərək Əli (ə)-ı təbrik etməyə başladı. Təbrik edənələr arasında ən məşhur adamlardan I və II xəlifə Əbu Bəkr və Ömər idilər ki, bu sözləri dedilər: بَخٍ بَخٍ لَكَ يا ابنَ ابى طالب اَصْبَحَتَ و اَمسَيْتَ مُولایَ و مَولا كُلِّ مَؤمنٍ و مُؤمنةٍ «Afərin sənə, afərin sənə! Ey Əbu Talibin oğlu, sən mənim və bütün mömin və möminələrin mövlası və rəhbəri oldun».

Bu halda ibn Abbas dedi: «Allaha and olsun ki, bu əhdi-peyman hamıya vacib oldu».

Məşhur müsəlman şair Həssan ibn Sabit bir şer dedi: Biz mətləbi çox uzatmamaq üçün şeri bu yazıda gətirmirik.

Təbliğ ayəsi barəsində təhqiq və təhlil

Əgər biz bu ayənin Qədirxum çölündə həzrəti Əli (ə) haqqında nazil olmasına, başqa sözlə desək, peyğəmbərin canişini və xəlifəsi haqqında Allahın əmrini təsdiq edən və dediyimiz bu məsələlərə şahid olan hədis və rəvayətləri bir tərəfə qoysaq, ayənin özündən də bunun xilafət və imamətə aid olmasını çox aydın surətdə əldə edə bilərik.

Bu ayədə gəlmiş müxtəlif ifadələr onun üç xüsusiyyətə malik olduğunu bildirir.

1.Bu məsələ Islamda o qədər əhəmiyyətlidir ki, bu işin camaata çatdırılması peyğəmbərə əmr olunur, əgər çatdırmasan elə bil ki, ilahi risaləti yerinə yetirməmisən. Başqa sözlə desək nübuvvət qədər əhəmiyyət kəsb edən bir məsələdir ki, əgər bu iş həyata keçməsə peyğəmbərin risaləti natamam qalır. Mən yenə bir məsələyə işarə etmək istəyirəm ki, ona gələcəkdə işarə olunacaq. O da budur ki, bəziləri deyirlər bu hədisdəki-mövla-sözü dost mənasındadır. Amma bundan qafildirlər ki, heç bir dostluq nübuvvətlə müqayisə oluna bilməz və nübuvvət qədər əhəmiyyətli ola bilməz. Fərz etsək ki, Əli (ə)-la camaatın və həzrəti peyğəmbərin dostluğu o dərəcəyə çatır ki, Allah özü onu nübuvvətilə, özü də bütün peyğəmbərlərin əşrəfi olan bir peyğəmbərin nübuvvətlə müqayisə edir və onun camaata çatdırılmasını əmr edirsə, əks təqdirdə həzrəti Rəsuli Əkrəmin risalətini yerinə yetirilmədiyinə bərabər tutursa, onda bu dostluğa rəhbərlik və imamət adı verməkdən başqa bir əlacımız yoxdur.

2.Ayənin xüsusiyyətlərindən biri də budur ki, bu ayədəki məsələ həcc namaz, oruc, cihad, zəkat və islamın başqa əhkamından deyil. Çünki bu ayə peyğəmbərin ömrünün axırlarında nazil olan ayədir. Bu vaxta qədər bu məsələlərin hökmləri barədə ayə nazil olmuşdu və hamısı müsəlmanlar tərəfindən əmələ gətirilmişdir. Fəqət qalan məsələ imamət və xilafət məsələsi idi.

3.Bu ayənin ifadələrindən aydın olur ki, bu elə bir mühüm məsələ olub ki, bəzi adamlar şəxsi mənafelərinə görə peyğəmbərə qarşı təhlükəli fikirdə olublar. Bu

mənada ki, peyğəmbər özündən sonra bizlərdən birini təyin etməsə onu öldürək və başqa bir təhlükə. Ona görə də Allah-təala ayənin sonunda buyurur:

و اللهُ يَعْصِمُكَ مِن النّاسِ

«Allah-təala səni camaatdan (ehtimali təhlükələrində) hifz edəcək və Allah-təala kafirləri hidayət etməyəcək».

اِنَّ إنَّ اللهَ لا يهدى القَوْمَ الكافرين

Burada kafirlər kəlməsinin cəm halda (كافرون) gəlməsi də bu adamların bir deyil çox olmasına işarə ola bilər. Tarixin göstərdiyi işlər bu ehtimalları yəqinə çevirir. Məsələn: «Məaric» surəsinin 1-ci ayəsi həm bu məqsədə dəlalət edir və belə adamların biri barədə danışır. Həm də Islamın bu hökmünün namaz, oruc, xums, zəkat və cihad olmadığını bildirir. Belə ki, Noman ibn Haris Fehri münafiqlərdən biri idi. O vaxt ki, həzrət Peyğəmbər (s), «Mən kuntu mövlahu fəhaza Əliyyum mövlahu», (Hədisi ğədir) buyurdu: O adam gəldi peyğəmbərin qabağında dayanıb belə dedi: Sən bizə dedin Allahın birliyinə şəhadət ver. Biz də qəbul etdik. Dedin sənin risalətinə şəhadət verək, qəbul etdik. Dedin namaz qılın, oruc tutun, həccə gedin, cihad edin, zəkat verin (bu sözlər də təbliğ ayəsinin bu əməllərə aid olmayıb başqa bir şeyə (imamətə) aid olduğunu bilidirir) biz də bunların hamısını etdik. Indi isə deyirsən bu cavanı rəhbər kimi qəbul edək. (Buna işarə etməyi lazım bilirəm ki, bəzi adamların Əlinin (ə) imamətinə iradı onun cavanlığına görə olub. Necə ki, birinci xəlifə Əbu Bəkrin atası Əbu Quhafə oğlundan soruşanda ki, niyə sən xəlifə oldun. Cavabında

mənim yaşım o birilərindən çoxdur dedi. Əbu Quhafə isə onda mən bu məsələdə səndən daha layiqəm deyərək oğluna etiraz etdi) Bu əmr sənin öz tərəfindəndir yoxsa Allah əmridir? Həzrəti peyğəmbər buyurdu: Allaha and olsun ki, Ondan başqa məbud yoxdur. Bu Allahın əmridir.

Noman ibn Haris üz döndərdi və dedi: Ilahi, əgər bu söz düzdürsə və sənin tərəfindədirsə göydən mənə daş yağdır! Birdən göydən bir daş onun başına düşdü və onu öldürdü: سَأَلَ سائلٌ بِعَذابٍ واقعٍ للكافرين ليسَى له دافعٌ «Bir nəfər əzab istədi və o əzab baş verdi. Bu əzab kafirlərə məxsusdur ki, heç kəs onu dəf edə bilməz». Deməliyəm ki, ayənin nazil olma səbəbi haqda çoxlu şiə və sünni alimləri tərəfindən nəql olunan rəvayətlər var.

Qədir hədisi barədə bir qədər izahat

Bu mütəvatir olan hədisi icmalən bildik və bu hədis bütün kitablarda gəlib (من كنت مولاه فعلى مولاه).

Bu hədis çox şeyləri izah edir.

Sünni alimlərin bəzilərinin nəzərində bu hədisdəki «mövla» kəlməsi dost və köməkçi deməkdir. Düzdür, onun bir mənası dost və köməkçi deməkdir. Amma əvvəldə buna bir qədər işarə etdik ki, dostluq elə bir məsələ deyil ki, peyğəmbərin risaləti ilə müqayisə olunsun. Əlavə çoxlu dəlillər var ki, təsdiq edir burdakı «mövla» kəlməsi «rəhbər» mənasındadır.

1.Əlinin (ə) bütün möminlərlə dostluq məsələsi gizli bir iş deyildi ki, belə təkid ilə Allah-təala onu aşkar etməyi əmr etsin, özü də əgər etməsə elə bil peyğəmbərin risaləti natamam olub. Ondan əlavə 124 min nəfər zəvvarın o cürə isti havada dayandırılıb onlara elan olunsun və onlardan əhd-peyman alınsın ki, siz bu məsələyə diqqət yetirməlisiz.

Çünki «Qur'an» buyurur: إِنَّمَا الْمُؤْمِنُونَ إِخْوَةٌ «bütün möminlər bir-biri ilə qardaşdır».

وَالْمُؤْمِنُونَ وَالْمُؤْمِنَاتُ بَعْضُهُمْ أَوْلِيَاء بَعْضٍ

«Mömin kişilər və möminə qadınlar bir-birilə qardaşdırlar».

Bu ayələrdən sonra Əlinin (ə) dostluğunu elan etməyə ehtiyac yox idi.

2. Əliyə (ə) deyilən təbriklər, xüsusən də Ömər və Əbubəkrin təbriklərində olan sözlər məsələnin rəhbərliyə aid olmasına sübutdur. Fəxri Razi təbliğ ayəsinin təfsirində Ömərin Əliyə (ə) təbrikinin ibarətini gətirir və onun rəhbər mənasına olmasını göstərir.

3.Həssan ibn Sabitin şerlərindən bunu çox aydın hiss etmək mümkündür. Xülasəyə görə bu şerləri qeyd etmirik. Bəzilər belə irad edirlər ki, nə üçün Əli bu ayəni və onun təfsirində olan bu hədisi (təbliğ ayəsi və qədir hədisi) öz hüquqlarını müdafiə edəndə gətirmir.

Bu irad da başqa iradlar kimi insanların hədis, tarix və təfsir kitablarından xəbərdar olmamasının nəticəsidir. Sünni alimlərinin kitablarının çoxunda bu

məsələyə dəfələrlə işarə olunub. Təəccüblüdür, irad edənlər necə olub ki, onları görməyiblər.

Xətib Xarəzmi Hənəfi «Mənaqib» kitabında Amir ibni Vasilədən nəql edir: Altı nəfərlik şuranı ikinci xəlifə yaratdı və dedi öz aranızdan bir nəfəri xəlifə seçin, onda mən də Əlinin (ə) yanında idim. Eşitdim Əli deyir: Sizə möhkəm bir dəlil gətirəcəm, ərəb və əcəm onu inkar edə bilməz. Sonra buyurdu: Sizi Allaha and verirəm düzünü deyin: Sizin içərinizdə məndən başqa bir adam varmı peyğəmbər onun barəsində, «mən kimin rəhbəriyəm Əli də onun rəhbəridir», desin. Hamısı dedi, xeyir, səndən başqası yoxdur.

Bu rəvayəti Həmvini «Fəğaidus səmteyn» kitabında, ibni Hatəm «Dürrünnəzimdə» və ibni Əbilhədid isə Nəhcülbəlağənin şərhində, ibn Hücr isə «Səvaiq» kitabında Dari Qütnidən nəql edibdir.

Bundan əlavə mötəbər rəvayətlər göstərir ki, Əli (ə) bu məsələyə Cəməl, Siffeyn və Kufədə işarə edibdir.

Bu qədər dəlil və sübutlardan və ayə ilə hədisin öz ibarətinin sübuta yetirdiyi məqamların hamısının Əli (ə) xilafətinə aid olduğunu biləndən sonra, əgər bir nəfər adam bu məsələdə yenə şəkk edirsə, onda ən azı ona insafsız adam, yox əgər qəbul etmirsə onda ona inadkar adam desək yanılmarıq.

Ulul-Əmr ayəsi

Əlinin (ə) imamətinə dəlalət edən ayələrdən biri də «ulul-əmr»-əmr sahibləri ayəsidir. Bu ayə «Nisa» surəsinin 59-cu ayəsindədir. « يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ أَطِيعُواْ اللهَ وَأَطِيعُواْ الرَّسُولَ وَأُوْلِي الأَمْرِ مِنكُمْ». «Ey iman gətirənlər Allaha, onun rəsuluna və özünüzdən olan əmr sahiblərinə itaət edin».

Bu ayənin Əli (ə) barəsində olmasına dəlalət edən rəvayətlərdən əlavə əqli dəlilimiz də var. O dəlil bundan ibarətdir. Ayədə görürük ki, Allah-taala əmr edərək ulul-əmrdən itaəti mütləq edir, yəni, heç bir qeyd və şərt olmadan buyurur: Gərək mənə, mənim rəsuluma və ulul-əmrə itaət edəsiniz. Mümkün deyil Allah-təala özünə və rəsuluna itaət olunmağı əmr etməklə yanaşı, bu itaətin yanında günah əhlinə, qeyri məsum bir şəxsə itaət etməyə əmr etsin. Həzrəti Əli(ə) məsum olduğuna görə Allah-təala onun itaətini bizlərə vacib edir.

Bundan əlavə rəvayətlər vardır ki, mötəbər və tutarlı sənədlərlə bu ayənin həzrəti Əliyə (ə) aid olduğunu göstərir. Bu rəvayətlərin çoxunu əhli sünnənin mötəbər kitabalarında rast gəlmək olar.

Görkəmli təfsirçi Hakim Həskani Hənəfi Nişaburi bu ayənin təfsirində 5 hədis nəql edib ki onların hamısında «ulul-əmrin» Əliyə (ə) aid olduğunu göstərir. Hakim Nişaburidən əlavə «Şəvahidut-tənzil» əsərində başqa bir dəstə də bu ayənin Əlinin (ə) xəlifəliyi barəsində olduğunu göstərən çoxlu sayda hədislər gətirmişlər.

Hakim Nişaburinin rəvayət etdiyi hədislər bunlardır. Birinci hədisi o həzrətin özündən nəql edir ki, Əli (ə) buyurur: Soruşdum ya rəsuləllah «ulul-əmr» kimlərdir? Həzrət peyğəmbər (s) buyurdu: Birincisi sənsən.

Ikinci hədisi məşhur təfsirçi mücahiddən nəql edir. Bu ayə Əlinin (ə) barəsində o vaxt nazil olub ki, həzrət peyğəmbər onu öz yerinə canişin təyin etdi və özü Təbuk müharibəsinə getdi.

Üçüncü hədisi imam Mühəmməd Baqirdən (ə) nəql edir: Dördüncü hədisi Səd Vəqqasdan nəql edir: O vaxt peyğəmbər Təbuk döyüşünə gedirdi. Əli (ə) onun ardınca əlində silah gələrək deyir: Ya rəsuləllah, mən heç bir döyüşdə səndən ayrı düşməmişəm. Indi mən Mədinədə qalıram, münafiqlər də şayiə yayacaqlar ki, mənim sizin yanınızda olmağımdan xoşunuz gəlmir. Səd deyir: Öz qulağımla eşitdim, Rəsuləllah buyurdu: Ey Əli (ə), istəmirsən mənə nisbətən eyni ilə Harunun Musaya nisbəti kimi olasan? Yəni Harun Həzrəti Musanın canişini oldu, sən də mənim canişinim olasan. Ya Əli (ə), qayıt Mədinəni münafiqlərdən qoru. Elə bu vaxt bu ayə nazil oldu və ulul-əmrə itaəti vacib etdi.

Bu ayə və hədislərə də bəziləri iradlar tutmuşlar. Bunların cavabı başqa ayələr haqqında danışarkən verilir. Onları bir daha burada qeyd etməyə ehtiyac yoxdur.

Amma bəziləri gəliblər bu ayəyə bir təfsir yazıblar ki, heç bir qaydaya və əqli məsələyə uyğun gəlmir. Hətta bu qərəzli məqsədlərini sübut etmək üçün hədislərdə özlərindən düzəldiblər. O, təfsirçilər deyirlər guya bu ayədəki «ululəmr»-dən məqsəd

hakimlər əmirlər və şahlarlardır. Hər bir adam müsəlmanlara hakimiyyət etsə, zalım ola və yaxud adil, düzgün yolda ola və yaxud əyri, Allaha itaətə çağıra və yaxud şeytanın itaətinə dəvət edə heç bir tərəddüd etmədən gərək ona itaət edəsən. «Əlmənar» təfsirində üstüörtülü halda buna işarə edibdir.

Bundan da təəccüblüsü odur ki, bu barədə hədislər düzəldib hətta onu peyğəmbərə nisbət veriblər. Məsələn deyirlər həzrəti peyğəmbərdən «Yəzid Cöfi soruşdu: Ey rəsuləllah, bir hakim bizə müsəllət ola, haqqını bizdən ala, amma bizim haqqımızı bizə qaytarmaya ona nə edək? Guya Həzrət cavab verdi: «Ona qulaq asıb itaət edin».

Bu məzmunda başqa bir hədis də vardır.

Amma gəlin diqqət edək, bu cürə sözü peyğəmərə nisbət verənlər nə üçün fikirləşmirlər bir söz ki, nə ağıl nədə şəriət məntiqinə sığışmır, necə peyğəmbər onu deyə bilər. Halbuki o peyğəmbər özü buyurubdur: «Xaliqə asi olub məxluqa baş əymək olmaz» yəni bir nəfər camaatı allahsızlığa dəvət edirsə insan onun dəvətini qəbul edə bilməz. Necə mümkündür peyğəmbər bu hədisi bu cür desin, sonrada gəlib desin ki, günahkara baş əyin və ondan itaət edin.

Bundan əlavə o, yalandan düzəlmiş hədisin birini «Əbazər Qəffariyə» nisbət verirlər. Guya bu hədisi (xaliqə asi olun, məxluqa itaət edin) Əbazər peyğəmbərdən nəql edib. Əgər Əbazər bu sözü peyğəmbərdən eşitmişdisə onda nə üçün özü bəzi

adamlara itaət etmədi (üçüncü xəlifəyə) və nəticədə Mədinədən sürgün oldu, işgəncələrə məruz qaldı.

Ən başlıcası isə ayənin özündən aydın olur, dediyimiz kimi Allah-təala ayədə buyurur: «Allaha itaət edin, peyğəmbərə itaət edin və əmr sahiblərinə itaət edin». Bu ayədə heç bir şərt olmadan Allah-təala «ululəmr» itaət etməyi özünə və rəsuluna itaət etməklə yanaşı əmr edir. Əgər o düzəltmə hədisdəki kimi «ululəmri» günahkar adama da aid etsək, onda bu əmri allahdan necə qəbul etmək olar. Başqa bir sözlə desək, Allah-təala yüz iyirmi dörd min məsum peyğəmbər göndərib camaatı zülmətdən qurtarsın, nura çatdırsın, bu tərəfdən də gəlib günahkara baş əyməyi yəni zülmətə qərq olmağı əmr edir. Bu cürə məntiqsiz bir sözün Allah-təalanın buyurması mümkün deyil. Gəlin sözümüzü yekunlaşdıraq. Ayənin özündən, peyğəmbərdən olan yuxarıdakı hədisdən məlum olur ki, ayədəki «ulul əmr»dən məqsəd məsum insanlardır. Çoxlu sünni və şiə mənbələrimizdən əlimizə çatan hədislər də sübut edir ki, bu məsum insanlar allahın yer üzündə höccəti olan Əli (ə) və ondan sonra olan on bir nəfər məsum imamlardır.

Allah-təala həqqi tanımaqda, zülmətdən çıxıb, nura qərq olmaqda bizə kömək olsun. Amin.

Bu mənaya oxşarını Xarəzmi «Mənaqib» kitabında, Zərəndi «Dürərül səmteyn»də, Əbdullah Şafei «Mənaqib» kitabında, Hakim «Şəvahidültənzil»də nəql edirlər və bunun Əli (ə) barəsində olduğunu söyləyirlər.

Hafiz Süleyman Qənduzi Hənəfi «Yənabeül Məvəddə» kitabında nəql edir: Salman farsı deyir bu ayə nazil olanda həzrəti peyğəmbər (s)-dən soruşdum, ya rəsuləllah, bu ayənin məfhumu, ümumidir ya xüsusi? Həzrət cavabında buyurdu:

اَمَّا المأَمُورونَ فَعامَّةُ المُؤمِنينَ وَ اَمّا الصادِقونَ فَخاصَّةٌ, آخی عَلِیٌّ وَ آوْصِیائَهُ مِنْ بَعْدِهِ اِلی یَوْمِ القیامَةِ

Yəni: «Məmurlar, onlara ki, əmr olunub sadiqlərlə olun, onlar ümumi möminlərdir, amma sadiqlər qardaşım Əlidən və onun vəsilərindən ibarətdir, qiyamətə qədər».

Əllamə Həənvini, Şeyx Əbülhəsən Kazruni, Hakimi Həsəkani Əbdullah ibn Ömərdən nəql edir ki, sadiqdən məqsəd Mühəmməd (s) və onun əhli beytidir.

Burada bir məsələyə diqqət etmək lazımdır ki, Allah-təala möminlərin sadiqlərlə birlikdə olmağını mütləq (qeyd və şərtsiz) vacib edib. Ona görə də sadiqlər (ayədəki) məsumlardan başqa heç bir şəxs ola bilməz. Çünki, qeyri-məsumlar günaha və xətaya düşə bilərlər. Allah-təala isə xətakarlarla birlikdə olmağı insana vacib etməz.

Bir şeyə də diqqət yetirmək lazımdır ki, birlikdə olmaq dedikdə nəinki biz fikirləşdiyimiz kimi adi həyat münasibətləri, bir yerdə oturub durmaq, bəzi işlərdə yoldaşlıq etmək nəzərdə tutulur. Xeyir! Birlikdə olmaq yəni, onların yolu ilə getmək və onlardan itaət etməkdir ki, dünyada zəlalətə düşməyəsiniz ki, nəticəsi də axirət əzabı ilə nəticələnsin.

Buna görə də Allahın sadiqlərlə olun əmri, məsumlarla olun mənasınadır.

Qurba (قربى) ayəsi

Peyğəmbər (s) əhli-beytinin fəzilətinə dəlalət edən ayələrdən biri də «Şura» surəsinin 23 ayəsidir ki, «Qurba» (قربى) ayəsi sözi ilə məşhurdur. Ayə belədir:

قُل لَّا أَسْأَلُكُمْ عَلَيْهِ أَجْرًا إِلَّا الْمَوَدَّةَ فِي الْقُرْبَى

«De, mən risalətim müqabilində sizdən heç bir mükafat istəmirəm. Məgər əhli-beytimə məhəbbət istəyirəm».

(قربى) Qurba, lüğətlərin təsdiq etdiyi kimi, insanın ən yaxın nəslinə, yəni oğluna, qızına, nəvəsinə aiddir. Bu ayədə də peyğəmbərin ən yaxın adamlarına, yəni Həzrəti Fatimə, Həzrəti Əli, Imam Həsən və imam Hüseyn (ə)-a aiddir.

Bütün peyğəmbərlər öz risalətinin müqabilində heç bir şey istəməyiblər. Məsələn: ayə var ki, neçə nəfər peyğəmbərlərdən, o cümlədən Nuh, Hud, Saleh, Lut və Şüeyb kimi peyğəmbərlərin öz risalətləri müqabilində heç bir şey istəmədiklərini bildirir.

قل لا اَسْئَلُکُم علیه من اَجرٍ اِن اَجْرِیَ اَنما علی رَبِّ العالمین

«Biz sizdən heç bir muzd istəmirik, bizim mükafatımız Alla-təalanın öhdəsinədir».

Axirəzzaman peyğəmbər də onlar kimi. Amma bu ayədə Allah Həzrəti Mühəmməd (s)-ə əmr edir ki, de: Peyğəmbərliyimin müqabilində mən sizdən heç bir əcr və əvəz istəmirəm. Yalnız əhli-beytimə məhəbbət etməyinizi istəyirəm. Deməli burada məsələ daha da aydınlaşır, peyğəmbərdən sonra islamın yaşamasında Əhli-

beytin mühüm rolu olduğu üçün Allah-təala bu əmri peyğəmbər (s)-ə göndərir. Daha aydın desək, məsələ imamət və xilafət məsələsidir. Insanların hidayət olunması və onların düz yolda saxlanılması məsələsidir. Çünki həzrəti peyğəmbər (s) dəfələrlə buyurub: «Mənim Əhli-beytim Nuhun gəmisinə bənzəyir. Kim ona minsə nicat tapacaq, kim kənarda qalsa məhv olacaq». Başqa bir yerdə buyurur: Əhli-beytimə arxalansanız zəlalətə düşməzsiniz. Bu barədə çoxlu hədislər var. Inşaallah hədis bəhsində gətiriləcək.

Bir nöqtəni əlavə etmək istəyirəm ki, heç bir müsəlman bu ayənin peyğəmbərin əhli-beytinə aid olduğunu inkar edə bilmir. Amma istəyirlər bu ayənin əhatə dairəsini genişləndirib çoxlarına aid etsinlər. Bəzən də belə deyirlər. Necə ola bilər ki, məsələn filan adam Əhli-beytdən kənar olsun? Bunu bilmək lazımdır, Allah heç vaxt günahkar adamı sevməyi əmr ilə vacib etməz və məlumdur ki, əmrdən çıxan adamı cəza gözləyir. Bunu da bilirik ki, günahkar adamı sevməməklə Allah-təala insana cəza verməz. Çünki, bu Allahın ədaləti ilə uyğun deyil. Bundan əlavə əgər Allah-təala insanı günah əhlinə məhəbbət etməyə əmr etsəydi, onda özü insanın azmağına səbəb olardı. Sübhanəllah, Allah bu işlərdən pakdır. Əksinə Allah-təala həmişə insanları günahkarlardan uzaq olmağa çağırıb. Məsələn:

«Hud» surəsi ayə 113 وَلاَ تَرْكَنُواْ إِلَى الَّذِينَ ظَلَمُواْ فَتَمَسَّكُمُ النَّارُ

«Zülm əhlinə söykənməyin, yoxsa od sizi yandırar». Ya həzrəti Nuhun oğlu onun çağırışına qulaq asmayıb dağa çıxanda buyurdu: Ilahi o mənim əhlimdəndir.

Allah-təala cavabında buyurdu: اَنَّهُ لیس من اَهلِك «O sənin əhlindən deyil». Bunlardan bu nəticəyə gəlmək olur ki, Allah-təalanın məhəbbətini vacib buyurduğu insanlar məsum insanlar olmalıdır. Peyğəmbərin də Əhli-beytinə və ayədəki «قربی» qurba kəlməsinin məfhumuna peyğəmbərin məsum olan yaxınları daxildir. Tarixin səhifələrində bəzən çox təəccüblü işlərə rast gəlmək olur. Məsələyə bir tərəfli yanaşan, o biri tərəfə göz yuman insanlar məsuliyyət hiss etmədən nəyə xatirsə həqiqətdən uzaqlaşırlar. Bilirik ki, Həzrəti Əli (ə) həzrəti Peyğəmbərin (s) əmisi oğlu, qızının həyat yoldaşıdır. Özü də həzrəti Fatimə (s) barəsində, Qur'anda surə və çoxlu ayələr var. O ayələrdə həzrəti Fatimənin fəzilətlərindən və onun Islamın yayılmasında, peyğəmbərin risalətinin həyata keçməsində fədakarlığından danışılır. O ayələrin birində Həzrəti Fatimə (s)-ın əməllərinin müqabilində Allah-təala buyurur: «Tez bir zamanda Allahın bu əməllərin əvəzini sənə verəcək və özün də razı qalacaqsan». Bu kimi çoxlu ayələr, çoxlu hədislər: Həzrəti Peyğəmbər (s) buyurur: Fatimə mənim bədənimin yarısıdır. Fatimənin qəzəbi ilə Allah qəzəblənər, sevinci ilə Allah razılığa gələr. (yəni kim onu qəzəbləndirsə Allahı qəzəbləndirib, kim onu razı salsa Allah ondan razı qalar). Bu hədislərin birində:

من اَعرف فاطمة حَقَّ معرفته فقد اَدرَكَ لَیلةَ القَدْر

«Hər kəs Fatiməni necə var tanısa qədr gecəsini dərk etmiş olar» deyə buyurulur. Diqqət edək, belə bir məsum xanımın həyat yoldaşı olmağını Əliyə (ə) fəzilət hesab etmirlər. Halbuki Həzrəti peyğəmbər buyurub: «Əgər Əli (ə) olmasaydı

Fatiməyə layiq yer üzündə bir insan tapılmazdı». Amma üçüncü xəlifə Osmana peyğəmbərin ögey qızları ilə (iki qızı ilə, biri öləndən sonra o birini almışdı) evlənməyini fəzilət hesab edib ona «iki nur sahibi» ləqəbini veriblər. O qızların barəsində nə Qur'anda nə də hədislərdə heç bir sənəd yoxdur. Amma həzrəti Fatimə bir çox müsibətlərlə peyğəmbərdən sonra 75 ya 95 gün ömür etdi. Bu müsibətlərin heç birisi şəxsi işlərə görə deyildi. Hamısı peyğəmər (s)-in dininin yaşaması uğrunda ona üz vermişdi. Necə ki, o, xanım özü buyurur:

صُبَّتْ عَلَیَّ مصائبَ لَوء اَنّها صُبَّت علی الأیام صیرْنَ لَیالِیاً

«Mənə müsibətlər üz verdi, əgər o müsibətlər gündüzlərə üz versəydi dönüb gecə olardılar».

Mən hələ Əlinin (ə) Imam Həsən və Imam Hüseyn barəsində olan fəzilətlərini burada sadalamaq istəmirəm. Həzrəti Zəhranın (s) bəzi fəzilətlərini deməklə hörmətli oxucuya bildirmək istəyirəm ki, onun həyat yoldaşı, onun oğlanları, hamısı peyğəmbərin həm maddi, həm də mənəvi varisləri və Əhli-beytidir. Əlbəttə buna sübut olan ayələrimiz də vardır. Inşallah öz yerində o ayələrdə bunların peyğəmbərin Əhli-beyti olmaqlarını sübuta yetirəcəyik. Yeri gəlmişkən söhbət həzrəti Zəhradan düşdü. Mən bu yaxınlarda o xanımın barəsində bir şerə rast gəldim, istəyirəm, o şeri oxucuların nəzərinə çatdıram. Əvvəlcədən şerin müəllifinə öz minnətdarlığımı bildirirəm.

Xəlqi-Aləm səbəbi, həzrəti Zəhrada imiş

Iki dünya evinin zinəti Zəhrada imiş

Çarə yox ümmətə, cəlməzsə qiyamət xanımı

Demə, məhşər gününün hörməti Zəhrada imiş

Ey əmoğlum, öz «əlinlə mənə ver qüsl» -dedi:

Aləmin dərdi-qəmi, möhnəti Zəhrada imiş,

Tanrının şirinə tapşırdı, Hüseynlə Həsəni

Analar mərhəməti, şəfqəti Zəhrada imiş,

Etdi öz canını bir gün şəhi-mərdanə fəda

Neçə mərdanələrin qeyrəti Zəhrada imiş,

Incə qəlbi ata hicranına tab eyləmədi

Saleh övladların xiffəti Zəhrada imiş

Ona: «Gəl-gəl» dedi peyğəmbərimiz, vəqt yetib

Ali dərgahda belə həsrəti Zəhrada imiş

Nabinalar dəxi naməhrəm idi ol pakə

Yeddi yer, yeddi göyün isməti Zəhrada imiş

Üzünün nurunu gördükdə mələklər çəkinər

Hikməti həşr-behişt-xilqəti, Zəhrada imiş

Ey könül tutisi, hər şəkkərə meyl eyləmə, kim

Mərifət məclisinin şərbəti Zəhrada imiş

Xabi qəflətdən oyan, Dahi, oyansın qələmin

Şer durdanəsinin qiyməti Zəhrada imiş

Qeyd etməliyik ki, şerin hər misrası bir hədisdir. Hörmətli şair onları çox gözəl surətdə qələmə alıb.

Islam hədislərində qurba «قربی» ayəsi. Bu ayənin mənasının təfsirində çoxlu sünni və şiə mənbələrində hədislər vardır. O cümlədən:

1.Hakim Həsəkani hicri tarixi ilə 5-ci əsrdə yaşayıb və «Şəvahid əttənzil» kitabında Səid ibni Cübeyrdən, o da ibni Abbasdan nəql edir: «Bu ayə nazil olanda peyğəmbərdən soruşdular: Ya Rəsuləllah! Bunlar kimdirlər ki, belə Allah-təala onları sevməyi bizə əmr edib? Həzrəti Peyğəmbər (s) buyurdu: Əli, Fatimə və onların övladları (şəvahid əttənzil 2-ci cild səh. 130).

2.Həmin kitabda başqa bir hədisi Əbi Imamə Bahilidən nəql edir: Peyğəmbər (s) buyurdu: Allah-təala peyğəmbərləri müxtəlif ağaclardan yaratdı. Amma mən və Əlini bir ağacdan yaratdı. Mən o ağacın köküyəm. Əli onun budağıdır. Fatimə onun meyvəsinin səbəbkarıdır. Həsən və Hüseyn onun meyvəsidir. Bizim ardımızca gedənlər onun yarpaqlarındandır. Hər kəs bu ağacın budaqlarının birindən yapışsa, nicat tapacaq, kim yolunu azsa məhv olacaq. Əgər bir bəndə Səfa və Mərva arasında (iki dağdır Məkkədə Hacılar o iki dağın arasında səy edərlər. Səy Həccin vacib əməllərindəndir). Min il ibadət edəndən sonra min il, ondan sonra yenə min il ibadət

edə və ibadətin təsirində köhnə bir meşinə dönə amma mənim əhli-beytimə məhəbbət etməyə Allah-təala onu üzü üstə cəhənnəmə atar: Həzrət peyğəmbər bu sözün ardıyca həmin «Şura» surəsinin 23-cü ayəsini oxudu:» (Şəvahüddəttənzil 2-ci cild səh.141).

3.Böyük sünni müfəssiri Süyuti «Dürrülmənsur» kitabında bu ayənin təfsiri barədə mücahiddən, o da ibn Abbasdan nəql edir: Həzrəti peyğəmbər (s) bu ayənin təfsirində buyurdu: اَن تَحْفَضُونی من اهل بِیتی و تُوَدّوهُم بی «məqsəd budur ki, əhli-beytimin barəsində mənim haqqımı qoruyun və mənə görə onlara məhəbbət yetirin».

4. Əhməd Hənbəl «Fəzailüssəhabə» kitabında, Səid ibn Cübeyridən, o da Amirdən nəql edir: Bu ayə nazil olanda camaat sual etdi: Ya rəsuləllah, sənin yaxınların kimdir ki, bu ayə onlara məhəbbət etməyi vacib edir? Həzrət buyurdu: Əli, Fatimə və onların övladları! Həzrət bu sözü üç dəfə təkrar etdi. Cahiz Əbu Nəim Isfəhani «Hilyətül övliya» kitabında Cabirdən nəql edir: Ərəb bir kişi peyğəmbərin yanına gəlib ondan Islamın təlim olunmağını xahiş etdi. Həzrəti peyğəmbər (s) ona Islamın qəbul olunmasını təlim etdi, o da Islamı qəbul edəndən sonra dedi: Ey rəsuləllah, məndən bunun müqabilində nə istəyirsən? Peyğəmbər, «fəqət əhli-beytimə məhəbbət istəyirəm» dedi: O kişi dedi, ya Rəsuləllah, hər kəs sənin Əhli-beytinə məhəbbət etməsə Allah ona lənət etsin! Həzrət «amin» dedi:

Bundan əlavə də çoxlu mənbələrdə eyni ilə bu məzmunda hədislər rəvayət olub.

Zəməxşəri «əl-Kəşşaf», Fəxr Razi isə «Təfsiri-kəbir» də, habelə Qirtəbi öz təfsirində bu ayənin şərhində yazırlar: Həzrəti Peyğəmbər (s) Əhli-beytinin barəsində məhəbbəti çox aşkar surətdə bəyan etdi: «Kim Ali Mühəmmədin məhəbbəti ilə ölsə şəhid hesab olunar. (Bu barədə ayə də gəlmişdir ki, kim mömin dünyadan getsə Allah ona şəhid savabı verər), kim Ali Mühəmməd məhəbbəti ilə ölsə bağışlanmış halda ölər, kim Ali Mühəmməd məhəbbəti ilə ölsə mömin və kamil imanla ölər, kim Ali Mühəmməd məhəbbəti ilə ölsə Əzrayıl, Nəkir və Münkər (mələklər) ona behişt müjdəsi verər, kim Ali Mühəmməd məhəbbəti ilə ölsə behiştə bəzədilmiş halda aparılar, necə ki, gəlini bəy evinə apararlar, kim Ali Mühəmməd məhəbbətilə ölsə onun qəbri rəhmət mələklərinin ziyarətgahı olar. Kim Ali Mühəmməd məhəbbəti ilə ölsə onun qəbrinə behiştdən iki qapı açılar, kim Ali Mühəmməd məhəbbəti ilə ölsə sünnə və camaatla ölmüş olar.

Bilin! Kim Ali Mühəmmədə düşmən olaraq ölsə alnına yazılar: Allah rəhmətindən məyus ol. Kim Ali Mühəmmədə düşmən olaraq ölsə kafir halda ölər. Ilahi, bizi Ali Mühəmmədin dostlarından qərar ver. Amin.

Zəməxşəri deyir: Hərçənd «آل» (Ali) kəlməsinin məfhumu böyükdür. Lakin şübhə yoxdur ki, Əli (ə), Fatimə (s.ə), Həsən (ə) və Hüseyn (ə) peyğəmbərin ən yaxın adamlarıdır. Ilahi, bizi Ali Mühəmmədi dost sayanlardan qərar ver. Amin.

Sadiqin ayəsi

Sadiqin ayəsi «Tövbə» surəsinin 119-cu ayəsidir. Ayə belədir: « يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ اتَّقُواْ اللّهَ وَكُونُواْ مَعَ الصَّادِقِينَ». «Ey iman gətirənlər Allahdan qorxun (təqvalı olun) və həmişə sadiqlərlə (doğrularla) birgə olun».

Bu ayənin də şərhində çoxlu rəvayətlər gəlmişdir ki, onlar Əli (ə) və ya bütün imamlar barəsində olduğunu göstərir. Məsələn: Süyuti «Dürrul-Mənsur» əsərində ibn Abbasdan bu ayənin təfsirində nəql edir: «Məas –Sadiqin»dən (doğrularla birgə olun) məqsəd Əli ibn Əbutalibdir. Buna bənzər digər hədisi Xarəzmi «Mənaqibdə», Zərəndi «Durərul Səmteyində», Əbdullah Şafei «Mənaqib» kitabında, Hakim «şəvahidüttənzildə» nəql edirlər və bunun Əli (ə) barəsində olduğunu söyləyirlər.

Hafiz Süleyman Qunduzi Hənəfi «Yənabiül məvəddə» kitabında nəql edir: Salman Farsı deyir: Bu ayə nazil olanda Həzrəti peyğəmbər (s)-dan soruşdum, ya Rəsuləllah, bu ayənin məfhumu ümumidir ya xüsusi? Həzrət cavabında buyurur:

اَمّا المأمورون فعامَّةُ المُؤمنين وَ اَماالصادقون فخاصَّةٌ هُوَ عَلِيّ و اوصيائه من بعده الى يوم القيامة

«Yəni doğrularla olmağa əmr olunan şəxslər möminlərdir. Amma Qiyamətə qədər doğru olan şəxslər isə qardaşım Əli (ə) və onun vəsiləridir».

Əllamə Həmvini, Şeyx Əbulhəsən Kazruni və Hakimi Həsəkani, Əbdüllah ibn Ömərdən nəql edir ki, doğrulardan məqsəd Mühəmməd (s) və onun əhli-beytidir.

Burda bir məsələyə diqqət etmək lazımdır ki, Allah-təala möminlərin sadiqlərlə birlikdə olmağını mütləq (qeyd və şərtsiz) vacib edib. Ona görə də Sadiqlər

məsumlardan başqa heç bir şəxs ola bilməz. (ayədəki sadiqlər) Çünki qeyri-məsumlar günaha və xətaya düşərlər.

Əli(ə)-ın və başqa imamların fəzilətinə dəlalət edən ayələr

Əli (ə)-ın fəzilətləri

Bu hissədəki söhbətimizdə danışacağımız ayələr bir başa imamət və vilayət məsələsinə dəlalət etmir. Amma Əli(ə)-ın böyük fəzilətlərinə dəlalət edir. Bu ayələrin ətrafında insan diqqət edib fikirləşəndə çox qaranlıqlar ona aydın olur. Insan bu qənaətə gəlir ki, doğrudanda Əli (ə)-dan başqa bu məqama ləyaqətli adam olmayıb. Əli (ə)-ın fəzilətinə dəlalət edən ayələr çoxdur. Biz onların təxminən 24-nün barəsində söhbət açacağıq. Bu ayələrin Əli (ə) barəsində olduğunu daha çox sünni hədisləri ilə sübuta yetirəcəyik. Ona görə bu mənbədən istifadə edəcəyik ki, hörmətli oxucuda başqa bir şübhə qalmasın. Insanın bir məsələni sübuta yetirməyi üçün cürbəcür yolları var. Onlardan biri əqli yoldur, digəri isə nəqli yoldur. Nəqli yolun birisi allah tərəfindən göndərilmiş Qurani Kərimdir. Ikincisi peyğəmbərin (s) və imamların hədisləridir. Üçüncüsü isə adi insanlardır. Bu insanları üç hissəyə bölmək olar. Birincisi bu məsələyə müvafiq olan insanlar, ikinci bu məsələyə müxalif olanlar. Üçüncüsü isə bu məsələdə bitərəf olan insanlar.

Qur’ani Kərimin ayələrindən bu barədə olanlarının bir qədərini ki, aşkar surətdə Əli (ə)-ın imamətinə dəlalət edir, gətirmişik. Bir qədəri isə onun fəzilətinə aşkar surətdə (imamətinə isə fikir və nəzərlə) dəlalət edir, gətirəcəyik. Peyğəmbərin və imamların hədisləri də bunun kimi, indiyə qədər bir qədəri deyilib, bundan sonra da bəhslərin içində gələcək. Qaldı bu məsələyə müxalif olanların sözləri və fikirləri onlardan keçirik.

Bitərəf insanlardan iki böyük məsihi aliminin fikrini yazırıq. Böyük məsihi alimi Şibli Şümeyl deyir: Insanlar! Diqqət edin dünyaya və görün bu dünya o qədər acizdir ki, hər əsrdə Əli kimi bir şəxsiyyət yetişdirə bilmir ki, dünyanın nizamını qoruyub saxlasın.

Yaxud Cord Cordaq deyir: Dünyada heç bir şəxsiyyət Əlini diz çökdürə bilmədi. Yetimlərdən başqa. Bu məsələdə Əli (ə)-la rəqib olan 2-ci xəlifə Ömər dəfələrlə özü etiraf edib: لولا علی لَهَلَكَ العمر Əgər Əli olmasaydı Ömər həlak olardı. Bir hadisə yadıma düşdü. Bir gün bir nəfər Kə’bədə təvaf edəndə naməhrəmə baxırdı. Əli (ə) onu vurdu. O da xəlifəyə şikayət üçün gəldi. Xəlifə Ömər idi. Şikayətini ona deyəndən sonra xəlifə həmin adamı tanıtdırmağı ondan tələb etdi. Onlar birlikdə məscidul hərama yaxınlaşanda Əli (ə)-la rastlaşdılar. O kişi Əli (ə)-mı görcək məni vuran budur dedi və xəlifədən ona cəza verməyi tələb etdi. Xəlifə dedi: Mən bu adama cəza verə bilmərəm. Çünki لأَنتَكَ عِيْنُ اللهِ و ضَرَبْتُكَ يَدُى الله yəni səni Allahın gözü görüb, Allahın Əli vurub.

O vaxt ki, Müaviyəyə xəbər verdilər Əli öldu. Bunu eşidən Müaviyə dedi: Ey dünyanın tülküləri rahat nəfəs ala bilərsiniz. Müharibə şirləri dünyadan köçdü.

Mən bu sözlərə başqa bir söz də peyğəmbərimizdən əlavə edirəm. Həzrəti peyğəmbər meracdan qayıdandan sonra ondan soruşdular. Ya rəsuləllah, Allah ilə sənin rabitən necə oldu? Həzrət buyurdu: Həzrəti Musanın rabitəsi kimi, yəni Allah tərəfindən səs gəlirdi. Məndə eşidib cavab verirdim. Bir nəfər soruşdu. Ya rəsuləllah Allah-təala sənlə kimin səsi ilə danışırdı? Həzrət buyurdu: Əmim oğlu Əlinin səsi ilə. Soruşdular ya rəsuləllah, nə üçün məhz Əli (ə)-ın səsi ilə? Səbəbini bildinmi? Həzrəti peyğəmbər (s) buyurdu: Bəli mən Allah təaladan soruşdum: Ilahi nə üçün mənimlə bu səslə danışırsan? Cavabında mənim Allahım buyurdu: Ey mənim rəsulum, bu bir şəxsin səsidir ki, ondan həm sənin xoşun gəlir, həmdəki mənim, onu sən də sevirsən, mən də.

Bunun kimi minlərlə sözlər və sübutlar var. Biz adətən bir nəfəri özümüzə vəkil, ya başçı seçəndə həmişə axtarıb üstünlüyü çox olan bir adamı seçirik. Sual oluna bilər: Bir nəfərin barəsində Allah bu qədər fəzilətli sözlər danışa, dost və düşmən onun bu qədər üstünlüyündən söz açа, min dörd yüz il onun haqqında heç bir mənfi fikir olmaya, hansı dəlil ilə bu adamı qoyub başqasının dalıyca getmək olar? Hətta bəzi sadəlövh alimlərin çox təəccüblü fikirləri var. Öz kitablarında belə yazırlar. Allah-təala «Məfzul»-u (مفضول) «Əfzələ» (افضل) üstün etdi və rəhbər qərar verdi: bu mənaya ki, guya Allah-təala fəziləti az olan adamı fəziləti çox olan adama üstün etdi. Ibni

Əbilhədid kimi böyük alimdən bu cürə bir fikirin ki, Allah-təalanın ədalətinə nöqsan gətirən bir fikirdir, baş verməsi insanı heyrətləndirir. Onuda qeyd etmək lazımdır ki, Allah-təala ədalətlidir. Hər vaxt bir fikir, ya söz gördünüz onun ədaləti ilə uyğun deyil bilin ki, bu fikir və söz batildir, nəinki Allah ədalətsiz bir iş görüb (əuzu billah).

Odur ki, biz ayələri, hədisləri və tarixi sözləri gətirməklə hörmətli oxucunu bu məsələdə həqiqi bir səmtə yönəltmək istəyirik, ta Allah-təala sizi və bizi həmişə düz yola yönəltsin.

Mübahilə ayəsi

Bu ayələrdən biri də «Ali-Imran surəsinin 61-ci ayəsidir. فَمَنْ حَآجَّكَ فِيهِ مِن بَعْدِ مَا جَاءكَ مِنَ الْعِلْمِ فَقُلْ تَعَالَوْاْ نَدْعُ أَبْنَاءنَا وَأَبْنَاءكُمْ وَنِسَاءنَا وَنِسَاءكُمْ وَأَنفُسَنَا وأَنفُسَكُمْ ثُمَّ نَبْتَهِلْ فَنَجْعَل لَّعْنَةَ اللّهِ عَلَى الْكَاذِبِينَ «Əgər kimlərsə, sənə elm və bilikdə çatandan sonra, sənin mübahisəyə qalxalar, onlara de: gəlin biz övladlarımızı dəvət edək. Sizdə övladlarınızı dəvət edin, biz öz qadınlarımızı dəvət edək, siz də öz qadınlarınızı dəvət edin. Biz özümüzdən dəvət edək sizdə özünüzdən dəvət edin. Sonra mübahilə edək və Allahın lənətini yalançılar üçün qərar verək».

Burada neçə dənə nöqtə aydınlaşmalıdır.

1.Ayənin əhatə dairəsi (mənası)

2.Məşhur Islam mənbələrində olan rəvayətlər ki, bu ayənin təfsirindəndir, kimləri tanıtdırır.

3.Bu ayə necə Əli (ə), Fatimeyi Zəhra (s.ə), Imam Həsən (ə) və Imam Hüseyn (ə)-ların üstünlüyünə dəlalət edir.

4.Bəzi xırda iradlara cavab.

1.Ayənin əhatə etdiyi mətləb.

Bu ayə özündən əvvəlki və sonrakı ayələri nəzərə alaraq göstərir ki, inadkar məsihilər Islamın qarşısında dayanmışdılar. Heç bir dəlil və sübutu qəbul etmirdilər. Hətta həzrəti Isanı Allah bilirdilər. Buna görə də həzrəti peyğəmbər (s) məmur oldu. Mübahilə yolu ilə özünün həqiqət olmasını onlara sübut edə. «Mübahilə» (مباهلة) atmaq, öz başına buraxmaq, bəzən həlakət və lənətlənmiş mənasına da işlənər. Bu ayədə mübahilə iki nəfərin biri o birini nifrin etmək mənasınadır. O vaxt ki, məntiqi yollar fayda vermədi mühüm olan dini məsələ barəsində mübahisə edən şəxslər bir yerə yığışıraq Allah dərgahına dua edib, Ondan yalançını rüsvay edib cəzalandırmasını istəyirlər. Bu ayədə Həzrəti peyğəmbərin «Nəcran» məsihiləri ilə etdiyi mübahilədən danışır.

«Allah-təala buyurur: Əgər məsihilər həqiqəti biləndən sonra həzrəti Isanın allahlığı barəsində sənlə mübahisəyə qalxsalar onları mübahiləyə çağır. Onlar da övladlarından sən də övladlarından, onlar da qadınlarından sən də qadınlarından, onlar özlərindən səndə özünüzdən dəvət et və Allahın lənətini yalançılar üçün qərar verin».

Bu hadisənin olmağında, yəni həzrəti peyğəmbərin bir neçə nəfər götürüb mübahiləyə getməyində heç bir şəkk və şübhə yoxdur. Heç kim inkar edə bilməz ki, bu hadisə olmayıb.

Rəvayətlərdə nəql olub bu ayə nazil olan vaxt Həzrəti peyğəmbər məsihilərə mübahilə etməyi təklif etdi. Onların böyükləri peyğəmbərdən bir gün möhlət istədilər. Osqof əzəm (məsihilərin böyüyü) onlara dedi: Sabah fikir verin, əgər Mühəmməd (s) ən yaxın adamlarını özüylə gətirsə onda mübahilə etməyin. Sabah gördülər həzrəti peyğəmbər Əli (ə)-ın əlindən tutub, Imam Həsən və imam Hüseyn (ə) qabağıyca, Həzrəti Fatimə də arxasıyca gəlirlər. Osqof baxıb dedi: Mən bu surətlərə baxıram, əgər Allahdan istəsələr dağı yerindən qoparsın, qoparar. Siz mübahilə etməyin məhv olarsınız. Odur ki, peyğəmbər (s)-ə müraciət edib sülh təklifini verdi. Gəl mübahilə etməyək sülh edək. Bundan sonra həzrəti peyğəmbər onlarla sülh etdi və onların üzərinə təkliflər qoydu ki, ayənin təfsirində və tarix kitablarında onlar geniş şəkildə izah olunub (müraciət edin).

Bu ayədəki işarə olunan adamların Əli (ə), Fatimə (s.ə), imam Həsən və imam Hüseyn olması barəsində sünni və şiə mənbələrində saysız hədislər vardır.

1.Səhih Müslimdə «fəzailüssəhabə» bəhsində Əli (ə)-ın fəzilətindən danışanda buna işarə edib yazır: Bir gün Müaviyə məlun Səd ibni Əbu Vəqqasa dedi: sən nə üçün Əlini səbb etmirsən (ona nalayiq sözlər nisbət vermirsən) (buna işarə etmək lazımdır ki, Əli (ə) şəhid olandan sonra Müaviyə əmr etmişdi ki, xütbələrdə və

namazların qunutunda oxunan dualarda Əlini səbb edin. Bu iş 70 ilə yaxın davam etdi, nəhayət Ömər ibni Əbdüləziz ki Bəni Üməyyə xəlifələrindən birisi idi, hakimiyyətə gələndən sonra onu qadağan etdi). Səd Müaviyənin cavabında dedi: Mənim yadımda peyğəmbər (s)-in üç söz var. Ona görə bu işi görə bilmərəm. Əgər onlardan biri mənə məxsus olsa bütün qırmızı tüklü dəvələrdən (ən qiymətli dəvədir) artıqdır. Sonra hədis mənzələtin dastanını danışdı. (bu o hədisdir ki, həzrəti peyğəmbər onda Əli (ə)-ı Həzrəti Musanın qardaşı həzrəti Harunla müqayisə edib) Sonra Xeybər müharibəsində bayrağı Əli (ə)-ma verməyi danışdı. Yaxşı olar ki, buna işarə edək. Xeybər, Mədinə ətrafında yəhudilər yaşayan bir qala idi. Onlar oradan Islamın əleyhinə işləyir və müsəlmanların düşmənlərinə köməklik edirdilər. Ona görə də Həzrəti peyğəmbər onlar ilə müharibəyə getdi. Qala yüksəkdə idi, almaq çətin idi. Neçə nəfər iki günün ərzində o qalaya hücumun rəhbərliyini öhdəsinə götürdü. Lakin qalanı almaq mümkün olmadı. Bir axşam həzrəti peyğəmbər buyurdu: Sabah bayrağı bir şəxsə verəcəyəm o, qalanı fəth edəcək. Onu Allah sevir və o da Allahı sevir. Çoxları fikirləşirdilər ki, bu mənə aiddir. Amma sabahı Həzrəti peyğəmbər bayrağı Əli (ə)-a verdi və onu dua etdi, Gözləri sağaldı. Sonra Xeybərə tərəf yola düşəndə Həzrəti peyğəmbər onu arxadan səslədi: Ya Əli qalaya daxil olan kimi de ki, mənim adım Ilyadır. (Ilya yəhudi dilində Əli deməkdir). Sən bunu deyəndən sonra onların canına qorxu düşəcək. Onlar öz kitablarında oxuyublar ki bu qalanı Əli adında bir şəxs fəth edəcək. Əli (ə) qalaya yaxınlaşıb çox ağır olan qapısını yerindən qopartdı

və qalanı fəth etdi. Qapı çox ağır idi. Əli (ə) buyurub: و الله ما قَلَعتُ باب خيبر بِقُوَّةٍ جسمانِيّةٍ و لاكن قَلَعْتُها بِقُوَّةٍ رَحمانِيَّةٍ «and olsun Allaha, Xeybər qapısını cismani qüvvə ilə yox, rəhmani (imamət) qüvvəsi ilə qopartdım».

Budur Xeybər müharibəsinin qısa məlumatı.

Səd ibni Vəqqas Müaviyəyə bunu danışırdı.

Üçüncüsü isə ey Müaviyə, o zaman ki mübahilə ayəsi nazil oldu, həzrəti peyğəmbər(s), Əli (ə), Fatimə (s.ə), Həsən (ə) və Hüseyn (ə)-ı ətrafına yığıb buyurdu: اَللّهُمَّ هؤلماء اهلى- «-ilahi, bunlar mənim əhlimdirlər». Ey Müaviyə bu səbəbdən mən Əlini səbb edə bilmərəm.

Bundan əlavə sünni mənbələrində bu barədə yenə də çoxlu hədislər vardır. Onlara işarə edirik.

Yuxarıdakı hədis Səhehi Termizdə eyni ilə bu cürə nəql olunubdur.

Bu hədisi Hakim «Müstədrək» kitabında lazım olan bütün sənədləri ilə gətirmişdir.

Bu hədisi Süyuti «Dürrül mənsur»da nəql edib. Əllamə Əbubəkr Həssas «Əhkamul Qur'an» kitabında belə nəql edir:

Tarixdə heç kəs şübhə etməyib ki, həqiqətən bu ayə nazil olandan sonra Həzrəti peyğəmbər (s) Əli (ə), Fatimə (s) Imam Həsən (ə) və Imam Hüseyn(ə)-ın əlindən tutdu və mübahiləyə getdi. Onu da qeyd edim ki, həzrəti peyğəmbər bir nəfərlə də mübahilə etmişdi. O adam da ölmüşdü.

Bu dediyimiz alimlər «mərifətu ulumil hədis» adında kitabda belə yazırlar: Həqiqətən Abdullah ibn Abbasdan və başqalarından hədislər təvatura yetişib ki, bu ayə nazil olanda həzrəti Peyğəmbər Əli (ə) Həzrəti Fatimə, Imam Həsən və Imam Hüseynin əlindən tutub buyurdu: Bunlardır bizim oğlanlarımız, qadınlarımız və özümüz.

Bunlardan əlavə çoxlu hədislər var ki, ixtisara görə onlardan keçirik.

Mübahilə ayəsi çox şeyi bizə öyrədir. Onlardan da biri peyğəmbərin əhli-beytinin məqam və fəzilətidir. Ayədə nisaəna (نسائنا) kəlməsindən məqsəd Həzrəti Fatimə, əbnaəna (ابنائنا)-dan məqsəd imam Həsən və imam Hüseyn(ə), ənfüsəna (انفسنا)-dan məqsəd Əli (ə)-dır. Çünki ayədə buyurdu: Dəvət edək. Insanın özü-özünü dəvət etməyin məfhumu yoxdur. Buna görədə bəziləri bu kəlməni həzrəti peyğəmbərə aid edirlər. Amma düzgün deyil. Bu kəlmə, (انفسنا) (ənfusəna) Əli (ə)-a aiddir. Yeri gəlmişkən həzrəti peyğəmbərdən nəql olunan məşhur bir hədis ki, onu bütün müsəlman aləmi qəbul edir, burda gətirmək istəyirəm: Həzrət buyurur: Hər kəs istəyir Həzrəti Adəmin elm məqamını, Həzrəti Nuhun Allaha itaət məqamını, həzrəti Ibrahimin Allah ilə dostluq məqamını, Həzrəti Musanın heybəti və həzrəti Isanın ixlas məqamını müşahidə etsin, gəlsin Əli (ə)-a nəzər yetirsin ki, bunların hamısı Əli (ə)-da cəm olunubdur.

Bir gün Abbasi xəlifəsi Məmun 8-ci imam Əli ibni Musa Ərriza (ə)-dan soruşdu: Əli (ə)-ın fəzilətinə dəllaət edən ayələrdən birini deyə bilərsənmi? Imam cavabında

buyurdu: Mübahilə ayəsindəki «ənfusəna» kəlməsi. Məmun dedi: Mümkündür bu kəlmə peyğəmbərin özünə aid ola. Imam cavab verdi: Məgər bir adam özünü çağırar? Sonra Imam əlavə etdi: Əlinin (ə) nəfsi peyğəmbərin nəfsidir. Peyğəmbərdən üstün insan olmayıb, deməli peyğəmbərdən sonra Əli (ə)-dan fəzilətli adam olmayıb.

Leylətül Məbit

Əli (ə)-ın fəzilətinə dəlalət edən ayələrdən biri də Bəqərə surəsinin 207-ci ayəsidir. Bu ayə «Leylətül Məbit» adı ilə məşhur olub. Leylətül məbit-gecələmək, yatmaq gecəsi mənasınadır. Ayə belədir:

وَمِنَ النَّاسِ مَن يَشْرِي نَفْسَهُ ابْتِغَاء مَرْضَاتِ اللهِ وَاللهُ رَؤُوفٌ بِالْعِبَادِ

«Insanlardan bəziləri Allahın razılığına xatir öz canlarını satırlar. Allah da bəndələrinə mehribandır».

Bu ayənin nazil olma səbəbində islam mənbələrində çoxlu rəvayətlər vardır. O cümlədən:

1.Məşhur sünni təfsirçisi Sələbi öz təfsirində bu ayənin nazil olmağının səbibini belə yazır:

Peyğəmbər (s) Mədinəyə hicrət etmək qərarına gələndə Əli (ə)-ı əmanətləri və bir sıra işləri yerinə yetirmək üçün öz yerində Məkkədə qoydu. Müşriklər evi əhatəyə almışdılar. Həzrəti peyğəmbər (s) Əliyə göstəriş verdi. Göy parçanı üstünə çək və

mənim yerimdə yat. Özü isə Məkkədən hicrət etdi. Əli (ə) peyğəmbərin yerində yatdi. Allah-təala Cəbrail və Mikailə (mələklər) vəhy etdi. «Mən sizin ikinizin arasında qardaşlıq peymanı qərar vermişəm. Hansınız birinizin ömrünün uzun, öz ömrünün qısa olmağını istər?» Onlar hər ikisi öz ömrünün uzunluğunu istədi. Bu vaxt Allah təala onlara vəhy etdi. «Nə üçün siz Əli ibni Əbutalib kimi olmadınız. Mən həzrəti Mühəmməd (s) və Əli (ə) arasında qardaşlıq peymanı qərar vermişəm. Əli (ə) peyğəmbərin canını öz canından artıq hesab edib onun yerində yatdı. Yerə enin onu düşməndən qoruyun». Cəbrail və Mikayıl yerə enib biri baş tərəfində biri isə Əli (ə)-ın ayaq tərəfində dayandılar. Cəbrail səsləndi. Əhsən sənə ey Əli, kim sənin kimi ola bilər? Allah-təala sənin lə mələklərin yanında iftixar edir. Bu vaxt peyğəmbər Mədinəyə tərəf hərəkət edərkən bu ayə nazil oldu.

Bildiyimiz kimi müşriklər səhərə yaxın evə hücum etdilər və peyğəmbərin yerində Əlini görüb qayıtdılar. Əli (ə)-ın bu şücaətinə heyran qaldılar. Əli (ə) həzrəti peyğəmbərin tapşırıqlarına əməl etdi. Sonra o Fatimələri götürüb Məkkədən çıxdı. Məkkənin kənarında müşriklərdən bir neçə nəfər Əli (ə)-a hücum etdi. Əli (ə) onlardan bəzilərini öldürdü. Qalanları isə qaçıb canını qutardı. Həzrəti peyğəmbər (s) Mədinə yaxınlığında «Quba» deyilən bir yerdə təqribən 10 gün ya artıq müddətdə Əli (ə)-ı gözlədi. Əbu Bəkr səbr etməyib Mədinəyə getdi. Əli (ə) gələndən sonra birlikdə Mədinəyə daxil oldular. Həmişə peyğəmbər Əlisiz heç bir səhnəyə daxil olmayıb. Bu da Əli (ə)-ın peyğəmbərə nisbət sədaqətinin nəticəsindədir. Bunu da əlavə edim ki,

Əli (ə) təkcə bir gecə Həzrəti peyğəmbərin yerində yatmayıb. Müsəlmanları müşriklər Əbutalib dərəsində «Mühasirəyə» salanda da Əli (ə) hər gecə Əbutalibin göstərişi ilə peyğəmbərin yerində yatırdı. Bu hadisə üç il davam etdi. Üç ildən sonra mühasirə götürüldü və onlar Məkkəyə qayıtdılar.

Bu hədisi (ayə barəisndəki Sələbi nəql edən hədisi) Qəzali «Ehyaül-ulum» kitabının 3-cü cildinin 238-ci səhifəsində, Gənci Şafei «Kifayətüttalib» kitabının 114-cü səhifəsində və Ibni Səbac Maliki «Füsulül mühümmə» kitabının 33-cü səhifəsində, Səbt ibni Cuzi Hənəfi «Təzkirətül Xəvass» kitabının 21-ci səhifəsində, Şəbləncі «Nurul Əbsar»-ın 82-ci səhifəsində nəql ediblər.

Hakim Həsəkani «Şəvahidüttənzildə» Əbu Səid Xudridən bu hədisi nəql edib. Həmin kitabda ibni Əbbasdan nəql edir: Əli yeganə şəxsdir birinci peyğəmbərə iman gətirib, onun paltarını geyib və onun yerində yatıb.

Ibni Əsir «Usdül qabədə» bu hədisi eyni ilə nəql edib. Əhməd, Sünni məzhəblərindən birinin başçısı olan Hənbəl ki öz «Məsnəd»ində nəql edir: Qüreyş yığışıb bu qərara gəldilər ki, peyğəmbəri öldürələr. Peyğəmbər Əlini öz yerində yatırdıb Məkkədən xaric oldu. Sonra Bəqərə surəsinin 207-ci ayəsi nazil oldu. Əlbəttə bu hədislərdən əlavə çoxlu hədislər var ki, istəyənlər «Ehqaqul həqq», «Şəvahüdüttənzil», «Fəzailül Xəmsə», «Əlqədir» və «Təfsiri burhan»a müraciət edə bilərlər.

Elə hesab edirəm ki, bu qədər sənədlərdən sonra insaflı adamın Əli (ə)-ın fəziləti barəsində şübhə eləməyə haqqı yoxdur.

Xəyrül Bəriyyə

Əli (ə)-ın fəzilətinə dəlalət edən ayələrdən biridə «Bəyyinə» surəsinin 7-ci və 8-ci ayələridir.

Ayədə Allah-təala buyurur: «O kəslər ki, iman gətiriblər və saleh əməl edirlər onlar ən yaxşı məxluqdur. (xeyrülbəriyyə) onların əcri Allah yanında əbədi behişt bağlarıdır ki, ağacların altından arxlar axar, onlar orada əbədidir. Allah onlardan razıdır. Onlar Allahdan razıdırlar. Bu məqam o adamlara məxsusdur ki, Allahdan qorxa».

Bundan əvvəlki ayədə allah-təala ən pis bəndələrin, bu ayədə isə ən yaxşı bəndələrin barəsində danışır. Düzdür bu ayənin dairəsi genişdir və bütün möminlərə aid olur. Onlar ki, özləri hidayət yolunu tapıb başqalarını da bu yola hidayət edirlər. Bu kimi insanların hamısına şamil olur. Amma əhli sünnə və şiə mənbələrində nəql olmuş çoxlu hədislər var ki, bu ayənin bəzi adamlara daha çox aid olduğunu bildirir.

Bu rəvayətlərin bəzilərinə diqqət edək.

1.Böyük təfsirçi Süyuti «Dürrul mənsur» kitabında bu ayənin barəsində söhbət açaraq ibni Əsakirdən, o da Cabir ibni Əbdullah Ənsaridən nəql edir: Biz peyğəmbərin xidmətində idik. Əli (ə) bizə tərəf gəlirdi. Peyğəmbər (s)-in gözü ona düşəndə buyurdu: «And olsun Allaha ki, mənim canım onun əlindədir. Həqiqətən Əli

və onun şiələri qiyamətdə nicat tapanlardır» və bu halda bu ayə nazil oldu. Bundan sonra peyğəmbərin səhabələri Əli (ə)-ı görəndə deyirdilər: (جاءَ اخیر البُریَّة) «Allahın ən yaxşı məxluqu gəldi».

2.Bu rəvayət eynilə həmin məzmunda Hakim Həsəkaninin «Şəvahidəttənzil» kitabında qeyd olunub.

3.Ibni Əbbasdan bir rəvayətdə oxuyuruq: o vaxt ki «Xəyrul bəriyyə» ayəsi nazil oldu. Həzrəti peyğəmbər (s) Əli (ə)-a buyurdu:

هُوَ اَنتَ وَسْ ِعَتُكَ تَاتِی اَنتَ وسْعتُكْ یَوْم القیامة راضین مَرْ ضییّن و یَأتی عَدُوُّكَ غَضباناً مُقْمِحین

«Ya Əli xeyrülbəriyyə sənsən və sənin şiələrindir. Qiyamət günü sən və sənin şiələrindən Allah razı olacaq. Sizdə Allahdan razı olacaqsız. Amma sənin düşmənlərin qəzəbli əzabla və başı zəncirlə yuxarı bağlanmış halda gələcəklər». Bu hədisi «Şəvahiddə» 2-ci cild 357-ci səhifə, Ibni Həcr «Səvaiq»də 96-cı səhifədə, Şəblənci «Nuruləbsarda» 70-ci və 110-cu səhifədə gətiriblər.

4. Başqa bir hədis də Əbu Bərəzədən nəql olunub (həmin mənbələrdə): Həzrəti peyğəmbər (s) bu ayəni oxudu və üzünü Əli (ə)-a tutub buyurdu: Ya Əli xeyrülbəriyyə sən və sənin şiələrindir. Bizim vədəgahımız «hövz Kövsərin» yanıdır.

5.Bu hədisi bir az başqa məzmunda «Dürrülmənsurda», ibni Mərdəviyyədən nəql edirlər.

«Ya Əli xeyrül bəriyyə sən və sənin ardınca gedənlərdirlər, bizim vədəgahımız hövzi kövsərdir və siz ora alnı açıq və tanınmış halda gələcəksiniz».

6. «Şəvahidüttənzildə», Ətiyyei Ofidən belə nəql olunur: Biz Cabir ibni Əbdullah Ənsarinin yanına getdik. O çox qocalmışdı, kiprikləri gözlərinin üstünə tökülmüşdü. Ona dedik: اخْبِرْنا عَن عَلِيّ «Bizə Əlidən danış». Cabir qaşların əli ilə qaldırıb dedi: (ذاك من خَيْرِ البَرِيَّةِ) O Allahın ən xeyirxah bəndəsidir».

7.Gənci Şafei «Kifayətüttalib» kitabında Əta-dan nəql edir. Ayişədən Əli barəsində soruşdum o da cavabında dedi:

ذاكَ خَيْرُ البَشَرِ لا يَشُكُّ فيه الا كافِراً

O bəşərin ən xeyirlisidir, bu məsələdə ancaq kafir şəkk edə bilər. («kifayətüttalib» səhifə 118).

Yenə də həmin kitabda «Həfzə»dən nəql olunub: Peyğəmbərdən (s) eşitdim buyururdu: علی خیر البشر من اَبی فقد کَفَرَ «Əli insanların ən yaxşısıdır, kim qəbul etməsə kafirdir». Maraqlısı bundadır ki, böyük sünni təfsirçisi Alusi Əli (ə)-ın fəziləti barədə həmişə sərt mövqeydə dayanıb. Belə ki, bu ayənin təfsirində olan hədisin bir hissəsini nəql edib deyir: «Bu rəvayətin məfhumu o deyil ki, bu ayə ancaq Əli və onun şiələrinə aiddir. Amma şübhə yoxdur ki, onlar da bu ayəyə daxildirlər və birinci cərgədə qərar tapıblar».

«Xəyrülbəriyyə» barəisində olan hədislər Əli (ə)-ın bütün müsəlmanlardan və həmçinin peyğəmbər (s) əshabının hamısından artıq olmasına dəlalət edir. Bir vaxtlar zülmkar Bəni Üməyyə xəlifələrinin vaxtında Əli (ə)-a qarşı olan ədavətləri bu fəzilətlərin üstünü örtməyə çalışdı. O zaman Əli (ə)-ın dostları o qan içənlərin

qorxusundan bu fəzilətləri aşkar edə bilmədilər. Amma Allahın lütfi ilə bu fəzilətlər o, qaranlıq dövrləri arxada qoyub bizlərə çatdı.

Bu hədislər ilə ayəni bir yerə toplayanda iki nəticəyə gəlmək olur.

1.Əli (ə) peyğəmbərin bütün əshabından üstündür. Fəzilətsiz olan insanı fəzilətli insandan üstün tutmaq (bu xilafət barəsində bəzilərinin əqidəsidir) pis və xoşagəlməz bir işdir. Heç bir hesabla bir şəxsi Əli (ə)-a üstün etmək olmaz. Əli (ə)-ın bir çox fəzilətindən yenə də bir hissəsinə işarə edirik. Tarixdə Xəndək ya Əhzab müharibəsi adıyla məşhur olan bir müharibə oldu. Xəndək müharibəsi ona görə deyirdilər ki, müsəlmanlar Mədinənin ətrafını xəndək qazaraq düşməndən müdafiə olunurdular. Amma Islama qarşı çıxan bütün dəstələr o cümlədən, müşrik, oğru, məsihi, yəhudi hamısı bir yerə toplaşıb müsəlmanlara hücum etdiyinə görə bu müharibəyə «əhzab» müharibəsi deyirdilər.

Bu qoşunun içində 80 yaşlı çox qüvvəli bir pəhləvan var idi. Atını xəndəkdən atlandırıb müsəlmanları təhqir edərək mübariz istədi. Həzrəti peyğəmbər (s) müsəlmanlara üz tutub, onunla kim döyüşər, deyə sual etdi. Çox adamlardan səs çıxmadı. Bəzi adamlar qadınlar tərəfə çəkilib dua edirdilər. Həmən dualar Mədinədəki 7 məsciddə, aparılırdı (həmin məscidlər sonradan tikilib) (7 məscid biz həcc ziyarətinə gedənə qədər var idi. Əfsuslar olsun ki, vəhhabilər çoxlu əsərlər kimi onuda söküb aradan apardılar). Həzrəti peyğəmbər 3 dəfə təkrar etdi. Hər üçündə Əli (ə) cavab verdi. Nəhayət Əli (ə) böyük bir quldur olan Əmr ibni Əbdəvidə qarşı

döyüşə hazır oldu. O meydanda çoxlu hadisələr baş verdi. Biz onlardan keçirik. Nəhayət Əli (ə) onu, Islamın böyük düşmənini məhv etdi. Əmrin ölməyi ilə xəndək müharibəsi müsəlmanların xeyrinə tamam oldu. Bu zaman rəsulullah (s) buyurdu:

بَرَزَ الإسلام كُلُّهُ عَلَى الكُفْرِ كُلَّهُ

«Bütün Islamla bütün küfr üz-üzə dayanmışdı». Həzrət peyğəmbər (s) Əli (ə)-ın Əmrə vurduğu həmən qılınc zərbəsi haqqında buyurmuşdu:

ضَرْبَةُ عِلِيٍّ يَوْمَ الْخَنْدَقِ اَفْضَلُ مِن عبادَةِ الثِقْلَينِ

«Xəndək müharibəsində Əlinin vurduğu qılınc zərbəsi bütün ins və cinnin, bütün ibadət edənlərin ibadətindən artıqdır?».

Bəli, budur şəxsiyyət, budur Allah qarşısında vəzifəyə əməl edib fəzilət qazanmaq. Tarix boyu və indidə pis niyyətli insanlar bu şəxsiyyətin haqqını taptalayıblar. Həmişədə onun fəzilətlərinə inanan və haqqını müdafiə edən insanları, ya şəhid ediblər, ya işgəncə ilə yaşayıb, üzü ağ, imanı salamət özlərini qəbir evinə çatdırıblar.

2-ci nəticə. Bu hədislərdən ikinci bir nəticəyə gəlmək olur. O da «şiə» sözünün məfhumu barədədir. Görürsünüz, həzrəti peyğəmbərin dilində neçə dəfələrlə «şiə» kəlməsi təkrar olur. Amma bəziləri deyirlər guya bu sözü sonradan şiələr özləri qondarıblar. Amma bu hədislərə baxanda bu sözün böhtan olduğu aşkar olur. Hətta bəzi adamlar şiə sözündəki «ş» hərfini «şum ya şər» mənasına tutublar. Amma siz özünüz bu hədisləri oxuyub sonra nəticə çıxarın. Bu söz peyğəmbərin vaxtında

işlənən sözdür. Özü də çox yaxşı mənaya. Yəni tərəfdar, ya məsələn kiməsə inanıb onun ardınca gedən mənasına.

Quranda «Səffat» surəsinin 83-cü ayəsində də şiə kəlməsi işlənilib: اِنَّ مِن شيعَتِهِ لإبراهيم «Həqiqətən onun şiələrindəndir həzrəti Ibrahim». Allah-təala həzrəti Nuhun barəisində söz açaraq buyurur: Ibrahim də Nuhun şiələrindəndir. Təqribən 2600 il zaman fasiləsi var bu iki şəxsin arasında. Bununla belə Allah-təala bunu o birinə şiə hesab edir. Yəni onlar hər ikisi həqiqət olan bir hədəfə doğru gediblər.

Oxuduğumuz hədislərin hamısı Əli (ə)-ın həzrəti peyğəmbər (s)-ə ən yaxın adam olmasını təsdiqləyir. Biz də Əli (ə)-ın getdiyi yol kimi çalışıb peyğəmbərə çatmaq istəyirik. Çünki ancaq bu yol insanı peyğəmbər və Allaha tez çatdırar.

Seyyid Mühəmməd Şəhriyar demişkən:

«Be xuda ki, dərdu aləm əsər əz fəna nəmanəd» «çu Əli girifta başi səri çəşmeyi bəqara»: «and olsun Allaha, fanilik aradan gedər. Əgər Əli kimi əbədiyyət çeşmələrindən yapışsan»,

Bəli, budur şiəçilik və bu məzlum sözün məfhumu.

Biz bu adı özümüzə iftixar hesab edirik və Allahdan istəyirik qiyamətdə bizi bu ad ilə məşhur etsin. Amin!

Inzar Ayəsi

«Şüəra» surəsinin 214 və 215-ci ayələrində oxuyuruq:

وَأَنذِرْ عَشِيرَتَكَ الْأَقْرَبِينَ * وَاخْفِضْ جَنَاحَكَ لِمَنِ اتَّبَعَكَ مِنَ الْمُؤْمِنِينَ

«Öz yaxın qohumlarına öyüd və nəsihət et və sənə tabe olan möminlərə ürəyini aç».

Bu ayənin bir çox məşhur izahları vardır. Demək olar ki, bütün islam tarixçiləri bu haqda yazıblar. Təbəri «Məcməül-Bəhreyin»də yazır ki, bu tarixi hadisə bütün müsəlmanlara bəllidir.

Hakim Həsəkani «Şəvahidəttənzil» kitabında yazır: Elə ki, bu ayə nazil oldu. Peyğəmbər (s) Əbdül Müttəlib övladlarını yanına çağırdı. Onlar 40 nəfər idilər. Onlara yemək hazırladı və buyurdu: Allahın adı ilə yeyin. Sabah da bu işi təkrar etdi. Yeməkdən sonra buyurdu: Allah məni sizin dünya və axirətinizi səadətə çatdırmaq üçün göndərib. Islamı qəbul edin, itaət edin, Allah da sizi hidayət etsin.

Sonra peyğəmbər (s) yenə buyurdu:

وَ مَن يُؤفينى وَ يُوازِرُنى يَكُونُ وَلِيّ وَ وَصِيّ بَعدى وَ خَليفَتِى فى اَهلى وَ يَقْتَضى دَيْنِى

«Sizlərdən kim mənə kömək etməyə, qardaş olmağa hazırdır. Məndən sonra mənim xəlifəm ola və mənim borclarımı əda edə».

Hamı sakit dayandı. Peyğəmbər (s) bu sözü 3 dəfə təkrar etdi. Yenə də cavab verən olmadı. Yalnız Əli (ə) cavab verərək dedi:

Mən bu işi görərəm, ya rəsuləlləah.

Peyğəmbər (s) buyurdu: Sən mənim qardaşım, vəsim və xəlifəmsən. Sonra üzünü məclisdə oturanlara tutub dedi: Onu eşidin və ona itaət edin.

Getmək məqamı gələndə yığışanlar gülərək Əbdül Müttəlibə dedilər: Mühəmməd (s) əmr etdi ki, öz övladına itaət edəsən. Bu hədisi belə məzmunda Təbəri neçə yolla nəql edibdir.

Əhli sünnənin imamlarından olan Əhməd Hənbəl özünün məşhur «Müsnədi Əhməd» kitabında yazır: Peyğəmbər (s), bu ayə nazil olanda öz yaxınlarını toplayıb buyurdu: «Kim zəmanət verir mənim borclarımı verə, vədələrimə əməl edə, canşinim ola və behiştdə mənimlə ola?» Bu çağırışı ancaq Əli (ə) qəbul etdi.

Ibni Əbil Hədid də «Nəhcül Bəlağə»yə yazdığı şərhdə bu hadisəni eynilə yuxarıdakı kimi qeyd edir.

Ibni Əsir «Kamil» kitabında bu hadisəni çox geniş şəkildə qeyd edir.

Çox maraqlı cəhət budur ki, peyğəmbər (s) bu məsələni nübüvvətinin ilk günlərində elan edir. Eyni ilə həmin məsələni ömrünün axır çağlarında da, Qədir Xumda, elan edir. Hər iki halda Əli (ə)-ı özündən sonra xəlifəsi olaraq tanıtdırır. Demək olar ki, 23 illik risaləti dövründə Əlisiz heç bir iş görməyib. Elə ki, təzə bir hökm və qanun gəlib, Əli (ə) onun çatdırılmasında və elan olunmasında zəhmət çəkərək yaxından iştirak edib.

Hətta həzrəti peyğəmbər (s) ömrünün axır saatlarında belə buyurdu: Məndən sonra yolunuzu azmamaqdan ötrü, mənə kağız və qələm verin bəzi məsələləri sizin üçün yazım. Amma buna imkan vermədilər. Dedilər bu kişi xəstəliyin şiddətindən sayıqlayır.

Bir tərəfdən biri deyir ki, peyğəmbər (s) ömrünün axır anlarında məni özünə xəlifə seçdi (sual olunur: Nə vaxt peyğəmbər (s) səni xəlifə seçdi?), o biri tərəfdən isə peyğəmbər (s) yazmaq üçün kağız-qələm istəyəndə ona sayıqlayır deyirlər. Halbuki bu sözü peyğəmbərə (s) nisbət vermək, özü böyük günahdır. (Pənah aparırıq Allaha, şeytanın və nəfsin vəsvəsindən).

Əli (ə) peyğəmbərə (s) iman gətirəndə 13 yaşlarında olub. Bəziləri Əli (ə)-ın yaşının azlığını ona irad tuturlar. Əvvəla demək istəyirik ki, 13 yaş buluq həddinə yaxın bir yaşdır, ikincisi isə, yaşın azlığı əqlin kamilliyi ilə zidd ola bilməz.

Şəriət hökmlərində buluq həddinə çatmaq şərtdir. Lakin əqli hökmlərdə buluq həddinə çatmaq şərt deyil. Allaha və peyğəmbərə (s) iman gətirmək isə özü əqli məsələlərdəndir. Biz əvvəlcə əqli yolla Allahı və onun rəsulunu (s) tanıyırıq, sonra isə Allah göndərdiyi, Peyğəmbərin isə gətirdiyi şəriəti nəqli yolla qəbul edirik və ona əməl edirik. Şəriətin məsələlərinə əməl edəndə isə buluq həddində olmaq şərtdir. Amma Allahı və onun elçisini qəbul etməkdə, insana çox yaş deyil, çox ağıl lazımdır. (Diqqət edin). Bundan əlavə, Qur'anın özündə neçə peyğəmbərlərdən ad çəkilərək onların uşaq ikən nübuvvətə çatdıqlarını bəyan edir. Məsələn: Həzrəti Yəhyanın barəsində buyurur: «Ona uşaq vaxtı nübuvvət hökmünü verdik».(Məryəm surəsi, ayə 12).

Yaxud «Yusif» surəsinin 26-cı ayəsində, bir uşaq haqqında danışılır ki, bu da həzrəti Yusifin uşaqkən paklığına dəlalət edir.

Bundan əlavə, həzrəti Məryəmə iftira edərək onu pis işinə görə ittiham edəndə Allah-təala Məryəmə vəhy etdi: De uşağın özündən soruşsunlar. Bu hadisəni, Qur'an «Məryəm» surəsinin 23-31-ci ayələrində bəyan edir: «Məryəm onlara işarə etdi, uşaqdan soruşun, onlar dedilər; beşikdə olan uşağı necə danışdıraq? Bu vaxt uşaq dilə gəlib dedi: Mən Allahın bəndəsiyəm, mənə kitab göndərib və məni peyğəmbər seçibdir»…

Bəli, insan həyatında bu cür qeyri-adi işlər mümkündür. Allahın insana hansı şəraitdə, zaman və məkanda bəxş etdiyi nemətdən Haqqın yolunda istifadə etməsi, o insanın ləyaqətindən asılıdır.

Əli (ə) məhz o şəxsiyyətlərdəndir ki, Allah-təala, Həzrəti Yusif, Həzrəti Isa, Həzrəti Musa, Həzrəti Ibrahim kimi şəxsiyyətlərlə birlikdə, öz hədəfini yer üzündə yaymaqdan ötəri, uşaq vaxtında onu kamil edib və onun üzərinə vəzifə qoyub. O da bu vəzifələrin öhdəsindən Allah razı qalan kimi gəlib.

Mən bir alimin söhbətində eşitdim, belə buyurdu: Biz deyirik ki, bütün insanların, hətta peyğəmbərlərin də əşrəfi Həzrəti Mühəmməd (s)-dir. Bəs onda nə üçün Həzrəti Isa 3 günlüyündə öz risalətini elan edir, amma Mühəmməd (s) isə 40 yaşında? Diqqət edənlərin hamısı alimin özündən cavab gözləyridilər. Onun da cavabı belə oldu: Bəli, gərək peyğəmbərin (s) Əli (ə) kimi bir köməkçisi böyüyərək cismani cəhətdən də nkişaf edib qüvvətlənəydi və peyğəmbərə (s) bu çətin və şərəfli işdə, yəni Islamı xalqa çatdırmaqda köməkçi olaydı. Budur bu işin səbəbi. Peyğəmbərə

xalis və fədakar mömin lazım idi. Hər zaman ölümlə üz-üzə dayanıb, Islam yolunda, Allah dininə xatir cihad etsin, özünün heç bir mənafeyini nəzərə almasın.

Allah bizə də bu vəzifələrin öhdəsindən gəlməyə köməkçi olsun. Amin.

Siddiqun ayəsi

Həzrəti Əli (ə)-ın fəzilətinə dəlalət edən ayələrdən biri də «Hədid» surəsinin 19-cu ayəsidir. Bu ayədə belə buyurulur:

وَالَّذِينَ آمَنُوا بِاللَّهِ وَرُسُلِهِ أُوْلَئِكَ هُمُ الصِّدِّيقُونَ وَالشُّهَدَاء عِندَ رَبِّهِمْ لَهُمْ أَجْرُهُمْ وَنُورُهُمْ

«O kəslər ki, Allaha və onun rəsuluna iman gətiriblər, onlardır siddiqlər (çox düzgün danışan və təsdiq edənlər). Və Allah yanında şahidlərdir. Onlar üçündür mükafatlar və nur».

«Şəvahid əttənzil» kitabında ibn Əbi Leyladan, o da atasından nəql edir:

قالَ رَسول الله (ص): الصِدِّقون ثلاثةٌ: حَبيبُ النَجارِ مُؤمِنُ آل ياسن وحيزبيلُ (حيزقبل) مُؤمن آل فرعون وَ علی بن أبی طالب الثالثُ و هُوَ اَفصله

«Allahın peyğəmbəri (s) buyurub: Siddiqlər üç nəfərdirlər. Həbibi Nəccar Hizbil (ya Hizqil) və nəhayət Əli ibni Əbu Talib ki, onların üçüncüsü və ən əfzəlidir».

Bu hədis Əhməd Hənbəlinin «Fəzail» kitabında, Əbu Nəimin «Mərifətüssəhabə» kitabında və Ibni Məcazəlinin «Mənaqib» kitabında qeyd olunubdur.

«Şəvahid əttənzil» kitabında bu məzmunda dörd hədis müxtəlif yollarla qeyd olunubdur.

Şeyx Süleyman Qunduzinin «Yənabiül Məvəddə» kitabında yuxarıdakı hədis, Müsnədi Əhməddən və Əbu Nəim Ibni Məcazəli Xarəzmi, Əbu Leyladan və Əbu Əyyub Ənsaridən nəql olunmuşdur.

Bu rəvayətlərə görə «Siddiq» ləqəbini həzrəti peyğəmbər (s) Əli (ə)-ın barəsində işlədib. Onu ümmətin ən düzgün insanı adlandırıb. Bu da insan üçün böyük məqamdır.

Nur ayəsi

O həzrətin fəzilətlərinə dəlalət edən ayələrdən biri də «Hədid» surəsinin 27-ci ayəsidir. Ayədə belə oxuyuruq:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اتَّقُوا اللَّهَ وَآمِنُوا بِرَسُولِهِ يُؤْتِكُمْ كِفْلَيْنِ مِن رَّحْمَتِهِ وَيَجْعَل لَّكُمْ نُورًا تَمْشُونَ بِهِ وَيَغْفِرْ لَكُمْ وَاللَّهُ غَفُورٌ رَّحِيمٌ

«Ey iman gətirənlər, Allahdan qorxun və onun rəsuluna iman gətirin, ki iki pay Allahın rəhmətindən sizə nəsib olsun və sizin üçün nur qərar versin ki, onunla yol gedəsiniz. Allah-təala bağışlayan və mehribandır».

«Şəvahidəttənzil» kitabında bu ayənin təfsirində Ibni Abbasdan nəql edir: «Iki pay»-dan məqsəd Həsən (ə) və Hüseyn (ə)-dır ki, Allah-təala Əli (ə)-a bəxş etdi. Nur isə Əli (ə)-ın özüdür. O, ümmətin hidayət olmasının əsas səbəbkarıdır.

Bundan başqa bir hədis də Ibni Abbas Cabir ibni Abdullah Ənsaridən, o da peyğəmbərdən (s) eyni ilə bu məna ilə nəql edir. Həmin kitabda Imam Baqir (ə)-dan nəql olunur: «Kim Əli (ə)-ın vilayətinə inansa (söykənsə) onun nuru olar».

Bundan əlavə Əbu Səid Xudri peyğəmbərdən (ə) nəql edərək deyir, peyğəmbər (s) buyurdu:

اَما وَ اللهِ لا یُحِبُّ اَهلَ بَیْتی عَبدٌ إنّما اَعْطاهُ اللهُ نُوراً حَتّی یَرِدَ عَلَیَّ الحَوْضَ

«Allaha and olsun, hər kəs mənim əhli-beytimi sevsə, Hövzi kovsərin yanında mənə çatana qədər Allah-taala onu nurani edər».

«Kənzül Ümmal» kitabında Əli (ə)-dan nəql olunaraq deyilir: «Mən Allahın bəndəsiyəm, peyğəmbərin (s) qardaşıyam. Mən böyük siddiqəm. Məndən sonra bu iddianı kim etsə yalançı və iftiraçıdır. Həqiqətən mən 7 il camaatdan əvvəl peyğəmbərlə (s) namaz qılmışam.

Həmin kitabda Məaz Ədəviyyədən nəql edilir: Bəsrə məscidində Əli (ə)-dan eşitdim ki, deyirdi: «Mən böyük siddiqəm. Mən Əbu Bəkrdən əvvəl iman gətirmişəm».

Bütün bunlar da Əli (ə) üçün böyük fəzilətdir.

Böyük sünni alimi Ibni Əbül Hədid Əli (ə)-ın «Nəhcül-bəlağə» kitabına yazdığı şərhdə Əbu Rafedən rəvayət edərək yazır: «Mən Rəbəzəyə (Rəbəzə bir yer adıdır ki, Osman Əbuzəri həqiqəti dediyinə görə ora sürgün etmişdi) getdim və Əbüzərlə görüşdüm. O, mənə dedi: Yaxın gələcəkdə bir fitnə olacaq, o zaman Əlini (ə) atmayın, onun ardınca gedin. Mən özüm peyğəmbərdən (s) eşitmişəm ki, buyururdu: «Ya Əli, sən mənə birinci iman gətirənsən. Qiyamətdə birinci sən mənə yetişəcəksən, sən böyük siddiqsən. Sənsən bir Faruq ki, həqq ilə batili bir-birindən ayırırsan. Sən

möminlərin pənahısan. Sən mənim qardaşım və vəzirimsən. Sən mənim vədəmə əməl edəcəksən».

Ənəs ibni Malik deyir: Bu gün peyğəmbərə (s) vəhy gəldi və həmən gün tamam olmamış Əli (ə) iman gətirdi.

Bəyyinə və şahid ayələri

Əli (ə)-ın fəzilətinə dəlalət edən ayələrdən biri də «Hud» surəsinin 17-ci ayəsidir. Ayə belədir:

أَفَمَن كَانَ عَلَى بَيِّنَةٍ مِّن رَّبِّهِ وَيَتْلُوهُ شَاهِدٌ مِّنْهُ وَمِن قَبْلِهِ كِتَابُ مُوسَى إِمَامًا وَرَحْمَةً أُوْلَـئِكَ يُؤْمِنُونَ بِهِ

«Aya o şəxs ki, Allah tərəfindən aşkar dəlilə malikdir, onun ardıyca öz tərəfindən şahidi var. Ondan qabaq da Musanın kitabı (rəhbər və rəhmət idi) ona şahiddir. Ona iman gətiriblər».

Bir miqdar bu ayənin tərcüməsini izah edək: Ayədə Allah-təala müqayisə edir, o adam ki, onun Allah tərəfindən «bəyyinəsi»-subutu- var və onun bu «bəyyinəsinə» -sübutuna-şahidi var və bu mətləbi əvvəllərdə rəhbər olan həzrəti Musa və onun kitabı «Tövrat» da təsdiqləyir, ona iman gətirirlər. Bu cür adamlarla bunun əksi olanlar (batillər) bərabərdirmi?

Bu ayədə əsasən həzrəti peyğəmbərin (s) həqq olmağına sübutlar gətirilir. Onun həqq olmağına şahid, bəyyinə və Həzrəti Musanın kitabını və özünü şahid gətirir. Deməli peyğəmbərin (s) həqq olmağını həm özündən qabaqkı «Tövrat», həm

də öz əlindəki «Qur’an» təsdiq edir. Bundan əlavə onun ardıyca gələn bir şahidi də var. O, da onun həqqaniyyətini təsdiqləyir. Ayədəki həmin «şahid», məhz Əli (ə)-a işarədir.

Bunun kimi başqa ayələr də var ki, Əli (ə)-ı, peyğəmbər (s)-in həqqaniyyətinə şahid gətirir. Belə ayələrdən biri də «Rə’d» surəsinin axırıncı ayələrindən biridir:

وَيَقُولُ الَّذِينَ كَفَرُواْ لَسْتَ مُرْسَلاً قُلْ كَفَى بِاللهِ شَهِيدًا بَيْنِي وَبَيْنَكُمْ وَمَنْ عِندَهُ عِلْمُ الْكِتَابِ

«Kafirlər deyəcəklər, sən peyğəmbər deyilsən. Onlara de: Mənimlə sizin aranızda şahid olmağa Allah kifayət edər və o adam kifayət edər ki, Qur’an elmi onun yanındadır».

Bir çox sünni və şiə rəvayətləri bu şəxsin (hansı ki, Qur’an elmi onun yanındadır) Əli (ə) olduğunu təsdiqləyir.

Hakim Həsəkani «Şəvahid əttənzil» kitabında bu ayənin barəsində 16-dan çox müxtəlif rəvayətlər gətiribdir. Bu rəvayətlərin hamısı «Şahid» kəlməsinin Əli (ə)-a aid olduğunu təsdiqləyir. Bir hədisdə Ənəs ibni Malikdən, o biri hədisdə ibni Abbasdan rəvayət edir ki, «şahid» məhz Əli (ə)-dır.

Əli (ə)-ın yaxın dostlarından olan Zazan nəql edir ki, Həzrəti Əli (ə) bir gün buyurdu: «Əgər mənim üçün qəzavət məclisi quralar, «Tövrat» əhli üçün Tövratla, «Incil» əhli üçün Incilə, «Zəbur» əhli üçün zəburla, «Qur’an əhli üçün Qur’anla elə qəzavət edərəm ki, Allah yanında bəyənilər. And olsun Allaha, Qur’anın hər bir ayəsi

ki, nazil oldu, gecə ya gündüzdə, dağda ya səhrada, hansı saatda və ya kimin barəsində, mən ondan xəbərdar idim.»

Bu vaxt bir şəxs sualı etdi: Ya əmirəlmöminin, sənin haqqında ayə nazil olubmu?

Həzrət buyurdu: Peyğəmbər (s) Allah tərəfindən «bəyyinə» ilə məbus olmuşdu, mən də ona «şahid» idim. Sonra yuxarıdakı («Hud» surəsinin 17-ci ayə) ayəni oxuduq.

Bu barədə Süyuti «Dürrül Mənsurda» cürbəcür rəvayətlər gətiribdir. O cümlədən Ibni Əbi Hatəmdən, Ibni Mərdəviyyədən və Əbu Nəimdən.

Bunlardan əlavə bir çox tarixi hadisələr olub ki, onlar da o həzrətin fəzilətinə dəlalət edir. Bunlardan biri, onun Kəbədə, Allah evində dünyaya gəlməsidir.

O vaxt ki, həzrəti Məryəm istədi həzrəti Isanı dünyaya gətirsin, ağrıdan azad olmaqdan ötrü Beytülmüqəddəsə pənah gətirdi. Allah tərəfindən ona vəhy olundu: Ya Məryəm, çıx bu müqəddəs məsciddən, bura doğum evi deyil. Odur ki, həzrəti Məryəm oradan çıxıb qurumuş bir xurma ağacının altına gəldi və həzrəti Isanı dünyaya gətirdi.

Amma o vaxt ki, Fatimə binti Əsəd istədi Əli (ə)-ı dünyaya gətirsin, deyir: gördüm məni qəribə qüvvələr Kəbəyə tərəf çəkir. Mən Kəbənin divarı ilə üzbəüz dayananda divar aralandı və mən içəriyə daxil oldum. Orada Əlini dünyaya gətirdim.

Siqayətül Həcc

Uzun illər keçməsinə baxmayaraq Kəbə evinin divarlarındakı həmin çat, hələ də hiss edilməkdədir. Bunu Kəbə evini ziyarətə gedən Hacılar müşahidə ediblər.

Bəli, Əli (ə) o şəxsdir ki, Allah evində, Kəbədə, dünyaya gəldi və Allah evində, Kufə məscidində zərbətləndi.

Bu hadisə bütün sünni və şiə rəvayətlərində qeyd olunubdur. Hakim Nişaburi özünün «Müstədrək» kitabında yazır: Bu hədis təvatür həddini keçibdir.

Hafiz Gənci Şafei «Kifayəttalib» kitabında yazır: Əmirəlmöminin Əli (ə) Məkkədə, Kəbənin içində, cümə gecəsi, rəcəb ayının 13-də, fil ilinin 30-cu ilində dünyaya gəlib.

Sünni yazıçısı və təfsirçisi Alusi yazır: Əli (ə) Kəbədə dünyaya gəldi. Bu hadisə necə də yerinə düşüb. Allah-təala imamların qabaqcılını öz evində dünyaya gətirib. O, hər şeyi öz yerində vücuda gətirəndir. Əli (ə)-da öz növbəsində Allahın evini bütlərdən təmizlədi».

«Bəraət» sürəsinin 19-cu ayəsində də Əli (ə)-in fəzilətinə dəlalət edən mətləblər vardır. Ayə belədir:

أَجَعَلْتُمْ سِقَايَةَ الْحَاجِّ وَعِمَارَةَ الْمَسْجِدِ الْحَرَامِ كَمَنْ آمَنَ بِاللهِ وَالْيَوْمِ الآخِرِ وَجَاهَدَ فِي سَبِيلِ اللهِ لاَ يَسْتَوُونَ عِندَ اللهِ وَاللهُ لاَ يَهْدِي الْقَوْمَ الظَّالِمِينَ

«Məgər Allah evinin zəvvarlarını sirab və Məscidül-həramı təmir edən adamla, Allaha və qiyamət gününə iman gətirib və Allah yolunda cihad edən adamı bərabər

qərar vermisiniz. Bunlar Allah yanında bərabər deyillər. Allah zalım qövmi hidayət etməz».

Bu ayənin tərcüməsinə bir az izahat lazımdır. Belə ki, bəzi adamlar Məkkədə Kəbənin qapısını açıb bağlamağı və ya hacılar üçün su paylamağı, Allaha iman gətirib onun yolunda cihad və hicrət etməkdən artıq bilirdilər. Odur bu ayə nazil olub bildirdi ki, o işlərin hamısından artıq, Allaha iman gətirmək, onun yolunda cihad və hicrət etməkdir.

Hakim Həsəkani Hənəfinin «Şəvahidəttənzil» kitabında, bu ayənin nazil olmaq səbəbində 10-dan çox, müxtəlif yollarla rəvayətlər gətirlib. Bütün bu rəvayətlər ayənin Əli (ə) barəsində nazil olmağını göstərir.

Rəvayətlərdən birində deyilir: Abbas ibn Əbdülmüttəlib və Şeybə bir-biri ilə özlərinin üstünlüklərindən danışırdılar. Biri deyirdi ki, Kəbənin kiliddarıyam, mən üstünəm. Bu vaxt Əli (ə) yetişdi və onlar bu məsələni Əli (ə)-a danışdılar. Əli (ə)-da buyurdu ki, mənim iftixarım da budur ki, Allaha birinci iman gətirmişəm, hicrət etmişəm və onun yolunda cihad etmişəm. Hər üçü peyğəmbərin (s) yanına gəlib məsələni olduğu kimi danışdılar. Peyğəmbər (s) cavabında heç nə demədi. Neçə gündən sonra vəhy nazil oldu. Həzrəti peyğəmbər (s) onların üçünü də çağırıb ayələri onlara oxudu. Ayənin də mənası məlumdur ki, hamınızdan üstün Əli (ə)-dır. Bu əhvalat Ənəs ibni Malikdən rəvayət olunub.

Bu məzmunda çoxlu rəvayətlər vardır. Onlardan birində yazılır ki, Abbas bu ayəni eşidəndə, «həqiqətən razıyıq»-dedi.

Bu barədə olan rəvayətlər əsasən aşağıda adları qeyd olunan kitablarda gətirilib:

Təbəri öz «Təfsirində», Vahidi «Əsbabi Nüzulda», Qirtəbi öz «Təfsirində», Fəxri Razi «Təfsiri-Kəbirdə», Xazin «Təfsiri Xazində», Əbülbərəkati Nəsfi öz «Təfsirində», Ibni Səbağ Maliki «Füsulül mühümmə» kitabında, «Dürrül Mənsurda».

Bəziləri deyə bilər ki, adamın öz üstün cəhətini deməyi yaxşı iş deyil, nə üçün Əli (ə) öz üstün cəhətini burada deyir. Bunu bilmək lazımdır ki, bəzən xalq yaxşını tanımaqda səhvə düşürlər. Ona görə də bəzən insana vəzifə olur ki, həqiqəti bəyan etsin və xalq pisin ardınca getməsin.

Vəzirlik ayəsi

«Taha» surəsinin 29-cu ayəsindən 32-ci ayəsinə qədər Allah-təala həzrəti Musanın dilindən belə buyurur:

وَاجْعَل لِّي وَزِيرًا مِّنْ أَهْلِي * هَارُونَ أَخِي * اشْدُدْ بِهِ أَزْرِي * وَأَشْرِكْهُ فِي أَمْرِي

«Ilahi, öz xanədanımdan qardaşım Harunu mənə vəzir qərar ver və onun vasitəsilə mənim arxamı möhkəmlət. Onu mənim işlərimə şərik et.

Həzrəti Musa ona verilən risaləti yerinə yetirmək üçün Allahdan bu xahişi etdi. Bu ayənin barəsində sünnü və şiə mənbələrindən olan çoxlu hədislər var ki, qeyd

edirlər; Öz risalətini yerinə yetirməkdən ötəri Həzrəti Mühəmməd (s)-də eyni ilə bu xahişi Allahdan etdi. Lakin o, Harunun yerinə Əli (ə)-ı istədi. Belə hədislərdən bəzilərinə nəzər salaq.

«Şəvahiduttənzil»də Xəzifə ibni Üseyddən belə nəql olunur: Peyğəmbər (s) Əli (ə)-ın əlini tutub buyurdu:

اَبْشِرْ وَ اَبْشِرْ یا علی اَنَّ مُوسی دَعا دَبَّهُ اَنْ یَجْعَلَ لَه وَزیراً مِن اَهلِهِ هارونَ وَ انِّی اَدْعُوا رَبّی اَن یَجْعَلَ لِی وَزیراً مِن اهلی عَلِیّ اَخی اشوذ به ظَهْری وَ اَشْرِکهُ فی اَمرْی

«Müjdə olsun, yenə də müjdə olsun sənə ey Əli, həqiqətən Musa Allahdan istəmişdi öz xanədanından Harunu ona vəzir qərar versin. Mən də Allahımdan istəyirəm, öz xanədanımdan qardaşım Əlini mənə vəzir qərar versin. Allah-təala onun vasitəsilə mənim dayağımı möhkəmlətsin, onu mənim işlərimə şərik etsin».

Başqa bir hədisdə Əsma binti Ümeysdən belə bir hədisin peyğəmbərin dilindən eşitdiyi nəql olunur.

Onu da qeyd etmək lazmdır ki, peyğəmbər (s)-in şəriklikdən məqsədi nübuvvətə deyil, rəhbərliyə, camaata başçılıq etməyə idi. Sadəsi, peyğəmbər özünə canişin olmağı nəzərdə tuturdu. Başqa hədislər də var ki, peyğəmbər (s) buyurub: «Ya Əli, sənin mənə olan nisbətin, eyni ilə Harunun Musaya olan nisbətidir. Fərqi budur ki, məndən sonra peyğəmbər yoxdur». Mənası budur ki, peyğəmbərlikdən başqa butun vəzifələr sənə məxsusdur. Necə ki, həzrəti Musaya çatan vəzifələrin hamısı həzrəti Haruna məxsus oldu.

Başqa bir hədisdə Ənəs ibn Malikdən nəql olunur ki, peyğəmbər(s) xilafət barəsində danışanda buyurdu:

اَنَّ خَلیلی وَ وَزیری وَ خَلیفتی وَ خَیْرَ مَن اَتْرُکُ مِن بَعدی بُیْچِرُ مَوْعُودی وَ یَقضی دینی عَلِیٌ بن ابی طالبٍ

«Həqiqətən mənim dostum, vəzirim, özümdən sonra qalan adamların ən xeyirlisi, mənim vədələrimə vəfa edən və mənim borclarımı ödəyən, Əli ibni Əbutalibdir».

Bu hədis azacıq fərqlə Salman Farsidən də nəql olunub.

V əsrin alimlərindən olan Hafiz Əbu Nəim Isfəhani «Ma nəzələ minəl qur'ani fiəliyyin» (Qur'anda Əli (ə) barəsində nazil olanlar) kitabında Əsma binti Ümeyədən nəql olunan hədisin eyni məzmununu ibni Abbasdan nəql edir. Belə ki, Ibni Abbas deyir: Peyğəmbər (s), Allahdan bu xahişi edəndən sonra, mən eşitdim bir səs gəldi:

یا احمد قد اوتیتَ ماسَئَلْتَ-Ey Əhməd (s) həqiqətən istədiyin sənə verildi.

Fəxri Razi öz təfsir kitabı olan «Kəbir»də bu hədisi Əbuzər Qəffaridən nəql edir. Əbuzər deyir: O gün ki, Əli (ə) öz üzüyünü namaz əsnasında dilənçiyə verdi, peyğəmbər (s) həmin duanı ki, Musa etmişdi, Allahdan istədi. Peyğəmbərin duası qurtaran kimi «vilayət» ayəsi nazil oldu.

Bu barədə çoxlu hədislər müxtəlif yollarla nəql olunub, amma onların hamısını bu kiçik yazıda gətirmək qeyri mümkündür. Odur ki, bunlarla kifayətlənirik.

Bu ayə və onun ətrafında olan hədislər onu göstərir ki, peyğəmbər Allahdan Əlini mənim işlərimdə şərik et, istəyini diləyəndə bu işlərdən məqsəd əmr be məruf

kimi əməllər nəzərdə tutulmur. Çünki, bu vəzifələr bütün müsəlmanlara vacib olan işlərdir. Deməli bu xüsusi bir vəzifədir. O da rəhbərlik və imamətdən ibarətdir. Peyğəmbər Əli (ə)-ın imamətini Allahdan istədi, Allah da onun duasını qəbul etdi. Əlbəttə biz Əli (ə)-ın barəsində olan bütün yazıları toplamaq fikirində deyilik. Çünki, buna bizim qüdrətimiz çatmaz. Bu yazımızın bəzi yerlərində o fəzilətlərə işarə edirik.

Həzrəti peyğəmbər (s) buyurub: «Ya Əli, mən sənin barəndə bildiklərimin hamısını desəm, məndən sonra, ümmətim, həzrəti Isanın ümməti kimi yolunu azar, yəni, necə həzrəti Isanın ilahiliyinə etiqad etdilər, sənin də ilahiliyinə mötəqid olarlar». Bu söz özü müsəlmanlara bir xəbərdarlıq idi ki, gəlib həmin xəstəliyə düşməsinlər. Amma bununla belə bir dəstə insanlar Əli (ə)-ı Allah bildilər. Onlar Adəm övladının bu dərəcədə fəzilətlərə, kəramətlərə malik olmağını dərk edə bilmədilər. Bilmədilər ki, Allah-təala saleh əməlin müqabilində, Allaha itaətin müqabilində insana bu qədər qüdrət verər. Necə ki, Allah-təala özü hədisi qüdsüdə buyurub:

عَبْدی اَطِعنی حَتّی اَجعَلَكَ مِثْلی فاِنّی اقوُلُ لِشَیْئٍ كُنْ فَیَكونُ وَ اَنَّكَ تَقولُ لِشَیئٍ كُنْ فَیَكُونَ

«Mənim bəndəm, mənə ibadət et, mən də səni öz mislim qərar verim. Belə ki, mən nəyə deyirəm, ol, olur. Sən də nəyə ol desən, olar».

Bəli, bu hədisin eyni mislini Əli (ə)-da görmək mümkündür. Bilmək lazımdır ki, öz əməlinin və itatənin müqabilində Allah-təala o fəziləti Əli (ə)-a veribdir.

Həzrəti peyğəmbər (s) bir gün Əli (ə)-a buyurdu: «Ya Əli, keçmiş insanların ən bədbəxti o adamdır ki, Həzrəti Salehin dəvəsini öldürdü, axirəzzamn insanların ən bədbəxti odur ki, səni öldürəcək».

Çünki dəvə həzrəti Salehə verilmiş bir ilahi möcüzə idi. Əli (ə)-da peyğəmbərimizə verilən ən böyük möcüzədir. Natiqi Qur'andır. Bu mətləbi mərhum şair Seyyid Mühəmməd Şəhriyarın şerində də tapmaq mümkündür:

«Əli, ey humayi rəhmət tu çe ayəti xudara ki, be ma seha fekəndi həme sayeyi humara».

«Əli, sən böyük bir Allah möcüzəsisən. Allahdan başqa bütün məxluqata sənin kölgən düşübdür».

Başqa bir şair ərəb dilində bir şerdə Əli (ə) barəsində belə yazır:

ها علی بشرٌ کیف بشرٌ اَبَهُ فیه تَجَلّی و ظَهَر

«Bu Əli bəşərdir, amma, elə bəşər ki, Allah onda təcəlla edib, zahir olub».

Bu mətləbi başqa bir ibarətlə Şəhriyar da deyir: «Del, əgər xuda şunasi həme dər ruxi Əli bin. Be Əli şenaxtəm be qəsəm xuda xudara».-«Ürək, əgər Allahı tanımaq istəyirsənsə Əlinin özünə bax. And olsun Allaha, mən Allahı Əlinin vasitəsilə tanıdım».

Bəli, hər bir yaradan öz yaratdığının üzərində öz əsərini (izini) qoyur. Allah-təala da öz qüdrətini Əli (ə) kimi şəxsiyyətləri vasitəsi ilə bütün məxluqata çatdırıb. Bəlkə də o vaxt mələklər Allah-təalaya deyəndə ki, bu qan töküb fəsad edənləri nə üçün

yaradırsan? Allah onların cavabında: Mən bilənləri siz bilmirsiz»-deyə buyurarkən məqsədi bu olmuşdur ki; Heç də siz bilən kimi deyil, bunların içərisində Əli (ə) kimi və onun 11 övladı, Mehdi-Sahibəzzaman (ə) kimi şəxsiyyətlər olacaq ki, bəşəriyyətə bütün qan tökmədən və fəsaddan nicat verəcəklər.

Hikmət ayəsi

Əli (ə)-ın fəzilətinə dəlalət edən ayələrdən biri də «Bəqərə» surəsinin 269-cu ayəsidir. Bu ayədə Allah-təala belə buyurur:

يُؤتِي الْحِكْمَةَ مَن يَشَاء وَمَن يُؤْتَ الْحِكْمَةَ فَقَدْ أُوتِيَ خَيْرًا كَثِيرًا

«Allah-təala elmi və hikməti layiq olan, istədiyi adama verər. Hər adama elm verilsə deməli ona böyük xeyir verilmişdir».

Hakim Həsəkani «Şəvahidüttənzil» kitabında Rəbi ibni Xeysəmdən nəql edir: Görmədim bir şəxs Əli (ə)-ın qəzavətinə irad edə. Allah-təala ona böyük xeyir vermişdir.

Həmən kitabda ibni Abbasdan nəql edilir: Peyğəmbər (s) buyurdu:

مَنْ اَرادَ اَنْ يَنْظُرَ اَلى اِبْراهيمَ فى حِلْمِهِ وَ اَلى نُوحٍ فى حِكْمَتِهِ وَ اِلى يُوسِفَ فى اِجْتِماعِهِ فَلْيَنْظُرْ اِلى عَلِيِّ بنِ اَبى طالِبٍ

«Hər kim istəsə Ibrahimin helminə, Nuhun hikmətinə və həzrəti Yusifin camaatla rəftarına baxa, Əli ibni Əbutalibə baxsın».

Həmən kitabda başqa bir yerdə yazır: Əbu Əlhəmra deyir; peyğəmbərin yanında idik, Əli (ə) bizim yanımıza gəldi. Peyğəmbər buyurdu:

مَنْ سَرَّهُ اَنْ يَنْظُرَ اِلى آدَمَ فى عِلْمِهِ وَ نُوحٍ فى فَهمِهِ وَ اِبْراهيمَ فى خُلَّتِهِ فَلْيَنْظُر اِلى عَلِيِّ اَبى طالِبٍ

«Kim istəyir Adəmin elminə, Nuhun fəhminə, Ibrahimin Allahla dostluğuna baxa, Əli (ə)-a baxsın. Yenə də həmin kitabda ibni Abbasdan nəql edir: Əli (ə)-ın barəsində sual olunanda, peyğəmbər (s) belə buyurdu:

قُسِّمَتِ الحكمةُ عَشَرَةَ اَجْزاءَ فَاُعْطِیَ عَلِی قِسْعَةُ اَجْزاءَ

«Hikmət on hissədən ibarətdir. Onun doqquzu Əli (ə)-a, bir hissəsi isə qalan camaata verilib».

Bu hədislər çox gözəl surətdə bəyan edir ki, elm və hikmətdə Əli (ə), Peyğəmbər (s)-dən sonra birinci adamdır. Heç kəs onun məqamına yetişə bilməyib.

Elm və hikmət imamətin rüknlərindəndir. Deməli imamətə ən layiq adam, peyğəmbərdən sonra, Əli (ə)-dır.

«Səhehi Termizdə» rəvayət olunub ki, peyğəmbər (s) buyurdu:

انا دارُ الحكمةِ وَ عَلِیٌّ بابها

«Mən hikmətin eviyəm, Əli onun qapısıdır».

Yəqindir ki, hər kim bir evə girmək istəsə gərək qapıdan daxil olsun. Necə ki, Qur'anın «Bəqərə» surəsinin 189-cu ayəsində buyurulur: «Evlərə qapılardan daxil olun».

Başqa bir hədisdə həzrəti peyğəmbər (s) buyurub: «Mən elmin şəhəriyəm. Əli onun qapısıdır».

Əli (ə), bu hədisin barəsində söhbət düşəndə, peyğəmbərin (s) bu sözünü oxuyub ardınca buyurur:

وَمَنْ اَرادَ بَيْتاً مِن غَيْرِ بابِها سُمِّیَ سارَقاً

«Kim evə qapıdan yox, başqa yerdən daxil olsa onu oğru adlandırarlar».

Mərhum şair Seyyid Mühəmməd Şəhriyar bu cümləni nəzmə çəkib belə yazır:

Allahın şəhəri nəbidir, qapısı şahi vəli,

Deşik axtarma, bu şəhərin belə darvazası var».

Doğrudan da, bir millətin, peyğəmbərdən (s) sonra, Əli (ə) kimi elm və hikmət sahibi olan bir qapısı ola, başqa qapıları döyməyə nə ehtiyac vardır. Hansı ki, bu qapıların insanı hara aparıb çıxaracağı məlum deyil. Amma tarix boyu sübut olunub ki, hər kim Əli (ə)-ın ardıyca gedib, həmişə səadətə, şərafətə, fəzilətə qovuşub. Dünyası və axirəti abad olub. Pislikdən uzaq olub. Çünki, Əli (ə) bir şəxsiyyətdir ki, Allah-təala özü onu bütün xoşa gəlməyən işlərdən qoruyub. Eyni zamanda Əli (ə)-ın da buna ləyaqəti olub.

Əli (ə) fədəkarlığı

Bir çox müfəssirlərin dediyinə görə «Əhzab» surəsində ayələr var ki, Əli (ə)-ın barəsində nazil olub və onun fədakarlığından bəhs edir. Belə ayələrdən biri 23-cü ayədir ki, belə buyurulur:

مِنَ الْمُؤْمِنِينَ رِجَالٌ صَدَقُوا مَا عَاهَدُوا اللَّهَ عَلَيْهِ فَمِنْهُم مَّن قَضَىٰ نَحْبَهُ وَمِنْهُم مَّن يَنتَظِرُ وَمَا بَدَّلُوا تَبْدِيلًا

«Allah-təala ilə əhd bağlamış möminlər bu əhdə sadiq qalırlar. Onlardan bəziləri şəhadətə çatıb, bəziləri isə intizardadırlar və öz əhdlərində dəyişməz olaraq qalırlar».

Həmin surənin («Əhzab») 25-ci ayəsində oxuyuruq:

وَرَدَّ اللَّهُ الَّذِينَ كَفَرُوا بِغَيْظِهِمْ لَمْ يَنَالُوا خَيْرًا وَكَفَى اللَّهُ الْمُؤْمِنِينَ الْقِتَالَ وَكَانَ اللَّهُ قَوِيًّا عَزِيزًا

«Allah-təala kafirləri ürəkləri qəzəblə dolu halda geri qaytardı, heç bir nəticə əldə edə bilmədilər. Allah möminləri müharibədən ehtiyacsız etdi. (Yəni müharibə olmadan onlar qələbə çaldılar). Allah, qüvvətli və məğlubedilməzdir».

Əhzab müharibəsi Islamın ən əhəmiyyətli müharibələrindəndir. Buna Xəndək müharibəsi də deyilir. Xəndək müharibəsi ona görə deyilir ki, Islam ordusu Mədinənin ətrafında xəndək qazmışdılar ki, düşmən qoşunu keçə bilməsin. Amma Əhzab müharibəsi ona görə deyilir ki, Islam əleyhinə işləyən bütün dəstələr əlbir olub Islama qarşı müharibəyə gəlmişdilər. Əhzab sözünün mənası-dəstələr, partiyalar-deməkdir. Bu müharibənin vəziyyətini «Əhzab» surəsində 17 ayə izah edib.

Islam üçün bu müharibə hər cəhətdən çox çətin bir müharibə idi. Əvvəla 10 min nəfərlik düşmən qoşununa qarşı Islamın 3 min qoşunu var idi. Bundan əlavə düşmən qoşunu silah-sursat cəhətdən çox yaxşı təchiz olunmuşdular. Müsəlmanlar isə bu cəhətdən çox zəif idilər.

Yuxarıda qeyd olunan iki ayə də həmən 17 ayədəndir.

«Şəvahidüttənzil»də, yuxarıda qeyd olunan iki ayənin birincisi barəsində, mötəbər sənədlərlə hədisi, Əli (ə)-dan nəql edir:

فينا نَزَلَتْ رِجال صَدَقُوا ما عاهَدوا اللهَ عَلَيْهِ

«Bu ayədəki, əhdlərinə sadiq qalanlardan məqsəd, bizik. Ayənin davamındakı (intizarda olanlar) isə mənə aiddir». Yəni intizarda olan mənəm. (اَنَا الْمُنْتَظَرُ)

Əbdullah ibni Abbasdan nəql edir: Ayədəki əhd edənlərdən məqsəd Əli, Həmzə və Cəfərdir. Əli (ə)-da şəhadət intizarındadır. Şəhadət ona da nəsib oldu.

Bu məna Ibni Hicrin «Səvaiq» kitabında, Nişaburinin «Əlkəşfü vəlbəyan» kitabında, Ibni Səbağ Malikinin «Füsulül mühümmə» kitabında nəql olunmuşdur.

Ikinci ayənin barəsindəki bəhs birincindən də genişdir. Çünki, müfəssir və mühəddislərin çoxu

«كَفَىَ اللهُ المُؤمِنينَ القِتالَ» -Allah möminləri müharibədən ehtiyacsız etdi kəlməsinin məhz Əli (ə)-a işarə olduğunu qeyd edirlər.

Bu müharibədə Həzrəti Əli (ə)-ın Əmr ibni Əbdəvidə vurduğu qılınc zərbəsi müharibənin müqəddaratını müsəlmanların xeyrinə həll etdi. Bu barədə əvvəldə, yazmışdıq. Həmən zərbəni həzrəti peyğəmbər (s) bütün insi-cinnin ibadətindən artıq, bu müharibəni isə tamam küfrün, bütün islama qarşı mübarizəsi hesab etmişdi.

Bu mövzunu nəql edənlərdən biri də Əbdullah ibni Məsuddur. O, yuxarıdakı ayəni təfsir edəndə buyurdu:

وَكَفَى اللهُ المُؤمِنينَ القتالَ بِعَلِيّ بنِ اَبى طالِبٍ

«Allah-təala Əli ibni Əbutalibin vasitəsilə möminləri müharibədən ehtiycasız etdi».

Ibni Abbas da bu ayəni oxuyanda, buyurdu: Əli (ə) Əmr ibni Əbdəvi öldürəndən sonra Allah-taala möminləri Xəndək müharibəsində başı uca etdi.

Bu barədə Həzifədən (səhabədir) belə nəql olunub: Əli (ə) Əmri öldürdüyü zaman, Peyğəmbər (s) belə buyurdu:

بَشِّرْ يا عَلِيّ فَلَوْ وُزِنَ اليَوْمُ عَمَلُكَ بِعَمَلِ أُمَّةِ مُحَمَّد (ص) لَرَجُحَ عَمَلُكَ بِعَمَلِهِمْ وَ ذالِكَ اَنَّهُ لَمْ يَبْقَ بَيْتٌ مِنْ بُيُوتِ الْمسْلِمينَ اِنَّما وَ قَد دَخَلَهُ عِزٌّ بِقَتلِ عَمْرٍو

«Müjdə olsun sənə, ey Əli! Əgər sənin bu günkü əməlini mənim ümmətimin hamısının əməli ilə müqayisə etsələr, sənin əməlin üstün gələr. Çünki, sənin Əmr ibni Əbdivədi öldürməyin ilə müsəlmanların hamısının evinə izzət daxil oldu».

Bu məzmunu Ibni Həkim də babasından, o da peyğəmbərdən (s) nəql edir.

Süyuti «Dürrül Mənsur» kitabında Ibni Hatəmdən, Ibni Mərdəviyyədən, Ibni Əsamirdən, o da ibni Məsuddan nəql edir: Bu şəxs Əli ibni Əbutalibdir.

Bu mənanı Şeyx Süleyman Qunduzi «Yənabeül Məvəddə» kitabında nəql edib.

Bu müharibədə diqqəti cəlb edən əsas işlərdən biri budur ki, Əli (ə)-dan başqa heç kim cəsarət edib Əmr ilə müharibəyə hazır olmadı. Yeniyetmə bir cavan olan Əli (ə), Əmr kimi təcrübəli bir döyüşçü ilə mübarizəyə qalxıb Islamı və müsəlmanları böyük bir təhlükədən xilas etdi.

Indi fikirləşin, peyğəmbərdən (s) sonra canişinliyə kim layiq ola bilər?

Saleh mömin ayəsi

«Təhrim» surəsinin dördüncü ayəsində oxuyuruq:

وَإِن تَظَاهَرَا عَلَيْهِ فَإِنَّ اللَّهَ هُوَ مَوْلَاهُ وَجِبْرِيلُ وَصَالِحُ الْمُؤْمِنِينَ وَالْمَلَائِكَةُ بَعْدَ ذَٰلِكَ ظَهِيرٌ

«Əgər onun ziddinə gedəsiz. Allah onun mövlasıdır. Cəbrail, saleh möminlər və mələikələr ona dayaqdırlar».

Bu ayələrin nazil olma səbəbində çoxlu hədis və rəvayətlər vardır, onlardan ən məşhuru budur: Peyğəmbər (s) öz xanımlarından olan Zeynəb binti Cəhişin yanına gedərkən o xanım peyğəmbərin (s) xidmətində yaxşı dayanar və adətən ona bal verərdi. Bu söz Ayişəyə çatarkən Həfəsə (peyğəmbərin həyat yoldaşlarından biri, Ömərin qızı) ilə qərar qoydular ki, hər vaxt peyğəmbər (s) bizim yanımıza gəldi, Ona deyək, Məğafir sumağı yemisən? (Bu, Hicazda bitən urfut ağacından alınan bir sumaxdır ki, çox pis iyi var).

Bir gün peyğəmbər Həfəsənin yanına gələrkən o peyğəmbərdən(s) sumax yemisən-deyə soruşdu. Peyğəmbər bu sözdən çox narahat oldu, çünki onun pis iyi vardır və peyğəmbərin (s) də pis iydən acığı gəlirdi.

Bu narahatçılıqdan sonra ayə nazil olub bu işin bir qurma olduğunu açıqlayıb, sonra yuxarıdakı kimi buyurdu: «Əgər tövbə etsəniz sizin xeyirinizədir, yox əgər işinizə davam etsəniz onda bilin ki, Allah, Cəbrail, saleh möminlər və mələikələr peyğəmbərə (s) dayaqdırlar. Sizin kələklərıniz ona bir şey edə bilməz».

Bizim bəhsimiz ayədə qeyd olunan «saleh möminlər» barəsindədir. «Saleh möminlər», məlumdur ki, bütün möminlərə, hətta peyğəmbərdən (s) çox sonra, bizim

dövrümüzdə yaşayan və peyğəmbər (s) məktəbini davam etdirən bütün saleh insanlara aiddir. Amma onu da bilirik ki, hər bir şeyin dərəcə və həddi olduğu kimi bu ada layiq görülənlərin də dərəcəsi vardır. Fərz edin ki, neçə min nəfər bir məktəbdə dərs oxuyur. Onların hamısına o məktəbin şagirdləri deyilir. Amma onların arasında əlaçı, yaxşı, kafi və ondan da aşağı dərəcəli şagirdlər vardır. Eyni ilə Allah dinini qəbul edib, onun yolu ilə gedən adamların da salehliyinin dərəcəsi vardır. Baxır, kim nə dərəcədə, hansı halda və nə şəraitdə bu dini qəbul edib, onun qanunlarına əməl edib və onun yayılmasında zəhmət çəkib. Mən buna bir neçə misal gətirmək istəyirəm: Məsələn:

وَالسَّابِقُونَ السَّابِقُونَ أُوْلَئِكَ الْمُقَرَّبُونَ

Bu ayədə onlar ki, islamı əvvəlcədə qəbul ediblər, çox çətin bir zamanda müşriklərlə üz-üzə dayanıblar, onların maddi və mənəvi işgəncələrinə məruz qalıblar, həmin möminlərin başqalarından üstün olduğu göstərilir. Yaxud islam aləmində «mühacir», «ənsar» ləqəbi ilə tanınmış insanların müsəlmanlar içərisində xüsusi hörməti olub. Hətta Qur'anda da onların adları qeyd olunub.

Başqa bir misal: Səhabələrdən bir neçəsi Həzrəti pyeğəmbərdən (s) soruşdu: Ya Rəsulallah, sənin ümmətinin bizdən artıq möminləri olacaqmı? Həzrət cavabında buyurdu: Bir zaman gələr ki, o zamanın bir nəfər mömini siz səhabənin əlli nəfərindən artıq olar.

Dedilər, ya Rəsuləllah, Qur'an bizim yanımızda nazil olub, böyük müharibələri biz udmuşuq, hicrət və mühasirələrə biz məruz qalmışıq. Necə ola bilər ki, onlar bizdən artıq olsun. Həzrət peyğəmbər cavabında buyurdu: Bunların hamısını siz mənim yanımda, mənim köməkliyim ilə və məni görərək etmisiniz. Amma o zamanın möminləri məni görməyəcək, mənim canişinimin qeybət (zühurda olmadığı) dövrünə düşəcək. Bununla belə iman gətirib siz etdiyiniz əməlləri də yerinə gətirəcəklər. Bu misalları gətirməkdə məqsədim salehlərin dərəcələrinin bir-birinə nisbətən üstün olduğunu bildirmək idi. Hətta Qur'anda Allah-təala peyğəmbərlərin birinin o birindən üstün olduğunu buyurur.

Bizim qeyd etdiyimiz ayədəki salehlərin ən böyük misdaqı və ən yaxşı fərdi Əli (ə)-dır. Bu böyük bir məqamdır ki, onun adı bu ayədə Cəbrail və başqa mələklərlə birlikdə çəkilir. Bu da onu göstərir ki, Allahdan və Cəbraili Əmindən sonra peyğəmbərin ən böyük dayağı və köməkçisi Əli (ə)-dır. Ona görə də peyğəmbərdən (s) sonra onun yerində ancaq Əli (ə) canişin ola bilərdi. Ayələr və hədislərdə Əli (ə) haqqında bu qədər fəzilətlər, onun peyğəmbərdən sonra ən üstün insan olmağına sübut deyilmi?

Indi də qeyd olunan ayədəki «Saleh möminlər» hissəsinin əsas nümunəsi Əli (ə)-ın olmasına dair hədislərə və onların sənədlərinə diqqət edək. Onu da qeyd edək ki, gətirəcəyimiz hədislərin əksəriyyəti sünni mənbələrindəndir.

Hakim Həsəkani Hənəfi bu ayənin barəsində 18 hədis nəql edib. Bunların hamısı «saleh möminlər» kəlməsinin Əli (ə)-a aid olduğuna dəlalət edir. O cümlədən Əsma binti Ümeyedən nəql edərək deyir: Peyğəmbərdən (s) eşitdim buyurdu: Saleh mömin Əli ibni Əbutalibdir.

Yenə həmin kitabda ibni Abbasdan nəql edir ki, peyğəmbər buyurdu: Əli (ə) saleh mömindir.

Əmmar Yasir deyir, Əli (ə) mənə dedi: Bir gün peyğəmbər (s) məni çağırıb buyurdu: Istəyirsən sənə şad xəbər verim. Dedim, ya rəsuləllah, sən həmişə xeyir xəbər vermisən. Həzrəti peyğəmbər buyurdu: Allah sənin barəndə ayə nazil etdi. Soruşdum, ya rəsuləllah hansı ayəni, bu vaxt peyğəmbər (s) bu ayəni oxudu.

Bu hədisləri Süyuti «Dürrül mənsur»da, Əsqəlani «Fəthülmübin»də, ibni Hicr «Səvaiq»də, Əlaüddün Müttəqi «Kənzülümmal»da və bir çox başqa kitablarda nəql ediblər. Bir sözlə bu bir fəzilətdirki, o saleh möminlər Cəbrail kimi bir mələklə bir məqamdadırlar. Belə möminlərdən də ən kamili Əli (ə)-dır. O, bir ömür peyğəmbərlə (s) çiyin-çiyinə islamı təbliğ edib, onu qoruyub saxlayıbdır. Hər bir məqamda da Allah-təala öz qiymətini verib və peyğəmbər vasitəsilə bütün insanlara elan edibdir. Bunlardan biri də Taif müharibəsində idi. Bu müharibənin tarixi şərhi çox genişdir, mən bir hissəsini burada qeyd edirəm. Geniş məlumat istəyənlər «Əmirulmömininin həyatı» kitabına (müəllifi Seyyid Haşim Rəsuli Məhəllati) müraciət edə bilərlər.

Hadisə belədir: Həzrəti peyğəmbər (s) Əli (ə)-ı bir işə məmur etmişdi. Əli (ə) bu işdən qayıdanda peyğəmbər (s) onu görüb təkbir dedi və sonra Əli (ə)-la astadan söhbət etməyə başladı. Bunu görən Ömər ibni Xəttab etiraz edərək dedi: Onunla xəlvət danışırsan, biz qalmışıq kənarda. Həzrəti peyğəmbər (s) buyurdu: Ey Ömər, məgər bilmirsən ki, onunla xəlvət danışmağı Allah mənə əmr edib.

Bunu eşidən Ömər, peyğəmbərə (s) dedi: Sən Hüdeybiyyə sülhünə bizi məcbur edib dedin ki, gələn il başımızı qırxıb rahatlıqla Kəbəni təvaf edəcəyik. Həzrəti peyğəmbər (s) narahat olaraq buyurdu: Əvvəla, ey Ömər, mən gələn il demədim. Ikincisi demişəm gedəcəyik, deməli gedəcəyik, inşaallah.

Bundan əlavə, peyğəmbərin (s) əmri ilə onun qapısı və Əli (ə) qapısından başqa məscidünnəbiyyə açılan bütün qapıların bağlanması da etirazlara səbəb oldu. Bu etirazların da cavabında həzrəti peyğəmbər (s) buyurdu: Bu mənim əmrim deyil, bu Allahın əmridir ki, Əli (ə)-ın qapısı açıq qalsın.

Bəli, bütün bunlar tarixi sənədlərdir ki, kimin nə dərəcədə Allaha və peyğəmbər (s)-a təslim olduğunu göstərir.

Yəqin ki, biz də bu tarixi hadisələri oxuyandan sonra öz fikirlərimizdə dəyişiklik edərik, yaxud da düzgün olan əvvəlki əqidələrimizi bir daha möhkəmlədərik, inşaallah!

Həl əta ayəsi

«Həl əta» (هَل اَتی) surəsi, Əli (ə)-ın və peyğəmbər Əhli-beytinin fəzilətlərinə dəlalət edən surələrdən biridir. Bu surənin 5-ci ayəsindən, 22-ci ayəsinə qədər «Əbrar» (ابرار) ünvanı ilə, bir dəstənin barəsində danışılır. Amma bu ayələrin barəsində olan hədis və rəvayətlərdə, bu ayələrin bəzilərini nazil olma səbəbi, bu ayələrin kamil nümunəsinin Əli (ə), Həzrəti Fatimə (s.ə), imam Həsən və imam Hüseyn olduğu aydın olur.

Qur'anın bəzi surələrində behiştin nemətlərini sayaraq, bu nemətlərə layiq olan adamların xüsusi fəzilət və yüksək əzəmətə malik olduğunu göstərir. Bundan əlavə «Həl əta» surəsinin 7-10-cu ayələri, «əbrar» (ابرار) olan insanların nişanələrindən danışır ki, bu nişanələr də tarix boyu Əli (ə), Həzrəti Fatimə (s), imam Həsən (ə) və Imam Hüseyn (ə)-ın adları ilə bağlı olub. Belə ki, ayələr buyurur:

يُوفُونَ بِالنَّذْرِ وَيَخَافُونَ يَوْمًا كَانَ شَرُّهُ مُسْتَطِيرًا * وَيُطْعِمُونَ الطَّعَامَ عَلَى حُبِّهِ مِسْكِينًا وَيَتِيمًا وَأَسِيرًا * إِنَّمَا نُطْعِمُكُمْ لِوَجْهِ اللَّهِ لَا نُرِيدُ مِنكُمْ جَزَاء وَلَا شُكُورًا * إِنَّا نَخَافُ مِن رَّبِّنَا يَوْمًا عَبُوسًا قَمْطَرِيرًا

«Onlar öz nəzirlərinə vəfa edərlər, əzabı çox olan gündən qorxarlar, öz yeməklərini, özlərinin ehtiyacı olan halda, miskinə, yetimə və əsirə verərlər. (Deyərlər) biz sizə Allaha xatir təam veririk və sizdən heç bir təşəkkür gözləmirik. Biz Allahmızdan qorxuruq, o gündə ki, çox şiddətli və çətin əzab verəcək».

Bu ayələrin nazil olmağı (şəni nüzul) barəsində Zəməxşəri özünün məşhur «Kəşşaf» təfsirində belə yazır: Ibni Abbas nəql edir ki, Həsən və Hüseyn xəstələnmişdilər. Həzrəti peyğəmbər (s) buyurdu: Ya Əli, əgər övladlarının sağalması

üçün nəzir etsəydin yaxşı olardı. Əli (ə), Fatimə (s.ə) və onların xidmətçisi Fizzə üç gün oruc tutmağı nəzir etdilər. (Bəzi rəvayətlərdə hətta Həsən və Hüseynin də oruc nəzir etməkələri yazılıb). Az müddətdən sonra imam Həsən (ə) və imam Hüseyn (ə) sağaldılar. Onlar da nəzirlərinə vəfa edərək oruc tutdular. Evlərində yemək yox idi. Əli (ə) arpa unu alaraq Həzrəti Fatiməyə verdi, o da həmin undan beş nəfərlik çörək bişirdi. Iftar məqamı yetişəndə bir nəfər qapını döyüb dedi: Əssəlamu ələykum, ey əhli-beyti-Mühəmməd (s)! Mən bir müsəlman fəqirəm. Mənə kömək edin. Onlar hamısı öz çörəklərini fəqirə verdilər, o gecəni ac yatdılar. Ancaq su ilə iftar etdilər. Ikinci gün iftar vaxtı bir yetim qapıya gəlib kömək dilədi. Yenə də hamı çörəklərin həmin yetimə verib özləri ac yatdılar. Üçüncü gün yenə iftar əsnasında bir əsir (Müharibədə müsəlmanlara əsir düşmüşlərdən) qapıya gəlib kömək istədi. Onlar yenə də öz çörəklərini əsirə verib su ilə iftar edərək ac yatdılar. Sübh vaxtı Əli (ə), Həsən (ə) və Hüseyn (ə)-ın əlindən tutub peyğəmbərin (s) yanına gəldilər. Peyğəmbər (s)-də onları götürüb yenidən Həzrəti Fatimənin (s) yanına qayıtdılar. Fatimə (s) Mehrabda ibadət edirdi. Bu vaxt vəhy mələki Cəbrail nazil oldu və dedi: Ey Mühəmməd, bu ayələri Allah sənin əhli-beytin haqqında nazil etdi və bu cür əhli-beytin olduğuna görə səni təbrik edir.

Bu rəvayəti Qirtəbi öz «Təfsirin»də nəql edir və bu barədə bir neçə şer də gətirir.

Fəxri Razi də öz «Təfsirin»də bunu belə nəql edib. Bu ayə bir nəfərə məxsus ola bilməz, amma bu ayənin Əli ibni Əbutalibə aid olmasına heç bir şübhə yoxdur.

«Həl əta» surəsinin əhli-beyt barəsində nazil olmağı o qədər aşkardır ki, hətta bunu bir çox məşhur şairlər də öz şerlərində nəzmə çəkiblər. O cümlədən bir çox kitablarda Mühəmməd ibni Idris Şafeidən nəql olunub ki, deyir:

اِلی مَ, اِلی مَ, وَ حَتّی مَتی أُعاتَبُ فی حُبِّ هاذا الفَتی؟

وَ هَلَ ذُوِّجَتْ فاطِمُ غَیْرُهُ وَ فی غَیرِهِ هَل اَتی, هَل اتی؟

«Nə vaxta qədər, nə zamana qədər mən bu kişiyə (Əli (ə)-a) məhəbbət yetirdiyimə görə danlanacağam. Fatimə onunla ailə qurmayıbmı? Məgər «Həl əta» onun barəisndə gəlməyibmi?»

Ibni Bətriq VI əsrin alimlərindəndir. O, «Ümdətü uyuni səhahül əxbar» kitabında Əbu Ishaq Sələbidən nəql edir ki, deyibdir:

اَنا مَؤلی لِفَتی أُنزِلَ فیه هَل اَتی

«Mən o kişinin (Əli (ə)-ın) qulamıyam. Onun barəsində «Həl əta» nazil olubdur.

Bundan əlavə, VII əsrin alimlərindən olan Mühəmməd ibni Təlhə Şafei «Mətalibəssual» kitabında peyğəmbər (s) əhli-beyti barəsində belə deyir:

هُمُ العُرْوَةُ الوُثْقی لِمُعْتَصِمٍ بِها مَناقِبُهُمْ جائَتْ بِوَحيٍ وَ اِنْزال

مَناقِبٌ فی الشُّری وَ سُورةُ هل اَتی وَ فی سُورةِ الأحزاب یَعْرِفِها النُّالی

«Onlar ətəklərindən tutmaq istəyənlərə möhkəm dayaqdırlar. Onların fəziləti vəhy ilə nazil olub. Onların fəziləti «Şura» və «Həl əta» surəsində gəlibdir. «Əhzab» surəsində də var. Oxuyanlar bilərlər».

Yuxarıdakı şer də ayələrə işarə edir. «Ürvətül vüsqa» (möhkəm dəstək) və «Ayətəl kürsü» («Bəqərə» surəsi): «Kim Allaha iman gətirə, şeytanı inkar edə, möhkəm bir dəstəkdən yapışmış olar» - Ona işarədir, yəni hər kəs istəyə Allaha iman gətirə və şeytana kafir ola gərək bizdən öyrənə və bizə pənah gətirə. Bu mətləb «Şura» surəsindəki, «Məvəddət» ayəsinə işarədir. «Əhzab» surəsində isə 33-cü ayədə buyurur:

يُرِيدُ اللَّهُ لِيُذْهِبَ عَنكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيرًا

«Allah-təalanın iradəsi budur ki, sizdən bütün çirkinlik uzaq olsun, bütün pisliklərdən pak olasınız». Məlumdur ki, Allah-təala nəyə iradə etsə o da olar. Deməli Allahın iradəsi budur ki, pislik onlara yaxın olmasın. Nəinki (əstəğfurullah) olub, sonra təmizlənib. Yəni əvvəlcədən Allah-təala onları qoruyub saxlayıb. (Diqqət edin).

Əlbəttə bu şərafəti onlar özləri qazanıblar. Necə ki, imam Sadiq (ə) buyurur: «Bizim Allah-təala ilə heç bir qohumluğumuz və ya başqa bağlılığımız yoxdur. Ancaq əməlimizə görə Allah bizi seçib və bizi qoruyub.

Elə bilirəm ki, bu ayənin də Əhli-beyti-peyğəmbərə aid olmağında, hörmətli oxucuda heç bir şübhə yeri qalmaz. Çünki, insan insana inanmalıdır. Bu qədər

insanlar bu rəvayətləri nəql edirlər, bizim bir insan kimi onlara inanmamağa haqqımız yoxdur? Əgər biz bu adamlara da inanmasaq onda həyat bizim üçün çox çətin olar.

Allah-təala bizi həqiqi yola hidayət etsin və bu yolda bizim qədəmlərimizi möhkəm etsin. Amin!

Iza (əziyyət) ayəsi

«Əhzab» surəsinin 57-ci ayəsində oxuyuruq:

إِنَّ الَّذِينَ يُؤْذُونَ اللَّهَ وَرَسُولَهُ لَعَنَهُمُ اللَّهُ فِي الدُّنْيَا وَالْآخِرَةِ وَأَعَدَّ لَهُمْ عَذَابًا مُّهِينًا

«O kəslər ki, Allahı və onun rəsulunu incidərlər. Allah onlara dünya və axirətdə lənət edər və onlar üçün xar edici əzab hazır edibdir».

Bu ayədə Allahı incitməkdən məqsəd, onu tanımamaq və ona itaət etməmək mənasındadır. Hər kim peyğəmbəri (s) və möminləri incitsə onlara Allah-təala çətin əzab verəcəyini vədə verib. Çünki, peyğəmbəri və möminləri incitmək, Allahı incitmək deməkdir.

Əhli sünnə qardaşlarımızdan və Əhli-beytdən çoxlu rəvayətlər var ki, peyğəmbər (s) Əli (ə)-a buyurdu: «Ey Əli, hər kim sənə əziyyət versə mənə əziyyət vermişdir».

Hakim Həsəkani «Şəvahidəttənzil» kitabında Cabir ibni Əbdullahdan nəql edir: Peyğəmbərdən eşitdim ki, Əli (ə)-a buyurdu: «Kim səni incitsə həqiqətən məni incidib».

Başqa bir hədisdə ibni Əbusələmə, Ümmüsələmədən (peyğəmbərin (s) həyat yoldaşı) nəql edir ki, peyğəmbər (s)-dən eşitdim Əli (ə)-a buyururdu: «Sən mənim həbibim və qardaşımsan, kim səni incitsə məni incidibdir».

Bu hədis Ömərdən, Sə'd ibni Əbi Vəqqasdan, Əbu Hüreyrədən, ibni Abbasdan və Əbu Səid Xudridən də nəql olunubdur.

Əli (ə)-ın özündən nəql olunan hədisdə deyilir: «Həzrəti peyğəmbər (s) başımın tüküdən tutaraq buyurdu: «Ya Əli, hər kəs sənin bir tükünü incitsə elə bil məni incidib, hər kəs məni incitsə, Allahı incidib, hər kim də Allahı incidərsə ona Allahın lənəti olsun».

Yuxarıda qeyd olunan ayənin təfsirində Hakim Nişaburi «Müstədrəküssəhiheyn» kitabında belə yazır: Şam əhlindən olan bir kişi ibni Abbasın yanında Əli (ə)-ı səbb etdi (nalayiq sözlər dedi). Ibni Abbas o kişiyə dedi: Ey Allahın düşməni, Allahın rəsulunu incitdin və bu ayəni oxuyaraq öz sözünü təsdiqlədi.

Bu hədisi Zəhəbi «Təlxisül müstədrək» kitabında nəql edərək təkid edir ki, bu hədis səhih hədisdir.

Süyuti «Dürrül mənsurda» bu ayənin təfsirində ibni Abbasdan nəql oulnan hədisi qeyd edibdir. «Müstədrəküssəhiheyn» kitabında Əmr ibni Şasedən geniş bir hədis nəql olunubdur. Bu hədisdə belə bir məqam vardır: Əmr ibni Şas deyir: Məsciddə (peyğəmbər (s) məscidində) bir gün Əli (ə)-dan şikayət etdim. Bu söz peyğəmbərə (s) çatdı. Sübh vaxtı peyğəmbər bir dəstə adamla məscidə daxil oldular.

Peyğəmbər (s) mənə qəzəblə buyurdu: «Ey Əmr, and olsun Allaha, məni incitmisən». Ərz etdim: Ey Allahın peyğəmbəri (s), pənah aparıram Allaha, mən səni nə vaxt incitmişəm? Həzrət cavabında buyurdu: «Kim Əlini incitsə məni incidibdir».

Hakim Nişaburi bu hədisi nəql edərək yazır ki, bu hədis səhih və mötəbərdir.

Bütün bu hədislər çox gözəl surətdə göstərir ki, Əli (ə) peyğəmbərin canı kimidir. Ona məhəbbət etmək, peyğəmbərə məhəbbət etməkdir, onu incitmək peyğəmbəri incitməkdir.

Əli (ə)-ın peyğəmbərin canı kimi qələmə verilməsi əsassız deyil. Bu barədə «Mübahilə» ayəsinin «Ənfüsəna» kəlməsi haqqında danışanda qeyd etdik ki, bu kəlmədən məqsəd Əli (ə)-dır. Bundan əlavə də bir çox dəlillərimiz vardır. Onlardan biri də həccətül vidada (peyğəmbərin (s) axırıncı həcc ziyarəti) baş verən bir hadisədir. Belə ki, hicrətin 10-cu ilində Nəcran məsihilərilə ilə peyğəmbərin (s) əvvəlcədən olan müqaviləsinə əsasən Əli (ə) peyğəmbər (s) tərəfindən onlardan cizyə (vergi) yığmaqdan ötrü Yəmənə getdi. (Nəcran məsihiləri Yəməndə yaşayırdılar). Sonra peyğəmbər (s) həcc səfərinə getdi. Əli (ə)-a məktub yazdı ki, işini qurtarandan sonra Məkkəyə gəlsin. Əli (ə) işini qurtarıb yığdığı paltarları götürüb Məkkəyə yollandı. Miqatda (ehram bağlanan yer) ehram bağlayanda niyyət etdi ki, həzrəti peyğəmbər (s) necə ehram bağlayıbsa o cür ehram bağlayıram. Ordunu Məkkənin kənarında saxlayıb şəhərə daxil oldu. Peyğəmbər (s) onu görərkən çox sevindi və necə ehram bağladığını soruşdu. O da əhvalatı həzrətə danışdı.

Peyğəmbər (s) Allahu Əkbər deyib buyurdu: Təvaf et və mənim kimi ehramda qal, mən sənin əvəzinə qurban kəsəcəyəm və belə də etdi. Buna bəziləri etiraz edəndə peyğəmbər (s) buyurdu: Mənim bu işə ixtiyarım var, çünki, Əli (ə) mənim canımdır.

Yeri gəlmişkən qeyd etmək istərdik ki, bu növ həcc əməli yerinə yetirmək (həcc qran) 2-ci xəlifə Ömər ibni Xəttabın dövründə qadağan olundu. Yenə onun dövründə ikinci bir əməl də qadağan olunmuşdu ki, o da müvəqqəti evlənmək idi. Onu da qeyd edək ki, bəziləri bu iki əməlin peyğəmbərin (s) vaxtında halal olmasına şübhə edirlər və sübut istəyirlər. Sübutlarımız çoxdur, amma 2-ci xəlifənin öz sözünü dəlil gətirmək istəyirik. Xəlifə Ömər ibni Xəttab özü deyibdir: Iki əməl peyğəmbər (s) zamanında halal idi, mən onları qadağan edirəm. Kim ona əməl etsə onu cəzalandıracağam.

Ömərin öz oğlu bu əmrə görə ona etiraz edib bu əmri hansı hüquqla verdiyini soruşanda Ömər bərk qəzəblənib və ona belə cavab verib: Xəlifəlik hüququndan. Amma bilməliyik ki, Ilahi hökmü Allahdan başqa heç kim dəyişə (nəsx) bilməz. Bəli, budur bizim dəlilimiz. Bu kişi öz dili ilə etiraf edir ki, bu iki əməl peyğəmbərin (s) vaxtında halal idi. Bu özü böyük bir dəlildir.

Qayıdaq əvvəlki söhbətimizə. Həcc (ümrə) mərasimi tamam oldu. Peyğəmbər (s) özünün və Əli (ə)-ın tərəfindən qurban kəsdi. Sonra Əli (ə) qoşunun yanına qayıdarkən onları beytulmal libaslarını icazəsiz geymiş gördü və bərk narahat oldu. Paltarları soyundurub yerinə qoydurdu. Bu işə görə qoşun əhli narahat olub peyğəmbərə (s) şikayət etdilər. Həzrəti peyğəmbər (s) də onların bu hərəkətinə görə

narahat olub buyurdu: «Əlidən şikayət etməyin, o Allah hökmünü icra etməkdə çox möhkəmdir və heç kimə güzəştə getməz».

Budur Əli (ə) və onun fəziləti. Onun islamdakı rolu. İndi fikirləşin, peyğəmbərdən (s) sonra ondan layiqli bir insan varmı?

Mərəcəl-Bəhreyn ayəsi

«Ərrəhman» surəsinin 19-22-ci ayələrində oxuyuruq:

مَرَجَ الْبَحْرَيْنِ يَلْتَقِيَانِ * بَيْنَهُمَا بَرْزَخٌ لَّا يَبْغِيَانِ * فَبِأَيِّ آلَاء رَبِّكُمَا تُكَذِّبَانِ * يَخْرُجُ مِنْهُمَا اللُّؤْلُؤُ وَالْمَرْجَانُ

«Allah-təala iki dəryanı yan-yana qərar verdi, fəqət aralarında maniə vardır ki, bir-birinə qatışmazlar. Allahın hansı nemətini inkar edəcəksiniz? O iki dəryadan inci və mərcan çıxar».

Bu ayənin barəsində bir çox təfsirlər yazılıbdır.Bəziləri bu iki dəryadan məqsəd birinin suyu şirin, o birinin suyu şor olan dəryalar olduğunu deyir, bir-birinə söykəniblər amma suları bir-birinə qarışmır. Bundan başqa okeanların içərisində olan cərəyanları misal göstərmək olar ki, onların özünün xüsusi bəhsi vardır, maraqlananlar bu ayələrin barəsində olan təfsirlərə müraciət edə bilərlər. Təkcə bunu deməklə kifayətlənirəm ki, o suların hərarəti, yanaşı olan suyun hərarəti ilə 10-15 dərəcə fərqlənir. Hətta rənglərində də fərqlər nəzərə çarpır. Bu isti suların axını isti küləklər əmələ gətirir və ətraf ölkələrin atmosferini tənzimləyir.

Bildiyimiz kimi Quran ayələrinin zahiri və batini mənaları vardır. Bəzən onların maddi və mənəvi təfsirləri də olur. Nəql olunan ayələrin mənəvi təfsiri Əli (ə) və Fatimə (s.ə) nəzərdə tutulur. «Inci və Mərcan» ayəsini isə Imam Həsən və Imam Hüseynə (ə) nisbət verərək təfsir edirlər.

«Şəvahid əttənzil»də Səlman Farsidən bu ayələrin təfsiri barədə nəql olunub: «Mərəcəl bəhreyn»(iki dəryadan)dən məqsəd -Əli (ə) və Fatimədir. Sonra deyir: Peyğəmbər (s) buyurdu: «yəxrücü minhümə lölü vəlmərcan»dan (inci mərcandan) məqsəd (يَخْرُجُ مِنْهُمَا اللُّؤْلُؤُ وَالْمَرْجَانُ) Həsən və Hüseyndir. Eyni ilə bu məna ibni Abbasdan və Zəhhakdan başqa tədbirlə nəql olunub.

Başqa bir hədisdə Səid ibni Cübeyrdən belə nəql olunub: «Mərəcəl bəhreyndən» məqsəd Əli (ə) və Fatimə (s.ə)-dir. «Bəynəhüma bərzəxün layəbğiyan»-dan (fəqət aralarında maniə vardır ki, bir-birinə qatışmazlar) məqsəd, onların arasında olan sonsuz məhəbbətdir. «Yəxrücü minhüməllölö vəlmərcan»-dan məqsəd Həsən və Hüseyndir.

Başqa bir hədisdə də eyni ilə bu məna verilib, əlavə olaraq «bərzəx» sözünü izah edərək buyurub ki: «Bərzəx»-iki şey arasında olan maneəyə deyərlər. Bu da Əli (ə)-la, Həzrəti Fatimə (s.ə)-nın arasında olan məhəbbətdir ki, başqa söhbətlərin ora daxil olmasının qarşısını alır.

Alusi «Ruhul məani» kitabında bu rəvayəti ibni Abbasdan, Ənəs ibni Malikdən, Səid ibni Cübeyrdən və Səfrani Suridən nəql edir.

Doğrudan da nə qədər böyük bir fəzilət, necə də gözəl oxşatma, nə qədər şərafətli insanlar Kərim əxlaqları, səxavətləri, ismətləri, qurtarmayan elmləri-hamısı böyük dərya kimidir ki, nə qədər dünya var onlardan istifadə olunacaq.

«Nəcva» ayəsi

Əli (ə)-ın fəzilətinə dəlalət edən ayələrdən biri də «Mucadilə» surəsinin 12 və 13-cü ayələridir:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا إِذَا نَاجَيْتُمُ الرَّسُولَ فَقَدِّمُوا بَيْنَ يَدَيْ نَجْوَاكُمْ صَدَقَةً ذَلِكَ خَيْرٌ لَّكُمْ وَأَطْهَرُ فَإِن لَّمْ تَجِدُوا فَإِنَّ اللَّهَ غَفُورٌ رَّحِيمٌ

«Ey iman gətirənlər, peyğəmbərlə (s) gizli söhbətləşəcəyiniz zaman əvvəlcə Allah yolunda sədəqə verin. Bu sizin üçün yaxşı və pakizədir. Əgər imkanınız olmasa, Allah bağışlayan və mehribandır».

Böyük tarixi mənbələrə istinad olunaraq deyilir ki, bir dəstə varlı adamlar xalq arasında özlərini böyük qələmə vermək üçün, hər kiçik bir işdən ötəri peyğəmbərin (s) yanına gəlib onun qulağına söz deyirdilər və bu yolla özlərini peyğəmbərə (s) yaxın göstərmək istəyirdilər. Amma fikirləşmirdilər ki, peyğəmbərin (s) vaxtı çox qiymətlidir, belə kiçik işlərdən ötəri deyildir. Bundan əlavə belə işlər kasıb təbəqənin də narahatlığına səbəb olurdu. Odur ki, «Mücadilə» surəsinin 12-ci ayəsi nazil olub müsəlmanlara əmr etdi ki, bu işinizdən əvvəl sədəqə verin. Bu əmr özlərini

peyğəmbərə yaxın hesab edənlər üçün yaxşı bir imtahan idi. Hamı sədəqə verməkdən boyun qaçırırdı. Yeganə adam bu əmrə əməl etdi, o da Əli (ə) idi. Məhz bu ayənin vasitəsilə aydın oldu ki, kim hansı mövqedədir.

Bir müddət sonra 13-cü ayə nazil olub bu hökmü götürdü. Buradan aydın oldu ki, bəzi adamların pula və dövlətə məhəbbəti peyğəmbərlə (s) söhbət etməkdən artıqdır. Və bu da məlum oldu ki, hansı əmr və hansı çətin bir şərait qarşıya çıxarsa, yenə də Əli (ə) o çətinliyə qatlaşar Allahın əmrinə əməl edəcək və Allahın peyğəmbərinə (s) yaxın olacaqdır.

Indi gəlin fikir verək, kiçik bir məbləğdə pulundan keçib peyğəmbərlə (s) söhbət etməyə hazır olmayan adam peyğəmbərin (s) gətirdiyi dinin yolunda canından neçə keçə bilər, necə özünü peyğəmbərə (s) dost hesab edə bilər?

Bir çox rəvayətlər vardır ki, bu ayəyə təkcə Əli (ə)-ın əməl etdiyini göstərir.

«Şəvahüd əttənzil» kitabında mücahiddən, o da Əli (ə)-dan nəql edərək deyir ki, həzrət buyurdu:

اِنَّ فی الْقُرْانِ لَلآیَةً ما عَمِلَ بها اَحَدٌ قَبْلی وَ لا بَعدی وَ هِیَ اَیَةُ النَّجْوی قال: کان لی دینارٌ فَبعتُهُ بِعَشَرَةِ دَارهِمَ فَکُلَّما اَرَدْتُ اَن اُناجِیَ النَّبِیَّ (ص) تَصَدَّقْتُ بِدِرْهَمٍ مِنهُ هُمَّ نَسَخَتْ

«Quranda bir ayə vardır ki, məndən başqa heç bir adam o ayəyə əməl etməmişdir. O «Nəcva» ayəsidir. Mənim bir dinarım var idi. Onu on dirhəmə satdım və hər dəfə bir dirhəm sədəqə verməklə on dəfə peyğəmbərlə (s) pıçıltı ilə danışdım. Sonra bu ayə nəsx oldu». (Hökm qüvvədən düşdü).

Həmin kitabda Əbu Əyyub Ənsaridən də eynilə bu cür rəvayət olunub ki, bu ayəyə ancaq Əli (ə) əməl edərək on dəfə peyğəmbərlə (s) gizlində söhbət etdi və hər dəfə də sədəqə verdi.

Həmin kitabda bu barədə 10-dan çox hədis qeyd olunubdur.

Süyuti «Dürrül Mənsur» kitabında 7-dən çox mötəbər sənədlərlə bu hədisi nəql edibdir.

Hakim Nişaburi bu hədisi nəql edərək onu səhih hədislərdən olduğunu qeyd etmişdir.

Bir çox rəvayətlərdə bu sədəqənin miqdarını müəyyənləşdirməkdən ötrü həzrəti peyğəmbər (s) Əli (ə)-ı çağırıb onunla məsləhətləşdiyi nəql olunub.

Bunlardan başqa bir cəlbedici hədis də vardır ki, bu hədis «Ruhulbəyan» təfsirində Əbdullah ibni Ömərdən nəql olunaraq deyilir:

كان لِعَلِيٍّ ثلاهق لَو كانَت لی واحِدَةٌ مِنْهُنَّ كان اَحَبُّ اِلَیَّ مِن حُمَرَ النَّعَیم تَزْویجه فاطمة (س) وَ اِعطاؤثهُ الرّایَةَ یَومَ الخَیبَرِ وَ آیَة النَّجوی

Əli (ə)-ın üç fəzilətinə mənim çox rəğbətim var. Əgər onlardan biri məndə olsaydı, bu iş mənim üçün qırmızı dəvə cinsindən də artıq olardı. (Qırmızı dəvə ərəblərdə ən qiymətli şey kimi nəzərdə tutulurdu). Birincisi Fatimə (s.ə) ilə evlənməyi, ikincisi Xeybər müharibəsində bayrağın ona verilməsi, üçüncüsü isə «Nəcva» ayəsidir.

Zəməxşəri «Kəşşaf», Qirtəbi isə «Cameül Əhkamül Qur'an» kitabında bu hədisi qeyd ediblər.

Burada belə bir sual meydana gəlir. Görəsən bu ayəyə əməl etmək insan üçün necə fəzilət hesab oluna bilər? Əbdullah ibni Ömərin ibarəsi ilə desək, bu ayəyə əməl etmək, Həzrəti Fatimə ilə evlənməklə, Xeybərdə bayraqdar olmaqla bərabərdirmi?

Bu sualın cavabını belə aydınlaşdırmaq olar ki, əvvəla Quranın hər bir ayəsinə əməl etmək insan üçün fəzilətdir. Bu ayə də onlardan biri olduğu üçün, əlbəttə, ona əməl etmək insan üçün fəzilət hesab edilməlidir.

Ümumiyyətlə insan həyatında əməlinin vasitəsilə fəzilət tapır və onun nəticəsində də axirət səadətinə yetişir. Necə ki, şair Yaşar Cahid deyib:

Aləmlərə məşhur edən insani əməldir,

Fəth eyləyən hər aləmi-imkani əməldir,

Məqsudinə yetməzsən əməl olmasa, ey dil,

Məqsudinə yetməkliyin asani əməldir.

Eşq əhli idi həzrəti Səlman da Rəsulun

Məhrəm eliyən beytinə Səlmani əməldir.

Tək elmilə loğman da ucalmazdı, odur ki,

Loğman tanıdan aləmə loğmani əməldir.

Ey dil-dil ötən dildə deyən aşiqi-həqqəm,

Aşiqliyi isbat elə ünvani əməldir

Asi olaraq əymədi baş Adəmə şeytan,

Şeytan eləyən iblisi, şeytani əməldir.

Cahid əgər imanlısa göstərsin əməldə,

Əks etdirən insandakı imanı əməldir.

Ikinci tərəfdən isə Qurana müraciət etsək «Mücadilə» surəsinin 13-cü ayəsində bu suala cavab tapa bilərik. Bu ayədə Allah-taala imtahan etmək istəyir ki, görəsən o adamlar-biz müsəlmanların mənafeyinə görə peyğəmbərlə (s) pıçıldaşırıq-iddia edərlər, həmin adamlar, öz dedikləri kimi desək, müsəlmanların mənafeyi üçün bir şey xərcləyirlərmi?

Amma gördüyünüz kimi nə müsəlmanların mənafeyi naminə, nə də peyğəmbərlə (s) yaxından danışmaq üçün onlar öz pullarını xərcləmədilər. Həmişə olduğu kimi yenə də Əli (ə), iqtisadi çətinlikdə olmağına baxmayaraq bu işi əmələ gətirdi və sədəqə verdi. Istərsə bu iş müsəlmanların mənafeyinə xidmət etsin, istərsə də peyğəmbər (s)-lə kəlmə kəsmək xatirinə olsun, hər iki halda bu əməl fəzilət hesab olunur.

Sabiqun ayəsi

«Vaqiə» surəsinin 10-14-cü ayələrində oxuyuruq:

وَالسَّابِقُونَ السَّابِقُونَ * أُوْلَئِكَ الْمُقَرَّبُونَ * فِي جَنَّاتِ النَّعِيمِ * ثُلَّةٌ مِّنَ الْأَوَّلِينَ * وَقَلِيلٌ مِّنَ الْآخِرِينَ

«Bir də (imanda) qabaqcıl olub hamıdan qabağa keçənlər ki, (Allaha) yaxın olanlar da bunlardır. Bol nemətli cənnətlərdə (olacaqlar). Bir qismi qabaqcıllardan. Bir azı da sonrakılardan».

«Şəvahid əttənzil» kitabında Hakim Həsəkani Ibni Abbasdan belə nəql edir:

السّباقُ ثلاثةٌ سَبَقَ يُوشَعُ بنُ نَونٍ اِلى مُوسى وَ سَبَقَ صاحِبُ ياسين اِلى عسى وَ سَبَقَ عِلِيٌّ اِلى نَبِيٍّ (ص)

«Iman»da qabaqcıllar üç nəfərdirlər: Yuşə-Musaya iman gətirənlərin qabaqcılı olub. Sahibi Yasin (Həbibi Nəccar)-Isayə iman gətirənlərin qabaqcılı olub. Əli (ə) isə Həzrəti Mühəmməd (s)-ə iman gətirənlərin qabaqcılı olubdur».

Həmən kitabda ibni Abbasdan nəql edilir ki, deyir: Mən peyğəmbərdən(s) bu ayənin təfsirini soruşdum. Həzrət cavabında buyurdu:

هَذَّ ثَنِى جَبرَئيلُ بِتَفسيرِها, قال ذاك عَلِيٌّ وشيعَتُهَ اِلىَ الجَنَّةِ

«Mən bu ayənin təfsirini Cəbraildən soruşdum, dedi: bu Əli (Ə) və onun şiələrindəndir ki, behiştə birinci gedəcəklər».

Bu iki hədis bir-birini tamamlayır. Çünki Əli (ə) həm iman gətirməkdə birincidir, həm də behiştə daxil olmaqda. Əqli əsasla da belə qəbul olunur ki, birinci iman gətirib onu sona qədər qoruyub saxlayan behiştə birinci getməlidir.

«Dürrül Mənsur» təfsirində Ibni Əbi Hatəm və Ibni Mərdəviyyə ibni Abbasdan nəql edirlər ki, həmin üç nəfər Yuşə, Həbibi Nəccar və Əli (ə)-dırlar.

Ibn Məcazəli «Ümdə» kitabında, Səbt ibni Cuzi «Təzkirə» kitabında, Ibni Kəsir öz təfsirində, Ibni Həcər «Səvaiq» kitabında, Əllamə Şukani «Fəthül Qədir» kitabında və Şeyx Süleyman Qunduzi «Yənabiül Məvəddə» kitabında bu rəvayəti qeyd ediblər.

Bir maraqlı nöqtəyə diqqətinizi cəlb etmək istəyirəm. Qaziyi Ruzbəhan əhli-təsənni alimlərindəndir. Özü də imamət və xilafət məsələsində çox təəssübkeş bir adamdır. Özünün «Ibtalü nəhcül həqq» kitabında Əllamə Hilliyə cavab verən zaman belə yazır: «Qabaqcıllar üç nəfərdirlər-mömini ali Firon, Həbibi Nəccar və Əli ibni Əbutalib. Sonra əlavə edir: Əlinin Islamda olmağında heç bir şəkk və şübhə yoxdur, amma bunlar onun peyğəmbərdən sonra bilafasilə imam olmağına səbəb ola bilməz».

Bu hörmətli alimə ərz etmək istəyirik ki, heç kim bu hədisin Əli (ə)-ın imamətliyinə dəlalət etməsini iddia etmir. Amma, bir şəxsiyyətin ki, barəisndə bu qədər fəzilətlər yazılıb, o cümlədən siz özünüz, onun peyğəmbərdən sonra bərabərinin olmamasını, hamı kimi qəbul edirsiniz, onda biz nəyə görə Əli (ə) kimi bir şəxsiyyəti qoyub başqalarının ardınca getməyiliyik?

Başqa bir nöqtəyə də diqqət yetirilməsini istəyirəm ki, ayədə buyurulur: «Bir azı da sonrakılardan». Bu o mənaya deyil ki, behişt ancaq Əli (ə)-a məxsusdur. Xeyir, məna belədir ki, Əli (ə)-ın bu fəzilətinə görə Allah-taala böyük bir məqamı öz dərgahında o həzrətə məxsus edibdir.

Keçmiş bəhslərimizdə Əli (ə)-ın imanda birinci olması barədə söhbət açmışdıq. Bir də həmin məsələyə qayıtmaq yerinə düşərdi.

Bütün Islam ümməti müttəfiqdirlər buna ki, qadınlarda Xədicə, kişilərdə isə Əli (ə) peyğəmbərə (s) birinci iman gətiriblər. Səhabələrdən ən azı 18 nəfər bu hədisi müxtəlif yollarla peyğəmbərdən (s) nəql ediblər ki, Əli (ə) birinci iman gətirib və peyğəmbərlə (s) namaz qılıb.

1.Əbu Səid Xudri böyük səhabələrədəndir. O deyir: Peyğəmbər (s) Əli (ə)-a dedi: Sənin yeddi xüsusiyyətin var ki, heç kim qiyamətdə sənin lə o barədə danışa bilməz. Birincisi sənin ilk iman gətirməyindir.

2.Ayişə deyir: Peyğəmbərin qızı Fatimə mənə belə buyurdu: Atam məni Əli (ə) ilə evləndirəndə belə buyurdu: «Ey Fatimə səni bir adama verirəm ki, o bütün elmlilərdən elmli, iman gətirənlərin birincisi və helmdə hamıdan artıq bir adamdır».

3.Ömər ibni Xəttab deyir: Əlinin adını yaxşılıqla yad edin. Mən peyğəmbər (s)-dən Əlinin barəsində elə sözlər eşitmişəm ki, əgər onlardan biri ali-Xəttabda olsaydı, mənim üçün artıq olardı bütün o şeydən ki, günəş onün üstünə düşür. Mən, Əbubəkr və Əbu Übeydə bir dəstə adamla Ümmüssələminin həyətinə getdik. Əli qapıda dayanmışdı, Peyğəmbəri soruşduq. Əli dedi indi gələcək. Bu vaxt peyğəmbər evdən çıxıb Əliyə tərəf gəldi və əlini onun çiyninə qoyub buyurdu: «Ya Əli sənin lə düşmənçilik edəcəklər, amma sən birinci iman gətirənsən, Allahın günlərinə hamıdan

alimsən, hamıdan çox ilahi əhdə vəfa edənsən, hamıdan ədalətlisən, rəiyyətə hamıdan mehribansan və sənin başına gələn müsibət də hamıdan çoxdur.

4.Bu məzmunda hədisi Məaz ibni Cəməl də peyğəmbər (s)-dən nəql edib.

5.Əsma binti Ümeys Cəfər ibni Əbutalibin həyat yoldaşıdır. O da Həzrəti Fatimədən Ayişə nəql edən hədisi söyləyərkən, Fatimə (s.ə) mənə belə buyurdu, deyir.

6.Səlman Farsi deyir: Peyğəmbər (s) buyurdu: Sizlərdən hövzi-Kövsərin yanında birinci mənim yanıma gələn o adamdır ki, birinci iman gətiribdir. O da Əli ibni Əbutalibdir.

Xülasəyə riayət etmək məqsədilə qalan 12 nəfərin ancaq adlarını qeyd edib, onlardan nəql olunan hədisləri qeyd etmirik. Çünki, bu hədislərin demək olar ki, hamısı məzmunca eynidir.

7.Əbu Süxeylə. 8.Əbdürrəhman ibni Ofv. 9.Əbu Rafe. 10.Ənəs ibni Malik (peyğəmbərin xidmətçisi). 11.Ibni Abbas. 12.Zeyd ibni Ərqəm. 13.Malik ibni Huris. 14.Leyli Əlcəffariyyə (müharibələrdə bu qadın yaralıların yarasını bağlardı). 15.Mə'qil ibni Yəsar. 16.Əbdullah ibni Samit (Sabit). 17.Büreyrədə. 18.Imam Əli ibni Əbutalib.

Bu adlarını qeyd etdiyimiz insanların hamısı peyğəmbərin (s) yaxın səhabələridirlər.

Yuxarıda qeyd etdiyimiz rəvayətlərin əksəriyyəti sünnü alimlərinin kitablarında yazılıb. O cümlədən Nəsayi «Sünən» kitabında, Əbu Əhməd Cürcani Şafei «Əlkamıl

Firrical» kitabında, sünnilərin dörd imamından biri olan Əhməd Hənbəl «Müsnəd» kitabında, Ibni Əbil Hədid «Nəhcül-bəlağənin şərhi» kitabında (3-cü cild səhifə 257), Ibni Əsakir «Tarixi Dəməşq» kitabında (1-ci cild səhifə 232), Əl Heysəmi «Məcməüz-zəvaid» kitabında (9-cu cild səhifə 101), Müttəqi Hindi «Kənzil Ümmal» kitabında (12-ci cild səhifə 205) və bir çox başqa sünnü alimləri öz kitablarında bunu yazıblar. Biz də siz hörmətli oxuculara məsləhət görürük ki, bunları oxuyub və dərindən düşünüb həqiqəti tapmağa çalışasınız. Yenə də sizi tələsik qərar qəbul etməkdən çəkindiririk. Elə bilirəm ki, bu qədər alimlərin yazısına inanmamağa bizim haqqımız yoxdur. Onlara inanıb, onların dediyi ilə getsək, qiyamətdə bizim də əlimizdə əsasımız olar. Deyərik, Ilahi, biz gözü yumulu bu yolu getməmişik, əlimizdə bu əsaslarımız var. Amma vay o gündən ki, inadkarlıq bizi zülmətə apara. Allaha pənah aparırıq o vəziyyətdən.

Burada bir məsələ də ortaya çıxır ki, o məsələ əvvəllərdə də müsəlmanlar arasında sual doğurmuşdur. O da Əli (ə)-ın yaşının az olması idi. Bəzi bəhanə axtaranlar Əli(ə)-ın yaşının azlığını əldə əsas tutaraq bu əqidədə olublar ki, guya Əli (ə) Islamı hamıdan qabaq qəbul etsə də buluğ yaşına çatana qədər çoxları Islamı qəbul etdilər və həqiqətdə onlar Əli (ə)-dan qabağa düşdülər. Belə ki, 10 yaşında uşağın islamı qəbul deyil.

Bunun cavabı belədir:

Birincisi peyğəmbər (s) Əli (ə)-ın islamını onun 10 yaşı olarkən məqbul hesab etdi. Hər kəs onun Islam dinini qəbul etməsinə irad etsə, həqiqətdə peyğəmbərə (s) irad edibdir.

Ikincisi peyğəmbərin qohumlarını Islama dəvət etdiyi gün mötəbər hədislərdə belə rəvayət olunur: Həzrət buyurdu: Kim bu gün məni qəbul etsə o mənim vəsim və canişinim olacaq. Bu dəvəti də ancaq Əli (ə) qəbul etdi. Həzrəti peyğəmbər (s) də onu öz canişini təyin etdi.

Necə ola bilər, bir nəfərin islamı qəbul etməsi məqbul sayılmaya, amma peyğəmbərə (s) canişin təyin oluna. Bundan əlavə islamı qəbul etməyin şərti buluğ olmaq deyil. Hər bir yeniyetmənin kifayət qədər əqli olsa Islamı qəbul edə bilər, hətta atası müsəlman olmasa o, atasından ayrılıb müsəlmanların cərgəsinə qoşula bilər.

Üçüncüsü isə Qur'ani-Kərimdən istifadə olunur ki, buluğ, hətta peyğəmbər olmaqda da şərt deyil. Necə ki, buna əvvəldə işarə olunmuşdu. Bəzi peyğəmbərlər Isa, Yəhya və başqaları çox kiçik yaşlarında peyğəmbərlər seçiliblər. Odur ki, o irad edənlərin iradı yersizdir.

Məvəddət ayəsi

Məryəm surəsinin 96-cı ayəsində oxuyuruq:

إِنَّ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ سَيَجْعَلُ لَهُمُ الرَّحْمَنُ وُدًّا

«O kəslər ki, iman gətirib, saleh əməl edirlər, Allah-təala onlar üçün (möminlərin qəlbində) məhəbbət yaradacaqdır».

Bu ayə çox aydın şəkildə göstərir ki, iman və saleh əməl, insanlar arasında məhəbbətin çeşməsidir. Bəli, iman və saleh əməl ürəkləri bir-birinə cəzb edir. Hətta pak olmayan adamların da pak adamlardan xoşları gəlir.

Bu ayənin təfsirində sünnü mənbələrində çoxlu rəvayətlər vardır. Bir çox rəvayətlər vasitəsilə nəql olunub ki, bu ayə Əli (ə)-ın haqqında nazil olubdur. Doğrudur, bu ayənin o həzrətin barəsində nazil olması yalnız ona aid olmasına dəlalət etmə. Amma bunu bilmək lazımdır ki, bu ayənin kamil və tamam misdaqi Əli (ə)-dır.

«Şəvahid əttənzil» kitabında bir çox rəvayətlər müxtəlif yollarla Bəra ibni Azibdən, Əbu Rafedən, Cabir ibni Əbdullah Ənsaridən, Ibni Abbasdan, Əbu Səid Xudridən və Məhəmməd Hənəfiyyədən verilibdir ki, bu rəvayətlərin hamısında bu ayənin məhz Əli (ə) barəsində nazil omlası bildirilir.

Əbu Səid Xudridən belə bir hədis var ki: Peyğəmbər (s) Əli (ə)-a buyurdu: «Ey Əbülhəsən, Allahdan istə öz yanında sənin üçün əhd və peyman qərar versin və sənin məhəbbətini möminlərin qəlbinə salsın». Bu vaxt bu ayə nazil oldu.

Yuxarıda adları qeyd olunan ravilərdən də nəql olunan hədislər eynilə bu məzmundadır. Belə ki, Məhəmməd Hənəfiyyədən nəql olunan bir hədisdə bildirilir ki,

Əlinin məhəbbəti ilə yanaşı onun övladlarının da məhəbbəti qeyd olunur. Bu kitabda müxtəlif yollarla 20 rəvayət nəql oulnub ki, bunların hamısı həmən mənanı daşıyır.

Suyuti «Dürrül Mənsur» kitabında Bəra ibni Azibdən və ibni Abbasdan bu hədisi müxtəlif yollarla nəql edir.

Zəməxşəri «Kəşşaf» kitabında bu ayəni təfsir edərkən həmin hədisləri qeyd edibdir. Eyni məzmunda olan hədisi Qirtəbi öz təfsirində də qeyd edibdir.

Səbt ibni Cuzi «Təskirə» kitabında, Muhibuddin Təbəri və Ibni Səbağ Maliki «Füsulül Mühümmə» kitabında, Heysəmi «Səvaiq» kitabında və Ibni Səban «Əsqafürrağibin» kitabında bu hədisləri nəql ediblər. Bu hədislərdə deyildiyi kimi, Allah-təala Əli (ə)-ın məhəbbətini bütün möminlərin qəlbində yaradıbdır. Bu məqam və fəzilət axirəzzaman peyğəmbərin (s) ümmətinin heç birinin haqqında deyilməyib. Buradan belə bir nəticə hasil etmək olur ki, indi ki, Əmirəlmöminin Əli (ə) belə bir fəzilət sahibidir, deməli heç kim onunla bərabər ola bilməz. Bütün möminlərin qəlbində məhəbbətini yaratdığı şəxs hamıdan çox imamətə və xilafətə layiq deyilmi? Bir az insafla düşünək.

Münafiqin ayəsi

«Mühəmməd (s)» surəsinin 30-cu ayəsində münafiqlərdən danışılır və bu danışıqların içərisində bəzi mətləblər, xüsusən də Əli (ə)-ın fəziləti aydın olur. Ayə belədir:

وَلَوْ نَشَاء لَأَرَيْنَاكَهُمْ فَلَعَرَفْتَهُم بِسِيمَاهُمْ وَلَتَعْرِفَنَّهُمْ فِي لَحْنِ الْقَوْلِ

«Əgər istəsək onları (münafiqləri) sənə göstərərik. Əlbəttə sən onları simalarından və danışıqlarından tanıya bilərsən».

Dediyimiz kimi bu ayədə münafiqlərdən danışılır. Allah-təala buyurur ki, biz onları sənə tanıtdırarıq. Hətta onların üzlərində əlamətlər də qoyarıq. Lakin sən onları söz danışmaqlarından da tanıya bilərsən. Çünki onların xüsusiyyətləri budur: cihaddan danışılanda uzaqda qalırlar, yaxşı adamlardan danışılanda isə çalışırlar onları ləkələsinlər.

Elə bu ayənin təfsirində Əbu Səid Xudirdən nəql olunan hədisi belə müşahidə edirik. Ayədə buyurur: «Onları danışıq tərzlərindən tanıyarsan:»

بِبُغْضِهِمْ عَلِيَّ بنَ اَبی طالِبٍ

Əli (ə)-a qarşı ədavətli danışıqları ilə tanıyarsan.

Bu hədisi Hakim Həsəkani «Şəvahiduttənzil» kitabında üç yolla nəql edibdir.

Suyuti «Dürrül Mənsur» təfsirində bu hədisi ibni Mərdəviyyədən, ibni Əsakir və Əbu Səid Xudridən nəql edibdir.

Başqa bir rəvayətdə ibni Məsud belə buyurur:

ما كُنّا نَعْرِفُ المنافِقِينَ عَلی عَهْدِ رَسُولُ اللهِ (ص) اِلاّ بِبُغْضِيمْ عَلِيَّ بنَ اَبی طالِبٍ

Biz peyğəmbərin (s) zamanında münafiqləri Əli (ə)-la ədavət etmələri ilə tanıyırdıq.

Bu hədisi Cabir ibni Əbdullah Ənsari və Əbuzər Qəffari də nəql ediblər.

Ibni Əbdül Bərr «Istiab» kitabında Cabir ibni Əbdullahdan, Mühibbüddin Təbəri isə «Ərriyazün-nəzirə» kitabında Əbuzərdən belə nəql edir:

ما كُنّا نَعْرِف المُنافقينَ على عَهدِ رَسُولِ اللهِ (ص) اِنّما بثلاثٍ: بِتَكْذيبِهِمَ اللهَ وَ رَسولَهَ وَ التَّخَلّفُ عَنِ الصَّلاةِ وَ بُغْضِهِمْ عَلِيَّ بنَ اَبى طالِبِ (س)

Biz peyğəmbərin (s) zamanında münafiqləri üç xüsusiyyətlə tanıyırdıq; Allahı təkzib etməklə, camaat namazına gəlməməklə və Əli ibni Əbutalibə qarşı ədavət etməklə.

«Sehihi Termiz»də bu hədis iki yolla nəql olunub. Biri Səid Xudridən, o biri isə Ümmüssələmdən.

Ibni Əsakir də «Tarixi Dəməşq» kitabında bu hədisi yazıbdır.

Übadət ibni Samit bir hədisdə belə nəql edir:

كُنّا نُوّرُ اَوْلادَنا بِحُبِّ عَلِيِّ اَبى طالِب (ع) فَاِذا رَأَيْتنا اَحَداً لا يُحِبُّ عَلِيَّ بنَ اَبى طالِبٍ عَلَيْنا اَنَّهُ لَيْسَ مِنّا وَ اَنَّهُ لَغَيْرِ رُشْوُهُ

«Biz övladlarımızın halalzadə omasını Əli (ə)-a məhəbbət etməklə müəyyən edirdik. Onların hansı Əli (ə)-a məhəbbət etməsəydi, bilərdik ki, bizdən deyil».

Başqa bir hədisdə Məhbub ibni Əbizzənad bir dəstə ənsarın dilindən belə nəql edir:

اِنْ كُنّا لَنَعْرِفُ الرَّجُلَ اِلى غَيْرِ اَبيهِ بِبُغْضِهِ عَلِيَّ بنَ اَبى طالِبٍ

«Bir adamı Əli (ə) ilə ədavət edən görəndə onun atasının həqiqi övladı olmadığını bilirdik».

Bu haqda həzrəti peyğəmbər (s)-ın də məşhur bir rəvayəti vardır. Bunu peyğəmbər (s) Xeybər müharibəsində Əli (ə)-ın barəsində geniş söylədiyi xütbədə buyurmuşdur:

يا اَيُّهَا النّاسُ امْتَحِنُوا اَوْلادَكُمء بِحُبِّهِ فاِنَّ عَلَيّاً لا عَدْعُو اِلى ضَلالَةٍ وَ لا يُبْعِدُ عَن هُدىً فَمَنْ اَحَبَّهُ فَهُوَ مِنكُمْ وَ مَنْ اَبْغَضَهُ فَلَيْسَ مِنكُم

«Ey camaat, öz övladlarınızı Əliyə məhəbbət etməklə imtahan edin. Çünki, Əli, zəlalətə çağırmaz, hidayətdən uzaq etməz, kim ona məhəbbət etsə sizdəndir, kim onunla ədavət etsə sizdən deyil».

Əli (ə)-ın fəzilətinə dəlalət edən bu hədisləri oxuyarkən, insan belə bir qənaətə gəlir ki, bu hədislərin Bəni Üməyyə və Bəni Abbasi kimi zalım hökmdarların zamanından keçərək gəlib bizlərə yetişməsi yalnız Allahın istəyi və iradəsilə ola bilər. Çünki, onlar tarix boyu çalışıblar ki, o həzrətin fəzilətlərinin üstünü örtsünlər. Hətta vaxt olub ki, onun dostlarını diri-diri divarlara qoyub üstlərini hörüblər. Əli (ə)-ı namaz vaxtında və məsciddə xütbə oxuyanda söyməyi əmr ediblər, bir sözlə əllərindən gələn bütün çirkinlikləri əsirgəməyiblər. Bununla belə o həzrətin bu qədər fəzilətləri dünyaya yayılıb və bizə də gəlib çatmışdır.

Bəli, bu ilahi bir möcüzədir. Bu isə haqqı heç bir batilin aradan apara bilmədiyinə sübutdur.

Siratəl müstəqim ayəsi

Gecə və gündüz qıldığımız hər bir namazdakı «Həmd» surəsinin 6-cı ayəsində oxuyuruq:

اَهْدِنا الصِراط المُسْتَقيم

«Ilahi, bizi düz yola hidayət et».

Ilahi, bizi o yola hidayət et ki, o yol bizi sənə və sənin razılığına çatdıracaq. Bir yol ki, sənin qəzəbindən uzaq olan yoldur. Bir yol ki, gümrahlar (azğınlar) yolu deyildir.

«Sirati mustəqim» (doğru yol) cümləsinin çox böyük və geniş məfhumu vardır. Ona görə də bəziləri bunu «peyğəmbərlərə» və «imamlar», bəziləri isə onların yolu və üslubuna aid edirlər. Bu ayənin tərkibində qeyd olunan mənaların hamısının olmasının heç bir zidiyyəti yoxdur. Amma müxtəlif yollarla həzrəti peyğəmbərdən(s) bizə yetişən hədislərə istinad edərkən məlum olur ki, bu ayənin kamil misdaqı Əli (ə) və peyğəmbərin əhli-beytidir.

Hakim Həsəkani «Şəvahidəttənzil» kitabında Cabir ibni Əbdullah Ənsaridən nəql edir ki, həzrəti peyğəmbər (s) buyurdu:

اَنَّ اللهَ جَعَلَ عَلِيًّا وَ زَوْجَتَهُ وَ اَبْنائَهُ حُجَجَ اللهِ عَلى خَلْقِهِ وَهُمْ اَبْوابُ العِلْمِ فِ اُمَّتِى مَنْ اِهْتَدىٰ بِهِمْ هُدِىَ اِلى صِراطٍ مُسْتَقيمٍ

«Allah-taala Əli (ə)-ı, onun həyat yoldaşını və onun övladlarını yer üzündə ilahi höccət qərar veribdir. Onlar mənim ümmətimin elm qapısıdırlar. Hər kim onların vasitəsi ilə hidayət olsa, «sirati müstəqimə» (düz yola) hidayət olmuş olar».

Başqa bir hədisdə Ibni Abbasdan, o da peyğəmbər (s)-dən nəql edir ki, peyğəmbər (s) Əli (ə)-a buyurdu: اَنْتَ طریقُ الواضِح وَ اَنْتَ صِراطُ المُستَقیمُ

«Sən işıqlı yolsan, sən düzgün yolsan və sən möminlərin rəhbərisən».

Yenə başqa bir hədisdə Ibni Abbasdan rəvayət olunur ki, həzrət bu ayənin təfsirində buyurdu:

قُولوا معاشِرَ العِبادِ اِهْدِنا الی حُبِّ النَّبی وَ اَهْلِ بَیْتِهِ

«Ey Allahın bəndələri, deyin: Ilahi, bizi peyğəmbər (s) və onun əhli-beytinə məhəbbət etməyə hidayət et».

Başqa bir hədisdə Əbu Bureydədən nəql edir ki, Həzrət buyurdu: bu ayədən məqsəd «Mühəmməd və ali-Mühəmməddir». Bu hədisi Əllamə Sə'ləvi də öz təfsirində qeyd edibdir. Şeyx Übeydullah Hənəfi özünün «Ərcəhül Mətalib» kitabında bu hədisi Əbu Hüreyrədən nəql edibdir.

Beşinci hədisi «Şəvahidəttənzil»də Əbdürrəhman ibn Zeyddən, o da atasından nəql edir: «Siratilləzinə ən əmtə ələyhim» ayəsinin təfsirində buyurdu: «O yol peyğəmbər (s) və onunla olanlar, Əli (ə) və onun şiələridir».

Şiə mənbələrində də bu barədə bir çox rəvayətlər vardır. Onlardan birində imam Sadiq (ə) buyurur: «Yəni Mühəmməd (s) və onun zürriyyələri».

Bütün bu hədislərdən belə bir qənaətə gəlmək olur ki, «Siratəl müstəqim» ayəsinin ən aydın misdaqı (şamil olduğu şəxs) peyğəmbər (s), Əli (ə) və onun

məsum övladları ki, həzrəti Fatimədən dünyaya gəliblər. Hər kəs də onların yolu ilə gedərsə, düzgün yol tutubdur. O yol da onu aparıb Allaha yaxınlaşdıracaq və pisliklərdən uzaq edəcək.

Yeri gəlmişkən bir rəvayəti diqqətinizə çatdırmaq yerinə düşərdi.

Çox qədim zamanlarda Ismail adında bir peyğəmbər olub. Bəzi alimlərin nəzərincə o, Həzrəti Ibrahimin oğlu Ismail olub.Bəziləri isə onun başqa bir Ismail olduğunu iddia edirlər. Bu peyğəmbərin ləqəbi «Sadiqəl və'd» (vədəsinə əməl edən) olubdur. Ümməti o peyğəmbərə çox zülmlər ediblər, hətta onun üzünün dərisini də soyublar. Ondan soruşandakı nə üçün bu zalımlar üçün Allahdan bəla istəmirsən, cavabında buyurub: «Axirəzzaman peyğəmbərin Hüseyn adında bir nəvəsi olacaq. O, peyğəmbərdən sonra imamət məqamına yetişəndə peyğəmbərin ümməti ona mənim ümmətimin mənə verdiyi əzablardan qat-qat artıq əzab verəcəklər. Amma o, ümmət üçün Allahdan bəla istəməyəcək. Mən də onun kimi bu ümmətə bəla istəmirəm.

Diqqət edin! Çox qədim zamanlarda olan peyğəmbərlər Əli (ə) və onun övladlarını öz ümmətləri üçün nümünə göstəriblər və onlarla fəxr ediblər. Biz nə üçün, bu cür fəzilətli adamlar olduğu halda, başqalarının ardınca getməliyik?

Yuxarıda qeyd etdiyimiz o müsibətlər ki, bu gün ona əzadar olanların ünvanına cürbəcür sözlər deiyirlər,görək Azərbaycanın görən gözü olan Mirzə Ələkbər Sabir necə qiymət veribdir:

Islamımızı etməliyiz böyləmi ehya?

Imanımızı qılmalıyız böyləmi ifa?

Islam o deyilmi ki, Cigərguşeyi-Zəhra,

Baş verdi yolunda susuz al-qan arasında!

Yaxud Hindistan azadlıq hərəkatının başçısı Maxandes Karamçana Qandi, görün öz xalqına olan müraciətində nə deyib:

Mən bütün dünyanı nəzərdən keçirərək, müstəmləkə caynağından qurtarmaq üçün sizə böyük bir ərməğan gətirmişəm. Bu ərməğan Iraqın Kərbəla şəhərində azadlıq sevərlərin qibləsinə çevrilmiş Imam Hüseyn əleyhissəlamın böyük şəhidlik məktəbidir. Əgər azad olmaq və zülmə qalib gəlmək istəyiriksə, hər bir şeyimizdən keçməyə hazır olmalıyıq».

Bu Sabirimiz, o da əcnəbi olan Qandi. Hamıdan artığı isə peyğəmbərlərin, xüsusən də axırıncı peyğəmbər olan həzrəti Mühəmməd (s)-in bizə təyin etdiyi yol. Bunlar həqiqəti və düzgün olan yolu tapmaqda və o yol ilə arxayınçılıqla gedib səadətə çatmaqda bizə kifayət etmirmi? Nə üçün biz özümüzü çətinliyə salmağa meyilliyik? Bəlkə bu çətinilklərə düşməyimizdə başqalarının marağı vardır və biz də o maraqların qurbanı olmuşuq və olmaqda davam edirik.

Həzrəti peyğəmbər (s) buyurur: «Ən bədbəxt adam odur ki, axirətini dünyaya satır. Ondan da bədbəxti odur ki, axirətini başqasının dünyasına satır».

Böyük yaradan bizə kömək olsun ki, başqalarının dünyasına öz axirətimizi qurban verməyək. Həqiqət yolunu düzgün tapıb, əbədi xoşbəxtliyə çataq.

Həzrəti Adəmin (ə) tövbəsinin qəbul olması

«Bəqərə» surəsinin 37-ci ayəsində həzrəti Adəmin tövbəsinin qəbul olunmağından bəhs edilir. O vaxt ki, həzrəti Adəm «tərki övla» (bir iş ki, peyğəmbərlərdən baş verməsə yaxşıdır) etdi, Allah-taala ilə əlaqəsi kəsildi. Bir müddət bu cür davam etdikdən sonra o, Allah tərəfindən bəzi kəlmələri qəbul edib onların vasitəsinə tövbə etdi. Bir qədər mövzudan kənar da olsa qeyd etməliyik ki, Adəmin tövbəsi bizim təsəvvür etdiyimiz tövbələrdən deyildi. Çünki bizim etdiyimiz tövbələr, günahdan edilən tövbədir. Amma həzrəti Adəm günah etməmişdi. Günah o işə deyirlər ki, onda şəriət qanunu pozulmuş ola. Adəm (ə)-a isə o yerdə şəriət nazil olmamışdı. Sadəcə olaraq Allah-taala ona məsləhət görməmişdi ki, o ağacın meyvəsindən yesin. Bəziləri deyirlər Allah əmr etmişdi. Doğrudur, amma bu əmrə əmri irşadi deiyrlər ki, onu əmələ gətirmək vacib deyil. O əmr məsləhət xarekteri daşıyır. Bunlardan əlavə əqli dəlillərimiz də vardır ki, peyğəmbərlərin günahsızlığına dəlalət edir. Sual oluna bilər, əgər Adəm əmrdən çıxmamışdısa, onda Allah-taala nə üçün onu cəzalandırdı? Belə cavab vermək olar ki, bəzi işlərin hikməti Allah yanındadır. Bəlkə də bu özü bizlərə bir örnək idi ki, hətta mənim peyğəmbərim də məsləhətdən çıxarsa cəzasını çəkməlidir. Bəlkə də başqa səbəblər vardır ki,

məqsədimiz onları müzakirə etmək deyildir. O ki, qaldı tövbə sözünə, Allah-taala özü də tövbəni bəzi yerlərdə özünə nisbət veribdir. Məsələn, elə sözü gedən ayədə deyilir: «Allah Adəmin tövbəsini qəbul etdi. Çünki Allah tövbə edən və rəhimlidir». Bu tövbə bəndəyə tərəf rəhmət qapısını açmaq mənasınadır. Odur ki, Allahın tövbəsi, peyğəmbərlərin tövbəsi və bizim kimi adi insanların tövbəsi müxtəlif mənalar daşıyır. Biz də gərək belə məsələlərdə diqqətli olaq ki, səhvə düşməyək.

Qayıdaq əsas mövzumuza. Həzrəti Adəmin Allah-taala ilə əlaqəsi yenidən bərpa olundu. Bu bərpa olmağa bəzi kəlmələr səbəb oldu. Daha doğrusu bu kəlmələrin köməyi ilə Allah və Adəmin əlaqələri yarandı.

Ayə belədir: فَتَلَقَّى آدَمُ مِن رَّبِّهِ كَلِمَاتٍ فَتَابَ عَلَيْهِ إِنَّهُ هُوَ التَّوَّابُ الرَّحِيمُ

«Adəm (ə) Allah ilə bəzi kəlmələrin köməyi ilə rabitə yaratdı və Allah da onu qəbul etdi. Çünki, Allah qəbul edən və rəhm edəndir».

Bu kəlmələrin hansı kəlmələr olması haqqında təfsirçilər arasında fikir müxtəlifliyi vardır. Bəziləri bunun «Əraf» surəsinin 23-cü ayəsindəki kəlmələr olduğunu ehlimal verirlər. «Ilahi, biz özümüzə zülm etmişik. Əgər sən bizi bağışlamasan və rəhm etməsən ziyankarlardan olarıq».

Bəzləri də bunu dua kimi qəbul edirlər. Amma həzrəti peyğəmbər (s) və səhabələrdən bir çox rəvayətlər vardır ki, bu kəlmələr həzrəti Adəmin Mühəmməd (s), Əli (ə), Fatimə (s.ə), Həsən və Hüseyn əleyhissəlamlara and verməyindən ibarətdir.

Süyuti «Dürrül Mənsur» kitabında bu ayənin təfsirində ibni Abbasdan nəql edərək yazır: Ibni Abbas deyir: Mən peyğəmbər (s)-dən soruşdum: bu kəlmələr hansı kəlmələrdir ki, ya Rəsulallah, Adəm onun vasitəsilə Allah-taala ilə rabitə yaratdı? Həzrəti peyğəmbər (s) buyurdu: «Adəm Allahı Mühəmməd (s), Əli, Fatimə, Həsən və Hüseyn həqqinə and verdi, Allah da qəbul etdi».

Həmən kitabda Əli (ə)-dan nəql edərək yazır ki, həzrət buyurdu: Mən həzrəti peyğəmbər (s)-dən bu ayənin təfsiri barədə soruşdum. Həzrət buyurdu: Allah Adəmə əmr etdi ki, desin: «Ilahi, Mühəmməd və Ali-Mühəmmədin həqqinə səni and verirəm……» Sonra peyğəmbər (s) buyurdu: Bəli, bu kəlmələrlə Adəm Allah-taala ilə rabitə yaratdı.

Bu hədisin ardınca gələn hədisdə o biri ehtimal olunan kəlmələr də qeyd olunubdur. Odur ki, əvvəldə dediyimiz ehtimalların hamısını Adəmin kəlmələrində cəm olmağının bir-biri ilə heç bir ziddiyyəti yoxdur.

Ibni Məcazəli özünün «Mənaqib» kitabında belə bir hədisi Səid ibni Cüneyrdən, o da Ibni Abbasdan nəql etdiyini qeyd edibdir.

Əllamə Qənduzi «Yənabeül məvəddə kitabında, Beyhəqi «Dəlailünnübüvvə» kitabında, Bədəxşi «Məfateh ənnəcah», Əbdüllah Şafei «Mənaqib» kitabında bu hədisi qeyd ediblər.

Bu hədislərdə qeyd olunan fəzilətləri çox da sadə fəzilətlər hesab etmək olmaz. Çünki, yer üzünün ilk insanı öz mövqeyini Allah yanında bərpa etmək istəyəndə Allah

ona əmr edir ki, bu insanları vasitəçi qərar ver, onlara xatir mən də sənlə əlaqə yaradım. Budur böyük fəzilət və budur dünya və axirətdə şəfaətçi olmağın mənası. Bəziləri şəfaət mövzusundan bəhs edərkən onu bütpərəstlik və başqa pis əməllər ilə əlaqəli bir əməl kimi qələmə vermək istəyirlər. Amma çox böyük səhvə yol verirlər. Çünki, ayənin təfsirində qeyd olunan hədislərdən məlum oldu ki, Allah-taala özü Adəmə əmr etdi ki, bu şəxsiyyətləri vasitəçi qərar ver. Bu şəfaətçiliyin bünövrəsini Allah-taala özü bərpa edibdir. Burada heç bir xoşagəlməz əməl yoxdur. Sadəcə olaraq bunu iddia edən insanlar bu şəxsiyyətlərin belə böyük fəzilətlərinin qarşısında davam gətirib qəbul etmək iqtidarında deyillər. Ona görə də belə sözlər danışırlar. Qoy danışsınlar. Min illərlə bu danışıqlar heç kimin fəzilətinə kölgə sala bilməyib, bundan sonra da sala bilməyəcək. Ancaq onlar özlərini bu şəfaətdən uzaq salacaqlar.

Həsənə ayəsi

«Nəml» surəsinin 89-cu ayəsində oxuyuruq:

مَن جَاء بِالْحَسَنَةِ فَلَهُ خَيْرٌ مِّنْهَا وَهُم مِّن فَزَعٍ يَوْمَئِذٍ آمِنُونَ

«Yaxşı iş (həsənə) əmələ gətirənlər ondan yaxşısı ilə mükafatlanacaqlar və qiyamət gününün vəhşətindən amanda qalacaqlar».

Bu ayədəki «həsənə» kəlməsinin geniş məfhumu vardır və bütün yaxşı əməllərin hamısına şamil olur. O əməlin sahiblərinə Allah-taala ondan da yaxşı

mükafat verəcək. Bu mükafatlardan ən yüksəyi, böyük qorxu hesab edilən qiyamət gününün qorxusudur ki, ondan da amanda qalacaqlar.

Bəzi rəvayətlərdə Əhli-beytə məhəbbət etməyi böyük həsənə hesab edirlər və göstərirlər ki, əhli-beytə məhəbbət etmək qiyamət gününün qorxusundan aman verən ən böyük vasitədir. «Şəvahidəttənzil» kitabında bu məzmunda bir neçə rəvayət qeyd edilib ki, hamısı da bu ayədəki «həsənə» kəlməsinin əhli-beyti məhəbbət etmək mənasına dəlalət edir. O cümlədən Əbu Əbdullah Cəfli Əli (ə)-a istinad edərək nəql edir ki, həzrət mənə dedi: Istəyirsən bu ayənin təfsirini sənə izah edim? Dedim: Bəli, ya əmirəlmöminin. Imam buyurdu: «Həsənə» bizə məhəbbət etmək, «səyyiə» (pis iş)-bizi düşmən tutmaqdır.

Eynilə bu mənalı başqa bir hədisdə də qeyd edir ki, həzrət buyurdu: Istəyirsən sənə «səyyə»-ni (pis iş) xəbər verəm ki, kim onu əmələ gətirsə Allah-taala onu üzü üstə cəhənnəmdə yandıracaq? Dedim: Bəli.

Həzrət Əli (ə) buyurdu: «Kim bizimlə ədavət etsə Allah onu üzü üstə cəhənnəmdə yandıracaq». Sonra da həzrət, «Nəml» surəsinin 90-cı ayəsini oxudu.

Əbu Əmamə Bahili peyğəmbərin (s) səhabələrindəndir. «Əsədül Qayə» kitabının yazdığına görə o, peyğəmbər (s) səhabələrini axırıncısı idi ki, hicrətin 81-ci ilində Şam şəhərində vəfat etmişdir. O, peyğəmbər (s)-dən nəql edir ki: Həzrəti peyğəmbər (s) buyurdu: «Allah-taala peyğəmbərləri müxtəlif ağaclardan yaratdı. Mənimlə Əlini isə eyni bir ağacdan yaratdı. Mən həmən ağacın köküyəm, Əli onun

budağıdır. Həsən və Hüseyn onun meyvələridir. Bizim şiələrimiz onun yarpaqlarıdır. Hər kəs bu budaqlardan birinə əlaqə tapsa, nicat tapacaq. Hər kim münhərif olsa, süqut edəcək. Əgər bir şəxs Allaha min il ibadət edə, sonra yenə min il ibadət edə, sonra yenə min il ibadət edə, əgər bizə məhəbbəti olmazsa Allah-taala onu üzü üstə cəhənnəmə atacaq». («Şəvahidəttənzil» - I cild səh.428, hədis 588).

Əllamə Qunduzi «Yənabeül məvəddə» kitabının 98-ci səhifəsində birinci hədisi nəql edərək belə tamamlayır: «Həsənə» bizə məhəbbət etmək, «Səyyiə» bizimlə ədavət etməkdir.

Həmin kitabda Ibni Nəsirdən, o da imam Sadiq (ə)-dan nəql edərək yazır : «Hər kəs istəyə yaxşı işinin müqabilində ondan da yaxşısını qazana və qiyamət gününün böük qorxusundan amanda qala, gərək bizim vilayətimizi qəbul edib bizə məhəbbət etsin».

Müfəssirlərin böyük bir qismi bu məzmunda olan hədisləri «Şura» surəsinin 23-cü ayəsinin təfsirində də qeyd ediblər. O cümlədən Suyuti «Dürrül Mənsur» da Ibni Əbi Hatəmdən, o da Ibni Abbasdan nəql edir ki, «məvəddət»-yəni «Ali-peyğəmbərə məhəbbət etmək».

Alusi «Ruhul məani» kitabında bu ayənin təfsirində yazır: Bu hədis eyni mənada ibni Abbasdan və Səddidən rəvayət olunubdur. Sonra əlavə edir: Ali-rəsula məhəbbət etmək, ən böyük «həsənədir». Bu da «həsənə» ünvanı ilə həmən ayədə birinci cərgədə varid olubdur. («Ruhulməani»-cild 25, səh.31).

Şəbləncı «Nurul Əbsar» kitabında qeyd edir ki, bu hədis, səhih hədislərdəndir ki, peyğəmbər (s) buyurdu: «And olsun Allaha, əgər əhli-beytimin məhəbbəti bir qələbə daxil olmasa, o qəlbə iman daxil olmaz». («Nurul əbsar»-səh.126).

Bu məhəbbətlər adi məhəbbət deyildir. Çünki bu məhəbbətlər namaz kimi bir ibadətin qəbul olunmağında, qiyamət gününün böyük qorxusundan qurtulmaqda şərtdir. Odur ki, diqqət etmək lazımdır; bu hədislərlə höccət bizə tamamlanıbdır. Daha bunları imam kimi qəbul etməməyə bizim üzrümüz qalmayıbdır. Məbadə sabah peşiman olanlardan olaq.

Məhəbbət ayəsi

«Maidə» surəsinin 54-cü ayəsində oxuyuruq:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ مَن يَرْتَدَّ مِنكُمْ عَن دِينِهِ فَسَوْفَ يَأْتِي اللّهُ بِقَوْمٍ يُحِبُّهُمْ وَيُحِبُّونَهُ أَذِلَّةٍ عَلَى الْمُؤْمِنِينَ أَعِزَّةٍ عَلَى الْكَافِرِينَ يُجَاهِدُونَ فِي سَبِيلِ اللّهِ وَلاَ يَخَافُونَ لَوْمَةَ لآئِمٍ ذَلِكَ فَضْلُ اللّهِ يُؤْتِيهِ مَن يَشَاء وَاللّهُ وَاسِعٌ عَلِيمٌ

«Ey iman gətirənlər, sizdən kim öz dinindən dönsə Allaha heç bir ziyanı dəyməyəcək. Allah-taala gələcəkdə bir cəmiyyəti gətirəcək, (Allah) onları sevəcək, onlar da Allahı sevəcəklər. Onlar möminlərə qarşı təvazökar, kafirlərə qarşı qüdrətlidirlər. Onlar Allah yolunda cihad edərlər. Məzəmmət edənlərin

məzəmmətindən qorxmazlar. Bu Allahın fəzilətidir, istədiyi adama verər. Allahın fəziləti geniş, Allah-taala alimdir».

Peyğəmbər (s)-in dövründə bir dəstə adam yəhudi və məsihilərin hiyləsi ilə Islamdan çıxdılar. Onları yəhudi və məsihilər öyrətdilər ki, siz gedin yalandan islamı qəbul edin. Sonradan elan edin ki, biz islamdan çıxdıq. Bu üsul ilə onlar istəyirdilər ki, həm islama zərbə vursunlar, həm də həqiqi müsəlmanları məyus etsinlər. Odur ki, Allah-taala buyurur: Bu təzə islama gələnlərdən bir dəstəsinin islama arxa çevirmələri, islama heç bir zərər yetirməz. Allah-taala bir dəstə xüsusi sifətə malik olan insanların vasitəsilə bu dini qoruyub saxlayacaq.

Sonra onların xüsusiyyətlərini sayır: Cihad edərlər, Allahı sevərlər, Allah da onları sevər, möminlərə qarşı təvazökar, kafirlərə qarşı mübariz və barışmazdırlar. Heç kimin də məzəmmətindən qorxmurlar.

Bəli, bu qədər gözəl sifətlərin bir adamda cəm olması ilahi bir fəzilətdir.

Bu ayənin də mənası genişdir. Amma bizə gəlib çatan rəvayətlərdən bəlli olur ki, bu ayənin əsas nümunəsi Əli (ə)-dır.

Fəxri Razi bu ayəni təfsir edərkən müfəssirlərin nəzərlərini qeyd edəndən sonra belə yazır: «Müfəssirlərin çoxu deyir ki, bu ayə Əli (ə)-ın haqqında nazil olubdur».

Sonra təfsirçilərin sözünə qüvvət vermək üçün o, iki mətləbə işarə edir:

A) Peyğəmbər (s) xeybər günü bayrağı Əli (ə)-a verməzdən qabaq buyurdu: «Sabah bayrağı o adama verəcəyəm ki, o, Allahı və onun rəsulunu sevir, Allah və

rəsulu da onu sevir». Müəllif deyir, bu həmən sifətdir ki, Allah yuxarıda qeyd olunan ayədə buyurub.

B) «Vilayət» ayəsini qeyd edibdir. Bu ayə də Əli (ə)-ın haqqında nazil olub. Biz bu ayənin və Xeybər müharibəsinin hadisəsini bu kitabda qeyd etmişdik.

Bu hədisi bir çox mühəddislər öz kitablarında yazıblar. Onlardan biri də Hakim Nişaburidir ki, «Müstədrəküs-səhiheyn» əsərində üç yerdə bu hədisə işarə edibdir. Bunlardan birini Ibni Abbasdan nəql edərək deyir: Bir dəstə adam Əli (ə)-ın haqqında xoşagəlməz sözlər danışırdılar. Ibni Abbas onlara acıqlanıb dedi: vay olsun sizə, bir kişinin barəsində danışırsız ki, onun 12-dən çox fəziləti vardır, ondan başqa heç kimdə bu fəzilətlər yoxdur.

Başqa bir hədisdə Səd ibni Əbi Vəqqasın oğlu Amirdən nəql edir ki, Amir deyir: Bir gün Müaviyə atama dedi: Nə üçün Əlini səbb (nalayiq söz demək) etmirsən? Atam da cavabında dedi: Allahın rəsulu onun haqqında söylədiyi üç fəzilət, yadıma düşür. Əgər bunlardan biri məndə olsaydı, dünyanın ən qiymətli əşyasından mənim üçün üstün olardı. Müaviyə o üç şeyin nə olduğunu xəbər aldıqda atam dedi: Birinci «Kəsa» hədisinin cərəyanı, ikinci «mənzələt» hədisi, üçüncüsü isə Xeybər hadisəsidir. (Bunların barəsində gələcəkdə işarə olunacaq, inşaallah).

Sələbi öz «təfsirində» bu ayənin Əli (ə)-a aid olduğunu yazır. Eyni zamanda «Kənzül ümmal» kitabının müəllifi də bunu öz əsərində qeyd etmşidir.

«Əl müstədrək ələssəhiheyn» kitabında belə yazılıb: Ənəs peyğəmbər (s)-in xidmətçisi idi. Peyğəmbər (s)-dən sonra o uzun ömür yaşamışdı. Xəstə halında yataqda idi. Mühəmməd ibni Həccac bir dəstə adamla onün görüşünə gəlmişdilər. Çox söhbətdən sonra Əli (ə) barəisində danışıldı. Həccacın oğlu Əli (ə)-ı təhqir etdi. Ənəs əsəbləşərək dedi: Məni oturdun.

Onu əyləşdirdilər. O, bu sözü deyənin kim olduğunu soruşdu. Dedilər Mühəmməd ibni Həccacdır. Ənəs ona dedi: Nə üçün belə danışırsan? And olsun Allaha, mən peyğəmbərə (s) xidmət edirdim. Bir gün Ümmü Əymən quş bişirib gətirmişdi. Peyğəmbər (s) buyurdu: Ilahi, sənin və mənim yanımda ən sevimli olan adamı yetir, mənimlə bu əti yesin. Bu halda qapı döyüldü və Əli (ə) daxil olub bu ətdən yedilər.

Ibni Həccac dedi: Ənəs, bunu sən öz gözlərinlə gördün?

Ənəs Allaha and içərək öz sözlərini təsdiq etdi. Mühəmməd ibni Həccac orada Allah ilə əhd etdi ki, bundan sonra belə sözlər danışmayacaq və bu cürə sözlərdən kim danışsa onunla mübarizə edəcək.

Bu yuxarıda qeyd etdiyimiz hədis «hədisi Teyr» adı ilə Islam mənbələrində məşhurdur.

Termizi «Səheh Termizi» kitabında bu hədisi qeyd etmişdir. Əllamə Gənci Şafei «Kifayətütalib» kitabında bu hədisi nəql edəndən sonra deyir: Bu hədis aşkar surətdə Əli (ə)-ın Allah və rəsulu yanında ən sevimli adam olmasına sübutdur. Bu

mətləbə ən yaxşı sübut odur ki, Allah-taala burada peyğəmbər (s)-in duasını qəbul etdi. Ona görə də Allaha yaxınlaşmağın ən yaxşı yolu Əli (ə)-a məhəbbət etməkdir.

Bu hədisi Zəhəbi «Müstədrək» kitabının haşiyəsində çap olunmuş «Təlxisül Müstədrək» kitabında yazıbdır.

Əllamə Nəcayi özünün «Xəsais» kitabında bu hədisi qeyd edibdir.

Ümumiyyətlə bu hədisi öz kitablarında yazanlardan bəziləri də aşağıda adları qedy olunan alimlərdir: Səbt ibni Cuzi «Təzkirə» kitabında, Ibni Əsir «Əsədül Qabə» kitabında, ibni Məsud Şafei «Məsabehüssünnə» kitabında, Mühibüddin Təbəri «Zəxairül Üqba» kitabında, Şeyx Süleyman Qunduzi «Yənabeül məvəddə» kitabında və başqaları.

Ibni Əsir müxtəlif yollarla bu hədisi nəql edəndə bir neçə nəfərin adını çəkir ki, onlar peyğəmbərin (s) bu sözünü eşidib gəldilər, amma peyğəmbər (s) onlara icazə vermədi həmən yeməkdən yesinlər.

Bu hədis islam mənbələrində mütəvatir həddini keçibdir. Onların sənədində heç bir müşkül yoxdur. Qalır insanların özlərinə ki, onlar inadkarlığı kənara qoyub, səmimiyyətlə bu fəzilətləri qəbul edib Əli (ə)-a məhəbbət etsinlər və bu məhəbbət onları Allaha yaxınlaşdırsın.

Məsulun ayəsi

«Saffat» surəsinin 24-cü ayəsində oxuyuruq:

وَقِفُوهُمْ اِنَّهُمْ مَسْؤُلُون

«Onları (zalımları) saxlayın, onlardan sorğu olunacaq».

Bu ayədə nəzərdə tutulan sorğu nədir? Təfsirçilər arasında bu ayə haqqında fikir müxtəlifliyi vardır.Bəziləri onların qoyduğu bidətlərdən (dində olmayan bir məsələni dini məsələ kimi qanuna salmaq), bəziləri günah və pis əməllərindən, bəziləri də həmin sorğunun tövhid olduğunu qeyd edirlər. Bütün bu deyilənlərin ayənin mənasına daxil etməyin heç bir maneəsi yoxdur. Bunların hamısı ayənin məfhumunda ola bilər. Amma çox sayda rəvayətlər vardır ki, bu sorğuların Əli ibni Əbutalibin vilayət və imaməti olduğunu göstərir.

«Şəvahidəttənzil» kitabında iki yolla Əbu Səid Xudridən, o da peyğəmbər (s)-dən nəql edir ki, peyğəmbər (s) bu ayənin təfsirində buyurdu: «Əli ibni Əbutalibin vilayətindən soruşacaqlar».

Başqa bir hədisdə Səid ibni Cübeyr ibni Abbasdan nəql edir: Peyğəmbər (s) buyurdu:

«Qiyamətin günündə mən və Əli Sirat körpüsünün üstündə dayanıb oradan keçənlərdən Əlinin vilayətindən sual edəcəyik. Hər kimin bu vilayətə imanı oldu, körpüdən keçəcək, hər kimin bu vilayətə imanı olmadı onu cəhənnəmə atacağıq. Budur həmən ayənin mənası».

Bu hədisə bir əlavə də etmək istərdik ki, o da Quran ayəsidir. Buyurur: «Siz ikiniz cəhənnəmə atın bütün inadkar kafirləri».

Bu ayənin təfsirində yazırlar ki, o iki nəfərdən məqsəd, Həzrəti Peyğəmbər (s) və Əli (ə)-dır.

Hakim Həsəkani bu kitabda həmən hədisi bir başqa yol ilə nəql edibdir.

Ibni Həcər «Səvaiq» kitabında bu hədisi Əbu Səid Xudridən nəql edibdir.

Sünnülərin dörd imamından biri olan Əhməd Hənbəli «Müsnəd» kitabında bu hədisi qeyd edərək yazır: Qiyamət günündə Əli ibni Əbutalibin vilayətindən sual edəcəklər.

Izzüddin Hənbəli «Kəşfülcummə» kitabında, Alusi öz «təfsirində», Səbt ibni Cuzi «Təzkirə» kitabında, Şeyx Süleyman Qunduzi «Yənabeül Xisan» kitabında və bir çox başqa kitablarda bu hədisi qeyd ediblər. Bəziləri bu hədisin Əli (ə)-ın vilayəti, bəziləri də «Əhli-beytin» vilayəti olduğunu yazıblar.

Onu da qeyd etmək lazım gəlir ki, bu ayənin məfhumu təkcə o deyil ki, fəqət Əli (ə)-ın vilayətindən sual olunacaq. Bir çox əməllərdən soruşulacaq ki, onlardan da ən başlıcası imamət məsələsidir.

Əgər namaz islam dininin zəruri bir əməlidirsə və hədisin qeyd etdiyinə görə bu əməldən sorğu-sualın əvvəl hissələrində soruşulacaqsa, onda bir imamət ki, Allah onu təkcə namazı deyil, bütün namaz kimi ibadi, fərdi, ictimai, siyasi, iqtisadi və nizami işlərin başında dayanan qərar veribsə, insanları dünyada kamilləşdirməyə,

axirətdə isə səadətə çatdırmağa təyin edibdirsə, onda o imamətdən daha çox təkidlə soruşulacaqdır. Bu sözümüzü də Ibni Abbasdan nəql olunan məşhur bir hədislə tamamlayaq. O deyir: Nə vaxt, Qur'anda «Ey iman gətirənlər» kəlməsi nazil oldu, Əli (ə) o sözün seyyidi, şərafətlisi və əmiri oldu. Quranda əshabdan çoxlarına, bəzi işlərinə görə, Allah tərəfindən xəbərdarlıq olundu. Fəqət Əli (ə)-a bu xəbərdarlıq olunmadı. Çünki buna ehtiyac olmadı. Qur'ani Kərimdə Əli (ə)-ın fəzilətləri haqqında nazil olan ayələr, heç bir şəxsin haqqında nazil olmayıbdır. Üç yüz ayə Əli (ə)-ın haqqında nazil olubdur».

Bu hədis də bir çox sünnü və şiə mənbələrində varid olubdur. O cümlədən Əbu Nəim Isfəhani «Hilyətül övliya» kitabında, Mühibbüddin Təbəri «Zəxairül Üqba» kitabında, Əllamə Gənci Şafei «Kifayətüttalib» kitabında, Səbt ibni Cüzi «Təzkirə» kitabında, Şəblənci «Nurul Əbsar» kitabında, Heysəmi «Səvaiq» kitabında, Suyuti «Tarixi Xüləfa» da və Qənduzi «Yənabeül Məvəddə» kitabında bu hədisi qeyd edibdir.

Infaq ayəsi

«Bəqərə» surəsinin 274-cü ayəsində oxuyuruq:

الَّذِينَ يُنفِقُونَ أَمْوَالَهُم بِاللَّيْلِ وَالنَّهَارِ سِرًّا وَعَلاَنِيَةً فَلَهُمْ أَجْرُهُمْ عِندَ رَبِّهِمْ وَلاَ خَوْفٌ عَلَيْهِمْ وَلاَ هُمْ يَحْزَنُونَ

«Onlar ki, öz mallarını gecə, gündüz, gizlin və aşkar infaq edirlər, əcirləri Allah yanındadır. Onlar üçün nə qorxu, nə də ki, qəm vardır».

Şəkk yoxdur ki, bu ayənin də məfhumu ümumidir. Yəni bütün insanları Allah yolunda gizlin və aşkar surətdə infaq etməyə çağırır. Amma çoxlu rəvayətlər vardır ki, bu ayənin kamil nümunəsinin Əli (ə) olduğunu göstərir. Bu ayənin şən'i nüzulunda (nazil olma səbəbi) rəvayət olunan hədislər məhz həmən ayənin əvvəldə Əli (ə)-ın barəsində nazil olmasına dəlalət edir.

Ibni Abbas deyir: Bu ayə Əli (ə)-ın haqqında nazil olub. Əli (ə)-ın dörd dirhəm pulu var idi. Ondan birini gecə, birini gündüz, birini gizli, birini isə aşkar nəfəqə etdi. Həzrəti Peyğəmbər (s) ondan soruşdu: Nə üçün belə etdin? Cavabında Əli (ə) dedi: istədim Allahın mənə verdiyi vədəni yerinə yetirəm. Peyğəmbər (s) buyurdu: «Agah ol bu vədə sənin barəndə həqiqətə yetişdi» və bu zaman bu ayə nazil oldu.

Hakim Həsəkani «Şəvahidəttənzil» kitabında bu hədisi və bundan əlavə 7 hədis də bu məzmunda müxtəlif yollarla qeyd edibdir.

Süyuti də «Dürrül Mənsur» kitabında həmən hədisi müxtəlif yollarla qeyd edərək bu ayənin Əli (ə)-ın haqqında nazil olmasını göstərir.

Mubibbuddin Təbəri «Zəxairül üqba» kitabında, Səbt ibni Cuzi «Təzkirə» kitabında, Əllamə Gənci «Kifayətüttalib» kitabında, Qirtəbi öz təfsirində və bir çox başqaları bu hədisi eyni məzmunda bir-birindən bir qədər fərqli qeyd ediblər. O cümlədən Şəbləncı «Nurul Əbsar», Şeyx Süleyman Qənduzi isə «Yənabeül

məvəddə» kitabında bu hədisləri nəql ediblər. «Fəzailül xəmsə» kitabının müəllifi bu hədisi öz kitabında bir başqa dəstədən nəql edibdir. Eyni zamanda Ibni Əsir «Əsədülğabə» kitabında, Ibni Hacər «Səvaiqül möhriqə» kitabında, Vahidi isə «Əsbabunnüzul» kitabında bu hədisi qeyd edibdir.

Ibni Əbilhədid Mötəzili «Həl-əta» surəsinin ayələrinə işarə edərək Əli (ə)-ın fəzilətindən danışır və bu ayəni nümunə gətirərək bir neçə hədis qeyd edərək deyir: bu hədislər göstərir ki, bu məsələ təfsirçilər arasında ittifaq olunmuş bir məsələdir.

«Əhzab» surəsinin 56-cı ayəsində buyurulur:

إِنَّ اللَّهَ وَمَلَائِكَتَهُ يُصَلُّونَ عَلَى النَّبِيِّ يَا أَيُّهَا الَّذِينَ آمَنُوا صَلُّوا عَلَيْهِ وَسَلِّمُوا تَسْلِيمًا

«Allah-taala və onun mələkləri peyğəmbər (s)-ə salam göndərirlər. Ey iman gətirənlər, siz də ona salam göndərin və əmrinin qarşısında təslim olun».

Bu ayə peyğəmbər (s)-in məqamının nə qədər uca və əzəmətli olduğuna işarə edir. Daha doğrusu o həzrətin məqamının aliliyini çox aydın və aşkar surətdə açıqlayır. Doğrudan da bir adama Allahın və müqərrəb mələklərin salam göndərməsi, eləcə də möminlərə ona salam göndərilməsi Allah tərəfindən əmr olunması, çox ali bir məqamdır, hansı məqam və rütbə bundan uca ola bilər?

Qeyd olunduğu kimi bu ayədə peyğəmbərə (s) salam verməkdən bəhs olunur. Amma bir çox hədis və rəvayətlər vardır ki, onları oxuyanda görürük ki, peyğəmbər (s) əhli beytini də özü ilə birlikdə salamlamağı bizə əmr edibdir. Yəni mənə salam göndərəndə mənim «Ali»mə də (əhli-beytimə) salam göndərin. Deməli peyğəmbər (s)

belə bir əmri bizə edibsə, onda bu Allahın və mələklərin salamı həm peyğəmbərə (s) şamil olur, həm də onun əhli beytinə. Bu da adi bir iş deyil. Bu onu göstərir ki, onların da peyğəmbərin (s) ardıyca gedən məqamları vardır. Peyğəmbərin (s) məmuriyyəti kimi məmuriyyətləri vardır. Yoxsa bu qədər uca bir məqam, təkcə peyğəmbərlə (s) qohum olduqlarına görə onlara şamil ola bilməz. Əgər belə olardısa peyğəmbərin (s) Əbuləhəb və başqaları kimi qohumları Allah tərəfindən lənətlənməzdilər. Deməli bu məqam, onların öhdəsinə düşən vəzifənin böyüklüyündə və onların bu vəzifəyə layiqli əməl etmələrinin müqabilindədir.

Indi söhbət açmaq istədiyimiz hədisdə, peyğəmbərin işlərini həyata keçirtmək üçün hansı şəxsə tapşırdığı bəlli olacaq.

Hədisin sənədləri (kimlər tərəfindən nəql olunması) əvvəllərdə qeyd olunduğundan biz istərdik ki, ancaq hədisin özünə müraciət edək. Onun adına «Hədisi mənzələt» deyilir.

Həzrəti peyğəmbər (s) Əli (ə)-a buyurdu: «Sənin mənə olan nisbətin eyni ilə Harunun Musaya olan nisbətidir. Fərq ondadır ki, məndən sonra peyğəmbər yoxdur».

Diqqət yetirin. Həzrəti Musanın bütün vəzifəsi və işləri Harun (ə)-a tapşırıldı. Həzrəti peyğəmbər (s) buyurur: Sən də mənim qardaşımsan, canişinim və xəlifəmsən, mənim vədlərimi sən yerinə yetirəcəksən və bircə sənə peyğəmbərlik çatmayacaq. Çünki mən xatəmünnəbiyyinəm (sonuncu peyğəmbər!).

Deməli peyğəmbərdən (s) sonrakı işlərin hamısı, ən başlıcası da ümmətə rəhbərlik, ona (Əli (ə)-a) tapşırılıb. Ona görə də Həzrəti Mühəmməd (s)-in özünə göndəriləsi salavat və salam onun Əhli-beytinədə göndərilir.

Gəlin indi də bu ayənin təfsirində və dediyimiz bu sözlərin həqiqətində olan hədislərə diqqət edək. Bu, hədislərin əhli-sünnət mənbələrində rəvayət olunanlarını nəzərdən keçirək.

«Səheh Buxaridə» Əbu Səid Xudridən nəql olunur ki, biz həzrəti peyğəmbər (s)-dən soruşduq: «Ey Allahın peyğəmbəri sənə necə salavat göndərək?» Həzrət cavabında buyurdu:

«Deyin, Allah, salavat göndər bəndən və rəsulun Mühəmmədə və ali Mühəmmədə, necə ki, salavat göndərmisən Ibrahim və ali Ibrahimə. Ilahi, bərəkət göndər Mühəmməd və ali Mühəmmədə, necə ki, bərəkət göndərmisən Ibrahim və ali Ibrahimə».

Həmin kitabda və həmin səhifədə Kəb ibni Əczədən (məşhur səhabələrindəndir) daha geniş məzmunlu bir hədis qeyd olunub: «Ey Allahım, Mühəmməd və ali Mühəmmədə salavat göndər….» Onu da nəzərinizə çatdıraq ki, Buxari bu hədisləri yuxarıda qeyd etdiyimiz ayənin təfsirində qeyd edibdir.

«Səhih Müslüm» əhli-sünnət qardaşlarımızın ikinci ən böyük hədis mənbəyidir. Həmən kitabda Əbu Məsud Ənsaridən nəql olunur:

«Peyğəmbər (s) bizim yanımıza gəldi. Biz o zaman Səd ibni Übadənin məclisində idik. Səidin oğlu Bəşir ərz etdi: Ey Allahın peyğəmbəri (s), Allah bizə əmr edib sənə salavat-salam göndərək, bu salavat və salamı necə göndərək, onu bizə izah et. Həzrəti peyğəmbər (s) bir qədər sükut edərək buyurdu: Belə deyin:

«Ey mənim Allahım, salavat göndər Mühəmməd və ali-Mühəmmədə, necə ki, salavat göndərmisən Ibrahim və ali-Ibrahimə. Bərəkət ver Mühəmməd və ali-Mühəmmədə, necə ki, bərəkət vermisən Ibrahim və ali-Ibrahimə. Həqiqətən Sən həmd olunan və Qədimsən».

«Dürrül Mənsur» təfsirində də bu rəvayəti Buxaridən, Nəsaidən, Ibni Macədən və Ibni Mərdəviyyədən nəql ediblər. Həmən kitabda Əbu Məsud Ənsarinin sözlərini Termizidən, Nəsaidən və Ibni Mərdəviyyədən nəql edibdir. Yenə həmən hədisi bir miqdar fərqilə Malikidən, Əhməddən, Buxaridən, Müslimdən, Əbu Davuddan, Nəsaidən və ibni Macədən nəql edibdir.

Hakim Nişaburi «Müstədrək əla səhiheyin» kitabında Ibni Əbu Leylidən nəql edir ki, Kəb ibni Ücrə mənimlə rastlaşanda mənə dedi: Istəyirsən ki, peyğəmbər (s)-dan eşitdiyim bir sözü sənə hədiyyə edim? Dedim bəli, hədiyyə et. Dedi: Peyğəmbərdən (s) soruşduq sənə necə salavat göndərək? Həzrət buyurdu: «Ey Allahım, Mühəmməd və ali-Mühəmmədə salavat göndər, necə ki, Ibrahim və ali Ibrahimə salavat göndərmisən…»

Hakim bu hədisi yazandan sonra «Səqəleyn» hədisini, sonra da Əbu Hüreyrənin hədisini qeyd edibdir. Əbu Hüreyrənin hədisi belədir: Peyğəmbər (s) Əli, Həsən və Hüseynə baxıb dedi: «Həqiqətən mən sizinlə düşmən olana düşmənəm, sizinlə dost olanlara dostam».

Mühəmməd ibni Cərir Təbəri bu hədisi Musa ibni Təlhədən nəql edibdir. Başqa bir rəvayətdə bu mənanı ibni Abbasdan, bir başqa rəvayətdə isə Ziyaddan və Ibrahimdən nəql etmişdir.

Beyhəqi də özünün məşhur «Sünən» kitabında bu barədə çoxlu rəvayətlər qeyd etmşidir.

Ibni Hacər «Səvaiq» kitabında (144-cü səh) belə yazır: Peyğəmbər (s) buyurdu: «Mənə naqis salavat göndərməyin». Soruşdular, ya rəsulallah, naqis salavat nədir?

Həzrət buyurdu: Əllahummməsəlli əla Muhəmməd-deyib dayanmaq. Düzgün salavat belədir: «Əllahumə səlli əla Muhəmmədin və ali Muhəmməd»

Səmudi «Işraf əla fəzlil Əşraf» kitabında ibni Məsud Ənsaridən nəql edir ki, peyğəmbər (s) buyurdu: «Kim namaz qıla və o namazda mənə və əhli beytimə salavat göndərməyə, namazı qəbul deyil».

Imam Şafeinin məşhur şeri də elə buna işarədir:

يَا اَهْلَ بَيْتِ المُصْطَفى حُبُّكُمُ فَرَضٌ مِنَ اللهِ فى كِتابٍ اَنْزَلَهُ

كَفاكُم فِى عَظيمِ الشَّأنِ اَنَّكُم مَنْ لَمْ يُصَلِّ عَلَيْكُمْ لا صَلاةَ لَهُ

«Ey peyğəmbərin (s) əhli beyti, sizə məhəbbət etmək Allah tərəfindən Qur'anda vacib olub («Şura» surəsi 23-cü ayə Ey mənim rəsulum de: Sizdən risalətimin müqabilində heç nə istəmirəm, məgər mənim əhli beytimə məhəbbət edin) kim sizə salavat göndərməsə namazı qəbul deyil, bu sizin böyüklüyünüzə kifayət edər. (Yuxarıdakı hədisə işarədir).

Bu şerin mənbəyi «Şərhi əlməvahibi Zərqani» 7-ci cild, 7-ci səhifədir. Arzu edənlər müraciət edə bilərlər.

Indi gəlin bu məqamlara diqqət edərək fikirləşək, bir adamların ki, adları peyğəmbər (s)-in adıyla birlikdə namazlarda və başqa yerlərdə çəkilib salavat gödərilməyi fərizə olan halda, bunlara bərabər kimlər ola bilər ki, imamət vəzifəsinə onlardan artıq ləyaqətləri olsun? Hansı insaflı bir adam başqalarını bu şəxsiyyətlərə üstün qərar verə bilər? Görəsən müsəlmanları peyğəmbərdən (s) sonra rəhbərlik məsələsində ixtilafa salanlara bu qədər hədis kifayət etmirmi? Müasir dövrlərdə bəhanə axtaranlar müxtəlif bəhanələrlə bu hədisləri əsassız hesab etməyə çalışıb, insanları əhli-beytin fəzilətindən ayrı salmağa çalışırlar. Amma bu sözləri birbaşa peyğəmbərin (s) mübarək ağzından eşidən insanlar nə üçün zəlalətə düşdülər? Onlar ki, müsəlman xalqlarının əleyhinə işləyən gizli təşkilatların təsiri altına düşməmişdilər. Bəlkə də düşüblər. Bir çox tarixi mənbələrdə Yezid ibni Maviyyənin tərbiyəçiləri və müşavirlərinin məsihi olduqları qeyd olunub. Münafiqlər peyğəmbərin (s) də dövründə məsihilərlə məsləhətləşib Islamı yıxmaq üçün planlar çəkirdilər. (Diqqət edin).

Eşidən qulaqlar

«Haqqə» surəsinin 12-ci ayəsində Allah-təala buyurur:

لِنَجْعَلَهَا لَكُمْ تَذْكِرَةً وَتَعِيَهَا أُذُنٌ وَاعِيَةٌ

«Hədəf bu idi ki, Nuhun gəmisinin vasitəsilə möminləri xilas etməyi və tufan vasitəsilə kafirləri qərq etməyi sizin qulaqlarınıza çatdıraq və eşidən qulaqlar bu xəbərdarlığı saxlayır. (bu kimi hadisələr başqalarına da çatsın və hamı ibrət götürsün).

Suyuti «Dürrül Mənsur» kitabında altı yol ilə peyğəmbərin (s) məşhur səhabələrindən olan Bureydədən nəql edərək yazır: Həzrəti peyğəmbər (s) Əli (ə)-a buyurdu: Allah-taala mənə əmr edib ki, səni özümə yaxın edim, sənə təlim edim, sən də bunu qoruyub saxlayasan və sən buna layiqsən. Bu vaxt bu ayə nazil oldu ki, «Saxlayan qulaqlar onu saxlayacaq».

Həmən kitabda Əbu Nəim Isfəhaninin «Hilyətül-övliya» kitabına əsaslanaraq yazır: Peyğəmbər (s) Əli (ə)-a buyururdu: Sən mənim elmimi saxlayan qulaqlarsan.

Yenə həmin kitabda beş yol ilə peyğəmbər (s)-in xidmətçisi olan Məkhuldan nəql edilir: Elə ki, bu ayə nazil oldu, peyğəmbər (s) buyurdu: Allahdan istəyirəm ki, eşidən və saxlayan qulaqları, Əlinin qulaqları qərar versin. Məkhul deyir: Bu hadisədən sonra həmişə Əli (ə) buyurardı: Peyğəmbər (s)-dən eşitdiyim hər bir sözü heç vaxt yaddan çıxartmadım.

Zəməxşəri də «Kəşşaf» kitabında bu hədisi qeyd edibdir. Eyni zamanda bir çox başqa alimlər də bu hədisi öz kitablarında qeyd ediblər. O cümlədən Fəxri Razi «Təfsiri Kəbir»də, Alusi «Ruhul məani»-də, Bərsun «Ruhulbəyan»-da, Qirtəbi «Təfsiri Came»-də.

Bu alimlərin hamısı həmin ayəni təfsir edərkən sözü gedən hədisi ayənin təfsirinə şamil edərək qeyd ediblər.

Hakim Həsəkani «Şəvahidəttənzil» kitabında bu ayənin təfsirində 13 cür müxtəlif hədis və rəvayətlər qeyd edibdir. Bu, hədislərin hamısının əsası, sənədi həzrəti peyğəmbər (s)-ə çatır. Qeyd olunduğu kimi, bu hədislərin bəzisi Məkhuldan, bəzisi Büreydədən, bəzisi Əli (ə)-dan, bəziləri isə Cabir ibni Əbdullah Ənsaridən nəql olunubdur.

«Fəzail əl xəmsə» kitabının müəllifi bu hədisi qeyd olunanlardan əlavə «Kənzül Ümmal»-dan, Nurul Əbsardan, Heysəminin «Məcməül zəvaid»indən və Vahidinin «Əsbabül Nüzul» kitabından nəql edibdir.

Imamət və vilayətin şərtlərində deyildiyi kimi gərək xalqa rəhbərlik etməyə, onları dünya və axirət işlərində düzgün yola hidayət etməkdə, ilahi qanunları, Quran və peyğəmbər sünnəsini qoruyub saxlamaqda, Imam kifayət qədər elmli və bilikli olsun. Odur ki, yuxarıda qeyd olunan hədislərə diqqət yetirildikdə məlum olur ki, yalnız Əli (ə) bu şərtlərə malik olan bir şəxsiyyətdir və imamət məqamında onun ləyaqəti vardır.

Doğrudur, lazım olan yerdə imamətin şəraiti barəsində kifayət qədər bəhs olunur. Amma söhbətimizin bu hissəsində bir neçə mətləbə işarə etmək yerinə düşərdi.

Allah təbarək və təala «Zümər» surəsinin 9-cu ayəsində buyurur: «(Ey peyğəmbər (s)) de: Məgər, bilənlərlə bilməyənlər bərabərdirmi?».

Və ya «Rəd» surəsinin 16-cı ayəsində buyurur: «De, kor ilə gözlü, zülmət ilə nur bərabərdirmi?».

Bundan əlavə «Yunis» surəsinin 35-ci ayəsində buyurur: «Doğru yola yönəldən kəs arxasınca gedilməyə daha çox layiqdir, yoxsa doğru yol göstərilmədikcə özü onu tapa bilməyən kəs? Sizə nə olub? Necə mühakimə yürüdürsünüz?».

Istərdik axırıncı ayə haqqında bir qədər açıqlama verək. Təsəvvür edin ki, bir nəfər özü hidayət yolunu tapıbdır. Əzəldən bir an da olsa zəlalətdə olmayıb, daim xalqı düz yola dəvət və hidayət edibdir. Bir başqası isə nəinki xalqı hidayət etmir, əksinə əgər onun özünü hidayət edən olmazsa zəlalətə düşər. Belə olan halda bu iki nəfər adamın hansından itaət etmək düzgün olar?

Bu məsələni qarışıq salıb səhvə düçar olan adamları Allah-taala məzəmmət edərək buyurur: Sizə nə olubdur ki, bu cür qəzavət edirsiz?

Nə qədər düzgündür ki, həqiqət yolunu düzgün tanıyan, elmli adam olduğu halda, gedib nadan adamdan itaət edəsən. Bu nə dərəcədə məqsədə uyğundur. Bu mənada bir hədis qeyd etməklə kifayətlənmək istərdik.

Mərhum Şeyx Müfid öz sənədi ilə Əbu bəsirdən nəql edir ki, Əbu Bəsir deyir: Bir gün imam Musa ibni Cəfərdən (7-ci imam) soruşdum, sənə qurban olum, imamı nə ilə tanımaq olar? Imam cavabında buyurdu: Ey Əbu Bəsir imamı tanımağın əlamətləri çoxdur. Onlardan biri, özündən əvvəlki imam onun imamətini bildirə. Bundan əlavə ondan hər bir şey soruşularkən cavab verə, gələcəkdən xəbərdar ola, yer üzündə yaşayan millətlərin və hər bir canlının dilində danışa bilə.

Əbu Bəsir deyir: elə bu vaxt Xorasandan bir nəfər gəldi. Ərəb dilində imamla söhbət edəndə imam onun cavabını fars dilində qaytardı. O kişi dedi: mən dedim bəlkə siz fars dilini yaxşı bilmirsiniz, ona görə də ərəb dilində müraciət etdim. Həzrət buyurdu: Ey Əbu Mühəmməd, imam o kəsdir ki, yer üzünün bütün xalqlarının, quşlarının və bütün canlıların dilini bilsin.

Bəli, belə şəxsiyyətdən millətə imam olar və belə bir imam insanı dünya və axirət səadətinə çatdıra bilər. Heç əql də qəbul edə bilməz ki, Allah bir insanı istəsə kamilliyə çatdırsın və onu axirət səadətinə yetirsin, amma onu elmsiz bir adama tapşırsın. Bu adam da yolu düzgün göstərməyə, sonra da qiyamət günündə o adamı çəksin hesab ayağına ki, nə üçün bu işi düzgün etmədin, o da cavabında deyə ki, mənim rəhbərim bunu mənə belə demişdi. Belə olan surətdə Allah-taala heç kimi cəzalandıra bilməz və heç kimin də kamilliyə çatmasına gərək Allahın təmənnası olmasın. Çünki onun özü bu millətləri günahkar və elmsiz adama tapşırıbdır.

Amma biz bilirik ki, o böyük olan Allah adildir, heç vaxt belə işlərə rəvac verməyib və verməyəcəkdə. O, hər zaman və hər dövrdə adil, elmli və imamətə layiq insanlardan seçib dünyaya rəhbər qərar veribdir. Əli (ə) kimi layiqli insan!

Nur və Büyut ayəsi

Allah-taala «Nur» surəsinin 35-ci ayəsində ilahi nurun haqqında danışır və o nuru çox dəqiq misallarla bəyan edib bizə çatdırır. Ondan sonrakı ayələrdə (36-38) bu nurun yer üzündə qərar tutan məkanlarından söhbət açır. Bu ayələrdə Allah-taala belə buyurur:

فِي بُيُوتٍ أَذِنَ اللَّهُ أَن تُرْفَعَ وَيُذْكَرَ فِيهَا اسْمُهُ يُسَبِّحُ لَهُ فِيهَا بِالْغُدُوِّ وَالْآصَالِ

Bu ilahi nur o evlərdə qərar tapıb ki, Allah-taala o evlərin divarlarının ucalığına izn veribdir. (Şeytanlardan amanda qalmaq üçün). O evlər ki, Allah adı onlarda çəkilir. Gecə və gündüz onlarda təsbih deyilir. O evlərdə kişilər var ki, nə ticarət, nə alver onları Allah zikrindən, namaz qılmaqdan və zəkat verməkdən uzaqlaşdıra bilməz. Onlar o gündən qorxurlar ki, o gündə gözlər heyrətdə qalacaq».

Bəli, bu işarə olunan insanların Allah-taala ilə rabitələri çox möhkəmdir. Diqqət edin ki, onların necə yüksək məqamları vardır və Allah-taala onların bu məqamını necə qiymətləndirir.

Indi isə gəlin bu ayələrin barəsində olan rəvayətlərə diqqət yetirək.

Siyuti «Dürrül Mənsur» təfsirində Ənəs ibni Malikdən və Büreydədən nəql edir ki, həzrəti peyğəmbər (s) bu ayəni oxuyanda bir kişi yerindən qalxıb soruşdu: O evlər hansı evlərdir, ya rəsulallah? Həzrəti peyğəmbər (s) buyurdu: Peyğəmbərlərin evləri. Bu vaxt Əbu Bəkr yerindən qalxıb söylədi: Ey Allahın peyğəmbəri, Əli və Fatimənin də evləri o evlərdəndir?

Həzrəti Rəsul buyurdu: Bəli, o evlərin ən fəzilətlisindəndir».

Eyni ilə bu mənanı Hakim Həsəkani «Şəvahidəttənzil» kitabında peyğəmbər (s)-in səhabəsi Əbu Bərəzədən nəql edibdir. Hakim bu hədisi zikr edəndən sonra yuxarıdakı hədisi də iki müxtəlif yolla nəql edibdir

Maraqlısı budur ki, böyük sünnü alimi Alusi «Ruhul məani» kitabında bu hədisi qeyd edərək yazır ki: Əgər bu hədis səhih olsa, ondan üz döndərmək düzgün deyildir. Buradakı maraq da iki cəhətdəndəndir. Biri budur ki, bu hədisin səhihliyində şübhə yoxdur. Nə üçün Alusi həmişə Əhli beytin fəzilətinə dəlalət edən hədislərə qarşı meyilsiz olduğu halda bu hədisə əməl etməməyi yaxşı iş hesab etməyib.

Bir çox əhli sünnə alimləri bu hədisi öz kitablarında qeyd ediblər. Sözsüz ki, bu hədis Əli (ə), Həzrəti Fatimə (s) onların övladları Həsən və Hüseynə (ə) şamil olur. Həmçinin həzrəti Fatimənin (s) imam Hüseynin nəslindən olan nəvələrinə, yəni məsum imamlara da şamil olur. Çünki onlar peyğəmbərin (s) yolunu və sünnəsini davam etdirənlərdir.

Bəli, evləri də peyğəmbərlərin evləri kimi və ya həzrəti peyğəmbərin (s) kəlamı ilə desək, o evlərin ən fəzilətlisi. O insanlar ki, həmişə şeytanın əməl dairəsindən uzaqda qalıblar. Əgər biz də istəsək şeytandan uzaqda qalaq, gərək onların ardınca gedək.

Bəraət ayəsi

Əmirəl-möminin Əli (ə)-ın fəzilətinə sübut olan Qur'an ayələrindən biridə «Tövbə» surəsinin iki ayəsidir ki, «Bəraət» və «Siqayətül həcc» adlarından ibarətdir. «Bəraət», «Tövbə» surəsinin birinci ayəsidir. Bu ayə müşriklərlə müharibəyə və əhd peymanın pozulmasına aiddir. Belə ki, bu ayə, nazil olarkən müşriklərə iman gətirmələrini və yaxud Məkkədə, xüsusən də Kəbədə bəzi cəhalət dövründən qalmış törətdikləri əməlləri tərk eləmələrini tələb edir.

Bu hadisə hicrətin 9-cu ilinə təsadüf edir. Bu ayəni Həzrəti peyğəmbər (s) Məkkədə ümumi camaata oxumaq üçün əvvəlcə Əbubəkrə verdi. Sonra isə Cəbrail nazil olub xəbər verdi ki, ya Rəsuləllah, Allah buyurur: Bu ayəni sənin əhlindən olan bir nəfər oxumalıdır. Odur ki, həzrəti peyğəmbər (s) onu Əbubəkrdən alıb Əli (ə)-a verdi. Əli (ə) da həmin ayəni Həcc mərasimində bütün Məkkə əhlinə elan etdi.

Bu ayənin nazil olma səbəbində böyük şəxsiyyətlərdən bir çox hədis və rəvayətlər nəql olubdur. Biz də onlardan bir hissəsinə işarə edirik.

1.Əhməd Hənbəl sünnilərin məşhur olan imamı, öz «Müsnəd» əsərində yazır: Peyğəmbər (s) bu ayəni elan etmək üçün əvvəlcə Əbubəkrə verdi: Bu ildən sonra heç bir müşrikin haqqı yoxdur, Allahın evini ziyarət etsin. Heç kəs lüt və paltarsız Allah evini təfav edə bilməz. (Məlumat üçün bildirək ki, lüt və paltarsız Allah evini təfav etmək müşriklərdə adət idi). Sonra peyğəmbər (s) Əli (ə)-a buyurdu: Özünü Əbubəkrə çatdır və ayəni ondan alıb özün oxu. Əli (ə) da belə etdi.

Hədisin axırında belə yazır: Sonra Əbubəkr peyğəmbərdən (s) sual etdi məgər mənim əleyhimə ayə nazil olub? Peyğəmbər (s) buyurdu:

اُمِرْتُ اَنْ لا يُبَلِّغَهُ اِنّما اَنَا اَوْ رَجُلٌ مِنّی

Xeyir! Amma «Mənə əmr olunub ki, ayəni özüm və yaxud məndən olan bir nəfər elan etsin».

Termizi görkəmli sünni alimlərindən biridir. O, öz «Sünənində» Ənəs ibni Malikdən belə nəql edir: Həzrəti peyğəmbər (s) buyurdu:

لَما يَنْبَغی لِمأَحَدٍ اَنْ يُبَلِّغَ هاذا اِنّما رَجُلٌ مِن اَهلی فَدَعا عَلِيّا

«Layiqlisi budur ayəni mənim əhlimdən olan bir kişi apara və Əlini çağırıb ayəni ona verdi».

Termizi bundan başqa ibni Abbasdan da belə bir hədis nəql edir və sonra da deyir ki, bu hədis yaxşıdır.

2.Süyuti «Dürrül Mənsurda» Əbdullahh ibni Əhməd Hənbəldən, Ibni Mərdəviyyədən, Termizidən və Ənəsdən nəql edir ki: Peyğəmbər (s) ayəni

Əbubəkirdən alaraq Əli (ə)-a verdi və buyurdu: Gərək bu ayəni mənim əhlimdən olan bir kişi aparsın.

3.Yenə də həmin kitabda Sə'd ibni Əbi Vəqqasdan nəql edir ki, peyğəmbər (s) buyurdu: Onu gərək mənim əhlimdən olan bir kişi apara. Sonra ayəni Əli (ə)-a verdi.

4.Suyuti həmin kitabda, peyğəmbərin (s) tanınmış səhabələrindən biri olan Əbu Səid Xudridən nəql edir ki: Peyğəmbər (s) Əli (ə)-ı çağırdı və onu xüsusi bir dəvəyə mindirib tapşırdı: Bu ayəni gərək sən camaata çatdırasan. Əli (ə) da ayəni Əbubəkrdən aldı. Əbubəkr peyğəmbərin yanına qayıdıb həyəcanlı halda soruşdu: Ya rəsuləllah, məgər mənim barəmdə bir şeymi nazil olub? Peyğəmbər (s) isə cavabında buyurdu: Xeyr ayəni gərək Əli aparsın.

Bu hədisi peyğəmbərin (s) tanınmış səhabəsi Əbu Rafe belə nəql edir: Cəbrail peyğəmbərə (s) xəbər verdi ki, ayəni gərək özün və yaxud özündən olan bir kişi aparsın. Odur ki, Əli (ə)-ı göndərdi.

5.Hakim Həsəkani «Şəvahidüttənzil»də bu barədə Ənəs ibni Malikdən, ibni Abbasdan, Əbu Səid Xudridən və Əbu Hüreyrədən 12 hədis nəql edibdir. Bu hədisi nəql edənlərin sayı çox olduğuna görə mərhum Əllamə Əmini deyir ki, bu hədis təvatürü də keçib. Daha sonra bu hədisi öz kitablarında yazan 73 nəfər sünnü alimlərindən ad aparır və onların sənədi barəsində geniş izahat verir ki, bu sənədlər də səhabələrə çatır. Onlardan, Əli (ə), Əbubəkr, ibni Abbas, Cabir ibni Əbdullah Ənsari, Ənəs ibni Malik, Əbu Səid Xudri, Səid ibni Əbu Vəqqas, Əbu Hüreyrə,

Abdullah ibni Ömər, Həbəş ibni Cənadə, Imran ibni Həsin və Əbuzər Qəffari (siddiq)-ni göstərmək olar.

Şəmsüddin Maliki VIII əsrin məruf şairlərindən biridir. O bu ayənin çatdırılması barədə belə yazır:

وَ اَرْسَلَهُ عَنهُ الرَّسولُ مُبَلِّغاً وَ خَصَّ بِهاذا الأَمْرِ تَخْصيصَ مُفْرَدِ

وَ قالَ هَلِ التَّبْليغُ عَنّى يَنْبَقى لِمَنْ لَيْسَ مِنْ بَيْتى مِنَ القَوْمِ يَقتدى

«Peyğəmbər (s) onu öz mübəlliği ünvanında göndərdi və onu bir işə münhəsir etdi ki, başqasına o işi verə bilməzdi.

Peyğəmbər (s) dedi: Bu işi mən və məndən olan bir kişidən başqa heç kim edə bilməz. Layiq deyil məndən olmayan bir şəxs bu işi görə».

Bu qədər hədislər ona dəlalət edir ki, peyğəmbər (s) Əli (ə)-a etimad və etibar etdiyi qədər heç kimə etimad və etibar etməyib. Cəbrail (ə)-ın Allah tərəfindən gəlib təkid etməsi də bu işin çox həssas olmasına və müşriklərin həcc vaxtı bəzi pis əməllərə əl atması ilə nəticələnə bilməsinə dəlalət edə bilərdi. Ona görə də bu işi şücaətli və tədbirli bir adam yerinə yetirməli idi. Peyğəmbərin (s) Əli (ə)-ı seçməsi də onun məhz şücaətli və tədbirli bir adam olmağına dəlalət edir. Deməli, əgər peyğəmbər (s) həyatda olan zaman hər hansı çətin bir işdən ötrü Əli (ə)-ı seçirdisə, onda onun yerinə canişin olmağa hamıdan layiqli Əli (ə) idi.

Burada yadıma Əli (ə)-ın fəzilətinə həsr olunmuş bir şer düşdü. Həmin şerlə də bu bəhsi tamamlamaq istəyirəm.

Bir «Şafei» şairə deyirlər ki, Əlini (ə) mədh elə, o da cavabında deyir ki, mən onu tərif edə bilmərəm. Amma peyğəmbərdən (s) eşitdiyimi sizə deyə bilərəm. Odur ki, məqsədini belə nəzmə çəkir:

قیل لی قُل لِعَلِیٍّ مَدْحًا ذِکْرَهُ یَخْمَدُ نادا مؤصَدَةً

قُلْتُ لما اَقدِمُ فی مَدْحِ افْرِءٍ ضَلَّ ذُولُّلوبِّ اِلی اَنْ عَبَدَهُ

وَ نَبِیُّ المُصطفی قال لَنا لَیلَةَ المِعراجِ لَمّا سَعَده

وَ ضَعَ اللهُ ظَهْری یُدَهُ فَاحَسَّ القَلْبُ قَدْ اَن یَرَدَهُ

وَ عَلِیٌّ واضِعٌ اَقْدامَهُ فی مَحَلٍّ وَضعَ اللهُ یَدهُ

«Mənə dedilər Əlini (ə) tərif et, onu tərif etmək ibadətdir, cəhənnəm odun söndürər. (Əlini (ə) zikr etmək ibadətdir: hədis) Mən də dedim: Onu tərif edə bilmərəm. Çünki onu tanımaqda çox adamlar zəlalətə düşüb (Doğrudan da hətta ibadət sahibi olan bir dəstə adamlar da Əli (ə)-ı Allah bilərək kafir oldular («Əli allahilər: cülat), bir dəstə adamlar isə Əli (ə)-ı kafir bilib kafir oldular: xəvariclər).

Amma mən sizin yadınıza peyğəmbərin (s) buyurduğu bir sözü xatırladıram. Merac gecəsi Ərşdə olarkən peyğəmbərin (s) ürəyi döyünürdü, həyəcanlı idi. Allah-təala bir əl yaratdı və onu peyğəmbərin çiyninə qoydu. Peyğəmbərin ürəyi sərinləşdi. Əli (ə) da o şəxsdir ki, Allah, yədullah əlin qoyan yerə ayağını qoydu».

Bu hadisə Məkkə fəth olunan zaman baş vermişdi. Əli (ə) ayağını peyğəmbərin (s) çiyninə qoyub Kəbənin üstünə çıxdı və bütləri oradan saldı. Bu işinin minlərlə fəziləti vardır, Əli ibni Əbutalib Əmirəlmöminin**.**

Imamət və vilayət sünnədə

Peyğəmbər (s)-in rəvayətlərinin və sünnətinin geniş əhatə etdiyi mühüm məsələlərdən biri, bəlkə də ən əhəmiyyətlisi imamət və vilayətdir. Bu haqda bir çox rəvayətlər vardır ki, islamın ən məruf olan mənbələrində qeyd olunubdur. Biz də o hədislərdən burada istifadə etmək istəyirik ki, həqiqət aşkar olsun və insanlara yetişsin. Əziz oxucu da insafa riayət edərək bu hədislərin mənasından özü üçün nəticə çıxartsın. Bununla da bizim vəzifəmiz islamın mühüm olan məsələsində aşkar olsun. Burada o hədislərdən məşhurları ki, imamət məsələsini aydınlaşdırır, azacıq şərh ilə qeyd edirik və oxuculardan xahiş edirik ki, onları oxuyub özləri üçün aydınlıq hasil etsinlər. Bizim əqidəmiz budur ki, bu qədər hədisə biganə qalmaq, onlara əhəmiyyət verməmək bizi məsuliyyətdən uzaqlaşdırmır, əksinə, bir qədər də məsuliyyətimizi artırır.

1. «Səqəleyin hədisi».

Bu hədisə ona görə səqəleyn hədisi deyirlər ki, həzrəti peyğəmbər (s) bu hədisdə iki dənə çox qiymətli və ağır əmanətə işarə edir: Biri Allahın «kitabı», ikincisi isə «Əhli-beyti». Bu məzmunda həzrəti Peyğəmbər (s) dəfələrlə söz açmışdır və bu hədislər bir çox Islam mənbələrində müxtəlif variantlarda qeyd edilmişdir.

Bu da onu göstərir ki, bu hədisin məhz Həzrəti peyğəmbərin (s) dilindən olmağına heç bir şəkk və şübhə yoxdur. Özü də bir hədis deyil, bir çox hədislər və bir çox yerlərdə həzrəti peyğəmbərimiz təkidlə söyləmişdir.

Indi də bu hədislərin ravilərinə və qeyd olunmuş kitablara nəzər yetirək.

1. «Səhih Müslüm» sünnülərin məşhur olan hədis mənbəyidir. Hətta altı dənə sihahın ən əhəmiyyətlisi hesab olunur. Orada Zeyd ibni Ərqəmdən rəvayət olunur: «Peyğəmbər (s) bizim yanımızda ayağa qalxıb xütbə oxudu. O yerdə ki, su var idi, adına «xum» deyərlər. Həzrət həmd və səna edəndən sonra bir qədər öyüd, nəsihət etdi və buyurdu: Ey camaat, mən bəşərəm.

Yaxın zamanlarda Allahın elçisi gələr (əzrail) və mən də onun dəvətini qəbul edərəm. Odur ki, sizin aranızda iki dənə qiymətli əmanət qoyuram. Birinci Allahın kitabı, onda hidayət və nur var, ona cəng vurun, ikincisi isə mənim əhli-beytimdir. Sizə tapşırıram ki, əhli-beytim barədə Allahı yaddan çıxarmayın (yəni Allaha inanırsınızsa əhli-beytimi yaddan çıxarmayın)».

Bu hədisdə əhli-beyti Quranla bərabər olaraq qeyd edib, onları unutmamağı təkid etmək onu göstərir ki, bu əhli-beytin müsəlmanların hidayət olunmasında, islam üsullarının qorunmasında birbaşa dəxaləti vardır. Çünki Quran özü bunun üçün göndərilib. Əhli-beytin Quran ilə bir səviyyədə vurğulanmağı bu məqsədi aydın şəkildə sübut edir. Buna misal olaraq məsum imamların, məsələn Əli (ə)-ın «Natiqi

Quran», yaxud Sahibəzzamanın (ə) «Şərikəl Quran» ləqəbi ilə məşhur olmasını göstərmək olar.

2.Yenə o kitabda («Səhehi Müslüm») həmin ravidən bir qədər fərq ilə başqa bir hədis qeyd olunubdur. Bu hədisdə Zeyd ibni Ərqəmdən sual edirlər: Peyğəmbərin (s) əhli-beyti onun əyanlarıdırmı? Ərqəm cavabında deyir: Xeyir! Peyğəmbərin (s) əhli-beyti onun nəsəbi, qohumlarıdır. O qohumlar ki, sədəqə yemək onlara haram olubdur.

3.Məşhur «Sünnəni Termizi» kitabında əhli-beytin fəziləti barəsində Cabir ibni Əbdullah Ənsaridən nəql olunur. Cabir deyir: Həcc vaxtı ərəfə günündə peyğəmbər (s)-i gördüm. Özünün dəvəsinə minmişdi. Xütbə oxuyurdu. Eşitdim ki, dedi:

یا اَیُّها النّاسُ اِنّی قَدْ تَرَکْتُ فیکُمْ ما انْ اَخَذْتُمْ بِهِ لَنْ تَضِلُّوا، کِتابَ اللهِ وَ عِتْرتی، اَهْلَبَیْتی

«Ey camaat, mən sizin aranızda iki şey qoyuram. Əgər onlardan tutsanız zəlalətə düşməzsiniz. Biri Allahın kitabı, digəri itrətim, əhli-beytim». Sonra Termizi əlavə edir: Bu hədisi Əbuzər, Əbusəid Xudri, Zeyd ibni Ərqəm və Həzifə də nəql ediblər.

4.Həmən kitabda Əbu Səid və Zeyd ibni Ərqəmdən nəql edilir ki, peyğəmbər (s) buyurdu: «Mən sizin aranızda iki qiymətli əmanət qoyuram. Əgər onlar ilə hərəkət etsəniz heç vaxt zəlalətə düşməzsiniz. Onların biri o birindən əzəmətlidir. Biri Allahın kitabıdır. O, göydən yerə çəkilmiş bir ipdir. O biri isə itrətim, əhli-beytimdir. Onlar bir-

birindən hövzi kövsərdə mənim yanıma gələnə qədər ayrılmayacaqlar. Baxın və diqqətli olun, məndən sonra onların barəsində necə rəftar edəcəksiniz».

5.Darminin «Sünən»ində bu rəvayətlərə oxşar bir rəvayətə işarə olunub və «Səqələyin», «Allahın kitabı, əhli-beyt» ilə qurtarıbdır. Onu da nəzərinizə çatdıraq ki, Darmi Əbumüslüm, Əbu Davud və Termizinin ustadı olubdur.

6. «Müsnədi Əhməd»də (Əhməd, sünnilərin dörd məzhəb başçılarından biridir) Zeyd Ibni Sabitdən rəvayət edir ki, peyğəmbər (s) buyurdu:

اِنّی تارِكٌ فیكُمْ خَلیفَتَینِ: كِتابُ اللهُ حَبلٌ مَمْدودٌ ما بَیْنَ السَّماءِ وَ الأَرْضِ وَ عِتْرَتی وَ اَهل بَیْتی وَ اِنَّهُما لَنْ یَفْتَرِقا حَتّی یَرِدا عَلَیَّ الحَوضَ

«Mən iki böyük xəlifəni sizin aranızda əmanət qoyuram. Allahın kitabı ki, göylə yer arasında çəkilmiş bir ipdir və itrətim, əhli-beytim. Onlar hövzi Kövsərin ətrafında mənim yanıma gələnə qədər bir-birindən ayrılmazlar».

7.Əhməd ibni Şüeyb Nəsal əhli sünnənin böyüklərindəndir. Onun «Sünən» kitabı sünnilərin altı səhehindən biridir. O, (Əhməd ibni Şüeyb) «Xəsais» kitabında Zeyd ibni Ərqəmdən nəql edir: Həzrəti peyğəmbər (s) həccətül vidadan qayıdanda Qədir Xum çölünə daxil oldu. Yer hazırlamağı əmr etdi. Orada dayanıb buyurdu: «Mən Allah tərəfindən çağrılmışam, tezliklə sizdən ayrılacağam. Sizin aranızda iki dənə ağır, qiymətli əmanət qoyuram. Allahın kitabı və itrətim, əhli-beytim. Onların biri o birindən böyükdür. Görüm məndən sonra onların barəsində necə rəftar edəcəksiniz. Onlar hövzi kövsərin yanında mənə qovuşana qədər bir-birindən

ayrılmayacaqlar. Allah mənim rəhbərimdir. Mən bütün möminlərin rəhbəriyəm. Sonra Əli (ə)-ın əlini tutub buyurdu: Mən hər kimin rəhbəriyəmsə, Əli də onun rəhbəridir. Ilahi, kim onu dost tutsa sən də onu dost tut, kim onunla dostluq etməsə, sən də onunla dostluq etmə».

8.Hakim Nişaburi «Müstədrəkəssəheheyi» kitabında Ibni Vasilədən, o da Zeyd ibni Ərqəmdən nəql edir ki, peyğəmbər (s) buyurdu:

یا اَیُّها النّاسُ اِنّی تارِکٌ فیکُمْ اَمرَیْنِ لَنْ تَضِلّوُا اِنِ اتَّبَعْتُمُوا هُما: وَهُما کِتابُ اللهِ و اَهلُ بَیتی عِتْرَتی

«Ey camaat, mən sizin aranızda iki əmri əmanət qoyuram. Onlara tabe olasınız heç vaxt yolunuzu azmazsınız. Onlar, Allahın kitabı və mənim Əhli-beytimdir».

Hakim bu hədisi qeyd edəndən sonra yazır: bu hədis Buxari və Müslimin şərtinə uyğun olaraq səhehdir. (Yəni onların öz yolları bu hədisi səheh hədis hesab edir).

9.Ibni Həcər Heysəmi, Hicazın müftisi, şiə məzhəbinin qatı müxaliflərindəndir. O, özünün «Səvaiq əlmöhriqə» kitabında yazır: Səheh rəvayətdə varid olub ki, peyğəmbər (s) buyurdu: «Mən sizin aranızda iki qiymətli əmanət qoyuram, biri o birindən böyük. Baxın, onlarla necə rəftar edirsiniz. Onlar, Allahın kitabı və əhli-beytimdir. Onlar bir-birindən ayrılmayacaq. Hövzi kövsərin yanında mənə qovuşana qədər».

Heysəmi sonra əlavə edir: başqa bir hədis də belə gəlib; peyğəmbər (s) buyururdu: «Mən özüm bu məqamı Quran və itrətim üçün istədim. Onlardan qabaqğa

keçməyin həlak olarsınız. Onlardan geri də qalmayın, yenə də həlak olarsınız. Onları öyrətməyin, çünki Onlar hamıdan elmlidirlər.

Heysəmi yenə də əlavə edir: Bu hədis bir çox variantlarla ravilər vasitəsilə varid olubdur. Belə ki, ravilərin sayı iyirmini keçibdir və onu izah etməyə ehtiyac yoxdur.

Sözü gedən mətləb haqqında mötəbər mənbələrdə geniş izahlar ilə yazılar qeyd olunubdur. Yorucu olmasın deyə biz ancaq onların adlarına işarə edib hədisin özünü və şərhini qeyd etmirik.

Ibni Əsir «Əsədülğayə fi mərifəti əshabə» kitabında, Cəlalüddin Əbdürrəhman Suyuti «Əhyaul Meyyit» kitabında, Beyhəqi özünün ən mühüm olan «Sünənül Kübra» kitabında. Yeri gəlmişkən qeyd edək ki, Ziməxşəri yazır ki, Şafei məzhəbinin imamı olan imam Şafeinin bütün şafei məzhəbində olanların boynunda həqqi vardır. Amma Beyhəqinin isə həm şafeilərin, həm də Imam Şafeinin boynunda həqqi vardır. (Yazdığı kitablara görə).

Deyilənlərə görə Hafiz Təbərani mindən çox hədis müəllifi olubdur. O, özünün məşhur «Möcəmül Kəbir» kitabında, Vəhhabiyyətin bünövrəsini qoyan Ibni Teymiyyə «Minhacüssünnə» kitabında, Ibni Məcazəli, Xarəzmi, Zəhəbi, Əli ibni Burhan Hələbi Şafei, «Insanül üyun» kitabında, Ibni Həyyan Maliki «Əl müqtəbis fi əhvali ələndəlis» kitabında, Əlaüddin Bəğdadi (Xazin) öz «Təfsirində», Ibni Əbil Hədid Mötəzili «Nəhcül-bəlağənin şərhi»ndə, Zeyniyi Dehlani Şafei-Məkkənin müftisi XIII əsr hicri-«Seyrətum nəbəviyyə» kitabında bu hədisləri qeyd ediblər.

Diqqət edin! Bu qədər mötəbər mənbələrdən olan hədislərə necə laqeyd yanaşmaq olar! Hətta bu hədisləri öz kitablarında yazanlardan elələri var ki, şiəçiliklə bərk müxalifəti olub. Hətta Ibni Teymiyyə şiəni öz qoyduğu məzhəbdə müşrik kimi qələmə veribdir. Halbuki «şiə», bu hədisə düzgün və doğru əməl etdiyinə və həzrəti peyğəmbərin (s) vəsiyyətinə əməl edərək Qur'an və Əhli-beytdən möhkəm yapışdığına görə belə töhmətlərə məruz qalıbdır.

«Şiələrə» «Rafizi» (peyğəmbərin sünnətini tərk edənələr) ləqəbi verənlər nə üçün fikirləşməyiblər ki, axı əsl sünnətə əməl edənlər elə şiələrdir. Görəsən Ibni Teymiyyə bu hədisi öz kitabında yazarkən diqqət edib başa düşübmü ki, bu hədis əhli-beyti sevməyi, onlardan itaət etməyi insana vacib edir? Görəsən o, fikirləşmirdi ki, bu hədisin bizə vacib etidiyi məsələləri, yəni əhli-beytin ardınca getməyi tərk etmək əsl «rafizilik» deməkdir. Nə üçün onlar fikirləşməyiblər ki, bir vaxt gələr Ibni Teymiyyənin bu kitabını oxuyan Onun özünə «Rafizi» deyər. Bu hədislərə diqqətlə nəzər yetiriləndə görünür ki, həqiqətən də sünnətə əməl edənlər elə şiələrdirlər.

Burada diqqəti cəlb edən məsələlərin ən başlıcası odur ki, bu hədis 23 nəfər səhabədən birbaşa peyğəmbər (s)-in özündən nəql olunubdur. Onlar aşağıdakılardan ibarətdir:

1.Zeyd ibni Ərqəm.

2.Əbu Səid Xudri

3.Cabir ibni Əbdullah Ənsari

4.Hüzeyfə ibni Üseyd

5.Hüzeymət ibni Sabit

6.Zeyd ibni Sabit

7.Səhl ibni Səd

8.Zəmurət Əsləmi

9.Amir ibni Leyli

10.Əbdürrəhman ibni Ovf

11.Əbdullah ibni Əbbas

12.Əbdullah ibni Ömər

13.Üdey ibni Hatəm

14.Əqəbət ibni Amir

15.Əli ibni Əbutalib (ə)

16.Əbuzər Qəffari

17.Əbu Rafe

18.Əbu Şureyh Xəzan

19.Əbu Qüddamə Ənsari

20.Əbu Hüreyrə

21.Əbu Heysəm ibni Tihan

22.Ümmussələmə

23.Ümmi Hani.

Həzrəti peyğəmbər (s) «Səqəleyn» hədisini necə dəfə təkrar edibdir.

«Səqəleyn» hədisi bir çox yerlərdə, əhli sünnə kitablarının yazdığına görə aşağıda adları qeyd olunan yerlərdə, həzrəti peyğəmbər (s) tərəfindən söylənmişdir:

1.Qədir Xumda.

2.Ərəfə günündə peyğəmbər (s) öz dəvəsinin üstündə oturarkən.

3.Məkkə və Mədinə arasında «Cöhfə» adlı yerdə, hansı ki, həcc ziyarətinə gedənlər üçün ehram bağlanan yerlərdən biridir.

4.Ömrünün axır vaxtlarında xəstə olan halda vəsiyyət edərkən bu hədisə işarə etmişdir: «Ey camaat, tezliklə mən sizdən ayrılacağam. Mən sizin hamınız üçün höccəti tamamlamışam. (Bütün yolları, qanunları göstərmişəm). Mən sizə Allahın kitabını və itrətimi, əhli-beytimi əmanət verib gedirəm». Sonra Əli (ə)-ın əlini tutub qaldırdı və buyurdu: «Bu Əli Qur'anladır, Qur'an da Əli ilədir. Onlar bir-birindən ayrılmayacaqlar tainki hövzi kövsərin ətrafında mənim yanıma gələnə qədər».

5.Həccətül vida vaxtı «Xeyf» məscidində peyğəmbər (s) buyurdu: «Ey camaat, iki dənə çox qiymətli şeyin barəsində sizdən sual edirəm». Soruşdular, o iki qiymətli şey nədir, ya rəsulallah? Həzrət buyurdu: «Biri Allahın kitabıdır. Onun bir tərəfi Allahın əlində (qüdrətində), o biri tərəfi isə sizin əlinizdədir.

Ikincisi isə mənim itrətim, əhli-beytimdir. Onlara çəng vursanız zəlalətə düşməzsiniz. Həqiqətən Allah-taala mənə xəbər veribdir. Onlar bir-birindən ayrılmayacaqlar, mənim bu iki barmağım kimi».

6.Taif müharibəsindən qayıdan zaman həzrət qalxdı və bu hədisi söylədi.

Qeyd etdiyimiz kimi bunlar ancaq əhli sünnənin yazdıqları yerlərdir. Bu yerlər və bunlardan əlavə deyilən bir çox məqamlar bizə dəlildir. Özü də böyük bir dəlil. Bunlar bizə sübut edir ki, bu iki qiymətli əmanət qiyamətə qədər Islamın və müsəlmanların müqəddəratını həll edəcək. Onların ardınca getmək-səadət, onlardan uzaq düşmək-bədbəxtçilikdir.

Həzrəti peyğəmbər (s) bu təkrar etmələrin vasitəsi ilə istəyibdir ki, bu işin çox əhəmiyyətli olmasını bizə bildirə və bizim üçün heç bir bəhanə yeri qalmaya.

Doğrudan da, əgər biz bu göstərişlərə əhəmiyyət verməyib başqa yollara düşsək, qiyamət günü əlimizdə heç bir əsas olmayacaq zəlalətə düşməyimizə.

Bu hədis qeyd etdiyimiz kimi 23 nəfər peyğəmbər (s) səhabəsindən və 200-dən çox islam mənbələrində nəql olunubdur. Bu hədisin sənədində heç bir şəkk və şübhə yoxdur. Yəni səheh hədisdir. Bu hədisin öz məqsədinə dəlalət etməsində də heç bir pünhan və qaranlıq bir şey yoxdur. Belə ki, sənəd səheh, məfhumu da aşkar. Belə hədisə əməl etməmək doğrudan da insanı dünya və axirətdə bədbəxt edər.

Bir nəfər həzrəti peyğəmbəri (s) Allahın rəsulu, ilahi vəhyin əmini, danışdığının hamısı Allahın buyruğu kimi vəhy olan, onun bizə dediklərinin hamısına əməl olunması vacib olan bir şəxsiyyət kimi tanıyırsa və bu hədisi (23) oxuyubsa və görürsə ki, həzrəti peyğəmbər (s) azıb zəlalətə düşməməyin şərtini, daha doğrusu

islamın əslini bu hədisdəki iki qiymətli əmanət hesab edirsə, onda bu şəxs necə ola bilər ki, bu hədisə göz yumaraq başqalarının ardınca gedir?

Bəli, həzrət peyğəmbər (s)-in bu hədisi bu qədər çox yerdə söyləməsi ona dəlalət edir ki, bu iki əmanətin vasitəsi ilə onun Allah tərəfindən gətirdiyi din yaşayacaq və insanları zəlalətdən qurtaracaqdır. Məhz bu əmanətin biri o birini təsdiqləyərək, biri o birini tanıtdıraraq, insanların bu iki əmanətin qarşısında vəzifələrini bəyan edərək yaşayırlar və öz qiymətlərində qalırlar. O bizik ki, onlardan uzaq düşərək öz qiymətimizdən azaldırıq. Onlardan uzaq düşdükcə nurdan uzaqlaşıb zülmətə doğru yönəlirik.

«Səqəleyn» hədisindən istifadə olunan məqamlar

Bu məruf olan hədis müsəlmanlara bir çox əhəmiyyətli məqamları aydınlaşdırır. Onlardan bir hissəsinə qısa şəkildə də olsa müraciət edək:

1.Qur’an və Əhli-beyt həmişə birlikdədirlər və heç vaxt ayrılmayacaqlar. O adamlar ki, Qur’an həqiqətlərini öyrənmək istəyirlər, gərək əhli-beytdən öyrənsinlər. (Çünki onlar danışan Qur’andırlar).

2.Qur’anın göstərişlərinə əməl etmək heç bir şərt olmadan vacib olduğu kimi, əhli-beytdən də öyrənmək və onların ardınca getmək qeyd və şərtsiz vacibdir.

3.Əhli-beytin Qur’andan ayrı olmaması bir tərəfdən, əhli-beytin ardınca getməyin qeyd və şərtsiz vacib olmağı ikinci tərəfdən, sübut edir ki, əhli-beyt (ə)-lar məsumdurlar. Çünki, əgər onların günahı olsa idi onda Qur’andan ayrı düşərdilər və onların ardınca getmək müsəlmanlara zəlalətdən qurtarmaq sığortasını verməzdi.

4.Ən əhəmiyyətlisi isə həzrəti peyğəmbər (s) bu proqramın bütün dünya boyu, qiyamətə qədər davam edəcəyini bildirməsidir: «Onlar hövzi kövsərin ətrafında mənə qovuşana qədər bir-birindən ayrılmayacaqlar». Yəni hər dövr və zamanda mənim əhli-beytimdən bir nəfər olacaq və Qur’anla bərabər insanlara hidayət işığı olacaqdır.

5.Bu hədisdən aydın olur ki, insanın əhli-beytdən qabağa keçməsi və ya geri qalması zəlalətə səbəb olur.

6.Əhli-beyt hamıdan fəzilətli və hamıdan elmlidirlər.

Hicri tarixi ilə doqquzuncu və onuncu əsrlərdə yaşamış məşhur çünnü alimi, «Vəfaül vəfa» kitabının müəllifi Səmhudi «Səqəleyn» hədisinin barəsində yazdığı «Cəvahir ələqdeyn» kitabında çox cəlbedici bir kəlam işlədibdir. O, yazır: Bu hədis («Səqəleyn») bildirir ki, hər bir zamanda pak olan Əhli-beyti-peyğəmbərdən bir nəfər var ki, onun ardınca getmək lazımdır və onun buna ləyaqəti vardır. Necə ki, Qur’an belədir.

Beləliklə bu hədisi «Imam Şafeinin bir şeri ilə tamamlayırıq:

وَلَمّا رَاَيْتُ النّاسَ قَدْ ذَهَبَتْ بِهِمْ مَذاهِبُهُمْ فی اَبْحُرِ الغَیِّ وَالجهْلِ

رَكِبْتُ عَلَی اسْمِ اللهِ فی سُفُنِ النَّجاةِ وَ هُمْ آلُ بَیْتِ الْمصْطفی خاتَمِ الرُّسُلِ

وَ اَمْسَکتُ حَبْلَ اللهِ وَ هُوَ وِ لایُهُمْ کَما قَدْ اُمِرْنا بِالتَّمَسُّکِ فِی الحَبْلِ

«O zaman ki, camaatı gördüm təriqətləri onları azğınlıq və cəhalət dəryasında batırıbdır, mən Allahın adı ilə nicat gəmisinə səvar oldum. O gəmi Mustəfa, xatəm rəsulun (s) əhli-beytidir. Mən, ilahi bir ip ki, onların vilayətidir, ona çəng vurdum. Çünki bizə əmr olunubdur, o Allah ipi ki, onların vilayətidir, ona çəng vuraq. Çox yaxşıdır ki, hamı bütün işlərində o əhli-beytə pənah aparsınlar və həqqi onlardan öyrənsinlər».

«Nuhun gəmisi» hədisi

Məsum imamların və əhli-beytin haqqında olan məşhur hədislərdən biri də «hədisi səfinə» (gəmi hədisi)-dir. Bu hədis istər sünnü, istərsə də şiə mənbələrində çox geniş yer tutmuş bir hədisdir. Biz də burada onun barəsində qısaca bəhs edəcəyik. Bu hədisi 8 nəfər peyğəmbər (s) səhabəsi həzrəti peyğəmbərin (s) dilindən nəql etmişdir. Onlar: Əbuzər, Əbu Səid Xudri, Ibni Əbbas, Ənəs, Əbdullah ibni Zübeyr, Amir Ibni Vasilə, Sələmət ibni Ugeyir və Əli (ə)-dan ibarətdirlər. Eyni zamanda «Səfinə» hədisi onlarla sünnü kitablarında da qeyd edilmişdir. Onlardan bir qisminə işarə edək:

1.Əbazər Kəbənin qapısının həlqəsindən tutub deyirdi: Kim məni tanıyır, tanıyır, kim məni tanımır, tanısın, Mən Əbazər Qəffariyəm! Peyğəmbər (s)-dən eşitdim buyurdu:

مَثَلَ اَهْلُبَیْتی فیکُمْ کَمَثَلِ سَفینَةِ نُوحٍ فی قَوْمِ نُوحٍ مَنْ رَکِبَها نَجس وَ مَنْ تَخَلَّفَ عَنْها هَلَکَ

«Mənim əhli-beytim sizin aranızda eyni ilə Nuhun gəmisi kimidir. Kim o gəmiyə minsə xilas olacaq, kim ondan ayrılsa həlak olacaq».

Bu hədisi (Səfineyi Nuh) Hafiz Təbərani «Möcəmil kəbir və Möcəmil səğir» kitabında (Dehli çapı, səh.78), Ibni Quteybə Diynəvəri «Uyunul Əxbar» kitabında (I cild, səh.212, Misir qapı), Hakim Nişaburi «Müstədrək» kitabında (III cild, səh.150), Zəhəbi «Mizanül etidal» kitabında (I cild, səh.224), Suyuti «Tarixi Xüləfa» kitabında (səh.573) və bir çox başqaları öz kitablarında qeyd ediblər.

2.Ibni Məcazəli (Əbül Həsən Əli ibni Mühəmməd Şafei) «Mənaqib» kitabında ibn Əbbasdan və Sələmət ibni Əkvədən, onlar da peyğəmbər (s)-dən hədisi nəql edir. Peyğəmbər (s) buyurdu: «Sizin aranızda mənim əhli-beytim Nuhun gəmisi kimidir. Kim ona səvar olsa nicat tapar, kim ondan uzaq düşə və ayrıla, qərq olacaq».

Şeyx Mühəmməd Əmin Əntaki «Limaza əxtərtü məzhəbə Əhləlbeyt» (nə üçün əhli-beyt məzhəbini seçdim) kitabında bu hədisin barəsində bəhs edərkən yazır: Bütün islam alimlərinin nəzərləri birdir ki, bu hədis (hədisi səfinə) səheh hədisdir, mütəvatir hədisə yaxındır. Bir çox hafizlər, hədis qabaqcılları və tarixçilər öz kitablarında bu şərif hədisi qeyd ediblər. Onların sayı 100-dən çoxdur. Hamısı da bu hədisi səhih hədis hesab ediblər. Hətta qeyri-müsəlmanlar da bu hədisi Islami hədis kimi qeyd ediblər.

«Əqəbatül Ənvar» kitabında «Səfinə hədisini» 92 kitabdan nəql edir ki, bu kitabların hamısı da böyük sünnü alimləri tərəfindən yazılıbdır.

«Xülaseyi Əqəbatül Ənvar» kitabının mülhəqatında qeyd olunubdur ki, bu hədis 8 nəfər səhabədən, 8 nəfər tabeindən (onlar ki, peyğəmbəri (s) görməyib, lakin peyğəmbəri (s) görənləri görüblər), 3 nəfər II əsrin (h.q) alimlərindən, 8 nəfər III əsrin alimlərindən, 14 nəfər IV əsrin alimlərindən və bu tərtib ilə hər əsrdə yazılmış kitablarda qeyd edilibdir.

«Səfinə» hədisindən istifadə olunan məqamlar

Bildiyimiz kimi həzrəti Nuhun qovmi etdikləri fəsada görə Allah-taala tərəfindən bəlaya mübtəla oldular. Yer üzünü su əhatə etdi və hamı qərq oldular, ancaq Nuh (ə)-a iman gətirib onun gəmisinə minənlər bu bəladan qurtuldular. Hətta Nuhun öz oğlu da bu bəladan qurtara bilməyərək qərq oldu. Yeri gəlmişkən, bəziləri irad tutur ki, guya o adamlar ki, peyğəmbər (s)-i görüblər, onunla yaxından əlaqədə olublar, ola bilməz ki, onlar peyğəmbərdən (s) sonra yollarını azsınlar. Amma onlar yanılırlar. Həzrəti Nuhun oğlunun əhvalatı buna bir dəlildir. Həzrəti Nuha Allah-taala buyurdu: «Ey Nuh, o sənin əhlindən deyil». Və yaxud Qur'ani Kərimdə peyğəmbər (s)-in əmisi barəsində buyurulur: «Kəsilsin Əbu Ləhəbin əlləri, dünya və axirət xeyrindən».

Bu ayələr göstərir ki, heç kim, kiminləsə qohumluğa görə yaxşı və ya pis ola bilməz. Insanı ucaldan və endirən onun əməlləridir. Imam Sadiq (ə) buyurur: «Elə

bilirsiniz Allah-taala bizi nəsə bir qohumluğa ya başqa bir səbəbə görə imam qərar veribdir? Xeyir. Allah-taala bizi əməlimizlə görə imam qərar veribdir».

Bəli, həmən əməllərə görə və bu Allah dinindən bütün varlıqları ilə tutduqlarına görə, Allah-taala onları imam qərar verib və elə o əməllərinə görə peyğəmbər (s) onları (əhli-beyti) Nuhun gəmisinə bənzədibdir.

Əhli-beyti Nuhun gəmisinə bənzətməydə bir çox mənalar var və bu bənzətmə çox həqiqətlərin üstünü açır. O cümlədən:

1. Peyğəmbərdən (s) sonra islam ümmətini böyük tufanlar əhatə edəcək və çoxlarını aparıb ləpələr arasında qərq edəcək.

2.Din, iman və insanların ruh və canını hədələyən bu bəladan qurtarmağın ancaq bir yolu vardır. O da nicat gəmisi olan əhli-beytin ardınca getməkdir.

3.Belə bir tufanda və fırtınada gəmidən uzaq düşən, yəqindir ki, həlak olacaq.

4.Həzrəti Nuhun gəmisinə minməyin şərti iman və saleh əməl idi. Necə ki, Nuh öz oğluna buyurdu: «Gəl bizimlə gəmiyə min və kafirlərdən olma».

Bəli, əhli-beytin də vasitəsi ilə nicat tapmağın şərti iman və saleh əməldir.

5.Rəvayətdə varid olub ki, Nuhun oğlu atasına çox məhəbbət edərdi, amma bununla belə tufandan qurtula bilmədi. Deməli təkcə məhəbbət etmək insanı bəladan qurtara bilməz. Gərək məhəbbətlə birlikdə qulaq asıb, ardınca gedib, əmrə itaət etmək oluna ki, ta bəladan qurtara biləsən. Əgər gəminin sərnişinləri gəminin kapitanına qulaq asmasalar, o gəminin qayda-qanunlarına riayət etməsələr, o gəmiyə

minə bilməzlər. Əhli-beytin vasitəsilə nicat tapmaqdan ötəri də qanunlar vardır ki, gərək onlara riayət olunsun.

6. «Hədisi Səqəleyn»dən istifadə olundu ki, Əhli-beytin ətəyinə cəng vurmaq qiyamətə qədər davam edəcək. Quran və Əhli-beyt bir-birindən ayrılmayacaq və hövzi kövsərin yanına birlikdə gələcəklər. «Səfinə» hədisindən də istifadə olunur ki, bu xətt qiyamətə qədər davam edəcək və camaatın bu gəmidən dünya qurtarana qədər istifadəsi olacaq. Çünki, dünya həmişə tufanlarla doludur. Hər bir zamanda şeytanlar insanları vəs-vəsə edir.Bu tufanlar qiyamətə qədər davam edəcəkdir. Ona görə də bu gəminin olması labüddür və o gəmidən uzaq düşmək həlakətə səbəb olacaqdır.

7.Heç bir qeyd və şərt olmadan Əhli-beytin ardınca getməkliyin vacib olması aydıncasına sübut edir ki, hər bir zamanda gərək məsum bir imam olsun. Onun ardınca gedənlər nicat tapanlardan, getməyənlər isə qərq olanlardan olacaqlar.

8.Həzrəti peyğəmbər (s)-dən məşhur bir hədis vardır ki, həzrət buyurur:

سَتَفْرِقُ اُمَّتی علی ثَلاثِ وَ سَبْعینَ فِرْقَةٍ فِرْقَةٌ ناجِیَةٌ وَ الباقون فی النّار

«Tezliklə mənim ümmətim 73 firqəyə bölünəcək, bir firqə nicat tapacaq, qalanları isə zəlalətdə olacaqlar».

Bu hədisi bir çox sünnü və şiə alimləri öz kitablarında dərc ediblər. O yazıların bəzilərində varid olub ki, Əli (ə) həzrəti peyğəmbər (s)-dən soruşdu: Ya rəsulallah, bu nicat tapan firqə hansıdır?

Həzrət buyurdu: Onlar, səni tanıyıb, sənin imamətini qəbul edənlərdir.

Bu hədis «Səfinə» hədisinə bir növ təfsirdir, yəni onun açılışıdır. Bu hədis göstərir ki, kimlər əhli-beytin məktəbindən dərs alsa həmişə hidayət nurunda olacaqlar.

Bu sadaladığımız məqamların hamısında istifadə olunur ki, Əhli-beytlə imamət məsələsi Usuli bir məsələdir ki, onu yüngül saymaq olmaz.

Nücum (ulduz) hədisi

Islam mənbələrində əhli-beytin barəsində çox geniş surətdə varid olmuş hədislərdən biri də «Nücum» hədisidir. Bu hədis göstərir ki, hər bir zamanda əhli-beyt camaatın yol göstərəni və hidayət edənidirlər. Bu hədisi də ən azı 7 nəfər səhabə həzrəti peyğəmbər (s)-dən nəql ediblər. Onlar Əli (ə), Cabir ibni Əbdullah, Əbu Səid Xudri, Ənəs ibni Malik, Münkədir ibni Əbdullah, Sələmət ibni Əkvə və Ibni Abbasdır. Bundan əlavə bu hədis onlarla əhli-sünnə kitablarında qeyd olunubdur. Onlardan bəzilərinə nəzər yetirib, sənədlərinə diqqət edək.

1.Hakim Nişaburi «Müstədrək» kitabında Ibni Abbasdan nəql edir: Islam peyğəmbəri (s) buyurur:

النُّجُومُ اَمانٌ لِاَهْلِ الأَرْضِ مِنَ الغَرْقِ وَ اَهْلُ بَيْتى اَمانٌ لِاُمَّتى مِنَ الإِخْتِلافِ فَاِذا خالَفَتْها قَبِيلَةٌ مِنَ العَرَبِ اِخْتَلَفُوا فَصاروا حِزْبَ اِبْليسَ

«Ulduzlar yer əhli üçün əmniyyəti təmin edir, onları dənizdə qərq olmaqdan xilas edir. Mənim əhli-beytim də ümmətimi ixtilafdan xilas edəndir. O zaman ki, ümmətdən bir qəbilə onlarla müxalifət edər, ümmətin arasında ixtilaf qalxar və onlar şeytanın dəstəsindən olarlar».

Bu hədisi yazandan sonra Hakim qeyd edir: bu hədisin sənədləri səhehdir (Hakim Nişaburi «Müstədrək» kitabı 3-cü cild, 149-cu səh.)

Əllamə Həmzavi «Məşariqül Ənvar» kitabında yazır: Hakim Nişaburi öz kitabında qeyd etdiyi səheh rəvayətdə belə yazıbdır: «Ulduzlar yer üzünün əmniyyətini təmin edir, mənim əhli-beytim də ümmətimi ixtilafdan qurtarmağı təmin edirlər».

Bu hədisi alimlərdən Ibni Hacər «Səvaiq» kitabında, Əllamə Əli Müttəqi «Müntəxəbu kənzül Ümmal» kitabında, Bədəxşi «Miftahül Cinah» kitabında, Əllamə Bənhani «Əşşərəfül müəyyəd» və «Cəvahirül bəhar» kitabında Şeyx Mühəmməd Səban Maliki «Əsğafürrağibin» kitabında yazıblar.

Bu qeyd etdiyimiz hədis ibni Əbbasın vasitəsilə nəql olunmuş hədisdir. Bundan əlavə başqalarının vasitəsilə də bu hədis eyni məna və bir qədər fərq ilə nəql edilibdir. Məsələn: Sələmət Ibni Əkvənin Əli (ə)-dan olan bir hədisində oxuyuruq ki, həzrəti peyğəmbər (s) buyurdu:

النُّجُومُ اَمانٌ لِأَهْلِ السَّماءِ فِاذا ذَهَبَت النُّجُومُ ذَهَبَ اَهْلُ السَّماءِ وَ اَهْلُ بَيْتى اَمانٌ لِأَهْلِ الأَرْضِ فِاذا ذَهَبَ اَهْلُ بَيْتى ذَهَبَ اَهْلُ الأَرْضِ

«Ulduzlar göy əhlinin əmniyyətini təmin edirlər, əgər ulduzlar aradan getsə göy əhli aradan gedər. Mənim əhli-beytim yer əhlinin əmniyyətini təmin edirlər. Əgər mənim əhli-beytim aradan getsə yer üzü aradan gedər».

Bu hədisi Muhibuddin Təbəri «Zəxarül Üqba» kitabında, Əhməd Hənbəlin «Mənaqib» kitabından nəql edibdir. («Zəxarül Üqba» səh.7 Misir çapı).

Bu hədisin Əli (ə)-dan nəql olunmuş variantını da bir çox alimlər öz kitablarında nəql ediblər. Məsələn: Həmvini «Fəraid əssəmteyn» kitabında, Ibni Həcər «Səvaiq» kitabında, Mühəmməd Səban «Əsğaf Ərrağibin» kitabında, Xarəzmi «Məqtəlül Hüseyn» kitabında və Nəbhani «Əşşərəfül Müəyyəd» kitabında qeyd edibdir

«Nücum» hədisindən istifadə olunan məqamlar

«Nücum» hədisində müxtəlif məqamlara işarə olunubdur.

1.Bu hədis həqiqətdə işarə edir, Qur'anın «Nəhl» surəsinin 16-cı və «Ənam» surəsinin 97-ci ayələrinə ki, onlar da göy ulduzlarının fəaliyyəti barədə danışılır. Birinci ayədə buyurur:

«Onlar ulduzların vasitəsilə hidayət olunarlar». Ikinci ayədə isə belə buyurur: وَهُوَ الَّذِي جَعَلَ لَكُمُ النُّجُومَ لِتَهْتَدُواْ بِهَا فِي ظُلُمَاتِ الْبَرِّ وَالْبَحْرِ (Ənam surəsi, Ayə 97)

«Allah-taala dənizlərin və səhraların qaranlıqlarında hidayət olmaq üçün sizdən ötəri ulduzlar qərar veribdir».

Bu ayələrdə ulduzların çox əhəmiyyətli olan faidələrinə işarə edilir. O zamanlar ki, hələ kompas ixtira olunmamışdı, yolları tanımaqdan ötəri, xüsusən də dəniz yollarını tanımaqdan ötəri ulduzlardan istifadə olunardı. Ona görə də buludlu gecələrdə gəmilərin hərəkəti dayandırılardı.

Ulduzların başqa bir faydasını da Allah-taala Qur'anın «Saffat» surəsinin 6-9-cu ayələrində belə cilvələndirir:

إِنَّا زَيَّنَّا السَّمَاء الدُّنْيَا بِزِينَةٍ الْكَوَاكِبِ وَحِفْظًا مِّن كُلِّ شَيْطَانٍ مَّارِدٍ لَا يَسَّمَّعُونَ إِلَى الْمَلَإِ الْأَعْلَى وَيُقْذَفُونَ مِن كُلِّ جَانِبٍ دُحُورًا وَلَهُمْ عَذَابٌ وَاصِبٌ

«Biz dünya göyünü ulduzlarla zinətləndirdik. Göyləri hər bir xəbis şeytandan qoruduq. Onlar (şeytanlar) yuxarıdakı aləmə qulaq asa bilməzlər. (Əgər qulaq asmaq istəsələr). Hər tərəfdən onlara hədəf olarlar, şiddətlə geri qaytarılarlar və onlar üçün daimi əzab vardır».

Bu ulduzlar «Rucumi şəyatin» adı ilə məşhurdurlar. Yəni ox və güllə mislindədirlər ki, şeytanlara atılar və onların göylərə nüfuzunun qarşısı alınar.

Ulduzlar şeytanların qarşısını necə alarlar və göylərə nüfuz etməyə qoymazlar, bir ayrı bəhsdir ki, bu ayələrin təfsirində qeyd olunubdur. Maraqlananlar təfsir kitablarına müraciət etsinlər. Burada bizə lazım olan elə bu qədərdir ki, ulduzlar göy aləmini ziyanvericilərdən (şeytanlardan) qoruyurlar. Bu ulduzların göy əhlinin qarşısında olan xidmətləridir. Amma yer əhlini belə bəlalardan, küfr və fəsad zülmətindən nicat verib, həqiqəti onlara göstərən, peyğəmbər (s)-in əhli-beyti və

imamlardır. Onların vəzifəsi təkcə bununla tamam olmur. Əhli-beyt, o zaman ki, şeytanlar və cinnilər islam hərəminə nüfuz edib Qur'an və sünnətin əhkamını təhrif etmək istəyəndə, ulduzlar kimi onlara (şeytanlara) hücum edir və onları geri qaytarırlar. Qeybi əllərini naməhrəmlərin sinəsinə vurub onları islam sirrindən uzaqlaşdırarlar.

Burada çox diqqət etməli bir məqam vardır ki, bu hədis əhli-beyt ixtilafların qarşısında xüsusi bir xilaskar hesab edir. Əgər bu ixtilaflar davam etsə camaat şeytanın dəstəsindən olarlar».

2.Bu hədisdən istifadə olunur ki, Əhli-beytin hidayət xətti dünyanın sonuna qədər davam edəcək, necə ki, ulduzların bu fəaliyyəti sona qədər davam edəcəkdir.

3.Bu hədis («Nücum» hədisi) əhli-beytin bütün günahlardan və xətalardan məsum olduğunu sübut edir. Çünki, əgər onlar günah və xətadan məsum olmasaydılar, həzrəti peyğəmbər (s) onları mütləq və kamil surətdə yer əhlinin əmanı adlandırmazdı.

4.Necə ki, göy ulduzlarından biri qurub edəndə başqası onun yerini tutur, peyğəmbər (s)-in əhli-beyti də eləcə, biri dünyadan köç edərkən başqa birisi onun yerini tutur. Necə ki, 11 nəfər imam dünyadan köçəndə biri o birini əvəz etdi və nəhayət on ikinci imam Sahibəzzaman (ə.s) təqribən 1200 ildir ki, yer əhlini ixtilaflardan qoruyur, islamı şəyatindən hifz edir. Əli (ə) «Nəhcülbəlağə»nin 100-cü xütbəsində bu mətləbi bəyan edir:

اَلا اِنَّ مَثَلَ آلِ مُحَمَّدٍ (ص) كَمَثَلِ نُجُومِ السَّماءِ اِذا هُور نَجْمُ طَلَعَ نَجْمٌ

«Agah olun, Ali-Mühəmməd göy ulduzları kimidir, biri qürub edərkən o biri onun yerində çıxır».

Bəziləri bu hədisdəki «Əhli-beyt» kəlməsini peyğəmbərin (s) həyat yoldaşlarına aid edirlər. Amma belə deyil. Əvvələn peyğəmbərin (s) xanımlarının islam ümmətinin ixtilafa düşməməsində ulduzlar qədər rolları olmayıb. Bundan əlavə hədisdən («Nücum» hədisindən) ələ gələn məqamlardan istifadə olundu ki, Əhli-beytin bu işi dünyanın sonuna qədər davam edəcək, amma peyğəmbərin (s) xanımları bir zaman yaşayıb və o zamanda da dünyadan köç ediblər.

Peyğəmbər (s)-in əhli-beytindən olan imamların adları

Sünni və şiə mənbələrində hədislər vardır ki, onlarda 12 imamın adları qeyd olunmuşdur. Mətləbi çox uzatmamaq üçün o hədislərin tərcüməsini yazırıq. O hədislərdə peyğəmbr (s)-dən belə nəql olunub: «Məndən sonra mənim canişinim Əli (ə), sonra imam Həsən (ə), imam Hüseyn (ə), ondan sonra imam Əli ibn Hüseyn, sonra Imam Baqir, sonra Cəfər ibni Mühəmməd, sonra Musa ibni Cəfər, sonra Əli ibni Musa, Mühəmməd ibni Əli, Əli ibni Mühəmməd, sonra Həsən ibni Əli və ibni Həsən Məhdidir (ə.s).

Bu hədislərdən birini «Fəraid əssəmteyn» kitabında ibni Abbasdan (sənədi ilə) belə nəql edir: «Bir nəfər yəhudi həzrəti peyğəmbərin (s) yanına gəldi. Ondan müxtəlif şeylər haqqında sual etdi, o cümlədən peyğəmbərin canişini haqqında soruşdu. Allahın peyğəmbəri (s) birinci canişini Əli ibni Əbutalibin, sonra imam Həsən, imam Hüseyn və onun sülbündən olan doqquz nəfər imamın adını çəkdi». Yəhudi islamı qəbul edərək dedi: Həqiqətən sən peyğəmbərsən. Çünki mən keçmiş peyğəmbərlərin, o cümlədən həzrəti Musanın kitabında oxumuşam ki, axirəzzaman peyğəmbərin birinci canişini onun kürəkəni, ikinci və üçüncü canişini onun oğlanları, iki qardaşlar, qalan doqquz nəfəri üçüncü imamın sülbündən olacaqlar.

«Yənabeül Məvəddə» kitabında Cabir ibni Əbdullahdan bu məzmunda bir hədis nəql edilibdir. Belə hədislər çoxdur. Bu hədislər və bunun kimi bir çox ayələr ki, hamısının haqqında bəhs etdik, sübut edir ki, həqiqətən peyğəmbərin (s) həqiqi canişinləri yuxarıda adlarını qeyd etdiyimiz imamlardır. Bu məqam həqiqət əhli üçün çox aşkardır. Biz də bu yazı ilə az da olsa həqiqəti onun əhlinə çatdırmağa çalışdıq.

Sonda onu da qeyd etmək istərdik ki, bu həqiqət iki yerdə bir daha çox gözəl və ədalətli surətdə aşkar olacaq. Onlardan biri, imam zamanın zühurunda, həzrəti Isa ilə gəlib Kəbədə dünyaya öz hakimiyyətini elan edəndə, ikincisi isə qiyamət günü, ədalət meydanında, o günün sahibi olan Allahın hüzurunda.

Allah-taalanı and veririk öz Izzət və Cəlalına, bizi o günlərdə imamın dəstəsindən qərar versin, bizi bu yolda addım atanlardan hesab etsin, bizi o iki böyük gündə xəcalətli etməsin!

12 Imam hədisi

Imamət barəsində bir neçə hədis, ayələrin haqqında söhbət edərkən qeyd etmişdik. Buna misal olaraq «Hədisi Qədr», «Hədisi yaməddar», «Hədisi Qeyr»-ni göstərmək olar. Indi də imamların sayının on iki nəfər olmasına dəlalət edən hədisi nəzərinizə çatdırırıq.

Bu hədis ümumi surətdə əhli-beytin imamət və vilayətini aşkar edir və bu haqda olan bir çox suallara cavab verir.

«On iki imam» hədisi məşhur olan islam hədislərindəndir ki, sünnü mənbələri olan «Sihah»ların çoxunda nəql edilibdir.

Əvvəla bu hədisin sənədləri barədə danışaq. Sonra isə onun məna və məhfumuna diqqət edərik.

Bu hədisi yeddi nəfər səhabə həzrəti peyğəmbər (s)-dən nəql edibdir. O səhabələr bunlardır: Cabir ibni Səmrə, Əbdullah ibni Məsud, Əbdullah ibni Ömər, Əbdullah ibni Ömər ibni As, Əbdülməlik ibni Ümeyr, Əbi Cild və Əbi Cəhifə.

Bu hədisi yazan kitabların sayı onlarladır ki, onlardan bəzilərinə işarə edirik:

1. «Səhihi Müslüm»də Cabir ibni Səmrədən nəql olunur: Peyğəmbər (s)-dən eşitdim buyurur:

سَمِعْتُ رَسُولَ اللهِ (ص) يَقُولُ: لا يَزالُ الأسلامُ عَزيزاً اِلى اِثْنى عَشَرَ خَليفَةً ثُمَّ قال كَلِمَةً لَمْ اَفْهَمْها! فَقُلْتُ لِاَبى ما قالَ؟ فَقالَ كُلُّهُمْ مِنْ قُرَيْشٍ

«Islam həmişə əziz olacaq, on iki nəfər xəlifənin hakimiyyəti ilə»-Cabir deyir, sonra həzrət bir söz dedi, eşitmədim. Atam orada idi. Ondan soruşdum ki, peyğəmbər (s) nə buyurdu?

Atam dedi: Peyğəmbər (s) buyurdu ki, «onların (on iki imam) hamısı Qüreyşdəndir».

Həmin kitabda Cabirdən başqa hədislər də bu barədə nəql olunubdur ki, «din» kəlməsinin yerinə «əmr» kəlməsi yazılıbdır.

Başqa bir yerdə qeyd olunubdur («Səhih Müslüm» III cild): Amir ibni Səd ibni Əbi Vəqqas deyir: Mən Cabir ibni Səmrəyə məktub yazıb peyğəmbər (s)-dən eşitdiyi bəzi xəbərləri ondan xəbər aldım. O, mənə yazmışdı: mən peyğəmbər (s)-dən eşitdim, buyurur:

لا يَزالُ الدينُ قائماً حَتى تَقُومُ الساعَةُ اوْ يَكُونُ عَلَيْكُمْ اِثْنى عَشَرَ خَليفَةً كُلُّهُمْ مِن قُرَيشٍ

«Islam dini qiyamətə qədər yaşayacaq. Bu müddətdə on iki nəfər sizə imamlıq edəcək. Onların hamısı Qüreyşdən olacaqdır».

Yenə başqa bir yazıda «Səheh Müslüm»də Cabirdən nəql edilir: Həzrəti peyğəmbər (s) buyurdu: «Bu din on iki nəfər xəlifənin vasitətsi ilə çox qüdrətli və məğlubedilməz olacaqdır».

Bu hədis «Səhih Buxaridə», «Səhihi Termizi»də, «Səhihi ibni Əbi Davud»da, «Müsnədi Əhməd»də qeyd olunubdur. Bu kitablar həmin hədisi 34 variantda zikr ediblər.

«Müsnədi Əhməd»in I cildi 398-ci səhifəsində (Beyrut çapı) Məsruqdan nəql olunur. Məsruq deyir: Biz Əbdullah ibni Məsudun yanında oturmuşduq. O, bizə Quran oxuyurdu. Bir nəfər ondan soruşdu: Ey Məsud, həzrəti peyğəmbər (s)-dən soruşdunuz ki, neçə nəfər xəlifə bu ümmətə hökumət edəcəkdir?

Əbdullah ibni Əmsud dedi: Iraqa gələndən sən birinci adamsan ki, bu sualı mənə veribsən. Bəli, biz peyğəmbər (s)-dən bunu soruşduq. Həzrət buyurdu: هُمْ اِثْنی عَشَرَ کَعِدَةِ نُقَباءِ بَنی اِسْرائیل

«Onlar on iki nəfər olacaqdır. Eyni ilə Bəni Israilin nüqəbaları kimi (12 nəfər bəni Israilin qəbilə başçıları var idi).

Bu hədisi nəql edən kitabları və onların barəsində geniş surətdə məlumat almaq istəyənlər «Ehqaqul həqq», «Fəzailül Xəmsə», «Müntəxəbül Əsər» kitablarına müraciət edə bilərlər.

On iki imam hədisindən istifadə olunan məqamlar

Bu hədisdəki ibarələr müxtəlifdir. Bəzilərində «on iki xəlifə», bəzilərində «on iki kişi», bir başqasında «bəni Israil Nüqəbaları» kimi ibarələr vardır. Başqa bir tərəfdən isə bəzi yerlərdə «bu din», başqa birində «bu əmr», «Əziz və müni», «Salihəl» və ya «zahirən» kəlmələri ilə ifadə olunubdur. Amma, bütün bunlara baxmayaraq sadalanan ifadələrin hamısı «bu dinin qiyamətə qədər davam edəcəyinə» dəlalət edir.

Bundan əlavə bu rəvayətlərin çoxunda «onların hamısı Qüreyşdəndir» ifadəsi qeyd olunubdur. Bir neçə rəvayətdə isə, məsələn Qunduzi Hənəfinin «Yənabeül məvəddə» kitabında qeyd etdiyi rəvayətdə («Yənabeül Məvəddə» səh. 445, 77-ci bab). «Onların hamısı bəni Haşimdəndir», ibarəsi ilə qeyd edilmşidir. Hər halda bu hədisin təfsiri əhli-beyt dostları üçün çox aydındır. Əhli-beyt dostları bu on iki nəfəri, on iki nəfər məsum imamdan başqa heç kimə aid etmirlər.

Amma bu hədisin mənası (əhatə dairəsi) başqa məzhəblərdə müxtəlif tərəflərə yönəldilibdir ki, onların heç biri insanı aydın bir nöqtəyə, məqama yönəltmir. Çünki, bəziləri deyirlər ki, bunlar xüləfayi raşidindirlər, bəziləri isə bunu bəni üməyyə xəlifələrinə aid edirlər, başqa bir qrup bunun bəni Əbbasi xəlifələrinə şamil olduğunu qeyd edirlər. Amma, bildiyimiz kimi Raşidin xəlifələri 4 nəfər, Bəni Üməyyə xəlifələri

14 nəfər, Bəni Əbbasi xəlifələri isə 37 nəfər (ya bir az çox) olublar. Göründüyü kimi adı gedən xəlifələrin heç birinin sayı hədisdə olan sayla uyğun gəlmir.

Yeri gəlmişkən, yaxşı olar ki, söhbətimizin bu yerində Hafiz Süleyman ibni Ibrahim Qunduzi Hənəfinin məşhur «Yənabeül məvəddə» kitabından nümunə gətirək. Həmin kitabın 446-cı səhifəsində müəllif yazır: «Peyğəmbərdən (s) sonra xəlifələrin sayının 12 nəfər olmasına məşhur hədislər dəlalət edir. Zaman keçdikcə məlum olur ki, onlar peyğəmbərin (s) əhli-beytindən olan 12 nəfər məsum imamlardır. Çünki bu hədisi nə peyğəmbərdən (s) sonrakı Raşidin xəlifələrinə (Əbubəkr, Ömər, Osman, Əli(ə)) aid etmək olmaz, ona görə ki, onların sayı 12-dən azdır, nə bəni üməyyə xəlifələrinə aid etmək olmaz, ona görə ki, əvvəla onların sayı 12-dən çoxdur, digər bir cəhətdən isə onlar çox böyük zülmlər və günahlar ediblər, üçüncü cəhətdən onlar Bəni Haşimdən deyillər. (Bəzi hədislərdə onların 12-si də Bəni Haşimdəndir deyilib). Həzrəti peyğəmbər (s)-in hədisin bu hissəsini astadan deməyi də buna dəlalət edir, ona görə ki, çoxlarının bəni Haşimin xilafətindən xoşları gəlmirdi.

Həmçinin bu hədisi (12 imam hədisi) Bəni Əbbasilərə də aid etmək olmaz. Onların da sayı on iki nəfərdən çoxdur. Bundan əlavə onlar (de: sizdən risalətim müqabilində heç bir əcr istəmirəm, məgər əhli-beytimə məhəbbət istəyirəm) «Şura» surəsi 23-cü ayəsinə və «hədisi kəsa»yə əməl etməyiblər. Yəni həzrəti peyğəmbər (s)-in əhli-beytinə olmazın zülmlər ediblər. Ona görə də bu hədisi peyğəmbər (s)-in əhli-beytindən olan 12 nəfərdən başqa heç kimə aid etmək olmaz. Qeyd olunan 12

nəfər xəlifə məhz onlardırlar. Çünki onlar hər bir zamanda ən agah, təqvalı və öz zəmanələrinin ən mötəbər adamlarıdırlar».

Budur, böyük sünnü alimi Qunduzi-Hənəfinin sözləri.

Doktor Mühəmməd Ticani Səmavi əvvəldə əhli sünnə məzhəbində olmuş bir alimdir. Sonradan şiəçiliyi qəbul edib və şiəçiliyi qəbul etməyinin səbəbi olaraq «Lə əkunə məəssadiqin» (gərək sadiqlərlə olaq) adlı bir kitab yazıbdır. Həmən kitabda doktor Ticani yazır: Bu hədisləri (12 imam hədisləri) peyğəmbərin (s)əhli-beytindən olan 12 imamdan başqa heç kimə şamil etmək olmur. Əhli-sünnə böyükləri gərək bu məsələni həll etsinlər. Çünki, özlərinin «Sihah» kitablarında imamların sayını 12 nəfər yazıblar, amma bu on iki nəfərin kimlərə şamil olduğunu hələ də müəyyən etməyiblər. («lə əkunə məəssadiqin», səh.146).

Çox təəccüblüsü ondadır ki, bəziləri bu hədisi təfsir edərkən 12 nəfəri düzəltməkdən ötəri öz meyl və maraqları ilə istədikləri xəlifəni seçib, istədiklərini, də gətirib o on iki nəfərin sırasına daxil ediblər. Əgər Yezid bu on iki nəfərin içərisində olsa, onda belə çıxır ki, həzrəti peyğəmbər (s) ki, buyurub: «Islam 12 nəfərin vasitəsi ilə əziz olacaq», onda həmin şəxs (Yezid) də Islamı əziz edənlərdən hesab edilməlidir. Heç bir zaman belə bir söz peyğəmbərin (s) fikrinə xütur etməzdi, o da qalmışdı ki, peyğəmbər (s) bu sözü dilinə gətirsin, özüdə dəfələrlə.

Bundan əlavə həzrəti peyğəmbər (s)-dən məşhur hədisimiz vardır ki, buyurur: «O zaman ki, Müaviyəni mənim mənbərimdə gördünüz, onun qarnını cırın». Imam

Hüseyn (ə) buyurur: Camaat Müaviyəni peyğəmbər (s)-in mənbərində gördü, amma onun qarnını cırmadı. Ona görə də bu camaata Yezid hakim oldu.

Yezid necə gəlib 12 nəfər xəlifədən biri ola bilər ki, o (Yezid), peyğəmbər (s)-in haqqında demişdir:

لَعِبَتْ هاشِمُ بِالمُلْكِ فَلا خَبَرٌ جاءَ وَ لا وَحْيٌ نَزَلَ

«Peyğəmbər (s) padşahlıq eşqinə düşmüşdü. Yoxsa nə xəbər gəlmişdi, nə də ki, vəhy nazil olmuşdu». Yaxud, Yezidin təhrif olunmuş məsihiyyətə meyilli olduğu aydın görünməkdədir. Məsələn içki məclisində belə bir şer deyib: «Məscidləri burax abidələr üçün, sən isə gəl bizimlə şərab iç». Və ya şərabın halallığını sübut etmək istəyəndə deyib: «Əgər bu şərabı Əhmədin dinində haram görübsənsə, get, onu Isa ibni Məryəmin dinində halal taparsan».

Yezid necə xəlifə ola bilər ki, imam Hüseyn (ə) onun beyət məsələsini eşidəndə buyurub: «Əgər Yezid kimi bir adam islama rəhbər olsa, onda gərək islamın fatihəsi oxunsun».

Amma çox təəssüflər olsun ki, bəziləri kitab yazaraq adını «Əmirəlmöminin Yezidin həqiqətləri» qoyublar. Halbuki Imam Sadiq (ə) buyurub: Əmirəlmöminin ləqəbi, ancaq cəddim Əli ibni Əbutalibə məxsusdur.

Bir nəfər ki, şərab içən, qumar oynayan, it və meymun oynadan ola, ondan necə xəlifə ola bilər, ondan hansı həqiqətləri gözləmək olar?

Qayıdaq mövzumuzun davamına. Yaxşı olardı ki, yazdıqları kimi, elə o hədislərin təfsirini də düzgün qeyd edib xalqa elan edəydilər ki, «On iki imam hədisi»ndən məqsəd, peyğəmbər (s)-in Əhli-beytindən olan 12 nəfər məsum imamlardır ki, adları ardıcıl olaraq növbəti hədislərin birində qeyd olunacaqdır. bununla da həm həqiqəti etiraf edəydilər, həm də milləti çaşqın salmayaydılar.

Bunlardan da təəccüblü təfsirlər qeyd olunubdur bu hədisə. Belə ki, deyirlər: «Bu on iki nəfər xəlifənin dördü əvvəldə olan dörd nəfərdir, səkkizi isə gələcəkdə zühur edəcəkdir». Amma hədisdə oxuyuruq ki, o, on iki nəfər xəlifə ardıcıl olaraq hökumət edəcəkdir.

Bu bəhsi Hafiz Əbu Ənim Isfəhanidən olan bir hədislə tamamlayaq. O, Ibni Əbbasdan, o da peyğəmbər (s)-dən nəql edir:

مَنْ سَرَّهُ اَنْ يَحْيى حَياتي وَ يُموتَ مَماتى وَ يَسْكُنَ جَنَّةَ عَدْنٍ غَرَسَها رَبّى فَلْيُوالِ عَلِيّاً مِنْ بَعْدى، وَلْيُوالِ وَلِيَّهُ وَلْيَقْتَدِ بِالأَئِمَّةِ مِنْ بَعْدى فَاِنَّهُمْ عِتْرَتى

«Hər kəs istəyir mənim kimi yaşaya, mənim kimi ölə, Allahın ağaclarını əkdiyi behiştdə sakin ola gərək məndən sonra Əlini sevə, onun imamətini qəbul edə və ondan sonrakı imamların imamətini qəbul edə ki, onlar mənim itrətimdirlər. Onların birincisi Əli (ə), sonuncusu isə Mehdi (ə.c)-dir»

Bəzi hədislərdə qeyd olunubdur ki, peyğəmbər (s) imam Hüseynə işarə edib buyurdu: «On iki nəfərin üçüncüsü budur və o (imam Hüseyn), doqquz imamın

atasıdır». Bu haqda gələcəkdə imamların adlarını qeyd edərkən ayrıca bəhs olunacaq, inşaallah!

Yer üzündə həmişə ilahi höccət olmalıdır.

Islam mənbələrində gələn mühüm məsələlərdən biri də budur ki, yer üzü həmişə ilahi bir höccətə ehtiyaclıdır. Bir çox rəvayətlərdə bu mətləb təkrarən qeyd olunmuşdur: Yer üzündə həmişə ya «imam», ya «peyğəmbər», ya da ki, bir höccət olmalıdır.

«Kafi» kitabında bu haqda iki fəsl yazmışdır. Bir fəsldə 13 hədis imam Sadiq (ə), imam Baqir (ə) və imam Rza (ə)-dan nəql edilmişdir. Başqa bir fəsldə; «Əgər yer üzündə iki nəfər qala, biri ilahi höccət olmalıdır» ünvanı altında beş rəvayət qeyd edilmişdir.

Bu hədislərin birində imam Sadiq (ə)-dan oxuyuruq:

«Yer üzündə həmişə ilahi bir höccət olmalıdır ki, əgər möminlər bilmədən dinə bir şey əlavə etsələr və ya azaltsalar onun qarşısını alsınlar».

Başqa bir hədisdə yenə imam Sadiq (ə) buyurubdur:

اِنَّ اللهَ اَجَلَّ و اَعْظَمُ مِن اَنْ يَتْرُكَ الأَرْضَ بِغَيْرِ اِمامٍ عادلٍ

«Allah-taala heç vaxt yer üzünü adil olan imamdan boş qoymaz».

Hətta bu rəvayətlərin bəzilərində yazılıb ki, əgər yer üzündə bir saat ilahi höccət olmasa, yer silkələnər və öz əhlini qərq edər. Həmən hədisin sonunda qeyd

olunubdur: «Axırıncı adam ki, dünyadan köç edəcək, ilahi höccət olacaqdır». Necə ki, birinci insan (Həzrəti Adəm) ilahi höccət idi.

Əvvəldə qeyd etdiyimiz 17 hədisdən əlavə Əli (ə) «Nəhcül-bəlağə»də öz bəyanatlarının birində Kumeyl ibni Ziyada buyurur:

اللّهُمَّ بَلی لا تَخْلُو الأَرْضُ مِنْ قائِمٍ للهِ بِحُجّةٍ، اِمّا ظاهِراً مُشْهُوراً وَ اِمّا خائِفاً مَغْمُوراً لِئلاّ تَبْطُلَ حُجَجُ اللهِ وَ بَيِّناتُهُ

«Bəli, yer üzündə həmişə ilahi bir höccət olmalıdır ki, ilahi dəlillərlə qiyam etsin, istər aşkar surətdə zahir olsun, istərsədə qorxulu vəziyyətdə gizlin olsun, ta Allahın dəlilləri və aydın olan əlamətləri aradan getməsin».

Mərhum Əllamə Məclisi «Əliztirarü iləl höccət» («ilahi höccətə ehtiyac») babında bu haqda 118 hədis qeyd edibdir. Onlardan bir qismi «Üsuli Kafi»də qeyd olunmuş hədislərdir.

Buradan məlum olur ki, hər bir əsrdə və zamanda yer üzündə ilahi bir höccət olmalıdır. Bu zəruri bir məsələdir. Məhz bu haqda imam Musa ibni Cəfər buyurub: اَنَّ اللهَ لا يُخلِی اَرْضَهُ مِنْ حُجَّةٍ طَرْفَةَ عَيْنٍ اِمّا ظاهِرْ وَ اِمّا باطِنْ

«Allah-təala yer üzünü ilahi höccətdən boş etməz, hətta bir göz qırpımında da, ya aşkar, ya da gizlin».

Ilahi höccətin olmağına məntiqi

və Qur'an sübutları

Yuxarıda qeyd olunan hədis və rəvayətlər əqli dəlillərlə də uyğun gəlir. Çünki, «Lütf qaydası»na əsasən hər bir zamanda yer üzündə peyğəmbər, imam və ya ümumi surətdə ilahi bir höccət olmalıdır.

«Lütf qaydası»na əsasən Allah insanı səadət və təkamüldən ötəri yaradıbdır və onun üzərinə bir çox təkliflər qoyubdur. Ona görə də lazımdır insanın tərbiyəsinin və hidayətinin müqədimatını təmin etsin. Habelə vücuda gələ biləcək fəsadların qarşısı alınsın. Bir sözlə, insanın yarandığı hədəfə yetişməyindən ötəri lazım olan vasitələri onun ixityarında qoysun. Yox əgər yaradan bu vasitələri onun ixtiyarında qoymasa, o halda «nəqli qərəz» (öz məqsədinin əksinə çıxmaq) olardı. Belə iş də Allahdan baş verə bilməz. Çünki, o, hikmət sahibidir. Hikmət və lütf sahibi öz məxluquna hər zamanda lazım olan vasitələri onun ixtiyarında qoyur. Insana həyata hər şeydən vacib olan bir vasitə vardır, o da ibarətdir. Ilahi höccətdən. Çünki, insan həyatını heyvani həyatdan ayıran yeganə bir məsələ vardır, o da ilahi qanunlara əməl etməkdir, ilahi olan bir varlığa bağlı olmaqdır. Belə götürəndə hər bir mövcudun bu kainatda tutacağı maddi bir mövqe vardır. O bitkilərdə bir formada, heyvanlarda başqa bir formada, cansızlarda isə daha başqa bir formadadır. O cümlədən insan da bu məxluqatın bir qismindəndir. Necə ki, məntiq elmində insandan ad çəkəndə onu «natiq heyvan» adlandırırlar. «Heyvan»-yəni yaşayan, hərəkətdə olan. Deməli insanı o biri məxluqatdan ayıran, onun şüuru və əqlidir. Bu əqlin də ən yüksək forması insanda, ilahi itaətdən əmələ gəlir. Bu ilahiləşməni insanda vücuda gətirə biləcək bir

əql vardır. Şəkk yoxdur ki, təkcə əqlin olmağı insanı təhlükələrdən , günahlardan saxlaya bilmir. Başqa sözlə desək; insan elmi onu təkbaşına hədəfinə, ilahi itaət və əbədi səadətə çatdıra bilmir. Bu elm və əqildən başqa ona bir köməkçi lazımdır ki, o köməkçinin ilahi elm ilə rabitəsi olsun və çox yaxşı bir formada, heç nəyi artırıb azaltmadan insanı həmişəlik səadətə çatdırsın. Bu qanunla (Lütf qanunu) sübut olunur ki, hər bir zamanda, hətta yer üzündə iki nəfər insan olduğu halda da, onun biri gərəkdir peyğəmbər və ya imam olsun ki, insana lazım olan yolları göstərib, onun qarşısına çıxacaq fəsadların qarşısını alsın.

Deməli, necə ki, hədislərdə oxuyuruq, Allah taala insanı məqsədinə çatdırmaqdan ötəri ona lazım olan bütün vasitələri onun ixtiyarında qoymalıdır, ilahi höccət də o vasitələrin ən vacibidir.

Qur'anın ayələrinin bəzilərində də bu mətləbə işarə olunubdur. Məsələn: «Rəd» surəsinin 7-ci ayəsində buyurulur: «Ey peyğəmbər, həqiqətən sən öyüd və nəsihət edənsən və hər bir qövmin hidayət edəni vardır». «Hidayət edən»-yəni kamil bir insan olsun ki, hər bir zamanda insanlara düzgün yol göstərib onları günahdan uzaqlaşdırsın. Onu da qeyd edək ki, o şəxs gərəkdir ilahi bir yerə bağlı olsun, məsum olsun. Məsum ona görə olsun ki, özü təbliğ edən halda günaha mürtəkib olmasın. Ilahi bir yerə bağlı olsun ona görə ki, əvvəldə qeyd etdiyimiz kimi biz yaxşı və pisi bir-birindən ayırmaqda çətinlik çəkirik. Bəzən də bir sıra şeylər bizim nəzərimizdə yaxşıdır, amma əslində pis olur və əksinə. Necə ki, Allah-taala Qur'ani-Kərimdə

buyurur: «Sizin bir şeydən acığınız gəlir, amma o, sizin xeyrinizədir və ya bir şey sizin xoşunuza gəlir, amma o sizin ziyanızadır».

Bu ayə də sübut edir ki, biz xeyir və şərimizi bir-birindən yaxşı ayıra bilmirik. Əlbəttə buna real həyat məişətimizdə çoxlu canlı misallar vardır, amma mətləbi uzatmamaq üçün onları qeyd etmirik. Deməli bizim biliyimizin məhdud olmasına rəğmən bizim ilahi höccətə ehtiyacımız vardır. Bu haqda «imamın vücudunun fəlsəfəsi» bəhsində danışmışdıq.

Imam Baqir (ə) buyurur: «Hər bir zamanda bizdən birimiz imamət edirik və insanları peyğəmbər (s) gətirən dinə hidayət edirik».

Əli (ə) da «Nəhcül-bəlağə»də buyurur: «Hər bir zamanda Allahın yer üzündə bir höccəti olmalıdır ki, Allahın dəlilləri və bəyanları aradan getməsin».

Bu bəhsi də burada tamamlayaraq ümid edirik ki, bu yazıdan da oxucular istifadə edib düzgün nəticələrə nail olacaq və həqiqəti daha artıq dərk edəcəklər, inşallah.

Imam Məhdi (ə.)

O cürə ki, işarə olundu, yer üzündə həmişə gərək ilahi bir höccət olsun, hədislərin və ayələrin vasitəsi ilə sübut olundu ki, bu höccətlər peyğəmbər (s)-in əhli-beytindən olan 12 imamdan ibarətdir. Bildiyimiz kimi 12-ci imam neçə illərdir ki, qeybət dövrünü yaşayır və bu yolla ilahi təklifinə əməl edir.

Imam Zaman (ə.c)-ın qeybdə olduğu müsəlman aləminə məlumdur. Ilahi məsləhət belə oldu ki, o həzrət bu formada həyat sürsün. Nə vaxt Allah-təala məsləhət bilsə onda gəlib aşkar surətdə imamət edəcəkdir. Bu gün bütün bəşəriyyət aləmi bir adil insanın yer üzünü ədlatələ doldurması intizarındadır. Onu da qeyd etməliyik ki, bu adil insanın intizarını təkcə müsəlmanlar deyil, yer üzərində olan bütün insanlar, dinlərindən və əqidələrindən asılı olmayaraq, çəkirlər. Doğrudur, bu şəxsiyyətin gəlişini hərə bir formada düşünür, amma məqsəd birdir. Hamı onun gəlişini və yer üzündə ədaləti bərpa edib, güclü və gücsüz, zalım və məzlum dünyasına son qoyub, əsl insaniyyətə xas olan, bəşəri bir cəmiyyəti formalaşdırmasını gözləyir. Şair demişkən; «Bizim sözlərimiz müxtəlifdir, sənin camalın vahid, amma bütün bu müxtəlif oan ibarətlər sənin o vahid olan camalını vəsf edir».

Deyir: Bir nəfər yol gedirdi, gördü ki, üç nəfər oturub mübahisə edir. Bir qədər pulları vardır. Biri deyir mən «inəb» istəyirəm, o biri deyir mən «ənqur» istəyirəm, üçüncüsü isə deyir mən «üzüm» istəyirəm. Bir-birinin dillərini bilmədiklərindən, hər üçü də eyni şey istəməyindən xəbərsiz idilər. Təsadüfi yolla keçən bir nəfər onların hər üçünün dilini bilirdi. Odur ki, onlara dedi, pulunuzu verin mən sizin istədiyiniz şeyləri alıb gətirim. Pulu alıb bazara getdi və üzüm alıb gətirdi. O üç nəfər dedilər; elə biz bunu istəmişik, amma bir-birimizi başa düşməmişik. Həqiqətən belədir. Insan fitrətində ədalətə və adil adamlara qarşı məhəbbət yaradılıbdır. Bəzi günahlar, bəzi

tərbiyələr və mühit təsirləri onu bir qədər aludə etdiyinə görə insanlar həqiqətdən uzaq düşüblər. Amma yenə də qəlbin dərinliyində ondan əlamətlər qalıbdır. Yeri gələndə o fitrət baş qaldırır, bir az fərqli olsa, yenə də özünü biruzə verir.

Bəşəriyyətin bir xilaskarının olmasına bütün dinlərdə geniş yer verilibdir. Istər asimani din olsun, istərsə qeyri-asimani. Məsələn: Zərdüştlərin məşhur bir kitabında («Zənd») yazılır: Nəhayət ilahi qüvvə qalib gələcək və şeytanlar məhv olacaq, kainat aləmi səadətə çatacaq, bəni-Adəm xoşbəxtlik taxtında əyləşəcək».

Zərdüştün «Camasibnamə» kitabında belə nəql edilir: «Bir uca qamətli kişi zühur edəcək, öz babasının dinini təbliğ edəcək, böyük bir qoşunla yer üzünü ədalətlə dolduracaqdır».

Hinduların «Vəşənçun» adlı kitabında yazılır: «Nəhayət, dünya, Allahı sevən bir insanın əlinə keçəcək, o, Allahın xas bəndələrindəndir».

Yenə Hinduların başqa bir kitabında yazılıb: «Dünyanın sonunda adil bir padşah yer üzünün rəhbəri olacaq…»

Qədim dövrlərin kitablarından olan «Məzamir»-də (tövratın mülhəqatında) yazılıb: «Zalımlar məhv olacaq, Allaha arxalananlar yer üzünün varisi olacaqlar».

Eyni ilə belə mətləblər, bundan da aydın bir surətdə «Tövrat» və «Incil» kitablarında yazır: «Kəmərlərinizi bağlı saxlayın, hazır halda dayanın, dünyanı xilas edən gələndə ona kömək etməyə gecikməyəsiz».

Mətləbi çox uzatmamaq üçün, bundan əlavə yüzlərlə olan belə yazılar ki, tarixdən bizə çatıb, bu miqdarına kifayət edirik.

Indi görək Allahın sonuncu və kamil olan dini və bu dinin başçısı, bəşəriyyətin əşrəfi, seyyidül mürsəlin həzrəti peyğəmbər (s), bu barədə nə kimi göstərişləri veribdir.

Imam Məhdi (ə.s)Quranda

Qur'ani-Kərimin «Ənbiya» surəsinin 105, 106-cı ayələrində Allah-taala buyurur:

وَلَقَدْ كَتَبْنَا فِي الزَّبُورِ مِن بَعْدِ الذِّكْرِ أَنَّ الْأَرْضَ يَرِثُهَا عِبَادِيَ الصَّالِحُونَ - إِنَّ فِي هَذَا لَبَلَاغًا لِّقَوْمٍ عَابِدِينَ

«Biz Tövratda, ondan sonra Zəburda yazmışdıq; Həqiqətən saleh bəndələr yer üzünün varisləri olacaqlar bu sözdə ibadət əhli üçün aydın bir təbliğat vardır».

Gördüyümüz kimi bu məsələnin bünövrəsi bu günki deyildir. Allah-taala «Məhdəviyyət» məsələsini çox qədim zamanlardan insanların qulaqlarına çatdırmışdır.

Bu ayənin təfsirində mərhum Təbərisi «Məcməül bəyan» kitabında yazır: Imam Mühəmməd Baqir(ə) buyurdu: هُمْ اَصْحابُ المَهْدی فی اَخِرِ الزَّمانِ «O varislər ki, Qur'anın bu ayəsində ona işarə olunub, axirəzzamanda Məhdi (ə)-ın əshabələridir».

Quminin təfsirində belə yazılır: «Bu varislər Məhdi-qaim və onun səhabələridir».

Şeyx Mənsur öz kitabında yazır: (bu kitabda «Ələzhər» universitetinin alimlərinin də nəzərləri toplanıbdır): «Keçmiş və indiki zaman alimlərinin arasında

məşhurdur ki, axirəzzamanda Əhli-beyt (ə)-dan bir kişi zahir olacaq, bütün islam ölkələrinə hakimiyyət edəcək, müsəlmanlar ona inanacaq, o da ədaləti bərpa edəcək və dini qüvvətləndirəcəkdir». Sonra əlavə edir: «Məhdi (ə) barəsində olan hədisləri peyğəmbərin yaxşı səhabələrindən çoxlu alimlər öz kitablarında qeyd ediblər».

Qeyd etməyi lazım bilirik ki, Şeyx Mənsur öz sözündə o kişinin müsəlman ölkələrindəki hakimiyyətindən söhbət açıb. Amma ayənin və gətirdiyimiz hədislərin dediyinə görə bütün yer üzünün hakimiyyəti imam Zaman (ə)-ın əlində olacaqdır.

Məşhur Misirli alim Mühəmməd Şəblənği «Nurul Əbsar» kitabında yazır: «Peyğəmbər (s)-dən bizə təvatür hədislər çatıbdır ki, həqiqətən Məhdi (ə) onun əhli-beytindəndir və o, yer üzünü ədalətlə dolduracaqdır».

Məşhur sünni alimi Şukani, Məhdi (ə)-ın barəsində olan hədislərin səhih hədis olduğu haqda yazdığı kitabda belə söyləyir: «Dəccal xüruc edəcək, Məhdi (ə) qiyam edəcək və həzrəti Məsih (ə) da qayıdacaq».

Sonra həzrəti Məhdi (ə)-ın barəsində olan hədislərin səhehliyini sübut edir və deyir:

هذا یَکْفی لِمَنْ کانَ عِندَهُ ذَرَّةٌ مِنَ الأیمانِ وَ قَلیلٌ مِنْ اِنْصافٍ

«Deyilənlər, bir zərrə imanı və bir miqdar insafı olan adam üçün kifayətdir».

Əhli-sünnənin imamlarından olan Əhməd Hənbəl özünün «Müsnəd» kitabında Əbu Səid Xudrinin vasitəsi ilə peyğəmbər (s)-dən nəql edir ki; həzrəti peyğəmbər (s) buyurdu:

لا تَقُومُ الساعَةُ حَتّى تَملأ الأَرضَ ظُلْماً وَعُدْواناً، قالَ ثُمَّ يَخْرُجُ رَجُلٌ مِنْ عِتْرَتی اَوْ مِن اَهْلِ بَيْتی يَمْلَئَها قِسْطاً وَ عَدلاً كَما مُلِئَتْ ظَلْماً وَ جَوْراً

«Qiyamət bərpa olana qədər mənim Əhli-beytimdən bir nəfər zühur edəcək, zülm ilə dolmuş yer üzünü ədalətlə dolduracaq».

Termizi səhih sənədlə peyğəmbər (s)-dən nəql edir ki, həzrət buyurdu:

لَو لَمْ يَبْقَ مِنَ الدُنْيا إلاّ يَوْمٌ واحِدٌ لَطَوَّلَ اللهُ ذالكَ اليَوْمَ حَتى يَبعَثَ رَجُلاً مِنّی يُواطِئُ اِسْمُهُ اِسمي يَمْلَأُ الأَرْضَ قِسطاً

«Əgər dünyadan bir gün qala, Allah-taala o günü uzadacaq, sonra bir nəfər, mənim əhli-beytimdən ki, adı mənim adımla eynidir, (Imam Zamanın adı həzrət Peyğəmbər (s)-in adı ilə eynidir), qiyam edəcək və yer üzünü ədalələ dolduracaqdır».

Hakim Nişaburi «Müstədrək» kitabında bundan da geniş bir hədis qeyd edibdir. Bu hədisi Əbu Səid Xudri peyğəmbər (s)-dən belə nəql edir: «Mənim ümmətimə axirəzzamanda öz padşahlarından çox böyük bəla nazil olacaq, elə bir bəla ki, yer insanlara dar olacaq, yer üzü zülm ilə dolacaq, möminlər özlərinə pənah yeri tapmayacaqlar. Bu vaxt Allah-taala mənim əhli-beytimdən bir nəfəri qaim edəcək, yer üzünü ədalətlə dolduracaq, ondan yerin və göyün sakinləri razı olacaq, yer öz xəzinəsini aşkar edəcək, göy öz yağışı ilə yeri bərəkətləndirəcək».

Qur'ani-Kərimin «Nur» surəsinin 55-ci ayəsində Allah-taala buyurub:

وَعَدَ اللَّهُ الَّذِينَ آمَنُوا مِنكُمْ وَعَمِلُوا الصَّالِحَاتِ لَيَسْتَخْلِفَنَّهُم فِي الْأَرْضِ كَمَا اسْتَخْلَفَ الَّذِينَ مِن قَبْلِهِمْ وَلَيُمَكِّنَنَّ لَهُمْ دِينَهُمُ الَّذِي ارْتَضَى لَهُمْ وَلَيُبَدِّلَنَّهُم مِّن بَعْدِ خَوْفِهِمْ أَمْنًا يَعْبُدُونَنِي لَا يُشْرِكُونَ بِي شَيْئًا وَمَن كَفَرَ بَعْدَ ذَلِكَ فَأُوْلَئِكَ هُمُ الْفَاسِقُونَ

«Allah-taala iman gətirib, saleh əməl edənlərə vədə veribdir onları yer üzünün xəlifəsi etsin, necə ki, onlardan qabaqkılara bu xilafəti bağışlamışdı. Bu xilafətin vasitəsi ilə, Allah, bəyəndiyi dini yer üzündə bərpa edər, onların qorxuları əmniyyətə çevrilər, təkcə Allaha itaət edərlər, ona heç nəyi şərik qərar verməzlər. Bundan sonra kafir olanlar fasiqdirlər».

«Ruhul məani» təfsirində imam Əli ibni Hüseyndən (ə) nəql edir ki, bu ayənin təfsirində buyurmuşdur: «Onlar bizim dostlarımızdır, Allah-taala bu işi bizdən olan bir kişinin əli ilə vücuda gətirəcək. O kişi bu ümmətin Məhdisidir. O, bir şəxsdir ki, həzrəti peyğəmbər (s) onun haqqında buyrumuşdur: «Əgər dünyadan bir gün qala, Allah-taala o günü uzadacaq, mənim itrətimdən olan bir kişi ki, adı mənim adım ilə eynidir, yer üzünün hakimi olacaq, yer üzünü ədalətlə dolduracaq, necə ki, zülm ilə dolmuşdu».

«Tövbə» surəsinin 33-cü ayəisndə də Allah-taala islam dinini bütün dinlərə üstün edəcəyini buyurmuşdur: هُوَ الَّذِي أَرْسَلَ رَسُولَهُ بِالْهُدَى وَدِينِ الْحَقِّ لِيُظْهِرَهُ عَلَى الدِّينِ كُلِّهِ وَلَوْ كَرِهَ الْمُشْرِكُونَ

«Allah bir şəxsdir ki, öz elçisini göndərib hidayət və həqq olan dini bütün dinlərə qalib etsin, hərçənd ki, müşriklərin bundan acığı gələcəkdir».

Bu qələbənin bir mərhələsi peyğəmbərin vaxtında, bir mərhələsi ondan sonra, axırıncı mərhələsi imam Məhdi (ə)-ın vaxtında kamil surətdə baş verəcəkdir. Çünki, ayə deyir; islam bütün dinlərə, yəni yer üzündə olan bütün dinlərə qalib

edəcəyik. Bu barədə həzrəti peyğəmbər (s)-dən hədis var. Həzrət buyurur: «Yer üzündə bir ev də olsun qalmayacaq, məgər onların hamısına islam daxil olacaq».

Imam Sadiq (ə) buyurur:

وَاللهِ ما نَزَلَ تَأَويلُها بَعْدُ وَ لا يَنْزِلُ تَأَويلُها، حَتّى يَخْرُجُ القائِمُ فَإذا خَرَجَ القائِمُ لَمْ يَبْقَ كافِرٌ بِاللهِ العَظيمِ

«And olsun Allaha, bu ayənin məzmunu hələ də kamil surətdə vücuda gəlməyib, onun vücuda gəlməyi həzrəti Məhdinin qiyamından sonra olacaqdır ki, yer üzündə bir nəfər də kafir qalmayacaq».

Imam Məhdi (ə.s) hədislərdə

Bunlardan əlavə, o, həzrətin zühuru barədə yüzlərlə hədislərimiz vardır. Onu da deməliyik ki, məhdəviyyət məsələsi çox xarüqüladə bir işdir. Demək olar ki, ilahi bir möcüzədür. Ona görə də insanlardan bəziləri bunu beyinlərində həzm edə bilmirlər. Necə ola bilər, min illərlə belə bir yaşayış ki, hamı ölüb gedir, amma o, hələ yaşayır?

Bəli, bu məsələlərə insan gərək qəlbin iman gözü ilə baxsın, insan Allahın qüdrətini tanısın, görsün ki, 100 illik ömründə saysız-hesabsız qədərdə başını və üzünü qırxıdırır, amma qaşı elə 5 yaşında necə idisə 100 yaşında da elədir. Bu, Allahın qüdrəti və hikmətidir. Allah-taala insanı vücuda gətirəndə onu yer üzünün ən əşrəfi və ağası kimi yaradıbdır. Bu insan isə elə əvvəllərdən ilahi yolu azdı. Allah-taala isə hələ də bu insanları öyüd və nəsihət yolu ilə təbliğ edir. Amma bu axıra qədər davam edə bilməz. Gördüyümüz kimi insanlar getdikcə islah olmaq əvəzinə bir

az da yollarını azırlar. Allah-taala da axır məqamda öz məqsədini yer üzündən bərpa etmək üçün öz dostlarından birini göndərib bu ədalətsizliyə son qoyacaqdır. Biz də gərək özümüzü ilahi olan bu məqsədin həyata keçməsi üçün hazır edək və həzrəti Məhdinin (ə) zühurununun intizarında olaq. Yeri gəlmişkən, o, həzrətin intizarını çəkmək özü də ibadətdir. Bir nəfər imam Sadiq (ə)-dan soruşdu: bir nəfər həzrəti Məhdinin intizarında olsa və bu halda dünyadan getsə, onun bu işi nə dərəcədə xoşa gələndir?

Imam Sadiq (ə) cavabında buyurdu: O adam, həzrəti Məhdi (ə)-la qiyam edən kimidir, o, peyğəmbər (s) müharibələrində cihad edənlər kimidir, o, peyğəmbər (s)-lə şəhid olanlar kimidir.

Həzrət peyğəmbər (s) buyurub: اَفضَلُ العِبادَةِ اِنْتِظارُ الفَرَجِ mənim ümmətimin ən fəzilətli əməli, Məhdi (ə)-ın zühurunu gözləməkdir.

Bəli, yəqindir ki, o həzrət gələcək və yer üzünü ədalətlə dolduracaq, yer üzündə kasıb insan olmayacaq, hər tərəfi əmniyyət əhatə edəcək, hər yeri Qur'an səsi əhatə edəcək, insanlar Allah zikri ilə məşğul olacaq, hər bir damdan azan səsi yüksələcək, zalimlərin kefi əzaya çevriləcək, şeytanlar dünyanın üzərindən əl götürəcəklər.

Ilahi! Bizə də o həzrətin zühurunu görməyi qismət et!

Yuxarıda qeyd etdik ki, Imam Zamanın intizarında olmaq ibadətdir. Bu sözümüzə dəlil, həzrəti peyğəmbərdən (s) olan hədislərdir. Bir hədisdə peyğəmbər (s) buyurur: اَفْضَلُ اَعْمالِ اُمَّتی اِنْتِظارُ الفَرَجِ مِنَ اللهِ عَزَّ وَجَلَّ

«Mənim ümmətimin ən fəzilətli əməlləri imamın zühurunu gözləməkdir».

Başqa bir hədisdə o həzrət buyurur: اَفضَلُ العِبادَةِ اِنْتِظارُ الفَرَجِ

«Ibadətlərin əfzəli fərəc intizarında olmaqdır».

Indi də gəlin bir qədər imamın zühurunun intizarında olmağın təsirlərindən bəhs edək.

Bəziləri elə fikirləşirlər ki, guya imam-Zamanın zühurunun intizarında olmaq insanı ruhsuz halına salıb onu inkişafdan saxlaya bilər. Insanı məsuliyyətsizliyə və zülm qarşısında baş əyməyə, fəsadın qarşısını almamağa yönəldə bilər. O mənada ki, insan bu ayə və hədislərdən belə nəticəyə gələ bilər ki, imam gələndə fəsad yer üzünü əhatə etməlidir və bu zülm və fəsadı ancaq imam aradan apara bilər. Nəticədə də insan bu ümid və məyusluqla öz vəzifəsindən əl çəkib zülmün və fəsadın genişlənməsində iştirak etmiş olar. Amma biz deyirik ki, bu səthi bir hakimlikdir. Əvvəla bu məsələnin mənfi təsiri olmasaydı Qur'an və Sünnə bu məsələyə o qədər ciddi təkid etməzdi. Həzrəti peyğəmbər (s) «intizarı» ən böyük ibadət hesab etməzdi. Bundan əlavə, yuxarıda imam Sadiq (ə)-dan nəql etdiyimiz hədisdə görürük ki, intizar çəkənlər üçün nə qədər dərəcə vardır.

Məsələni bir qədər də aydınlaşdırmaq üçün gərək «intizar» kəlməsinin məfhumuna diqqət edək.

Intizarın məfhumu

Adətən intizar o adamın vəziyyətinə deyilir ki, düşdüyü halətdən narahatdır və bu vəziyyətdən çıxmağa çalışır. Məsələn: xəstə öz vəziyyətindən narahatdır və xəstəliyinin sağalmasının intizarındadır. Ata səfərdə olan övladına görə narahatdır, onun gəlişinin intizarındadır. Bu saydıqlarımız hallar iki hissədən ibarətdir: 1-ci mövcud olan vəziyyətdən narazılıq, 2-ci mövcud olan pis vəziyyəti yaxşısı ilə əvəz etməyə çalışmaq. Deməli «Məhdinin» qiyam edib həqq və ədalətli hökumət qurmağının intizarında olmaq iki ünsürdən təşkil olunubdur: «mənfi ünsür» və «müsbət ünsür». «Mənfi ünsür» bu vəziyyətə qarşı nifrət, «müsbət ünsür» isə bu vəziyyətin yaxşılaşmasını istəməkdir. Yəni həzrətin gəlib bu fəsada son qoyması.

Əgər bu iki ünsür insan ruhiyyəsinə daxil olsa, iki dənə köklü əməlin əsasını onda vücuda gətirər. Biri fəsad və zülm amilləri ilə həmkarlığı tərk etmək və onlara qarşı mübarizə aparmaq. Ikincisi isə özünün ruhi, cismi, mənəvi və maddi cəhətdən bu qiyama hazır etmək.

Insani-vəzifə, ümumi şəkildə götürəndə, həqiqətən bu iki cəhətin daxilində yerləşir. Insan iki xətt üzərində hərəkət edir, mənfi və müsbət xətlər. Insan əməli fel və tərkdən ibarətdir. O, həyat yollarında hərəkət etdikcə bir xətti çəkir, ikinci bir xətti isə pozur. Çəkəcəyi xətt, ona, əmələ gətirməyə əmr olunan əməllər, pozacağı xətt isə ona tərk etməyə əmr olunan vəzifələridir. Məsələn: insan oruc tutarkən aclığı vücuda gətirir, yeməyi isə tərk edir. Başqa ibadətlər də bunun kimi. Ümumi şəkildə götürəndə

insan öz vücudunu iman ilə doldurur, küfrdən boşaldır. «Intizar» da bir ibadət olaraq belədir. Insan, yuxarıda dediyimiz kimi, imamın gəlişinə şərait yaradan bütün işləri əmələ gətirir, onun gəlişini gecikdirən işlərdən və onun gəlib mübarizə aparacağı işləri tərk edir və onlara qarşı mübarizə aparır.

Insanın öhdəsində ictimai və fərdi məsələlər vardır. Imamın intizarını çəkəndə də insan həm ictimai, həm də fərdi məsələlərlə üzləşir. Əgər bir şəxs həqiqətən imamın zühurunu gözləyirsə və onun gəlişilə özünü hazırlayırsa, onda gərək həm ictimai, həm də fərdi vəzifələrini düzgün surətdə yerinə yetirsin.

Onu da bilirik ki, fərdi məsələ həll olunduqdan sonra ictimai məsələ başlanır. Əgər bir nəfər namaz qılmasa, başqasını namaza dəvət etməyi əbəs olar. Hətta fərdi məsələni həll etsə də gərək ictimai məsələni də həll etsin.

Mömin bir tacir dükanında yazmışdı: «Nisəyə mal verilmir». Özü də imamın intizarında idi. Hər gün onun gəlişinə dua edirdi. Bir gün imam onun dükanının qarşısına gələrək buyurdu: «Mənim gəlişimi istəyirsən, bu sözü də yazmısan dükanına. Bura gələn bizim dostlarımız bu yazını görərək məyus halda geri qayıdırlar». Bunu deyərək, imam, çıxıb getdi.

Bu hadisə göstərir ki, özünün fərdi məsələlərini yerinə yetirməklə, eyni zamanda gərək ictimai vəzifələrə də əhəmiyyət verəsən. Əgər insan fərdi və ictimai vəzifələrinə əməl etsə, onda üzləşəcəyi hər hansı bir işə hazır olur, özünü mənəvi cəhətdən təmizləyərək mühitin fəsadının və nəfsin quluna çevrilir. Nəhayət başqalarına da bu

dediyimiz vəzifələri əmələ gətirməkdə köməkçi olur, yəni ictimai təklifini də yerinə yetirir.

Indi görək yuxarıda dediklərimizdən hansı nəticəyə gəlmək olur?

Yuxarıda dediklərimizdən bu nəticələri əldə edə bilərik:

1.Imam Zamanın intizarını çəkmək ibadətdir.

2.Ibadət ictimai və fərdi əməllərdən təşkil olunubdur.

3.Bu əməllər-özünü düzəltmək, ətrafdakı və daxili fəsadlara qarşı mübarizə aparmaq, bu yolda daim qarşıya çıxa biləcək bir işə hazır olmaqdır.

4. Deməli, imamın intizarında olmaq bəzi fiikrli adamların dediyi kimi, insanı məsuliyyətdən uzaqlaşdırıb, rükud halına salıb, inkişafdan saxlayıb, zülm və fəsada qarşı biganə etmir, əksinə insanı kamilləşdirərək ona yüksək məqamlar bəxş edir.

Allah-taala ilahi vəzifələri düzgün dərk etməkdə bizə kömək olsun.

Istifadə olunan ədəbiyyatlar

1.Mənşuri Cavid /Cəfəri Subhani/

2.Təfsiri Əlmizan /Əllamə Təbatəbai/.

3.Əlqədir /Əllamə Əmini/

4.Əli(ə)-ın həyatı /Seyid Haşim Rəsuli Məhəllati/.

5.Imam Əlinin rəhbərliyi /Seyyid Şərəfüddin Musəvi.

6.Nəhcul bəlağə.

7.Təfsiri Safi /Feyzi Kaşani/.

8.Biharül Ənvar /Əllamə Məclisi/.

9.Ehticac Təbərsi /Əllamə Əbi Mənsur Əhməd ibni Əlibni Əbitalib Təbərsi/.

10.Əmali /Şeyx Müfid/.

11.Təfsiri Rəşşadə /Ziməxşəri/.

12.Təfsiri nümunə /Ayətullah Məkarim Şirazi/.

13.Peyam Quran /Elmi yazılar qrupu/

14.Imamət və rəhbərlik /Mütəhhəri/.

15.Ehqaqul-həqq /Ibni Məğazəli Şafei/

16.Şərhi təcrid /Quşçu/.

17.Müqəddimə /Ibni Xəldun/.

18.Əvaülül Məqalat /Şeyx Müfid/.

19.Dəlailül Sidq.

20.Üsuli Kafi /Küleyni/.

21.Dürrül Mənsur /Suyuti/.

22.Şəvahid əttənzil /Hakim Həskani/.

23.Səvaiq /Ibni Həcr/.

24.Nurul Əbsar /Muhəmməd Şəblənci/.

25.Ruhul Məani /Alusi/.

26.Əmali /Şeyx Müfid/.

27.Mənaqib /Ibni Məcazəli/.

28.Təfsiri Əlmizan /Əllamə Təbatəbai/.

29.Təfsiri Kəbir /Fəxri Razi/.

30.Şərhi Təcrid /Əllamə Hilli/.

31.Nəhcül bəlağə /Feyzül islam/.

32.Həbibüsseyr /Mirqiyasüddin/.

33.Təfsiri Nurussəqəleyn /Hüvəyzi/.

34.Təfsiri Əlmənar /Rəşid Rza/.

35.Səhehi Müslim.

36.Yənabeül Məvəddə /Şeyx Süleyman Qunduzi Hənəfi/.

37.Təfsiri Mücahid.

38.Səhehi Termizi.

39.Sunəni Darai

40.Müsnəd Imam Əhməd.

41.Xəsayis Nəsayi.

42.Fəzailül Xəmsə.

43.Müstədrəki Səheheyn /Haşim Nişaburi/.

44.Səvaiq Əlmuhriqə /Ibni Həcr Heysəmi/.

45.Üsdül Qabə fimərifəti əssəhabə /Ibni Əsir (Mühəmmədin Muhəmməd Ibni Əbdül Kəyşən).

46.Əhyaül Meyyit /Cəlalüdün Suyuti/.

47.Əlkunu və Əlqab /Beyhəqi/ (Əbubəkr ibni Əhməd ibni Hüseyn)

48.Möcəmül Kəbir /Hafiz Təbərani/.

49.Sunəni Beyhəqi.

50.Minhacüssünə /Ibni Teymiyyə/ (Əhməd ibni Əbdülhəlim Hənbəli)

51.Mənaqib /Xətib Xarəzmi/.

52.Təbəqatu Əşşafsiyyə /Tacüddin Səbni/.

53.Təlxisül Müstədrək /Zəhəbi Şafei/.

54.Sireyi Hələbi /Əli ibni Burhan Hələbi Şafei/.

55.Müqtəbis /Ibni Həyyan Maliki/.

56.Təfsiri Xazin /Əlaüddin Əlibni Mühəmməd Bağdaul/.

57.Şərhi Nəhcülbəlağə /Ibni Əbil Hədid Mötəzili/.

58.Sireyi Nəbəviyyə /Zeynirahman Şafsi/.

59.Əqabatül Ənvar /Mirhamid Hüseyn Hindi/.

60.Təfsiri Əli ibni Ibrahim.

61.Zəxirətül məal.

62.Nəyə görə Əhli Beyt məzhəbinin seçdim-

/Şeyx Mühəmməd Əmin Əntani/.

63.Məşariqul Ənvar /Əllamə Əntani/.

64.Cameül Səcir /Suyuti/

65.Zəxairül Üqba /Mühibbuddin Təbəri/.

66.Cameül üsül.

67.Səhehi Buxari

68.Səhehi Əbi Davud.

69.Müntəxəbül Əsər.

70.Müsnəd Əhməd Hənbəl.

71.Ləəkunə Məəssadiqin.

72.Kəşfül Murad /Əllamə Hilli/

73.Hilyətül Əvliya /Hafiz Əbunəim Isfəhani/.

74.Bəharül Ənvar /Əllamə Məclisi/.

75.Məcməül Bəyan /Təbərisi/.

76.Kənzul Rəqaiq /Əyaini/

77.Bəsair Əddərəcat (Bəharül Ənvarin qeydinə əsasən)

78.Təfsiri Qirbəti.

79.Cameül Əhadis.

80.Səfinətül Bəhar.

81.Kəşfül Qümmə.

82.Feyzül Qədir.

83.Əlğədir /Əllamə Əmini/.

84.Təfsiri Əsbabunnuzul /Vahidi/.

85.Təfsiri Kəşşaf /Ziməxşəri/.

86.Kifayətüttalib /Kənci Şaesi/.

87.Bəhrül Mühit /Əbuhəyyan Əndəlusi Məğribi/.

88.Dürərüssəmteyn /Zərəndi/.

89.Dürrülmənsur /Suyuti/.

90.Mənaqib /Əbdüllah Şaesi/.

91.Sunənül Kubra /Beyhəş/.

92.Əhkamül Quran /Əllamə Əbubəkr Həssas/.

93.Mərifətu ulumil Hədis /Əllamə Əbubəkr Həssas/.

94.Nurul Əbsar /Şəblənci/.

95.Tarixi Təbəri.

96.Ümdəti uyuni sihahil Əxbar /Ibni Bətriq/.

97.Mətalibəssual /Muhəmməd ibni Təlhə Şafei/.

98.Ətqan /Suyuti/.

107.Ruhul Bəyan /Bursui Hənəfi/.

108.Təfsiri Əbul Bərakat.

109.Fusulul Mühümmə /Ibni Sibağ Maliki/.

110.Əlkəşfü və Əlbəyan /Nişaburi/.

111.Kamil /Ibni Əsir/.

112.Tarixi Rəməşq /Ibni Əsair/.

113.Tozehüddəlail /Şəqabuddin Hüseyni Şafei/.

114.Cövhərə /Muhəmməd ibni Əbibəkr/.

115.Təhzibul Kəmal /Cəmalüddin Əbul Həccac/.

116.Kitabi ali Mühəmməd /Hisamüddin Hənəfi/.

117.Tarixi Hələb /Ibni Ədim Hələbi/.

118.Sünəni Nəsayi.

119.Mənaqib /Əhməd ibni Mərdəviyyə/.

120.Sireyi ibni Hişam.

121. Əqdül fərid /Ibni Əbdirəbih/.

123.Təfsiri Qirtəbi.

124.Əsafurrağibin /Ibni Səban/ (bu kitab nurul əbsar kitabının haşiyəsində çap olunubdur).

125.Istiab /Ibni Əbdül Bərr/.

126.Riyazunnəzrə /Muhibbuddin Təbəri/.

127.Təznirətül Xəvas /Səbtibni Cuzi/.

128.Ümdə /Ibni Bətriq/.

129.Xəsais /Əllamə Nəfayi/.

130.Əlbidayə və Nihayə /Ibni Kəsir Dəməşqi/.

131.Kəşfül Qümmə /Izzüddin Hənbəli/.

132.Kifayətül Xisam /Əbi Nəim Isfəhani.

133.Kitabda və sünnədə Əli(ə)

134.Sünəni Beyhəqi.

135.Sünən Beyhi /Əbu Əbdüllah Şafei/.

136.Əlfiqhü ələl Məzahibilərbəə.

137.Əlşiraf Əla fəzlil əşraf-Səmhudi.

138.Ərcəhül mətalib /Şeyx Əbdüllah Hənəfi/.

139.Əttacül came Lilusun /Şeyx Mənsur Əli Nasif/.

140.Məhasin Vərqi /Bəharül/

Mündəricat

Müqəddimə .....

Imamət nədir?.....

«Imamət» bəhsi nə vaxtdan başlanıb? .....

«Qur'anda və lüğətdə «imam» kəlməsi» .....

Qur'anda imamət məqamının əzəməti.....

Imamətin vücudunun fəlsəfəsi .....

Qur’anda imamət .....

«Imama məxsus olan şəraitlər və xüsusiyyətlər» .....

«Imamın elmi» .....

«Imamların elm mənbələri» .....

Imamların məsumluğu .....

Imamı kim təyin etməlidir .....

Əhli-beyt kimlərdir? .....

«Bir neçə suala cavab» .....

«Imamların xüsusiyyətləri» .....

«Imamların və peyğəmbərlərin təkvini vilayəti» .....

«Təkvini-vilayət» islam hədislərində .....

«Şəfaət» .....

Quran və şəfaət məsələsi .....

1.Şəfaətin həqiq məfhumu .....

2.Təkvin aləmində şəfaət .....

3.Şəfaətin sənədləri .....

«Islam hədisləri və Şəfaət» .....

6.Şəfaətin mənəvi təsiri .....

7. Şəfaətin fəlsəfəsi .....

8. Şəfaətin yaradıcı şərtləri .....

9.Iradların cavabı və təhlili .....

10. Şəfaət və tohid.....

Şəfaət barəsində vəhhabilərin məntiqinin təhqiqi .....

Imamət barəsində olan ayələr .....

Vilayət ayəsi .....

Təbliğ ayəsi .....

Təbliğ ayəsi barəsində təhqiq və təhlil.....

Qədir hədisi barədə bir qədər izahat.....

Ulul-Əmr ayəsi.....

Qurba (قربی) ayəsi .....

Sadiqin ayəsi .....

Əli(ə)-ın və başqa imamların .....

fəzilətinə dəlalət edən ayələr .....

Mübahilə ayəsi.....

Leylətül Məbit .....

Xəyrül Bəriyyə .....

Inzar Ayəsi.....

Sidduqun ayəsi .....

Nur ayəsi .....

Bəyyinə və şahid ayələri.....

Siqayətül Həcc.....

Vəzirlik ayəsi.....

Hikmət ayəsi.....

Əli (ə) fədəkarlığı .....

Saleh mömin ayəsi .....

Həl əta ayəsi.....

Iza (əziyyət) ayəsi.....

Mərəcəl-Bəhreyn ayəsi.....

«Nəcva» ayəsi.....

Sabiqun ayəsi.....

Məvəddət ayəsi .....

Münafiqin ayəsi.....

Siratəl müstəqim ayəsi .....

Həzrəti Adəmin (ə) tövbəsinin qəbul olması .....

Həsənə ayəsi.....

Məhəbbət ayəsi .....

Məsulun ayəsi.....

Infaq ayəsi .....

Eşidən qulaqlar.....

Nur və Büyut ayəsi .....

Bəraət ayəsi.....

Imamət və vilayət sünnədə.....

2.«Səqəleyin hədisi». .....

«Nuhun gəmisi» hədisi .....

«Səfinə» hədisindən istifadə olunan məqamlar .....

Nücum (ulduz) hədisi.....

«Nücum» hədisindən istifadə olunan məqamlar .....

Peyğəmbər (s)-in əhli-beytindən olan imamların adları

12 Imam hədisi .....

On iki imam hədisindən istifadə olunan məqamlar .....

Ilahi höccətin olmağına məntiqi və Quran sübutları ....

Imam Məhdi (ə.) .....

Imam Məhdi (ə.s) Quranda.....

Imam Məhdi (ə.s) hədislərdə .....

Intizarın məfhumu.....

Istifadə olunan ədəbiyyatlar.....

Rüstəmov Əhliman Fidatxan oğlu 1967-ci il mart ayının 8-də Cəlilabad rayonu Qarğılı kəndində anadan olmuşdur. Elə həmin kəndin orta məktəbində ibtidai sinfilərinin, sonra Masallı rayon Sığıncaq kənd orta məktəbində oxumuşdur. Dini təhsilini və ilahiyyat elimlərini Azərbaycanın görkəmli, imanlı ruhani alimi mərhum molla Bəylərdən əxz etmişdir. Ustadının yolunu davam etdirərək yiyələndiyi dini və ilahiyyat elmlərini tədris etməklə üzərinə düşən elmin zəkatını əda etmişdir. Uzun müddət Nardaran qəsəbəsində Sahibəz-Zaman (ə.c.) mədrəsəsində sərf, nəhf, əhkam, islam tarixi, əqidə əsasları, fiqh, üsul, məntiq və s. iIahiyyat elmlərini tədris etmişdir. Bakı İslam Universitetinin məzunu və müəllimi olmuşdur. Bir neçə kitab müəllifidir.
Hal hazırda Hacı Cavad məscidinin imam cüməsidir.